**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Əməkdar elm xadimi Əbdül Əlizadənin 90 illik yubileyinə həsr olunmuş “Psixologiyanın aktual problemləri” Respublika elmi konfransının

# MATERİALLARI

**Bakı, 27 oktyabr 2022**

***Elmi redaktor*** **professor Asəf Zamanov**
fizika-riyaziyyat elmləri doktoru

***Buraxılışa məsul*** **Nigar Aslanova**
filologiya üzrə fəlsəfə doktoru

Əməkdar elm xadimi, professor Əbdül Əlizadənin 90 illik yubileyinə həsr olunmuş "Psixologiyanın aktual problemləri" Respublika elmi konfransının materialları. Bakı: ADPU Nəşriyyatı, 2022, 151 səh.

*Konfrans materiallarında respublikanın ali təhsil müəssisələrindən 90-a yaxın mütəxəssisin Əməkdar elm xadimi, professor Əbdül Əlizadənin zəngin yaradıcılıq yolunu özündə ehtiva edən, həmçinin digər məruzə tezisləri öz əksini tapmışdır. Toplu 3 bölməni əhatə edir: Əbdül Əlizadə yaradıcılığında psixopedaqoji məsələlər; Psixologiyada gender problemləri; Şəxsiyyət və etnopsixologiyanın aktual problemləri. Təqdim olunan tezislər aktuallığı, elmi yeniliyi, dolğunluğu ilə diqqəti cəlb edir.*

***© ADPU nəşriyyatı – 2022***

Əməkdar elm xadimi, professor Əbdül Əlizadənin 90 illik yubileyinə həsr olunmuş

**“Psixologiyanın aktual problemləri”**

Respublika elmi konfransının

## Təşkilat Komitəsi

**Sədr:**

**Prof. Cəfər Cəfərov** - ADPU-nun rektoru

***Sədr müavini:***

**Prof. Asəf Zamanov** - ADPU-nun Elm və innovasiyalar üzrə prorektoru

***Məsul katib:***

**F.ü.f.d. Nigar Aslanova** - ADPU-nun Elmi-təşkilati şöbəsinin baş mütəxəssisi

**Prof. Fərrux Rüstəmov** - ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı

**Prof. Ramiz Əliyev** - ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri

**Prof. Müseyib İlyasov** - ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri

**Prof. İramin İsayev** - ADPU-nun Ümumi pedaqogika kafedrasının müdiri

**Prof. İbrahim Bayramov** - ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri

**Dos. Nailə Hüseynova** - ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı

**Hikmət Əlizadə** - BDU-nun Pedaqogika kafedrasının professoru

Əməkdar elm xadimi, professor Əbdül Əlizadənin 90 illik yubileyinə həsr olunmuş
"Psixologiyanın aktual problemləri" Respublika elmi konfransının

# Plenar iclası

Azərbaycan Dövlət Pedaqoji Universitetində 27 oktyabr 2022-ci il tarixdə "Şöhrət" ordenli, Əməkdar elm xadimi, psixologiya elmləri doktoru, professor Əbdül Əlizadənin 90 illik yubileyinə həsr olunmuş "Psixologiyanın aktual problemləri" mövzusunda Respublika elmi konfransı keçirilmişdir. Konfransda ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri, ictimai xadimlər, tanınmış psixoloqlar və pedaqoqlar iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə professor Əbdül Əlizadənin elmi əsərlərindən ibarət sərgi ilə tanış olmuşlar.

Plenar iclası giriş sözü ilə açan universitetin rektoru, konfransın Təşkilat Komitəsinin sədri professor Cəfər Cəfərov görkəmli alim Əbdül Əlizadənin Azərbaycan psixologiya elmində yeni məktəb yaradan böyük şəxsiyyət olduğunu diqqətə çatdırmış, onun elmi irsinin öyrənilməsində bu konfransın əhəmiyyətini vurğulamışdır.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, konfransın Təşkilat Komitəsinin sədr müavini professor Asəf Zamanov ADPU-da görkəmli alimlərinin elmi irsinin öyrənilməsi və yaşadılması məqsədilə silsilə tədbirlərin icra olunduğunu, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında və psixologiya elm sahəsində professor Əbdül Əlizadənin uğurlarını bəhs etmiş, onun nailiyyətlərinin ölkə rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirildiyini vurğulamışdır. Əbdül Əlizadənin uzun illər ərzində ADPU-da rəhbərlik etdiyi Ümumi psixologiya kafedrasında alimə həsr edilmiş xüsusi guşənin açılmasını konfrans iştirakçılarının diqqətinə çatdırmışdır. Konfransda üç bölmə üzrə psixologiya elminin müasir problemlərinə dair müxtəlif ali təhsil və elmi-tədqiqat müəssisələrindən daxil olan 100-ə qədər məruzənin dinləniləcəyini qeyd etmişdir.

Bakı Mühəndislik Universitetinin rektoru professor Havar Məmmədov, ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı professor Fərrux Rüstəmov, Məktəbəqədər təhsil fakültəsinin dekanı dosent Nailə Hüseynova, BDU-nun Pedaqogika kafedrasının professoru Hikmət Əlizadə, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru professor Nazim Kazımov, ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kollecinin direktoru dosent Faiq Şahbazlı, Təhsil İnstitutunun direktor müavini Aydın Əhmədov, professor Şahlar Əsgərov və dosent Hökümə Əliyeva Azərbaycan psixologiya elminin inkişafında professor Əbdül Əlizadənin müstəsna rolundan söz açmışlar. Çıxışlarda böyük alimin ilk milli taksonomiyaları yaratdığı vurğulanmış, eyni zamanda onun nəcib insani dəyərlərə malik böyük şəxsiyyət olduğu bildirilmişdir.

Konfransda professor Əbdül Əlizadənin seçilmiş əsərlərindən ibarət çoxçildliyin ilk cildi təqdim olundu.

ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri professor Ramiz Əliyev "Professor Əbdül Əlizadə" mövzusunda məruzə ilə çıxış emişdir.

Konfrans "Əbdül Əlizadə yaradıcılığında psixopedaqoji məsələlər", "Psixologiyada gender problemləri" və "Şəxsiyyət və etnopsixologiyanın aktual problemləri" bölmələrində işini davam etdirmişdir.

# ƏBDÜL ƏLİZADƏ YARADICILIĞINDA PSİXOPEDAQOJİ MƏSƏLƏLƏR

**Abbasov Akif Nurağa oğlu**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
*prof.akif@mail.ru*

## PROFESSOR ƏBDÜL ƏLİZADƏ ŞAGİRDLƏRİN AİLƏ HƏYATINA HAZIRLANMASI BARƏDƏ

***Açar sözlər:*** *ailə, ailə həyatı, müstəqil ailə həyatı, müstəqil ailə həyatına hazırlanmaq, ailə həyatının etika və psixologiyası*

Təhsil müəssisələrinin qarşısında duran mühüm vəzifələrindən biri gənc nəslin müstəqil ailə həyatına və gələcək övladlarının təlim-tərbiyə işlərinə hazırlamaqdan ibarətdir. Lakin bu sahədə işə birdən-birə ümumtəhsil və ali məktəblərdə, kolleclərdə başlanmır. Təbii ki, ailədə uşaqlarla, oğlanlarla və qızlarla aparılmış işlər təhsil müəssisələrində davam etdirilir. Bu, bir həqiqətdir ki, ailədə qız tərbiyəsinin öz xüsusiyyətləri var, oğlan tərbiyəsinin öz xüsusiyyətləri.

Hər bir fəaliyyətdə olduğu kimi, təhsilalanların müstəqil ailə həyatına və gələcək övladlarının təlim-tərbiyəsi işlərinə hazırlanması da məqsədəuyğun, sistemli və fasiləsiz xarakter daşımalıdır. Bu fəaliyyət bir sıra istiqamətləri özündə birləşdirir: mənəvi hazırlıq, pedaqoji hazırlıq, psixoloji hazırlıq, tibbi hazırlıq, təsərrüfat-iqtisadi hazırlıq, fizioloji-gigiyenik hazırlıq və s.

O zamanlar “Psixologiya” və “Sosial psixologiyanın aktual məsələləri” (hər ikisi prof. Ə.S.Bayramovla), “Yeniyetmələrin cinsi tərbiyəsi”, “İlk addımlar” (dərslik) kitab və dərsliklərin müəllifi olan professor Əbdül Əlizadə ötən əsrin səksəninci illərində ailə həyatının etika və psixologiyası problemləri ilə məşğul olmağa başladı.

Təhsialanların müstəqil ailə həyatına və gələcək övladlarının təlim-tərbiyəsi işlərinə hazırlanması kimi son dərəcə mühüm vəzifənin səmərəli şəkildə həyata keçirilməsi bu sahədə zəruri ədəbiyyatın, metodik vəsaitin olmasından xeyli dərəcədə asılıdır. Vaxtilə ümumtəhsil məktəblərimizdə “Ailə həyatının etika və psixologiyası” fənni keçilirdi. Hazırda kolleclərdə və Gəncə Dövlət Universitetinin magistratura pilləsində “Milli əxlaq və ailə etikası” fənni, bir sıra ali təhsil müəssisələrində “Ailə pedaqogikası” fənni tədris olunur. Bəzi digər fənlərin məzmununda da ailə və nikah məsələləri özünə yer alıb.

“Ailə həyatının etika və psixologiyası” fənni 1985/1986-cı tədris ilində ümumtəhsil məktəblərinin tədris planlarına daxil edilmişdi. Görkəmli psixoloq, professor Əbdül Əlizadə və mən “Ailə” dərsliyini, “Ailə həyatının etika və psixologiyası” (müəllimlər üçün vəsait), “Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat” dərs vəsaitlərini və kursun proqramını hazırlayıb nəşrinə nail olduq. Maarif Nazirliyi “Ailə” dərsliyini rus dilinə tərcümə etdirib təlim rus dilində olan siniflərə və məktəblərə çatdırdı.

Bir müddət keçdi. Ötən əsrin 90-cı illərində hələ SSRİ-yə daxil olduğumuz illərdə bu fənnin tədrisi dayandırıldı. “Ailə həyatının etika və psixologiyası”, “Sovet dövləti və hüququnun əsasları” və “İctimaiyyat” fənləri bir fənlə – “İnsan və cəmiyyət” fənni ilə əvəz olundu.

Təbii ki, bu fənn təhsilalanların müstəqil ailə həyatına hazırlanması kimi mühüm məsələləri özündə ehtiva edə bilmədi. Problemə dair yalnız bır neçə mövzu bu fəndə öz ifadəsini tapdı.

Ailə həyatına hazırlıq məsələlərini əhatə edən yuxarıda adları çəkilən dərslik və dərs vəsaitlərini, üstəlik “Ailə həyatının etika və psixologiyası" kursu üzrə tapşırıqlar sistemi” və "Ailə həyatının etika və psixologiyası" kursunun tədrisinin ümumi məsələləri” metodik vəsaitlərini professor Əbdül Əlizadə ilə mən birlikdə hazırladıq və şagirdlərin istifadəsinə verdik.

"Ailə" dərsliyi 5 bölmədən ibarət idi. Əbdül müəllim dərslikdəki "Şəxsiyyət, cəmiyyət, ailə" bölməsini, "Gənclərin şəxsiyyətlərarası münasibətlərinin xüsusiyyətləri" bölməsinə daxil olan "Şəxsiyyətlərarası münasibətlərin psixologiyası"; üçüncü bölməyə ("Nikah və ailə") daxil olan "Ailə və onun funksiyaları", "Ailənin sonrakı inkişaf mərhələləri"; "Ailə münasibətlərinin əsasları" adlanan dördüncü bölməyə aid olan "Ailənin ideya sərvətləri", "Ailənin psixoloji iqlimi", "Ailənin büdcəsi" və s. mövzuları işləmişdi. Mən isə "Oğlan və qızların qarşılıqlı münasibətlərinin mənəvi əsasları", "Yoldaşlıq və dostluq", "Eşqdir mehrabı uca göylərin", "Sevənlərin davranış mədəniyyəti", "Nikaha hazırlıq", "Ailə münasibətlərinin pozulmasının nəticələri", "Ailədə uşaqların tərbiyəsi" və s. mövzuları yazmışdım. Adlarını çəkmədiyim bəzi mövzuları isə birlikdə işləmişdik.

Professor Əbdül Əlizadə dərin elmi təfəkkürə və məntiqə malik idi, həm də onun gözəl bədii üslubu vardı. "Ailə" dərsliyi onun aşağıdakı sözləri ilə başlayırdı: "Evə elçi gələndə, qız gəlin köçəndə hamıdan çox kim sevinir? Ata və ana! Bu anda onların gözlərinə baxsanız, özlərini necə xoşbəxt hesab etdiklərini aydın duyarsınız. Lakin ata-ana sevinci də qəribə hissdir. Ömrün toylu-bayramlı günlərində bu sevinc nəsə bir narahatçılıqla müşayiət olunur. Qız gəlin köçəndə anaların gözlərinin yaşardığını, ataların uşaq kimi kövrəldiyini hansımız görməyib?" (1, s.3).

Professor ailə xoşbəxtliyinin sirlərinə münasibət bildirmişdir. Oxuyuruq: "Ailə xoşbəxtliyinin sirlərini təkcə məhəbbətlə izah etmək bu gün çox sadəlövh görünərdi" (1, s.8). Professor bu sözləri düz 33 il bundan əvvəl demişdir. Professor yazırdı: "Qarşılıqlı məhəbbət olmadan yaranmış ailələrin hamısı sonradan dağılırmı? Xeyr. Hətta bir-birini sevmədən ailə qurmuş ər və arvadın bir çoxu son dərəcə xoşbəxt yaşayırlar. Onlar evləndən sonra bir-birinə, sözün həqiqi mənasında sevmək öyrədir, məhəbbətin əsrarəngiz telləri ilə bir-birinə bağlanır, obrazlı desək, yaşlarının ahıl çağlarında "Leyli-Məcnun" ömrü yaşayırlar" (1, s.8).

"Ailə həyatının etika və psixologiyası" fənni son dərəcə faydalı fənn idi. Lakin ümumtəhsil məktəblərimizin tədris planından xeyli müddətdir (bəlkə də 30 ildir) çıxarılıb.

Təklifimiz budur ki, ümumtəhsil məktəblərinin tədris planlarına yenidən "Ailə həyatının etika və psixologiyası", yaxud "Milli əxlaq və ailə etikası" fənni daxil edilsin.

Bu, təhsilalanların müstəqil ailə həyatına və gələcək övladlarının təlim-tərbiyəsi işlərinə səmərəli şəkildə hazırlanmasında valideynlərə və təhsil müəssisələrinin pedaqoji kollektivlərinə böyük kömək edərdi.

## ƏDƏBİYYAT

1. Ə.Ə.Əlizadə, A.N.Abbasov. Ailə: IX sinif üçün dərslik. Bakı: Maarif, 1986, 1989

2. Ə.Ə.Əlizadə, A.N.Abbasov. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1988

3. Ə.Ə.Əlizadə, A.N.Abbasov. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat: IX sinif üçün dərs vəsaiti. Bakı: Maarif, 1989

4. А.А.Ализаде, А.Н.Аббасов. Семья: Учебник для 9-го класса. Баку: Маариф, 1991.

5. A.N.Abbasov. Milli əxlaq və ailə etikası: Kolleclər üçün dərslik. Bakı: Mütərcim, 2008, 2013, 2015

6. A.N.Abbasov. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura pilləsi üçün dərslik. Bakı: Mütərcim, 2013

**Məmmədova Elnarə Nəcəf qızı**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası*
*kafedrasının baş müəllimi*
*elnara.mammadova24@gmail.com*

# ƏBDÜL ƏLİZADƏ YARADICILIĞINDA PSİXOPEDAQOJİ MƏSƏLƏLƏR “AZƏRBAYCAN MƏKTƏBİ” JURNALI MÜSTƏVİSİNDƏ

***Açar sözlər:*** *pedaqoji psixologiya, pedaqoji təfəkkür, paradiqma, konsepsiya, aktual psixoloji problemlər, taksonomiyalar*

Azərbaycanda pedaqoji fikrin formalaşmasında danılmaz xidmətləri olan alimlər sırasında Əbdül Əlizadənin adı hörmətlə çəkilir. Psixologiya elmləri doktoru, professor Ə.Əlizadə pedaqoji psixologiyanın ölkəmizdə inkişaf etməsində özünün monumental əsərləri və əməli pedaqoji fəaliyyəti ilə fədakarlıqla çalışmışdır. Psixologiya elminin mühüm sahələrindən biri olan pedaqoji psixologiyanın inkişafı əsasən ötən əsrin 50-60-cı illərindən başlanmışdır. Pedaqoji psixologiyanın yaranması onun ayrı-ayrı sahələrinin də inkişafına rəvac vermişdir.

XX əsrin II yarısında pedaqoji psixologiyanın qarşısında duran nəzəri və praktik məsələlərin həlli ilə psixologiya elmləri doktoru Ə.Əlizadə daha yaxından məşğul olmuşdur. Onun tədqiqatlarının elm aləminə çıxış qapısı isə məhz “Azərbaycan məktəbi” jurnalı olmuşdur. O dövrdəki mətbuat orqanları içərisində ən nüfuzlu orqan sayılan “Azərbaycan məktəbi”nin ətrafına toplaşmış pedaqoqlar, psixoloqlar müəllimləri bu sahədəki zəruri biliklərlə silahlandırmaq kimi mühüm vəzifələrin həyata keçirilməsinə istiqamətləndirir, onlara gənc nəslin yüksək elmi dünyagörüşünə, şüuruna xas olan keyfiyyətlərlə formalaşmasının yollarını göstərirdilər.

XX yüzillikdə Azərbaycan pedaqoji və psixoloji fikrinin başlıca ideyaları özünün ən dolğun ifadəsini “Azərbaycan məktəbi”nin səhifələrində tapmışdı. Görkəmli Azərbaycan psixoloq və pedaqoqlarının sanballı əsərləri məhz bu jurnal vasitəsilə işıq üzü görürdü. Əbdül müəllimin öz sözləri ilə desək: “Bu işıq Prometey odu kimi nurlu olmuş, neçə-neçə kitabın ərsəyə gəlməsində, neçə-neçə fundamental tədqiqatların başa çatdırılmasında önəmli rol oynamışdır. Jurnalın müəllifləri içərisində respublikanın qabaqcıl müəllimləri də xüsusi yer tutmuşdur. Bunların bir çoxunun böyük elmə – Azərbaycan psixologiyası, pedaqogikası və metodikasının yolu elə jurnalda dərc olunmuş məqalələrindən başlanmışdır”. Dolğun, mənalı ömrünü sevdiyi jurnalsız təsəvvür etməyən alim deyirdi: “Azərbaycan Dövlət Pedaqoji Universitetində evim-eşiyim kimi sevdiyim bu məşhur ali məktəbdə sadə, təvazökar və təmənnasız müəllim ömrü yaşasam da, bu illər ərzində mənim həmişə “Azərbaycan məktəbi” adlı böyük bir mənəvi aləmim olub. Mən bu nurlu aləmdə respublikanın görkəmli jurnalistləri ilə bahəm məşhur filosofları, psixoloqları və pedaqoqlarının gündəlik qayğısı ilə pedaqoji mətbuatın sirlərini öyrənmişəm və böyük Azərbaycan elminə qovuşmuşam”.

Pedaqoji, psixoloji mövzuda jurnalda dərc olunan məqalələr maraqla oxunur, oxucular tərəfindən rəğbətlə qarşılanırdı. Müəllimlərin elmi-nəzəri səviyyəsinin, pedaqoji məharətinin yüksəldilməsində, məktəb, ailə və ictimaiyyətin qarşılıqlı əlaqəsinin təmin edilməsində belə yazıların təsiri daha davamlı olurdu. Kifayət qədər hazırlığı və təcrübəsi olan Əbdül müəllimin bu sahəyə köməyi öz nəticələrini verirdi.

Gənc alimin “Əsəbi uşaqların tərbiyəsi məsələləri” adlı “Azərbaycan məktəbi” jurnalında (1957, №10) çap olunan ilk məqaləsi özünün məzmunu, elmiliyi, aktuallığı ilə seçilir, müəllimlərə və valideynlərə çox dəyərli məsləhətlər kimi müvafiq mütəxəssislərin də diqqətini cəlb edirdi.

“Azərbaycan məktəbi” jurnalında işlədiyi illər Ə.Əlizadənin həyatında xüsusi bir mərhələ təşkil edir. Bu illər ərzində o, respublikanın psixoloji-pedaqoji aləminə qovuşur, dəyərli məqalələr çap etdirir, yeni ideyalar üzərində düşünürdü. Ə.Əlizadənin “V-VI sinif şagirdlərində təxəyyülün tərbiyəsi məsələlərinə dair” (1959, №7), “Ailə tərbiyəsi haqqında qiymətli kitab” (1958, №7), “Şagirdləri təxəyyül fəaliyyətində analiz və sintez bacarıqlarının inkişaf xüsusiyyətləri haqqında”

(1960, №2), "Şagirdlərin yaradıcı təxəyyülünün inkişafında vərdişlərin rolu məsələsinə dair" (1960, №7) və b. məqalələri də "Azərbaycan məktəbi"ndə çap olunmuşdur. Beləliklə, yüksək hazırlığı, əməksevərliyi Əbdül müəllimi az bir vaxtda Azərbaycan psixoloqlarının ön sıralarına çıxartdı. Qısa müddət ərzində bir-birinin ardınca Əbdül müəllim ümumi psixologiya, pedaqoji və yaş psixologiyası, sosial psixologiya sahələrində məqalələrlə çıxış etdi, kitabları çap olundu. 60-cı illərdə onun qələmindən çıxan əsərlər getdikcə daha da aktual mövzuları əhatə edirdi.

Bütün bunlar dünyada gedən proseslərlə səsləşirdi, hətta XX yüzilliyin ikinci yarısında "pedaqoji psixologiya" elmi bir qədər də ön plana keçəndə Əbdül müəllim psixologiyanın məktəb təcrübəsinə tətbiqinin ana vəsiləsi kimi bir inkişaf yolu tutdu. Azərbaycanda təhsil sahəsində aparılan müxtəlif islahatlar, psixologiyanın praktik effektləri bu elm sahəsini daha da canlandırdı və yeni elm sahəsi – "Psixoloji pedaqogika" və ya "Psixopedaqogika" meydana çıxdı. Azərbaycanda bu məsələnin də təkamülü Ə.Əlizadənin adı ilə bağlıdır. Əbdül müəllimə bəlli idi ki, ötən əsrin sonlarında E.Stouns "Psixopedaqogika" monoqrafiyasında (Moskva, 1983) onun predmetini "Nəzəri prinsiplərin təlim praktikasına tətbiqi" kimi açıqlamışdı.

Ə.Əlizadə özü pedaqoji psixologiyanın inkişaf yoluna dair tədqiqatlarında, məqalə və kitablarında bu elmi çox aydın təhlil etmiş, hətta bu mövzunun dərsliklərə salınmasına nail olmuşdur. Sonrakı illərdə özünün "Ailə" dərsliyində buna daha geniş yer vermişdi.

O, ümid edirdi ki, "Azərbaycan məktəbi" jurnalı elmin əzəmətli nailiyyətlərini geniş və müntəzəm surətdə təbliğ etməklə təlim-tərbiyə işinin səmərə və keyfiyyətinin yüksəldilməsində yaxından iştirak edəcəkdir. Əbdül Əlizadənin özünün sözləri ilə desək, "Yeni pedaqoji təfəkkürün formalaşması Azərbaycan məktəb tarixinin önəmli psixopedaqoji hadisəsidir".

Beləliklə, professor Əbdül Əlizadənin pedaqoji fikrimizin bir qolu olan pedaqoji psixologiyaya dair dəyərli elmi irsinin "Azərbaycan məktəbi" müstəvisində sistemli ölçülərlə səsləndirilmiş məqalələri bütöv bir pedaqoq-psixoloqlar nəslinin yetişməsinə əhəmiyyətli təsiri olmuşdur. O məqalələrdə qoyulmuş problemlər bu gün də elmi araşdırıcılar üçün ən etibarlı mənbədir.

**Əlixanova Gülnarə Həmzəbəyovna**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
*psixologiya üzrə fərsəfə doktoru*
*gülnare.alixanova @mail.ru*

## TƏHSİL KONSEPSİYASINDA TƏXƏYYÜLÜN İNKIŞAFI MƏRHƏLƏSİ

***Açar sözlər:*** *təhsil konsepsiyası, təxəyyül, konsepsiya, təfəkkür, intellekt, inkişaf texnologiyası*

Azərbaycanda həyata keçirilən islahatlar, xüsusilə təhsil sahəsində görülən işlər onun yenidən qurulmasına – yeni təhsil sisteminin formalaşdırılmasına xidmət göstərir. Bu işin uğurla yerinə yetirilməsində təhsilin üzərinə çox ciddi vəzifələr düşür. Yeni təhsil məzmununun yaradılması, texnologiyaların, idarəetmə strukturunun və s. formalaşdırılması üçün ilkin olaraq tədqiqatların əlaqələndirilməsinə, düzgün planlaşdırılmasına ehtiyacın yaranması aydın şəkildə diqqəti cəlb edir.

XX əsrin sonlarında təhsil konsepsiyası şagirdlərdə təfəkkürün inkişaf etdirilməsi, XXI əsrin əvvəllərində isə yaradıcılıq problemi formalaşmağa başladı. Professor Əbdül Əlizadə bu problemi "təhsil konsepsiyasında yeni bir mərhələ – təxəyyülün inkişafı mərhələsi" adlandırdı. Çünki tədris prosesində keçirilən müasir dərsin məzmununda koqnitiv proseslərlə yanaşı, kreativ və yaradıcılıq prosesləri də təzahür etməyə başlamışdı.

Psixoloji tədqiqatların nəticələrinə görə, təxəyyülün inkişafı hamıda eyni səviyyədə olmur. Bununla belə təxəyyülü güclü olan insanlar başqalarını, təbiətdə və cəmiyyətdə baş verən

hadisələri daha yaxşı anlaya bilirlər. Ona görə də şagird təxəyyülünün inkişafı və tərbiyəsi bugünkü müasir dərsin əsas problemlərindən biri kimi çox əhəmiyyətlidir.

Uşaq təxəyyülü əsasən nağıllardan başlayır: öz inkişafının ilk mərhələlərində nağılda olan obrazları asanlıqla mənimsəyə bilir. Dünyanı və özünün dünyəvi mənzərəsini bilavasitə nağılvari əks etdirdiyi ifadə vasitələri tədricən inkişaf edir. Uşaq artıq fəaliyyət sahəsinin öz “dilində” ifadə etdirdiyi danışığında məntiq həddinə çatanda təxəyyüldə əsas keyfiyyət dəyişiklikləri əmələ gəlir. Təxəyyül reallığı formalaşanda ifadə vasitələrinin səmti dəyişir və onlar ixtisaslaşmağa meyil edir. Bu, psixoloji pedaqogikada yeni konsepsiyadır və Azərbaycanda bu konsepsiya professor Əbdül Əlizadənin nəzəri-metodoloji axtarışları əsasında formalaşmışdır.

Psixologiyada təxəyyül yeni obrazların yaradılması kimi qəbul edilir. Professor Əbdül Əlizadə problemlə əlaqədar qeyd edir ki, “təxəyyülün mahiyyətini araşdırmaq üçün yeni elmi konsepsiyalar meydana çıxmışdır. Həmin konsepsiyalara görə, təxəyyül psixi bir proses kimi tamı hissədən əvvəl görməyi və eyni zamanda funksiyanı bir əşyadan başqasına keçirməyi nəzərdə tutur”.

Təxəyyülü inkişaf konsepsiyasında güclü fenomen hesab edən A.Eynşteyn qeyd edirdi: “Mən, intuisiya və təxəyyülə inanıram. Təxəyyül bilikdən önəmlidir, çünki bilik məhduddur, təxəyyül isə dünyada nə varsa, hamısını əhatə edir”. A.Eynşteynə görə, “təxəyyül kəşf yoludur” başqa sözlə, əsrin Nobel mükafatlarına gedən yol qeydsiz-şərtsiz təxəyyüldən başlayır”.

Psixoloq Jan Piaje eksperimental tədqiqatları əsasında müəyyən etmişdir ki, 7-8 yaş arasında uşağın koqnitiv strukturunda mental aktlar üstünlük təşkil edir. Uşaq bu yaş dövründə şeylərin mahiyyətini anlamağa başlayır: onlar haqqında "fikirləşə" bilir. Fikirləşə bilməyəndə ritorikaya meyil edir, dərsdə sadəcə əzbərçilik edir, lazım olanda müəllimə sual verə bilmir...”

Pedaqoji psixologiyanın tədqiqatçısı T.Edison qeyd edirdi ki, "Sivilizasiyanın başlıca məqsədi insanlara, bizim misalımızda fikirləşməyi öyrətməkdir" – dünya psixologiyasının başlıca parafrazalarından biri də budur. Bu məqsədlə T.Edisonun tərəfdarları məktəbdə şahmat dərsləri (və ya treninqləri) təşkil etməyi məsləhət görürdülər.

Klassik psixologiyada yeni obrazların yaradılması təxəyyül prosesi kimi qəbul edilirdi. Həmin dövrdə yaradıcı təfəkkür fenomeninin kəşf olunması ilə əlaqədar olaraq təxəyyül psixologiyasında da yeni istiqamətlər yaranmağa başladı. Artıq problem yeni psixoloji dairədə – təxəyyül və təfəkkür dairəsində öyrənilirdi. Əbdül Əlizadə bu yeni istiqaməti “fikri obrazdan hissi obraza gedən yol yaradıcı təxəyyül forması” kimi qiymətləndirirdi.

Professor Əbdül Əlizadə əsərlərində qeyd edir ki, yaradıcı təfəkkür təxəyyülün özülündə əmələ gəlir. İnsanın dünyaya yaradıcı münasibəti bilavasitə təxəyyüllə şərtlənir. Təfəkkürün yaradıcılıq potensialı ancaq bu sahədədir. Məsələnin belə qoyuluşu müasir məktəbdə təfəkkür-təxəyyül fenomenlərini şagirdlərdə qarşılıqlı əlaqədə inkişaf etdirməyi tələb edir.

Psixoloji-pedaqoji ədəbiyyatlarda verilən məlumata görə, Eynşteyn orta məktəbdə çox çətinliklə oxuyurdu. Müəllimlərin bir çoxu onu məsuliyyətsiz, tənbəl hesab edirdilər. O, dərslərdə fikri dağınıq, dalğın halda iştirak edir, mütəmadi olaraq intizamı pozmağa səy göstərirdi. Psixoloqlar onun dərslərini pis oxumasının səbəblərini araşdırdılar və nəticədə məlum oldu ki, müəllimlər şagirdin ona verilən suallara konkret cavab vermədiyinə görə əsəbiləşirlər. Eynşteyn müəllimlərin suallarına cavab vermək əvəzinə onlara yersiz görünən "müxtəlif əlavə suallar" verirdi.

Pikasso əsərlərində qeyd edirdi ki, "Mən əvvəl Rafael kimi şəkil çəkirdim, ancaq uşaqlar kimi şəkil çəkməyi öyrənmək üçün mənə bir ömürlük həyat lazım oldu". Çünki uşaqların özünəməxsus koqnitiv üslubları var və onu kəşf edən müəllim öz sahəsində praktik psixoloq hesab edilə bilər. U.Kreynin fikrinə görə isə: "Əgər biz həddindən artıq uşaqlara təsir göstəririksə, onlara özümüzün vacib hesab etdiyimiz şeyləri öyrədiriksə, uşaqları öz kəşflərini etmək imkanından məhrum edirik".

Məktəbdə fənn müəllimləri dərs prosesində şagirdlərdə təxəyyülü inkişaf etdirmək üçün müxtəlif tapşırıqlardan, psixoloqlar isə bu məqsədlə şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq müxtəlif metodlardan istifadə edirlər. Hər bir yaş dövründə bu üsuldan uğurla

istifadə etmək mümkündür. Şagirdlərin yaradıcı təxəyyülü inşa yazıda və rəsm çəkəndə, müxtəlif məzmunlu oyunlarda, təmrinlərdə, yarışlarda özünəməxsus çalarlarla təzahür edir. Təcrübəli müəllim onları vaxtında görür, ayırd edir və qiymətləndirir.

Bu gün müasir təhsilimizin qarşısında uşaqlarda təfəkkürün, təxəyyülün, intellektin və şəxsiyyətin formalaşması vəzifəsi durur. Şagird müəllimlər tərəfindən təlim prosesində fikri qabiliyyətlərin və bacarıqların formalaşmasına istiqamətləndirilməlidir.

Nəticəni kamillik və mənəviyyat zirvəsində yer tutan elm xadimi, gözəl pedaqoq, psixoloq, professor Əbdül Əlizadənin təhsilimizin gündəlik tələblərinə cavab verən dəyərli və gözəl fikirləri ilə bitirmək istəyirəm: "Təfəkkür, intellekt və təxəyyül! Bizim fikrimizcə, müasir təhsil nəzəriyyəsi və təcrübəsi XXI əsrdə ancaq və ancaq bu fundamental psixoloji bünövrə əsasında uğurla inkişaf edə bilər və inkişaf edir".

**Alıyev Ceyhun Qurbanalı oğlu**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*
*ceyhunaliyev@mail.ru*

## PRAKTİK PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

***Açar sözlər:*** *psixoloji xidmət, testologiya, peşə etikası, etik standart*

Ölkədə psixologiya elminə marağın səviyyəsi yüksəldikcə həmin ölkədə sosial-iqtisadi inkişaf elminin böyük imkanlarından – psixoloji və iqtisadi effektlərdən məharətlə istifadə olunur. Son illərdə respublikamızda psixologiya, təhsildə sosial-psixoloji xidmət ixtisasları üzrə kadr hazırlığı məsələsinə diqqətin artırılması, universitet və institutlarda psixologiya üzrə fəlsəfə və elmlər doktoru proqramları üzrə aparılan elmi-tədqiqat işlərinin çoxalması, psixologiyaya aid əsərlərin, dərslik və dərs vəsaitlərinin nəşr edilməsi, psixoloji maarifləndirmə işini həyata keçirən saytların, KİV-də psixoloji problemlərə həsr olunan verilişlərin olması, eləcə də çoxlu sayda psixoloji xidmət mərkəzlərinin açılması yaxın gələcəkdə Azərbaycan psixologiyasında kəmiyyətdən keyfiyyətə keçidin baş verəcəyini proqnozlaşdırmaq üçün əsas verir. Ölkəmizdə psixoloji yardım və təhsildə psixoloji xidmətin təşkili haqqında qəbul edilmiş dövlət qanunları XXI əsrdə Azərbaycan psixologiyasının yeni inkişaf mərhələsinə daxil olduğunu göstərir.

Bu gün 90 illik yubileyinə yığışdığımız böyük insan, alim-psixoloq Əbdül Əlizadənin elmi-pedaqoji yaradıcılığı çoxşaxəlidir. Onun elmi yaradıcılığında pedaqoji psixologiya, təlim və tərbiyə psixologiyası məsələləri davamlı olaraq araşdırılan bir istiqamət kimi diqqəti cəlb edir. Bu mənada Əbdül müəllimin çox ciddi şəkildə əhəmiyyət verdiyi və böyük əmək sərf etdiyi məsələlərdən biri Azərbaycan məktəblərində psixoloji xidmət konsepsiyasının hazırlanması ilə bağlı olmuşdur. Onun praktik psixologiya, o cümlədən məktəbdə psixoloji xidmət işinin təşkilinin elmi-nəzəri və praktiki perspektivi ilə bağlı fikrilərini belə ümumiləşdirə bilərik:

- Respublikamızda psixoloji xidmətin daha da genişlənməsi, bütövlükdə psixologiya elminin özünün taleyi məhz bu təcrübənin nə qədər uğurlu olmasından asılı olacaqdır.
- Psixologiya elmindən faydalanmadan təlim-tərbiyə prosesini optimallaşdırmaq mahiyyətcə mümkün deyil.
- Məktəb psixoloqunun peşə və şəxsi nüfuzu yalnız və yalnız peşə səriştəsinin gücünə uğurla həll etmək olar. Bu baxımdan praktik psixoloqların peşə səriştəsinin yüksəldilməsi məktəbdə psixoloji xidmətin köklü problemi kimi meydana çıxır.
- Akademik psixologiya ilə praktik psixologiya arasında olan uyğunsuzluq və rabitəsizliyin aradan qaldırılması. Belə ki, bir-birini tamamlayan bu iki sahənin dili, məntiqi və təhlil vahidlərinin müxtəlifliyi onlar arasında koqnitiv maneələrin yaranması ilə nəticələnir və bu neqativ təsir ilk növbədə praktik psixologiyanın elmi-nəzəri səviyyəsində özünü büruzə verir.

- Məktəbdə psixoloji xidmət inteqral qurum kimi elmi, tətbiqi və praktika kimi üç istiqamətin vəhdətinə və ayrılmaz qarşılıqlı əlaqəsinə əsaslanmalıdır.
- Müasir məktəb şəraitində psixoloj xidmətin elmi-metodik səviyyədə təşkili üçün elmi-tətbiqi tədqiqatların aparılması məqsədilə müvafiq elmi müəsissənin yaradılması.
- Test mədəniyyət məsələsidir. Psixoloji xidməti keyfiyyətcə yeni səviyyəyə keçirmək üçün testologiyanı mənimsəmək, milli testlər hazırlamaq və elmi-metodik test mərkəzinin yaradılması.
- Məktəbdə istifadə olunan testlər təkcə təsbitedici xarakter daşımamalı, həm də korreksiyaedici funksiyanı yerinə yetirməlidir. Bu baxımdan təlim yönümlü testlərin hazırlanması və məktəb təcrübəsində onlardan istifadəyə geniş yer verilməsi.
- Məktəbdə psixoloji xidmət özünün səmərəli fəaliyyətini təhsil sisteminin "Bermud üçbucağı"na fokuslanmaqla və onun əsasında təşkil edə bilər. Bu üçbucağın mərkəzində normal uşaqlar, kənarlarında isə istedadlı, çətin və inkişafı ləngimiş olan uşaqlar yerləşir.

Yuxarıda qeyd olunanlarla yanaşı, psixoloji xidmətlə məşğul olan praktik psixoloqların fəaliyyətinin səmərəliliyini yüksəltmək üçün müəyyən problemlərin həll olunması lazımdır. Hesab edirik ki, praktik psixoloqların fəaliyyətinin sertifikatlaşdırılması və lisenziyalaşdırılmasının həyata keçirilməsi üçün müvafiq şuranın yaradılmasına ehtiyac vardır. Sertifikatlaşdırılma və lisenziyalaşdırılma göstəriləcək psixoloji xidmətə görə məsuliyyət hissinin və peşəkarlıq səviyyəsinin yüksəlməsinə, o cümlədən xidmət göstərilən vətəndaşın daha keyfiyyətli xidmət ala bilməsinə kömək edəcəkdir. Bununla yanaşı, psixoloqların fəaliyyətinin tənzimlənməsi üçün funksional etik kodeksin hazlrlanmasına ciddi ehtiyac vardır. Çünki peşə etikasının pozulması hallarının artması həm psixologiya elminin, həm də psixoloqların cəmiyyətdəki peşə nüfuzuna, eləcə də onlara olan inam və güvənə mənfi təsir göstərir.

Hər bir elm sahəsinin inkişafı yeni anlayışların əmələ gəlməsi ilə səciyyələnir. Hal-hazırda Azərbaycan psixoloqlarının qarşılaşdığı problemlərdən biri elmi terminoloji sinonimliklə bağlıdır. Belə ki, dilimizə müxtəlif dillərdən psixoloji söz və terminlər daxil olur. Belə bir elmi terminoloji müxtəliflik və ya sinonimlik həm yazılı dildə, həm də şifahi nitqdə istər mütəxəssislər, istərsə də psixoloq-pasiyent münasibətlərində qeyri-dəqiqliyə səbəb olur. Dildə sinonim və çoxmənalı sözlərin çox olması onların elmi termin kimi işlədilməsi üçün əsas deyil. Elmi terminologiyanın düzgün qurulmasının əsas prinsipi sinonim və çoxmənalı terminlərin arzuolunmazlığıdır. Bu baxımdan psixologiya üzrə terminlərin koordinasiya olunması üçün terminoloji komissiyanın yaradılması zərurəti yaranmışdır.

**Əskərova Yeganə Baxış qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*
*y.askerova@inbox.ru*

## Ə.Ə.ƏLİZADƏNİN PSİXOPEDAQOJİ İDEYALARININ AZƏRBAYCAN TƏHSİL KONSEPSİYASINDA ROLU

***Açar sözlər**: təhsil konsepsiyası, psixopedaqoji ideyalar, intellekt, təfəkkür, şəxsiyyət azadlığı, əqli inkişaf, humanist psixologiya*

XX əsrin sonu, XXI əsrin əvvəllərində ölkəmizdə təhsil sistemində aparılan islahatlar pedaqoji-psixoloji tədqiqatların aparılmasını aktuallaşdırdı.

"Pedaqoji-psixoloji araşdırmalar təhsil islahatının gedişini diqqət mərkəzində saxlayaraq onun bütün parametrlərdə təhlilini aparmaqla müsbət və mənfi cəhətlərini meydana çıxarmağı, özünün elmi-nəzəri müddəaları ilə təcrübəyə töhfələr verməyi tələb edir" (1, s.17).

Respublikamız müstəqillik qazandıqdan sonra təhsil sistemində əsaslı islahatlar aparıldı. Təhsil islahatı hələ də davam edir. Təbii ki, psixoloqlar da bu problemin həllində yaxından iştirak edirlər. Professor Ə.S.Bayramov, professor Ə.Ə.Əlizadə, AMEA-nın müxbir üzvü, professor B.H.Əliyev, professor R.İ.Əliyev, professor Q.E.Əzimov, professor Ə.T.Baxşəliyev və başqaları

bu sahədə daha çox fəallıq göstərirlər. Amma bir məsələni qeyd etmək lazımdır ki, professor Ə.Ə.Əlizadənin bu sahədəki xidmətləri daha təqdirəlayiqdir.

Ə.Ə.Əlizadə qlobal şəkildə təhsili mədəniyyətin tərkib hissəsi hesab edir. "Təhsil mədəniyyətin zəruri tərkib hissəsidir. Onun arxitektonikası mədəniyyətin xarakteri ilə müəyyən olunur və aydın məsələdir ki, inkişaf meyilləri ancaq mədəniyyət aspektində sistemli təhlil olunub mənalandırıla bilər" (4, s.5).

Təbii ki, bu fikirlər müasir cəmiyyətin tələblərinə cavab verə biləcək bir təhsilin yaranması zərurətindən irəli gəlir. Ə.Ə.Əlizadənin irəli sürdüyü bu ideya Azərbaycan təhsil islahatının ana xəttini təşkil edir. Təhsilə mədəniyyət kontekstindən yanaşan Ə.Ə.Əlizadə ənənəvi və müasir didaktik sistemin nəzəri-metodoloji köklərini də burada görür. Ə.Ə.Əlizadəyə görə, "mədəniyyət insanın ikinci təbiəti, özünütəsdiqidir". Aydındır ki, belə bir mədəniyyətin formalaşmasına xidmət edən təhsil və onun hərəkətverici qüvvəsi olan məktəb ənənəvi qaydalarla işləyə bilməz. Ə.Ə.Əlizadə XXI əsri ağlın, intellektin təntənəsi əsri adlandırır və göstərir ki, respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə məhz ağıl, intellekt ocağı olmasını tələb edir. Ə.Ə.Əlizadə hesab edir ki, məktəb həm də Prometey missiyasını yerinə yetirməlidir. Onun qığılcımları uşaqların təfəkkür ocağına güc, qüvvət verməlidir.

"Məktəb bu gün iki yolun ayrıcındadır. Bu yolayrıcı əslində iki pedaqoji sistemi, pedaqoji təfəkkür tərzini və ya üslubunu səciyyələndirir. Müasir psixoloji və pedaqoji ədəbiyyatda birinci sistemi "ənənəvi didaktika"və ya "ənənəvi pedaqoji sistem", ikinci pedaqoji sistemi isə "yeni pedaqoji təfəkkür", "müasir təhsil konsepsiyası" kimi səciyyələndirirlər" (2, s.5).

Ə.Ə.Əlizadə birinci yolun ömrünü başa vurmaq üzrə olduğunu, onun "adi müəllimlərin təcrübəsində" yaşadığını, ikinci yolun isə vüsətlə məktəb həyatının bütün sahələrinə nüfuz etməkdə olduğunu göstərir.

Ə.Ə.Əlizadə Azərbaycanda psixopedaqogikanın əsasını qoyan psixoloqdur. Ötən əsrin 80-ci illərində psixopedaqogika xarici ölkə psixoloqlarının yaradıcılığında təşəkkül tapdı. Bu həmin dövr idi ki, əksər elm sahələrində, o cümlədən psixologiya elmində inteqrasiya prosesi gedirdi. Psixopedaqogikanın yaradıcısı isə Liverpul Universitetinin professoru Edvard Stouns hesab olunur. Stounsa görə psixopedaqogikanın yaradılmasında başlıca məqsəd psixoloji nəzəriyyələrin praktikada təhsilə tətbiq olunmasından ibarətdir. E.Stounsa görə, "təlimin ciddi şəkildə təkmilləşdirilməsi yalnız psixologiya elminin nailiyyətlərinin praktikaya tətbiqi nəticəsində mümkündür" (3, s.5).

Tərəddüd etmədən söyləmək olar ki, E.Stounsun bu ideyasını Azərbaycanda ilk dəfə Ə.Ə.Əlizadə həyata keçirmişdir. Onun bir-birinin ardınca nəşr etdirdiyi "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" (1998), "Yeni pedaqoji təfəkkür: psixopedaqoji araşdırmalar" (2001), "Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş" (2008), "Əsrin meqameyilləri: psixopedaqoji problemlər" (2008, 3 cilddə) və digər əsərlərində psixologiyanın nəzəri məsələləri təhsillə əlaqələndirilir.

Azərbaycanın təhsil konsepsiyasında başlıca məsələlərdən biri fənlərin inteqrasiyası problemidir. Bu sahədə Azərbaycan təhsilində müəyyən addımlar atılıb və müəyyən uğurlar əldə olunub. Ə.Ə.Əlizadə bu barədə özünün hələ 2001-ci ildə nəşr etdirdiyi "Yeni pedaqoji təfəkkür: psixopedaqoji araşdırmalar" adlı əsərində yazır: "İnteqrativ fənlərin formalaşması artıq dövrün tələbi kimi səslənir. Bir cəhət şəksizdir: müasir məktəb ancaq və ancaq inteqrasiya yolu ilə inkişaf edə bilər və etməlidir. Bu sahədə respublikamızda da, nə qədər kövrək olsa da, ilk addımlar atılıb. Lakin bu önəmli problem hələ sistemli həll olunmayıb. Səbəbi də aydındır: fənlərin inteqrasiyası kimi aktual problem konseptual ölçülərlə təhlil olunmayıb" (4, s.9-10).

Ə.Ə.Əlizadənin irəli sürdüyü və təhsil konsepsiyasında əksini tapan fikirlərindən biri də monoloji mədəniyyətdən dialoji mədəniyyətə keçirilməsinin zəruriliyi ilə bağlıdır. Bu eynilə təhsil sisteminə də aiddir. Ə.Ə.Əlizadə göstərir ki, monoloji mədəniyyət səsin-ağlın mədəniyyəti idi. Ağlı isə sinifdə müəllim təmsil edirdi. Pedaqoji fəaliyyətdə müəllimin dominant rolu bu anlama əsaslanırdı. Müəllim hər şeyi bilir, həqiqət işığı ilə biliksiz şagirdi maarifləndirir, sonra isə onun həqiqəti necə mənimsədiyini yoxlayır. Buna görə də dərs monoloqa çevrilir: dərsdə əvvəlcə

müəllim danışır, sonra isə şagird danışır. Şagird danışanda da əslində müəllim monoloqunu davam etdirir, sinif məkanında assimmetriya əmələ gəlir. Müəllim avtoritar status kəsb edir: bu kökdə də şagird tədricən obyektə çevrilir. Ə.Ə.Əlizadəyə görə təlimin tərbiyəedici məqsədi şəxsiyyətin formalaşdırılması ilə bağlıdır.

Sonrakı illərdə Ə.Ə.Əlizadə apardığı tədqiqatlara əsaslanaraq taksonomiyanın yeni tərkibini – “öyrənmə – inkişaf – mədəniyyət” modelini irəli sürdü.

Ə.Ə.Əlizadənin yaratdığı yeni taksonomiya nəzəriyyəsi bilavasitə Azərbaycanın təhsil konsepsiyasında irəli sürülən ideyalarla üst-üstə düşür. Bu, təhsilin şəxsiyyətyönümlü, nəticəyönümlü olması ideyasıdır.

Göründüyü kimi, Ə.Ə.Əlizadənin psixoloji ideyaları ilə Azərbaycanın təhsil konsepsiyası arasında bir bağlılıq, bir vəhdət var. Biri digərindən bəhrələnir, onu zənginləşdirir.

**ƏDƏBİYYAT**


1. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 448 s.
2. Əliyev. R.İ. Psixologiya tarixi. Bakı: Nurlan, 2006, 384 s.
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001, 161 s.
4. Социальная психология / Под ред. Е.С.Кузмина, В.Е.Семенова. Л: ЛГУ, 1979, 288 с.



**Əliyeva Sevinc Qərib qızı**
*General- leytenant K.A.Kərimov adına 8 nömrəli tam orta məktəbin*
*təlim-tərbiyə işləri üzrə direktor müavini*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı*
*alievasevinc_1976@hotmail.com*


## PROFESSOR ƏBDÜL ƏLİZADƏNİN TƏXƏYYÜL KONSEPSİYASINDA MOTİVASİYA VƏ STİMULLAŞDIRMA

***Açar sözlər:*** *psixologiya, təxəyyül, motivasiya, stimullaşdırma*

Həyatda elə insanlar var ki, adları çəkiləndə onların insanlığı, xeyirli işləri, dəyərli xidmətləri, xeyirxah əməlləri yada düşür. Belə insanalardan biri Əməkdar elm xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, “Şöhrət” ordenli, psixologiya elmləri doktoru, professor Əbdül Əlizadədir. O, həyatını elmə, maarifə, gənc nəslin təlim və tərbiyəsinə, psixologiya elminin inkişafına həsr etmişdir. Prof. Əbdül Əlizadə daim çalışmış, həmişə gərgin elmi fəaliyyətlə məşğul olmuşdur. Oğlu görkəmli alim-psixoloq, pedaqoq professor Hikmət Əlizadə qeyd edir ki, atamın istirahət etdiyini heç görmədim. Onu daim çalışan, həmişə yazıb-yaratmaqla məşğul olan, qayğılı gördüm. Xəstə olanda da işləyirdi... Onu tanıyanlar çox qürurlu, iradəli, möhkəm xarakterə malik, təvazökar bir şəxsiyyət kimi xarakterizə edirlər. Sadəlik, ziyalılıq, yüksək mədəniyyət və mənəviyyat onun üçün hər şeydən üstün olmuşdur.

Əbdül Əlizadə hələ sovet dövründə ittifaqın müttəfiq respublikalarında məşhur psixoloq idi. Onun elmi fəaliyyətinin ən çox diqqətçəkən məsələlərindən biri ümumtəhsil məktəbləri və ali məktəblər üçün psixologiya dərsliyi və tədris vəsaitlərinin hazırlanmasında yaxından iştirak etməsi olmuşdur. Pedaqoji psixologiya mövzusunda təxminən 200-ə qədər elmi məqalənin və 50-yə yaxın monoqrafiya, dərslik, dərs vəsaiti və kitabların müəllifi olmuşdur.

Prof. Əbdül Əlizadənin elmi-nəzəri irsində, yaradıcılığında təxəyyül problemi xüsusi yer tutmuşdur. O, “Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri” mövzusunda namizədlik, 1976-cı ildə isə “Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin psixoloji problemləri” mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. Göründüyü kimi, onun elmi yaradıcılığında şagirdlərin yaradıcı təxəyyül mövzusu xüsusi yer

tutmuşdur. Bu baxımdan "Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi", "Təxəyyül: psixoloji etüdlər" və bu istiqamətdə digər əsərləri təqdirəlayidir.

Əbdül Əlizadə bu kimi əsərlərində haqlı olaraq göstərir ki, təxəyyül yolu ilə öyrənmə konsepsiyası psixopedaqogikada yeni konsepsiya olub, motivasiya və stimillaşdırma ilə sıx bağlıdır. Təxəyyül yolu ilə öyrənmə öyrənmənin keyfiyyətini xeyli dərəcədə artırır və hətta kəşflərin yaranmasına əlverişli imkanlar yaradır (1, s.196).

Təxəyyül idrak prosesini qüvvətləndirir, məktəblinin oxumağa həvəsini artırır, öyrənməyə sövq edir, təlimə məsuliyyət hissi və stimul yaradır, biliklərə maraq formalaşdırır. Bütün bunların nəticəsində məktəbli yeni biliklər mənimsəyir, özü üçün kiçik də olsa, kəşflər yaradır. "Kəşf edəndə "uşağın əqli, xəyalı, dərrakəsi tərbiyə tapır. Ən başlıcası, "dərsə qalib gəldiyini duyur" (1, s.200).

Əbdül Əlizadə təxəyyüllə motivasiyanın bir-birilə sıx əlaqədar olmasını və təxəyyülün motivasiyaya qüvvətli təsir göstərdiyini dəyərli fikirləri ilə belə yazır: "Hər kəs öz təxəyyülünün gücündən istifadə edib, öz fikrində müxtəlif xəyali situasiyaların özünəməxsus mənzərəsini yarada bilər. Lakin bir fakt dəqiqdir: psixoloji tədqiqatlar göstərir ki, insan özünün yeni xəyali motivlər yaratması ilə işin mənası güclü surətdə dəyişir: Yeni xəyali motivin yaranması o deməkdir ki, insan öz işinə daha mühüm məna verməyə və onu səylə həyata keçirməyə başlayır. İnsan situasiyanı öz təxəyyülündə aydın canlandırdıqda işi yaxşı icra edir" (1, s.155-156).

Professorun fikirlərindən bu da aydın olur ki, intellektin inkişafı, təfəkkür və təxəyyüllə meydana gəlir, alimin səviyyəsi, affektiv sahəsi də ancaq və ancaq təfəkkür və təxəyüllə şərtlənir (1, s.235).

Bu cəhətdən intellektin yetişdirilməsi, inkişafı müəllimin səriştəliliyi və peşəkarlığından, xüsusilə Əbdül müəllimin dediyi kimi, onun "yeni təfəkküründən" çox asılıdır. "Müəllim sinifdə sadəcə olaraq bilik verən müəllim deyil, o, həm də tərbiyəçidir. Müəllim nəinki sinifdənkənar tədbirlərdə, həm də ilk növbədə dərsdə qeyd-şərtsiz tərbiyəçidir, daha dəqiq desək, psixoloq-müəllimdir" (1, s.171).

Şəxsiyyətin tərbiyəsi və inkişafında onu əhatə edən mühitin mühüm rolu vardır. Psixoloji cəhətdən şəxsiyyəti səciyyəndirməyə məktəbəqədər yaş dövründən başlamaq daha məqsədəuyğundur. Məhz bu dövrdən uşaq ətraf mühiti dərk etməyə cəhd edir, onun təxəyyülü və təfəkkürü formalaşır, böyüklərin yaratdığı motivasiya isə onu idrak fəaliyyətinə stimul yaradır. Bu barədə prof. Əbdül Əlizadə dəyərli fikirlər söyləyir: "Pedaqoji tədqiqatlar göstərir ki, uşağın motivasiya – tələbat sahəsinin inkişafı onu əhatə edən adamlarla, ünsiyyətin özünün xüsusiyyətləri ilə şərtlənir" (2, s.258).

Əbdül Əlizadə fikirlərini ümumiləşdirərək qeyd edir ki, müasir təhsil konsepsiyasında təxəyyül öyrənmə yolu kimi prioritet proses səviyyəsində dəyərləndirilməlidir. Bu baxımdan onun nəzəri-metodoloji məsələləri ilə bağlı texnoloji problemlərinin öyrənilməsinə xüsusi əhəmiyyət verilməlidir. Həm psixoloqlar, həm pedaqoqlar, həm də metodistlər bu barədə ciddi fikirləşməlidirlər (1, s.198). Bəli, görkəmli psixoloq-pedaqoq, alim Əbdül Əlizadə bu barədə həmkarlarını daha ciddi düşünməyə çağırmışıdr.

Əməkdar elm xadimi Ə.Əlizadənin elmi-pedaqoji fəaliyyəti çoxcəhətli olsa da, o, həmişə özünü psixologiya müəllimi hesab edirdi. Bir fakt şəksizdir: professor Ə.Əlizadə Azərbaycanın xarici ölkələrdə tanınmış görkəmli psixoloq-alimi idi. Onun elmi yaradıcılığı həmişə pedaqoji fəaliyyəti ilə sıx bağlı olmuşdur.

Əbdül Əlizadə çox təvazökar bir insan olmuşdur. Ömrünün sonlarına qədər, hətta səhhəti yaxşı olmadığı vaxtlarda belə elmi araşdırmalarla, gərgin pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Elmi rəhbərim, professor Rüfət Hüseynzadə söhbətində qeyd edir ki, bir gün Əbdül müəllimi müəllimlərin ixtisasartırma kursunda dərs deməyə dəvət etdik. Telefon etdim, Əbdül müəllim dedi ki, xəstəyəm, ayaqlarım da ağrıyır... Yarı zarafat, yarı ciddi dedi ki, qocalıq ayaqlardan başlayır, amma qəlbimiz gəncdir, gələrəm... Gəldi, çox dəyərli, maraqlı mühazirələr söylədi. Dediyi dərslərin zəhmət haqqını almağa dəvət etdik. Dedi, mən o haqqı, institutun xeyrinə keçirirəm... Baxın, nə qədər böyük ziyalılıq, təvazokarlq nümunəsi göstərilmişdir.

Prof. Əbdül Əlizadənin elmi yaradıcılığı, əsərləri pedaqoji, psixoloji elmimizi xeyli zənginləşdirmiş və pedaqoq, psixoloqlarımız tərəfindən elmi nəzəri irsi daim öyrəniləcəkdir.

**ƏDƏBİYYAT**

1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə., Əlizadə S.H. Psixopedaqogika. Bakı: Ecoprint, 2019, 368 s.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 368 s.

**İlyasov Müseyib İbrahim oğlu**
*Pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*museyibilyas@gmail.com*

## PSİXOPEDAQOGİKA ELMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ

***Açar sözlər:*** *pedaqoji proses, pedaqoji psixologiya, peşəkarlıq, pedaqoji təfəkkür, müəllim, şagird, tələbə*

Hər bir elm sahəsi görkəmli nümayəndələri ilə inkişaf edir, formalaşır. Yeni fikirlər, yeni ideyalar onu zənginləşdirir, xalqın və bütövlükdə bəşəriyyətin mənəvi sərvətinə çevrilən xəzinələr yaranır. Bu xəzinələrin yaranmasında, əlbəttə, aparıcı qüvvə işıqlı zəka sahibləri olan alimlər, elm adamları olur. Onların yazıb-yaratdıqları, yaxud ixtira etdikləri, elmə gətirdikləri yeniliklər cəmiyyəti inkişaf etdirdikcə, bu alimlərin özlərinin də adları əbədiləşir, tarixə çevrilirlər. Belə şəxsiyyətlərdən biri də psixologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, görkəmli psixoloq və gözəl müəllim Əbdül Əlizadədir.

Bir-neçə il öncə dünyasını dəyişsə də, professor Ə.Əlizadə bu gün də anılır, yad edilir, ruhuna rəhmət oxunur. Yazdığı əsərlər də müəllimlər və tələbələr tərəfindən oxunur, mütaliə edilir. O əsərlər ki, bu gün də yenidir, aktualdır. Qeyd edim ki, bu xoşbəxtlik heç də hamıya qismət olmur ki, yazdıqları illər keçsə də, öz yeniliyini, aktuallığını qoruyub saxlaya bilsin. Professor Əbdül Əlizadə bu baxımdan xoşbəxt adamdır ki, onun əsərlərinə özünün sağlığında da müraciət edilmiş, indi də müraciət olunur və bundan sonra gələcək dövrlərdə də müraciət olunacaqdır.

Professor Ə.Əlizadə yeganə psixoloqlardandır ki, onun yazdığı əsərlərə monoqrafiya, dərslik və dərs vəsaitlərinə daha çox ali məktəb müəllimləri və tələbələri, doktorantlarla yanaşı, orta məktəb müəllimləri də geniş müraciət edir, ondan bəhrələnirlər. Bu onun bir psixoloq, həm də pedaqoq kimi ali məktəblə yanaşı, orta məktəbi, pedaqoji prosesi incəliklərinə qədər, bütün dərinliyi ilə bilməsindən və pedaqoji psixologiya və psixopedaqogika sahəsində apardığı araşdırmaların elmiliyindən, elmlə təcrübənin əlaqəli öyrənilməsindən irəli gəlir.

Professor Ə.Əlizadənin qələmindən çıxan "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" (1998), "Pedaqoji psixologiya" (2010), "Psixopedaqogika" (2019), "İstedadlı uşaqlar, Psixopedaqoji məsələlər "(2005) kimi əsərlər nəinki respublikamızda, onun xaricində də bu sahədə yazılan əsərlər içərisində özünəməxsus yer tutur. İstər mövzu baxımından, istərsə də işləmə səviyyəsinə, məzmun dərinliyinə görə seçilən bu kitablar bu gün də gündəlik müraciət edilən mənbələr kimi dəyərlidir. Professor Ə.Əlizadənin bütün əsərləri özünün orijinal yanaşma tərzi və işlənmə səviyyəsi ilə diqqəti cəlb edir.

Professor Əbdül Əlizadə yaradıcılığında "Yeni pedaqoji fikir" problemi xüsusi yer tutur. Bu, xüsusilə Əbdül müəllimin 1988-ci ildə çap olunan "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" və onun ardınca yazılan bütün ərəslərdə davamlı şəkildə özünü göstərir. Bu isə heç də səbəbsiz deyildir. Burada birinci amil keçən əsrin 90-cı illərinin sonlarında respublikamızda həyata keçirilməyə başlanan əsaslı təhsil islahatları, təhsilin inkişafında yeni istiqamətlərin meydana gəlməsi Azərbaycan təhsilinin qabacıl dünya ölkələrinin təhsilinə inteqrasiyası sahəsində

aparılan işlər idisə, ikinci amil Əbdül müəllimin özünün yeni pedaqoji təfəkkür sahibi olması, pedaqoji psixologiya və psixopedaqogika elmlərinə müəyyən yeniliklər gətirməsinə çalışması idi. Əbdül müəllimin məhz bu əsərində buna nail oldu və öz sözünü dedi. Bu əsər bu gün də oxunur və ona müraciət edilir.

Bu əsərdə araşdırılan mövzular professor Ə.Əlizadə tərəfindən elə adlandırılır ki, istər-istəməz oxucuda ona maraq yaranır. Qeyd edim ki, prof.Ə.Əlizadənin belə yanaşma tərzinə başqa tədqiqatçılar, pedaqoq və psixoloqlarda çox nadir hallarda rast gəlinir. Mövzuların bəzilərinə diqqət yetirək: "Şagirdlər dərslərdə nə üçün sual vermirlər?", "Kəpənəyin qayğısız uçuşu", "Məktəbin Bermud üçbucağı haqqında", "Şagird təlimdə geri qalırsa", "İstedadlı uşaqları harada itiririk", "Müəllimin ifadəli baxışları", "Demokratik müəllimin dərslərində" və s.

Maraqlı burasıdır ki, mövzuların izahları da elə adları qədər maraqlı, elmi və bədii dilin ahəngdar birliyində və hər şeydən öncə təkcə mütəxəssislərin deyil, digər şəxslərin də dərindən başa düşəcəyi tərzdə verilir. Prof.Ə.Əlizadənin pedaqoji psixologiya və psixopedaqogika sahəsində yazdığı bütün əsərlərdə şagird (uşaq) pedaqoji prosesin mərkəzində dayanır, pedaqoji prosesin nüvəsini təşkil edir. Onun təsvir etdiyi, gələcəyini görmək istədiyi uşaq fəaldır, daim öyrənməyə çalışır, düşünür, axtarışdadır. Bu uşaq diqqətsiz də ola bilir, dərslərdə passivlik də göstərə bilir. Lakin heç də qabiliyyətsiz deyildir. Onun müəyyən sahədə bacarıq və qabiliyyəti vardır və onları duymaq, üzə çıxarmaq vacibdir. Başlıca məsələ bunları "oyatmaq", "hərəkətə gətirmək" lazımdır ki, bunun da əsas ağırlığı müəllimin üzərinə düşür.

Professor Ə.Əlizadə özü gözəl müəllim, ustad pedaqoq kimi yaddaşlarda yaşayır. O, müəllimə pedaqoji prosesin əsas daşıyıcısı kimi çox yüksək qiymət verir və ona yüksək tələbkarlıqla yanaşır. Onun "müəllimi" peşəkardır, səriştəlidir, yeni pedaqoji təfəkkürə malikdir, bütün həyatını pedaqoji prosesin yeniləşdirilməsinə, şagirdlərinin bir vətəndaş, bir şəxsiyyət kimi formalaşmasına həsr edən vətəndaş-ziyalıdır. Müəllim nümunədir, şagirdləri arxasınca apara bilən təşkilatçıdır. Şagirdlərinin sevimlisidir, onların tərbiyəçisidir. Şagirdini pedaqoji prosesin sehrinə gətirib çıxaran, onları öyrənməyə, kəşf etməyə sövq edən bələdçidir. Əbdül müəllim yazır: "Şagirdlər müəllimin erudisiyasını yüksək qiymətləndirirlər. Bilikli müəllimi sayırlar ancaq onlar səmimi, xeyirxah, qılıqlı, həssas, qəlbini uşaqlara verən və onlarla söhbət etməyi bacaran, hətta sinifdənkənar vaxtlarda da onlarla həvəslə məşğul olan müəllimləri sevirlər".

Əbdül müəllimin yaradıcılığında pedaqoji proses təkcə "müəllim-şagird" cütlüyü ilə məhdudlaşmır. Ə.Əlizadə pedaqoji prosesi şagirdlərin yaradıcılıq emalatxanasına çevrilir. Burada hər bir şagird çalışır, öyrənir, fəallıq göstərir.

Beləliklə, prof.Ə.Əlizadə yaradıcılığında pedaqoji psixologiya və psixopedaqoji problemlərin təhlili belə bir qənaət yaradır ki, heç də pis şagird yoxdur. Başlıca məsələ onları inkişafa yönəltməyi bacarmaq, şagirdlərə məktəbi, təhsili, elm öyrənməyi sevdirmək və onları pedaqoji prosesin sehrinə sala bilməkdir ki, bu da müəllimlərdən, onun peşəkarlığından, səriştəliliyindən və öz işinə, peşəsinə sevgisindən çox asılıdır.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı: ADPU, 2010
3. Əlizadə Ə.Ə., Əlizadə H.Ə., Əlizadə S.H. Psixopedaqogika. Bakı: "Esoprint" nəşriyyatı, 2019
4. Əbdül Əlizadə: "Ənənəvi təhsdildən təfəkkür məktəbinə" "Respublika elmi-praktik konfransının materialları". Bakı: ADPU, 2017

**Mehtiyeva Kübra Nazim qızı**
*kubramehtiyeva6@gmail.com*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Pedaqoji psixologiya kafedrasının müəllimi*

# Ə.ƏLİZADƏNİN PEDAQOJİ KOLLEKTİVDƏ RƏHBƏRLİK HAQQINDA FİKİRLƏRİ

***Açar sözlər:*** *lider, rəhbər, müəllim, kollektiv, pedaqoji psixologiya, təhsil, şəxsiyyət*

Hazırkı şəraitdə məktəbin demokratik prinsiplər əsasında idarə olunması yeni təhsil konsepsiyasının tələbindən irəli gələn ən başlıca vəzifədir. Buna görə də məktəbdə təlim-tərbiyənin yüksək səviyyədə təşkili, pedaqoji kollektivdə sağlam psixoloji mühitin yaranması bilavasitə məktəb rəhbərliyindən asılıdır. Məktəbdə təlim-tərbiyə işinin yüksək səviyyədə təşkilində, dərsin müasir tələblərə cavab verməsinin təmin edilməsində pedaqoji kollektivə düzgün rəhbərlik və nəzarət ən mühüm amillərdən biridir. Müşahidələr göstərir ki, kollektivdə konflikt şəraitinin yaranması əksər hallarda rəhbər işçinin idarəedici təşkilati iş sahəsindəki səhvlərindən irəli gəlir. Buna görə də rəhbər işçinin insanları idarəetmə sənətini mükəmməl öyrənməsi, sosiologiya, psixologiya və pedaqogika sahələrində öz biliklərini genişləndirməsi zərurudir

Azərbaycan psixoloq və pedaqoqları təhsilin idarə olunmasına, pedaqoji kollektivə rəhbərlik probleminə, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsinə, şəxsiyyətin və şəxsiyyətlərarası münasibətlərin formalaşdırılması, təhsilin demokratikləşdirilməsi kontekstindən yanaşmışlar. Professor Ə.Ə.Əlizadə idarəetmədə liderlik və rəhbərlik məsələlərinə xüsusi önəm vermiş, onların oxşar və fərqli cəhətlərini ayırmışdır. O, yazır: "Rəhbərlik nisbətən yüksək səviyyəli təşkilatlar tərəfindən rəsmi surətdə təsdiq edilmiş əsasnamə çərçivəsində rəsmi səlahiyyətlərin tətbiqi yolu ilə kollektivin idarə olunması prosesidir. Liderlik dedikdə, işçilərdən birinin şəxsi nüfuzunun kollektivin bir çox və ya bütün üzvlərinin davranışına təsiri nəzərdə tutulur". Göründüyü kimi, Ə.Ə.Əlizadə lideri daha çox şəxsi keyfiyyətlərinə görə fərqləndirir, onda işgüzarlığı, ünsiyyətə girə bilmək, insanlara təsir etmək, onları öz arxasınca aparmaq qabiliyyətinə malik olmağı önə çəkirdi. Amma eyni zamanda hər bir qrup və kollektivin də sosial-psixoloji xarakteristikasının liderin bu keyfiyyətləri ilə üst-üstə düşməsinin vacibliyi göstərilir. Qrupun psixoloji mühitinin formalaşmasında liderin rolu son dərəcə əhəmiyyətlidir. Bunlar üst-üstə düşmədikdə lider pozitiv yox, neqativ funksiyanı yerinə yetirir.

Professor Ə.Ə.Əlizadə rəhbərlik üslubunu pedaqoji fəaliyyətin mühüm məsələlərindən biri kimi təqdim edir. Psixoloji ədəbiyyatda ümumiyyətlə rəhbərlik üslubundan, liderlik problemindən bəhs olunur. Lakin Ə.Ə.Əlizadə problemin maraqlı və çox əhəmiyyətli bir cəhətinə – müəllimlərin rəhbərlik üslubuna xüsusi önəm verir. Məsələnin bu cəhəti həm də diqqəti ona görə cəlb edir ki, şagirdlərlə məhz müəllimlər təmasda olurlar. Ə.Ə.Əlizadə göstərir ki, təhsildə yenilik axtarışları məktəbdə müəllim-şagird münasibətlərini tədricən demokratik rəhbərlik üslubuna gətirib çıxarmışdır. İnkişaf etmiş şagird qruplarında müəllim-şagird münasibətlərinin optimallaşdırılması baxımından demokratik rəhbərlik üslubu əvəzsizdir.

Ə.Ə.Əlizadə təlim prosesində "demokrat müəllimin dərslərində" şagirdlərin psixi inkişafı, münasibətlər sisteminin qurulması, şəxsiyyətinin formalaşması üçün daha geniş imkanlar yarandığını qeyd edir. Bunları açıqlayaraq beş cəhətə xüsusi önəm verir. Bunlar aşağıdakılardan ibarətdir:

- ✓ Şagirdlər müəllimlərlə və öz aralarında daha çox danışırlar, diskussiya aparırlar. Bu söz-söhbətlərin ana xətti dərslə bağlı olur;
- ✓ Dərsə daha diqqətlə qulaq asırlar;
- ✓ Daha çox düşünürlər, götür-qoy edirlər, məsələlərin mahiyyətini aydınlaşdırmağa çalışırlar, mənali yaddasaxlama vasitələrindən səmərəli istifadə edirlər;
- ✓ Sinifdə həmişə özünəməxsus yaradıcılıq ovqatı əmələ gəlir;
- ✓ Sinifdə konformist şagirdlərə, demək olar ki, təsadüf edilmir. Onlar öz fikirlərini, qənaətlərini açıq deməyi və prinsipial mövqe tutmağı öyrənirlər.

Göründüyü kimi, professor Ə.Ə.Əlizadə, həm pedaqoji kolkektivdə idarəetmə, həm də psixoloji mühitin formalaşmasında müəllimlərin rolunu xüsusi qeyd edir. Sübut edir ki, pedaqoji fəaliyyətdə demokratik idarəetmə ən səmərəli üslubdur. Eyni zamanda haqlı olaraq burada müəllim şəxsiyyəti, onun şəxsi keyfiyyətləri ilə yanaşı kollektivin səviyyəsi, rəhbərliyin idarəetmə üslubunun da önəmli rol oynadığını xüsusi vurğulayır. Öz tədqiqatlarında xarici ölkə və rus psixoloqlarına istinad edən müəllif yerli şəraitin, etnopsixoloji xüsusiyyətlərin, sosiomədəni amillərin də nəzərə alınmasını vacib sayır.

İdarəetmədə şəxsi qarşılıqlı münasibətlər mühüm yer tutur. Ə.Ə.Əlizadə qarşılıqlı münasibətləri: insnların bir-birlərini qavraması və anlaması məsələlərini etnopsixoloji kontekstdə araşdırmış, onların formalaşmasında milli xüsuiyyətlərin, adət-ənənələrin önəmli rol oynadığını göstərmişdir. Təbii ki, idarəetəmə prosesində də milli xüsusiyyətlərin özünəməxsus yeri vardır. Yəni idarəetmə üçün ümumi prinsiplərlə yanaşı, özünəməxsus, milli xarakterdən doğan cəhətlər də nəzərə alınmalıdır. Bu deyilənləri isə Ə.Ə.Əlizadə belə xarakterizə edir: "İnsanların bir-birini anlaması prosesinin özünəməxsus monitorinq qatı var, bu qat başlıca olaraq elin-obanın mənəvi dəyərlərinə, mənəvi etalon va stereotiplərinə söykənir.

İnsanların bir-birini qavraması və anlaması prosesində mərdlik, sədaqət, vəfa, namus, qeyrət, əməksevərlik, halallıq, düzlük, doğruluq kimi mənəvi keyfiyyətlər yüksək qiymətləndirilir, namərdlik, vəfasızlıq, haramxorluq, tənbəllik, əhdi pozmaq, kəsdiyi çörəyi tapdtalamaq, əmanətə xəyanət etmək və s. pislənirdi".

**Ağayeva Tamilla Hüseyn qızı**
*filololgiya elmləri üzrə fəlsəfə doktoru*
*ADPU-nun Xüsusi təhsil kafedrasının dosenti*
*agayev.tamilla@gmail.com*

## Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU

***Açar sözlər:*** *sağlamlıq imkanları məhdud uşaq, inkişaf pozulması, əlil, valideyn, ailə tərbiyəsi*

Müasir dövrün sosial-psixoloji problemlərindən biri olan sağlamlıq imkanları məhdud uşaq, onun təlim-tərbiyəsi məsələləri Azərbaycan psixologiyasının görkəmli nümayəndələrindən biri olan Əbdül Əlizadə yaradıcılığında öz parlaq əksini tapmışdır. Onun yaradıcılığına nəzər salsaq, görərik ki, sağlamlıq imkanları məhdud uşaq psixologiyasının öyrənilməsində onun əvəzsiz xidmətləri olmuşdur. Ə.Ə.Əlizadə normal inkişaf etmiş uşaq psixologiyası ilə yanaşı, atipik sağlamlıq imkanları məhdud uşaq psixologiyasını da araşdırmış və bu istiqamətdə bir sıra mühüm elmi nəticələr əldə etmişdir.

Ə.Ə.Əlizadənin demək olar ki, bütün əsərlərində tərbiyə məsələləri özünəməxsus yer tutmuş, təlim və tərbiyənin vəhdəti daha geniş vurğulanmışdı. Ə.Ə.Əlizadə tərbiyənin əsas məqsədini şəxsiyyətin əqli-əxlaqi və şəxsiyyət istiqamətində inkişaf etdirilməsi kimi şərh edirdi. O. bu fikirləri “Müasir Azərbaycan məktəbinin psixoloji problemləri” adlı əsərində geniş təhlil etmiş, hərtərəfli inkişaf etmiş və bacarıqlı şəxsiyyətin formalaşdırılmasında tərbiyənin rolunu yüksək dəyərləndirmişdi. Ə.Əlizadənin bu əsərdə qeyd etdiyi “Ağlın keçməkeşli yolu ailə və məktəbdən başlayır; uşaqların intellektual inkişafında ailənin rolu əvəzsizdir; anaların verbal inkişaf səviyyəsi yüksək olan ailələrdə uşaqların əqli istedad əmsalı yüksəkdir” kimi postulatları müasir xüsusi pedaqogika və psixologiyanın inkişaf istiqaməti və baxışları ilə səsləşir.

Ə.Ə.Əlizadə inkişaf pozulması olan uşaqlarda duyğu, qavrayış, idrak fəaliyyəti, nitq, emosional-iradi, hərəkət, davranış və şəxsiyyətin özünəməxsus xüsusiyyətlərini onların birtərəfli inkişafı ilə bağlı yarandığını göstərməklə yanaşı, bu çatışmazlıqların təsiri ilə yaranmış davranış və şəxsiyyət çatışmazlıqlarını düzgün olmayan tərbiyə şəraiti ilə əlaqələndirmişdir. Bu baxımdan Ə.Ə.Əlizadə sağlamlıq imkanları məhdud uşaqların psixi inkişafında ailə tərbiyəsinin rolunu

yüksək qiymətləndirir, psixi inkişaf çatışmazlıqları və onların aradan qaldırılması məsələlərini ailə, ailə dəyərlər sistemi, qadın-ana və onun funksiyaları, eləcə də ailədə mövcud şəxsiyyətlərarası münasibətlər kontekstində təhlil edirdi. Onun fikrinə görə, sağlamlıq imkanları məhdud uşaq şəxsiyyətinin düzgün formalaşmasının əsasını ailə, xüsusilə də ailədəki münasibətlər müəyyən edir.

Ə.Ə.Əlizadə eşitmə, görmə, nitq, hərəkət və digər inkişaf pozulmaları olan uşaqların təlim-tərbiyə sisteminin əsas istiqamətlərindən biri kimi ailə tərbiyəsini xüsusi vurğulayır və bu işdə valideynlərin, xüsusən də ananın rolunu çox yüksək qiymətləndirirdi. Əlil uşağın psixofiziki inkişafı məhz ailədə formalaşır və ailə münasibətlərinə qoşulmaqla bilik, bacarıq və vərdişlərə yiyələnir. O, sağlamlıq imkanları məhdud uşaqlarda ətraf aləm haqqında ilkin anlayış və təsəvvürlərin yaranmasında, sadə bilik və bacarıq, əmək vərdişlərinin, davranış və şəxsiyyət keyfiyyətlərinin formalaşmasında ailə tərbiyəsinin müstəsna rol oynadığını qeyd edir və bunu ilk növbədə valideynin ailəyə bağlılığı, övladları üçün hər bir fədakarlığa hazır olmaları ilə izah edirdi.

Görkəmli alimin fikrincə, inkişaf pozulması olan uşağın inkişafı üçün ailədə düzgün şəraitin yaradılması, onun inkişaf xüsusiyyət və çatışmazlıqlarının nəzərə alınması təlim-tərbiyə prosesinin səmərəli olmasına xidmət edir.

Ə.Ə.Əlizadə bəzi ailələrin sağlamlıq imkanları məhdud olan uşağın tərbiyəsi məsələrində yanlışlığa yol verməlarini, nəticədə onların inkişafında ciddi, geriyədönməz çatışmazlıqların yaranmasını da qeyd edirdi. O, valideynlərin bu kateqoriyadan olan uşaqları həddən artıq himayə etmələrini, nöqsanlarına göz yummalarını kəskin tənqid edərək yazırdı: "uşağın əzizlənməsi, başlı-başına buraxılması, ona müstəqil düşünmək, müşahidə etmək, özünü ələ almaq bacarığının aşılanmaması və s. uşağın inkişafına mənfi təsir göstərir. Bununla mübarizə aparmaq lazımdır".

Görkəmli alim boşanmanın səbəblərini təhlil edərkən bəzi valideynlərin ailədə əlil uşaq səbəbindən boşanmalarına da münasibət bildirmiş və bunu mənfi hal kimi qeyd etmişdir. Onun fikrinə görə, əlil övlada münasibətdə ailədə çoxlu çətinliklərin meydana çıxması və onun həlli yollarının "məchulluğu" boşanmalara gətirib çıxarır. Bu boşanmalar əlil uşağın doğulması, ailədə onlara ata, ana və yaxın qohumların münasibəti, qohum və ətrafdakıların qınağı, atanın uşağın həyatında fəaliyyətsizliyi: müalicə, korreksiya, təlim və tərbiyə işində iştirak etməməsi, bu işin yalnız ananın üzərinə qoyulması və qarşıya çıxan digər çoxsaylı problemlər səbəbindən baş verir. O, çox zaman sağlamlıq imkanları məhdud uşaq olan ailələrdə boşanmaların əsas təşəbbüskarı ataların olmasını qeyd edərək gösrərirdi ki, məhz atalar əlil uşağın dünyaya gəlməsində ananı günahlandırır, uşağın tərbiyəsində qarşıya çıxan problemlərin həllində fəal iştirak etməkdən boyun qaçırır və boşanmaqla çətinliklərdən yaxa qurtarmağa çalışırlar. Ə.Ə.Əlizadə boşanmaların ananın, xüsusilə də inkişaf pozulması olan uşağın psixoloji durumuna mənfi təsir göstərdiyini, onların ağır depressiyaya və tənhalığa meyillənməsi, ətrafdakılarla ünsiyyətdən çəkinməsi ilə nəticələndiyini qeyd edirdi. O, valideynlərin boşanması, onların münaqişəli davranışı, ailənin dağılması, uşağın yad insanlar mühitinə düşməsinin sağlamlıq imkanları məhdud uşaqlarda, xüsusilə yeniyetmələrin diqqət, qayğı və düzgün tərbiyədən məhrum edilməsinə, onlarda yadlaşma, qəzəb, qəddarlıq, ətrafdakılara neqativ münasibətlərin pis bir tərbiyə nümunəsi kimi formalaşmasına səbəb olduğunu, onların gələcəyinə mənfi təsir edəcəyini göstərirdi. Bununla da Ə.Ə.Əlizadə sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafının düzgün ailə tərbiyəsi və ailə dəyərləri ilə bağlı olduğunu bir daha qeyd edirdi.

**Səlimova Zemfira İlyas qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
*zema.salımova@mail.ru*

## GÖRKƏMLİ ALİM Ə.Ə.ƏLİZADƏ YARADICILIĞI HAQQINDA

***Açar sözlər:*** *dərslik, təhlil, şəxsiyyət, münasibət, milli-əxlaq, tərbiyə, cinsi tərbiyə*

Psixologiya elmi çox qədim bir elmdir. Eramızdan əvvəl Aristotel, Platon Demokrit, Epikur, Heraklit, Lukrevsiya orta əsrlərdə, Avqustin (354-430), XVI-XVII əsrlərdə Bekon (156-1626), Rene Dekart (1596-1650), Benedikt Spinoza (1232-1622) və başqalarını göstərmək olar.

Tarixi mənbələrə müraciət etmək, onun haqqında düşünmək və özündən sonra gələn nəslə ötürmək hər bir xalqın borcudur.

Azərbaycanda isə psixologiya elmi haqqında 1920-1925-ci illərdə bu elmə müraciət olunmuşdur. Bunlardan A.Əfəndiyev "Fənni-tərbiyə" (1924), Ə.K.Zəkiyev (1922) və başqa alimlərin yazılarını göstərmək olar.

Azərbaycanda psixologiya elminin böyük əməyi olan alimlərdən A.O.Makovelski, Ə.K.Zəkiyev, M.R.Abbasov, F.Ə.İbrahimbəyov, A.K.Abdullayev, Ş.S.Ağayev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadənin adlarını çəkə bilərik.

Ə.Ə.Əlizadə görkəmli alim, humanist müəllim, xasiyyətcə mülayim və səmimi bir şəxsiyyətdir. O, respublikamızın elmi ictimaiyyətinin, pedaqoq və psixoloqlarının ən sevimlisidir. Tələbələr onun mühazirələrində böyük həvəslə iştirak edirdilər. O, rəhbərlik etdiyi aspirant və dissertantlarına qarşı da çox həssas və humanist olub. Hal-hazırda onun rəhbərlik etdiyi xeyli aspirant, dissertantlar bir çox təhsil ocaqlarında fəaliyyət göstərirlər.

Ə.Ə.Əlizadənin yaradıcılıq dairəsi çox genişdir. O, daha çox məktəblilərin psixoloji xüsusiyyətlərini öyrənmiş, məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin psixoloji problemlərini təhlil etmişdir. "İlk addımlar" (1968), "Uşaqlarda diqqətin tərbiyə edilməsi" (1962), "Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi" (1963) və başqa əsərlərini buna misal göstərmək olar.

Ə.Ə.Əlizadə məktəbəqədər yaşlı uşaqlarda diqqəti, kollektivçilik hissini, əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərini öyrənmiş və onların tərbiyəsinin psixoloji problemləri ilə bağlı məlumatlar vermişdir. Məktəbəqədər yaş dövründə oğlanlarla qızların qarşılıqlı münasibətləri zahirən oğlanın oğlanla, qızın qızla olan qarşılıqlı dostluğunu geniş təhlil etmişdir. Lakin əsasın sosiometrik üsulla aparılan tədqiqatları göstərir ki, bütün yaş qruplarında oğlanlarla qızların ünsiyyətində özünəməxsus cəhətlər də mövcuddur.

Kiçik məktəb yaş dövründə qarşılıqlı münasibətlər geniş xarakter daşımır, yeniyetməlik yaşı dövründə oğlan və qızların qarşılıqlı münasibətdə yeni psixoloji çalarlar özünü göstərir. Əxlaq və mənlik şüurunun formalaşması, özünü yaşlı adam kimi aparmaq, hissi ünsiyyət təlabatı, əks cinsə marağın artması və s. məsələlər həmin yaş dövrü üçün səciyyəvidir.

Əbdül Əlizadənin əsərlərində şəxsiyyət psixologiyası və cinsi tərbiyə məsələləri, oğlanlarla qızların qarşılıqlı münasibətlərinin mənşəyi, yaşlılıq hissi, həya hissi, maraqlar, yeniyetmələrdə cinsi psixoloji yetkinlik, onların özləri haqqında təsəvvürlərin formalaşması təhlil edilir.

Oğlan və qızların arasında şəxsi qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri, cinsi fərqlərin xüsusiyyətləri Əbdül Əlizadənin əsərlərində izah olunur. Əxlaqi şüurun tərbiyəvi və bu yaşda dostluq və məhəbbət hissləri, cinsi tərbiyə sahəsində səhvlərin psixoloji təhlili və aradan qaldırılması yolları, valideynlərin, müəllimlərin oğlan və qızların dostluğuna münasibətləri, maraqlı, həyati faktlar əsasında təhlil edilir. Ə.Ə.Əlizadə bu sahəyə aid xeyli ədəbiyyat araşdırmış və onları yeniyetmələrin psixoloji xüsusiyyətləri haqqında Azərbaycan milli-əxlaqi normaları ilə əlaqələndirib təhlil etmişdir.

Psixologiya üzrə dərslik və dərs vəsaitinin hazırlanması işində Ə.Ə.Əlizadənin əməyi çox olmuşdur. "Psixologiya" (1964), "Yaş və pedaqoji psixologiya məsələləri" (1974), "Ümumi psixologiya" (1981), "Sosial psixologiya" (1976), "Sosial psixologiyanın aktual məsələləri" (1986), "Məhkəmə psixologiyası məsələləri" (1985), "Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri" (1987), "Psixologiya" (1989), "Məktəblinin psixologiyası" adlı dərslik və dərs vəsaitlərinin nəşrində Ə.Ə.Əlizadə əsas müəlliflərdən biri kimi iştirak etmişdir.

Alimin yazdığı "Pedaqoji psixologiya" dərsliyindən həm tələbələr, həm də ali və orta məktəb müəllimləri geniş istifadə edirlər.

Professor "Pedaqoji psixologiya" dərsliyində 1950-ci illərdən başlayaraq pedaqoji psixologiyada dövrün təhsil konsepsiyasının uğurlarını göstərmişdir.

Əbdül Əlizadə müasir dövrdə müəllimin orta və ali məktəbdə rolunun böyük olmasını öz dərslik və məqalələrində göstərmişdir. Hər bir müəllim öz tələbə və şagirdləri üçün psixoloq, psixoterapevt, dost, yoldaş (müəyyən səviyyədə) və eyni zamanda valideyn olmalıdır.

Professor Ə.Əlizadə bizim aramızdan getməmişdir, onun qoyub getdiyi hər bir əsər bizim stolüstü kitabımızdır. O, yazdığı elmi əsərlərlə və öz böyük alimliyi ilə bizlərə böyük bir xəzinə qoyub getmişdir. O, yaşayıb, yaşayır, yaşayacaq!

**Əlizadə Hikmət Əbdül oğlu**
*Pedaqoji elmlər doktoru, professor*
*Bakı Dövlət Universiteti*
*hikmet56@gmail.com*

## ƏBDÜL ƏLİZADƏNİN YENİ PEDAQOJİ TƏFƏKKÜR KONSEPSİYASININ POSTULATLARI

***Açar sözlər:*** *yeni pedaqoji təfəkkür, postulat, ənənəvi təhsil, müasir təhsil konsepsiyası, fərdi-psixoloji xüsusiyyətlər, intellektual bacarıqlar*

Təhsil cəmiyyətin inkişafına təkan verir. Cəmiyyət inkişafının növbəti mərhələsinə qədəm qoyanda yeni pedaqoji təfəkkür yaranır və təhsil sahəsində islahatlar həyata keçirilir. Təhsilin tarixində cəmiyyətin inkişafının müxtəlif mərhələlərində yeni pedaqoji təfəkkürün yaranması və buna uyğun təhsildə yeniliklərin edilməsini əks etdirən kifayət qədər məlumatlar var.

XX əsrin 60-cı illərində dünya təhsil meridianlarında yeni pedaqoji təfəkkür yarandı. Buna uyğun olaraq təhsil yeni nəzəri metodoloji əsaslar üzərində inkişaf etməyə başladı. Yeni təlim konsepsiyaları məktəb həyatını zənginləşdirdi. Həmin dövrlərdə tərkibində yaşadığımız SSRİ-də də bu məqsədlə təhsil islahatları həyata keçirildi, amma onun istiqamətləri düzgün müəyyən edilmədi, nəticədə bu islahatlar praktik təcəssümünü tapmadı.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bu məsələ Əbdül Əlizadənin təhsil sahəsində apardığı tədqiqatların ana xəttinə çevrildi. Yeni pedaqoji təfəkkürün özünəməxsus postulatları var. Ə.Əlizadə bu postulatları aşağıdakı kimi ayırd etdi:

- Hər bir şagird bir şəxsiyyət kimi təlim tərbiyə prosesinin mərkəzi hadisəsidir;
- Təlimin məzmunu məqsəd deyil, şagird şəxsiyyətinin inkişafı üçün ancaq vasitədir;
- Müəllim şagirdin şəxsiyyət kimi məziyyətlərini görməli, ona hörmət etməli və inanmalıdır;
- Şagirdin özünüreallaşdırması üçün məktəbdə müvəffəqiyyət və xeyirxahlıq situasiyası yaradılmalıdır;
- Şəxsiyyətin psixoloji-pedaqoji diaqnostikasına xüsusi diqqət yetirilməlidir: onun maraqları, qabiliyyətləri, istiqaməti, "Mən" konsepsiyası, xarakter əlamətləri, idrak fəaliyyətinin xüsusiyyətləri sistemli öyrənilməlidir;
- Şəxsiyyətin inkişafı proqnozlaşdırılmalıdır;
- Fərdiləşmə təlim prosesi strategiyasının əsas istiqamətlərindən birinə çevrilməlidir.

Qeyd edilən postulatların təhsilə gətirdiyi məzmun dəyişikliklərini ənənəvi və müasir təhsil konsepsiyalarının müqayisəli təhlili axarında açıqlayaq.

Uzun illər boyu müəllim təlim prosesinin subyekti, şagird isə obyekti kimi mənalandırılıb. Təlim prosesi subyekt-obyekt münasibətləri çərçivəsində inkişaf edib. Bu prosesdə təlimin öyrədici və tərbiyəedici vəzifələri önəmli olub. Avtoritar münasibətlərə üstünlük verən müəllim həm də bilik mənbəyi kimi fəaliyyət göstərib. XX əsrin ortalarında yaranan yeni pedaqoji təfəkkürdə isə həm müəllim, həm də şagird subyekt kimi dəyərləndirildi. Ənənəvi təlimdə müəllim şagirdə bilik öyrənən fərd kimi yanaşırdısa, müasir təhsil konsepsiyaları şagirdi inkişaf edən şəxsiyyət statusunda dəyərləndirdi. Bu prosesdə şagird özünütəyin edən və özünüreallaşdıran

şəxsiyyətə çevrilir. Biliyin əldə edilməsi təlimin məqsədi kimi deyil, şagirdin inkişaf vasitəsi kimi qiymətləndirilir.

Ənənəvi təlim öyrədici və tərbiyəedici vəzifələr üzərində köklənmişdi. Müasir təhsil konsepsiyalarında inkişafetdirici vəzifə prioritet olmaqla yanaşı, öyrədici və tərbiyəedici vəzifələrin məzmunu da yeni məzmun kəsb etdi. Təlim vəzifələrinin məzmun yenilikləri təhsilin humanistləşdirilməsi, humanitarlaşması, fərdiləşməsi, diferensiallaşdırılması və əməkdaşlıq prinsiplərinin tələbləri çərçivəsində inkişaf etdi. Müəllim hər bir şagirdin məziyyətlərini qiymətləndirərək, ona hörmətlə yanaşaraq, özünüreallaşdırması üçün yeni üfüqlər açır.

Hər bir şagird özünəməxsus fərdi-psixoloji keyfiyyətlərə malikdir. Bu hələ qədim dövrlərdə mütəfəkkirlərin, maarifçilərin, müəllimlərin diqqətini cəlb etmişdi. Buna görə də fərdi yanaşma bütün dövrlərdə təlimin əsas prinsiplərindən biri kimi mənalandırılıb. Ənənəvi dərsdə fərdi psixoloji keyfiyyətlərin nəzərə alınması gücəmüvafiqlik prinsipinin tələbləri çərçivəsində həyata keçirilmişdi. Müəllim sinfin ümumi orta səviyyəsini müəyyən edərək dərsi sinfin (şagirdin deyil, sinfin) səviyyəsinə uyğun təşkil etmişdi. Bu zaman şagirdlərin maraqlarını, qabiliyyətlərini nəzərə almaq çətin idi. Dərsdə yalnız ənənəvi dərsin fəlsəfəsi müstəvisində idrak fəaliyyətinin xüsusiyyətləri nəzərə alınırdı. Şagirdin maraqları, qabiliyyətləri, xarakter əlamətləri isə tərbiyə prosesi ilə bağlı həyata keçirilən tədbirlərdə nəzərə alınırdı. Amma ənənəvi təhsil şagirdlərin maraq və qabiliyyətlərinin nəzərə alınması üçün yollar axtarıb. Bu məqsədlə məhdud sayda olsa da, təmayül məktəblər (bu məktəblər əksər hallarda internat tipli olurdu) yaradıldı. Təmayül tipli məktəblərdə təlim nəticələri ümumtəhsil məktəbləri ilə müqayisədə nəzərəçarpacaq dərəcədə yüksək olması ilə fərqlənib. Bu dərsin məzmununun şagirdlərin maraq və tələbatlarına uyğun olmasının nəticəsi idi.

Yeni biliyin sinfin səviyyəsinə uyğunlaşdırılması pedaqoji ədəbiyyatda tədris fənnindən şagirdə doğru istiqamətlənmək kimi mənalandırılır. Bu şagirdlərin maraq və tələbatlarının nəzərə alınmasını çətinləşdirirdi. Müasir təhsil konsepsiyaları yeni nəzəri-metodoloji yanaşma ilə – uşağın imkanlarından tədris fənninə doğru istiqaməti əsas tutmaqla bu problemi həll edə bildi. Belə yanaşma fərdi psixoloji keyfiyyətlərin dərsdə inkişaf etdirilməsi üçün geniş imkanlar açdı. Bu, fərdi yanaşmanın təlim prosesinin strategiyasına çevrilməsinin nəticəsi idi. Müasir təhsil konsepsiyalarında fərdi yanaşma intellektual bacarıqların formalaşması və inkişafına yönəlib. Dialoq, müzakirə, layihə, qrupla iş və digər interaktiv təlim metodlarının tətbiqi hər bir şagirdin intellektual inkişafı üçün özünəməxsus şərait yaradır. Bu metodların tətbiqi şagirdlərin intellektual bacarıqlarına əsaslanaraq onları müstəqil fəaliyyətə sövq edir. Ənənəvi təlimdə konkretdən mücərrədə yüksəlməyə üstünlük verilirdi. Müasir təhsil konsepsiyalarında şagirdə yeni biliyin verilməsi prosesində mücərrəddən konkretə yüksəlmə prioritet oldu. Mücərrəd tapşırıqların şagird tərəfindən konkretləşdirilməsi onların hər birinin intellektual bacarıqlarının inkişaf etməsinə şərait yaradır. Fərdiləşmə müasir təlim konsepsiyalarında öz təcəssümünü bu yolla tapır.

Müasir təhsil konsepsiyalarının fərdiləşmə strategiyasının bir istiqaməti də təmayül yönümlü məktəblərin (və ya siniflərin) çoxalmasında öz təzahürünü tapır. Təmayül məktəblərdə şagirdlər qabiliyyət və maraqlar əsasında diferensiasiya edilir. Şagirdlərin diferensiasiyası onların intellektual bacarıqlarının inkişafını şərtləndirir.

**Cəfərova Laləzar Elşad qızı**
*ADPU-nun Şəki filialının Ümumelmi fənlər kafedrasının müəllimi*
*lale_psixoloq@mail.ru*

## ƏBDÜL ƏLİZADƏNİN YARADICILIĞINDA TƏHSİLİN PSİXOLOJİ PROBLEMLƏRİNƏ BAXIŞ

***Açar sözlər**: yeni pedaqoji təfəkkür, təhsilin psixoloji problemləri, təhsilin humanistləşməsi, təxəyyül, təlim-tərbiyə*

XX əsrin 80-ci illərində yeni pedaqoji təfəkkür artıq sistemli psixopedaqoji konsepsiya kimi formalaşmağa başladı. İllərin sorağında hafizə laylası ilə uyumuş məktəbin üfüqləri təfəkkür və təxəyyül şuaları ilə bəzədildi. Şagirdə, müəllimə, təhsilə, məktəbə əsrin köklü paradiqmaları ilə yeni münasibət formalaşdı.

Əvvəlki dövrlərdə yeni pedaqoji təfəkkürün formalaşmasında həmişə pedaqoqlar önəmli rol oynayıblar. XX yüzillikdə isə pedaqoji təfəkkürün inkişafında psixologiyanın əhəmiyyəti xüsusilə artıb. Elmi-texniki inqilab şəraitində psixologiya elminin böyük uğurları yeni pedaqoji təfəkkürün formalaşmasında həlledici rol oynayıb. Azərbaycanda isə bu prosesin baş verməsində Ə.Əlizadənin rolu danılmazdır.

Onun qələmə aldığı “Müasir Azərbaycan məktəbinin psixoloji problemləri” (1998) adlı əsəri bu sahənin inkişafına təkan verən gərgin əməyin məhsuludur. Kitab yeddi hissədən ibarətdir. Birinci hissədə müasir təhsil konsepsiyası, yeni pedaqoji təfəkkürün formalaşması, məktəbin sosial funksiyası, pedaqoji ünsiyyət, ikinci hissədə inkişafetdirici təlim prinsipi, problemli təlim, ağlın keyfiyyətləri, didaktikanın “qızıl qaydası haqqında” müasir düşüncələr, Azərbaycan məktəblərində “təfəkkür dərsləri”, üçüncü hissədə ağıl və hiss məsələləri, təfəkkür və hiss, hisslərin eksperimental tədqiqi, beyin və hisslər problemi, hisslərin aktivləşməsi yolları, dördüncü hissədə təxəyyül psixologiyasında yeni konsepsiya, təxəyyül və yaradıcılıq, J.Piyaje və Donaldsonun eksperimentləri, beçinci hissədə eksperimental faktlar, hafizənin seçimi və gələcək zaman ölçüləri, pedaqoji qiymətin psixoloji məsələləri, altıncı hissədə tərbiyə haqqında, tərbiyəedici təlim prinsipi, müəllimlərin rəhbərlik üslubu, şəxsiyyətin inkişaf məsələləri, yeddinci hissədə məktəb təcrübəsində psixoloji fikrin təntənəsi naminə, təlim məqsədləri, fərdi yanaşma, təlimin fərdiləşməsi və diferensiasiyası və digər məsələlər ətraflı şərh olunur.

Göründüyü kimi, kitabda respublikamızda təhsilin psixoloji problemləri, məktəbdə psixoloji xidmətin yolları, müəllim-şagird münasibətləri və digər məsələlər yüksək səviyədə şərh olunur. Bütün bunlarla yanaşı, kitabda məktəbəqədər təhsilin psixoloji məsələləri də müasir tələblər səviyyəsində izah olunur. O, məktəbəqədər yaş dövründə uşaqların təlim-tərbiyəsinə psixoloji baxımdan yanaşılmasını zəruri hesab edir. Şəxsiyyət birinci dəfə məktəbəqədər yaş dövründə doğulur. Psixoloji baxımdan birinci dövrdə şəxsiyyətin “təvəllüd tarixi” əsasən 3 yaşında özünə “mən” deməsi ilə başlayır. Bu fikrə əsaslanan müəllif uşaqların bir şəxsiyyət kimi formalaşmasında onların motivasiya və tələbatlarının nəzərə alınmasını də əsas götürür. O, qeyd edir ki, “Şəxsiyyətin doğulmasının ilk əlamətləri uşağın tələbat motivasiya sahəsində əmələ gələn dəyişikliklərlə nəzərə çarpır.”

Müəllifin uşaqların təlim-tərbiyəsində milli adət-ənənələrin roluna yüksək qiymət verməsi və bu əsasda bir sıra məsələləri etnopsixoloji baxımdan şərh etməsi kitabın məziyyətlərindəndir. Bu baxımdan müəllifin aşağıdaki fikri çox təqdirəlayiqdir. Uşağın özünü məhz perseptual obyekt kimi fərqləndirməsi və bədənin sxeminin formalaşması onda həya zonaları haqqında təsəvvürlərin formalaşması üçün əlverişli şərait yaradır. Uşaqlarla “yaxşı nədir, pis nədir” anlamında aparılan söhbətlər onların təsəvvürlərini əxlaqi ölçülərlə daha da zənginləşdirir.

Ə.Ə.Əlizadəyə görə, təhsilin humanistləşdirilməsi təlim-tərbiyənin məzmununun, forma və metodlarının elə qurulmasıdır ki, bu zaman şagirdin şəxsi keyfiyyətlərinin, idrak proseslərinin səmərəli inkişafı üçün əlverişli şərait yaransın. “Təhsilin humanistləşdirilməsi ilk növbədə şagirdin təlim prosesində bilavasitə inkişaf etdirilməsini, onun inkişafı, özünü bir şəxsiyyət kimi təsdiq etməsi, “özünüreallaşdırması” üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur”.

Ə.Ə.Əlizadə yaradıcılığını təhlil edib qiymətləndirən Ə.T.Baxşəliyev yazır: “Professor Ə.Ə.Əlizadə tədqiq etdiyi problemlərin dərin bilicisidir. Onun təlimlə bağlı ilk tədqiqatları respublikamızda demək olar ki, işlənilməyən təxəyyül problemidir. O, bu əsəri ilə XX əsrdə Azərbaycanda eksperimental psixologiyanın inkişafında öz sözünü dedi”.

Ə.Ə.Əlizadə yazır: “Təxəyyülün başlıca funksiyası yaradıcılıqla bağlıdır. İnsan yaradıcılıq yoluna özünün müxtəlif qabiliyyətlərinin axarında gəlib çıxır. Bu yolun baş keçidi təxəyyül dünyasıdır. Təxəyyülsüz insanın digər qabiliyyətləri mahiyyətcə özlərinin yaradıcılıq vüsətini itirir”.

Ə.Ə.Əlizadə təxəyyülün aşağıdakı xüsusiyyət və funksiyalarını səciyyələndirir: 1) fəaliyyət vasitələrinin və onun son nəticəsinin obrazını yaradır; 2) problem situasiyası qeyri-müəyyən olanda öz davranışını proqramlaşdırır; 3) Bəzən elə obrazlar yaradır ki, onlar insan fəaliyyətini proqramlaşdırmır, onları əvəz edir; 4) obyektin təsvirinə müvafiq olaraq obrazlar yaradır. Ə.Ə.Əlizadə təxəyyülü koqnitiv aspektdə şərh edərkən onun birləşdirici funksiyasını önə çəkir və göstərir ki, təxəyyül ali psixi funksiya kimi idrak fəaliyətində mühüm rol oynayır, hissləri aktivləşdirir.

Ə.Ə.Əlizadəyə görə, təxəyyül həm də psixoterapevtik əhəmiyyət daşıyır. "İnsan təxəyyül oyunu ilə özünün, bir qayda olaraq, psixi sağlamlığını qoruyur. Təxəyyül təkcə yaradıcılıq effektləri ilə deyil, həm də psixoterapevtik effektləri ilə insanın həyat və fəaliyyətində xüsusi yer tutur və tutarlı psixoloji müdafiə vasitəsidir". Azərbaycanda təhsilin psixoloji problemlərinə toxunan və onu dərindən araşdıran Ə.Əlizadə bu sahədə yazdığı elmi əsərləri ilə öz dərin izini qoymuşdur.

**Məmmədova Gülər Akif qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müəllimi*
*gulermemmedova@list.ru*

## PEŞƏ FƏALİYYƏTİNİN PSİXİKAYA VƏ DAVRANIŞA TƏSİRİ

***Açar sözlər:*** *peşə, ailə, psixika, davranış, ər, arvad*

Peşə fəaliyyəti bu və ya digər şəkildə insanın davranışına, psixikasına, emosiya və hisslərinə təsir göstərir. Peşə fəaliyyəti özünün spesifik xüsusiyyətlərindən irəli gələn bir sıra təsirləri ilə insanın bəzi cəhətlərini deformasiyaya uğradır. Peşənin tələblərinə uyğun gələn keyfiyyətlər inkişaf edir, uyğun gəlməyənlər tədricən sıradan çıxır. Peşə fəaliyyəti insanların bütövlükdə psixikasına, eləcə də onun ayrı-ayrı xassələrinə ciddi şəkildə təsir edir. Hər bir peşə fəaliyyəti özünün somatik təsiri, peşə seçimi imkanları baxımından fərqləndiyi kimi, psixikasının da burada rolu böyükdür. İnsanın peşə fəaliyyətinin psixikaya təsiri qaçılmazdır.

Peşə fəaliyyəti insanın aşağıdakı xüsusiyyətlərinə təsir edir, deformasiyaya uğradır: 1) insanın anatomik və somatik quruluşuna; 2) xarici, motor hərəkətlərinə, bununla da xarici görünüşünə; 3) psixikasına; 4) insanın həyat tərzinə.

Müxtəlif peşə sahiblərini onların ünsiyyət maneralarına, nitqinə, işlətdiyi sözlərə görə bir-birlərindən ayırmaq çox da çətin deyil. Məsələn, həkimin nitqində tibbi terminlər, müəllimin nitqində pedaqoji terminlər daha çox işlədilir.

Peşə fəaliyyəti eyni zamanda insanın mənəvi aləminə, dünyagörüşünə təsir edir. Yəni hər bir peşənin xüsusiyyətinə uyğun olaraq keyfiyyətlər yaranır. Onun empatiya, simpatiya və antipatiya bəslədiyi fərqli cəhətlər meydana çıxır. Buna uyğun olaraq, onun dünyagörüşü, münasibətlər sistemi formalaşır. İstər-istəməz bunlar vəhdət halında özünü ər-arvad, ailədaxili münasibətlər sistemində təzahür etdirir.

Peşənin insana təsirini aşağıdakı kimi ümumiləşdirmək olar: 1) asudə vaxt büdcəsi; 2) məişət şəraiti; 3) geyimi; 4) qidalanma; 5) əyləncələrinin xarakteri (restorana getməsi, musiqi dinləməsi, teatra getməsi, əyləncələri və s. ); 6) ailə vəziyyəti; 7) əhatə dairəsi, dostları, yoldaşları.

İnsanın fiziki, psixi və sosial deformasiyasına onun peşə fəaliyyətinin ciddi şəkildə təsiri qaçılmazdır. Bunlar da onun şəxsiyyətini, həyat tərzini, münasibətlər sistemini müəyyənləşdirir. Bütün bunlar ailədaxili münasibətlərdə öz əksini tapır. İnsan demək olar ki, hər gün eyni işi görür, peşə fəaliyyətindən irəli gələn aktları təkrarlayır. Beləliklə, onda peşə vərdişi yaranır. Bir sözlə, peşə həmin şəxsə öz "möhürünü" vurur.

Çalışdığı peşədən, fəaliyyət sahəsindən asılı olaraq insanın təfəkkür tərzi də fərqli olur. Peşədən asılı olaraq kimdəsə əyani-obrazlı, kimdəsə məntiqi təfəkkür daha güclü inkişaf edir. Bəzilərində ümumiləşdirmə, digərlərində təhlil güclü olur. Bir sıra psixoloqlar kişi və qadınların

anatomik-fizioloji, bioloji xüsusiyyətlərindən irəli gələn fərqlərlə yanaşı, eyni peşədə çalışsalar belə, onların psixikalarına müxtəlif formada təsir göstərdiyini bildirirlər.

Ailədaxili münasibətlər kifayət qədər səbir tələb edir və çoxşaxəlidir. Ər-arvad münasibətləri eyni zamanda valideyn-övlad münasibətlərinə təsir edir. Bütün bunlar isə valideynin peşə fəaliyyətindən, şəxsi keyfiyyətlərindən çox asılıdır.

## ƏDƏBİYYAT


1. Babayeva, Ş.R. Sosial psixologiya: Dərslik / Ş.R. Babayeva, M.F. Həsənova.- Bakı: ADPU,- 2019.-338 s.
2. Çələbiyev N.Z. Ailə psixologiyası / N.Z. Çələbiyev.-Bakı: Mütərcim,-2015.-416 s.
3. Əfəndiyeva, Ü.A. Əsrin gender konsepsiyası / Ü.A. Əfəndiyeva.- Bakı: ADPU, -2017.-228 s.
4. Əliyev, Ə.Ə. Qloballaşma prosesinin milli xüsusiyyətlərlə qarşılıqlı təsirinin sosial-psixoloji əsasları:/ psixologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı)/- Bakı, 2014.-22 s.
5. Вопросы изучения и воспитания личности/ Под ред. В.М. Бехтерева.- Петербургъ: Государственное Издательство, - 1921.-662 с.



**Allahverdiyeva Safura Bayram qızı**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*
*Bakı Dövlət Universiteti*
*allahverdiyevasafura@gmail.com*


## ƏBDÜL ƏLİZADƏNİN "MÜASİR AZƏRBAYCAN MƏKTƏBİNİN PSİXOLOJİ PROBLEMLƏRİ" ƏSƏRİNDƏ ŞƏXSİYYƏTIN FORMALAŞMASININ PSİXOLOJİ EFFEKTLƏRİ

***Açar sözlər:*** *yeni pedaqoji təfəkkür, inkişafetdirici təlim prinsipi, tərbiyəedici mühit, inkişafetdirici mühit, şəxsiyyətin doğulması, tələbat-motivasiya sahəsi*

XX əsrin sonlarında Ə.Əlizadə "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" kitabı ilə ölkəmizdə təhsilin inkişafı nəzəri-metodoloji və metodiki baxımdan mühüm əhəmiyyət kəsb edən prioritetləri müəyyən etdi. Kitabda müasir təhsil konsepsiyaları yeni pedaqoji təfəkkürün məhsulu kimi dəyərləndirilir, təlimin inkişafetdirici prinsipi aktual pedaqoji prinsip kimi vurğulanır, müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi və şagirdin məktəbdə şəxsiyyət kimi formalaşması əsas tələb kimi irəli sürülür. Fənyönümlü xarakteri ilə əlamətdar olan, yaddaşın inkişafına xidmət edən ənənəvi təlimdə prioritet xarakter daşıyan öyrədici vəzifə müasir dövrün tələbləri baxımından tənqid süzgəcindən keçirilir, təfəkkürün və təxəyyülün formalaşması əqli inkişaf müstəvisində təhlil edilir, müəllim-şagird münasibətləri, təlimə marağın yaradılması, motivasiya yaratmağın təsirli yolları, "çətin uşaq" problemi, təlim məqsədləri taksonomiyası kimi məsələlər elmi psixoloji və yeni təfəkkür baxımından izah olunur, müxtəlif tədqiqatların, xüsusilə eksperimental tədqiqatların nəticələri həm müəllifin öz dili ilə şərh olunur, həm də müxtəlif müəlliflərin yozumu və təfsiri əsasında nəzərdən keçirilir. Bu kitab məzmunu etibarilə yaddaş məktəbindən təfəkkür məktəbinə keçid fəlsəfəsi üzərində köklənmişdi.

Məktəbin problemləri həmişə pedaqoqlar tərəfindən müəyyən edilib. İnkişafetdirici təlim prinsipinin önəm verildiyi müasir təlim konsepsiyalarının məktəbə tətbiq edilməsi psixoloji tədqiqatlara ehtiyac yaratdı. Ə.Əlizadənin "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" kitabında qaldırılan pedaqoji məsələlərin psixoloji həlli yolları göstərilir, psixologiyada, xüsusən təhsil istiqamətində aparılan tədqiqatların müasir dövrdə məktəbin təlim vəzifələrinin həllində önəmli rol oynadığı öz təsdiqini tapır. Kitabda qoyulan məsələlər təlim məsələlərinə həsr olunsa da, müəllif inkişafetdirici təlim prinsipinin tərbiyəedici xarakterinə də nəzər salır, bu məsələni şəxsiyyətin formalaşması müstəvisində təhlil edir. B.Blumun təlim məqsədləri taksonomiyasında

koqnitiv strukturların formalaşması əsas götürülür, inkişafetdirici təlim prinsipi yalnız təfəkkürün formalaşması və inkişafı baxımından əhəmiyyət kəsb edir. Ə.Əlizadə bu problemə daha geniş aspektdən yanaşır, koqnitiv strukturların formalaşmasını şəxsiyyətin inkişafı müstəvisində təhlil edir, təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici vəzifələrinin vəhdət halında, humanistləşdirmə prinsipi müstəvisində həyata keçirilməsini şagird şəxsiyyətinin inkişafının yolu kimi dəyərləndirmiş və işləyib hazırladığı üçtərkibli taksonomiya (təhsil-inkişaf-mədəniyyət) vasitəsi ilə bu ideyanın praktik təcəssümünün yollarını göstərmişdi. "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" kitabında isə bu məsələ nəzəri-metodoloji səpkidə işlənmişdi.

Məktəb yarananda təhsil məkanı kimi yaranıb, burada təlim önəmli olub. Halbuki qədim dövrlərdə yeni nəslin tərbiyə məsələləri təlim məsələlərində daha əvvəl yaranmışdı. Tərbiyə ilə ilk dövrlərdə icmanın üzvləri, daha sonra icmanın ağsaqqalları məşğul olmağa başlamışdılar. Ailə yaranandan sonra bu vəzifə onun öhdəsinə verilmişdi. Ata-ana uşağın ilk tərbiyəçiləri kimi fəaliyyət göstərmişlər. Məktəblərin yaranması qədim dövrə, xüsusən yazının əmələ gəldiyi dövrlərə təsadüf edir. İlk məktəblərdə şagirdlərə yazı, oxu, hesab öyrədilib. Təbii ki, bu məktəblərdə tərbiyəedici mühit yaranıb və bu mühit şagirdlərin inkişafında mühim rol oynayıb. Elə buna görə də məktəb tərbiyə institutu kimi mənalandırılıb. Lakin məktəbin əsas vəzifəsi öyrətmək ölçüləri çərçivəsində müəyyənləşdirilib, şagirdləri yeni biliklərlə silahlandırmaq önəmli olub. Bu ənənə əsrlər boyu davam edib. Müasir dövrdə də məktəbin əsas vəzifəsi təlim məsələləri ilə bağlıdır. Təlimin tərbiyəedici vəzifəsi pedaqoqlar tərəfində xüsusi olaraq vurğulanır, müəllimlər imkan tapdıqca dərsin tərbiyəedici imkanlarından istifadə edirlər. Bununla yanaşı, məktəblərdə tərbiyə işləri də həyata keçirilir. Lakin məktəblərin geniş miqyasda və sistemli olaraq, tərbiyə işləri ilə məşğul olması üçün şərait məhduddur. Məktəbin infrastrukturu da təlim məsələlərinin həllinə istiqamətlənib.

Tərbiyə məsələlərinin həllində ailənin rolu böyükdür. Məktəb tərbiyə məsələlərinin həlli baxımından ailə ilə müxtəlif formalar vasitəsi ilə əlaqə saxlayaraq hətta valideynlərin pedaqoji maariflənməsinə xüsusi önəm verir. Məktəb bu işləri ailədə tərbiyə məsələlərinin düzgün təşkili yolu kimi dəyərləndirir. Yəqin ki, məktəbin ailə ilə əlaqə saxlayaraq ailə tərbiyəsinin yaxşılaşdırması yollarının axtarması məktəbin tərbiyə işlərini lazımi səviyyədə təşkil edə bilməməsinin nə vaxtsa dərk edilməsi fonunda yaranıb.

Müasir dövrdə ailədə yaranan demoqrafik vəziyyət ailə tərbiyəsini çətinləşdirib. XX əsrdə şəhər ailə tərzinin geniş vüsət alması, nuklear ailələrin formalaşması, çoxuşaqlı ailədən azuşaqlı ailəyə keçid, valideynlərin hər ikisinin işləməsi, boşanmaların sayının çoxalması və s. kimi demoqrafik proseslər ailənin tərbiyə funksiyasını lazımi səviyyədə həyata keçirməsinə mane olur. Bu öz təzahürünü ilk növbədə ailə konfliktlərinin artmasında və bunun fonunda uşağa nəzarətin zəifləməsindfə tapır. Nəzarətin azalması uşağın dərsdən sonra vaxtını boş-boşuna həmyaşıd uşaqlar qrupunda keçirməsinə rəvac verir. Bu məktəbin təlim vəzifələrini həyata keçirməsində çətinliklər yaradır. Ə.Əlizadə bu məsələlərə diqqəti cəlb edərək uşağın tərbiyə məsələlərini şəxsiyyətin formalaşması kontekstində araşdırmış, diqqəti fərdin şəxsiyyətə çevrilməsi probleminə yönəldərək psixoloji baxımdan şəxsiyyətin doğulması məsələsini aktuallaşdırır və onun inkişafının iki dövrünü: məktəbəqədər və yeniyetməlik yaş dövrlərini ayırd edir. Hər iki dövr şəxsiyyətin formalaşması və inkişafı baxımından özünəməxsusluqlara malikdir. Bu özünəməxsusluqları Ə.Əlizadə aşağıdakı kimi səciyyələndirir.

Birinci dövr uşağın "Mən" deməsi ilə, onun tələbat-motivasiya sahəsinin yaranması ilə başlayır. Bu zaman dünyanı dərk etməyə başlayan uşaqda motivlərin yaranması, uşağın özünün fəaliyyəti və yaşlı adamın tələblərini yerinə yetirməsi, insanın ətrafdakı adamlarla ünsiyyətinin zəruriliyini dərk etməsi, özünü perseptual obyekt kimi dəyərləndirməsi, öz hərəkətlərinin mənəvi tərəflərini başa düşməsi, cinslərarası ünsiyyət sahəsində davranış etiketlərini mənimsəməsi və s. məsələləri vurğulayır. Bu dövr ailə və bağçanın tərbiyəedici mühitində baş verir, məktəbin ibtidai siniflərində davam etdirilir.

Şəxsiyyətin doğulmasının ikinci dövrü yeniyetməlik dövrünə təsadüf edir. Mənlik şüurunun formalaşmasını, şagirdin özünüqiymətləndirməsinin, psixoloji avtoportretinin və onun laylarının,

“Mən obraz”ının strukturunda “real Mənin”, “sosial Mənin”, “ideal Mənin” yaranmasını, iddia səviyyəsini əmələ gəlməsini və s. bu dövrün özünəməxsusluqları kimi ayırd edir. Maraqlıdır ki, hər iki dövrdə qeyd olunan məqamlar müxtəlif alimlərin apardığı eksperimentlərin nəticələri əsasında izah olunur və ən əsası həmin xüsusiyyətlərin formalaşmasını tərbiyəçi (valideyn, müəllim) ilə uşaq münasibətləri fonunda təhlil edir.

Şəxsiyyətin inkişafı baxımından hər iki dövr əhəmiyyət kəsb edir. Birinci dövr valideyn uşaq, tərbiyəci-uşaq münasibətlərinin əsasında formalaşmağa başlayır, amma özünün sonrakı inkişafını ibtidai sinif müəllimi ilə şagird arasında tapır. İkinci dövrdə şəxsiyyətin inkişafında müəllim-şagird münasibətləri önəmli rol oynayır. Bu istiqamətdə Ə.Əlizadə uşaqla (şagirdlə) münasibətlərin humanistləşdirilməsini şəxsiyyətin inkişafının aparıcı qüvvəsi kimi dəyərləndirir.

**İmamverdiyeva Nəzakət Bəylər qızı**
*BDU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*
**Bayramova Afət Aben qızı**
*BDU-nun baş müəllimi*
*naza-45@mail.ru*

## TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİ ƏBDÜL ƏLİZADƏNİN YENİ PEDAQOJİ TƏFƏKKÜR KONSEPSİYASININ ƏSAS PRİNSİPİ KİMİ

***Açar sözlər:*** *yeni pedaqoji təfəkkür, təhsilin humanistləşdirilməsi, idrak prosesləri, inkişaf, motivasiya, didaktik şərait, müəllim-şagird münasibətləri*

Ə.Əlizadənin yeni pedaqoji təfəkkür konsepsiyasının prinsiplərindən biri kimi təqdim etdiyi təhsilin humanistləşdirilməsi məzmunu etibarı ilə müxtəlif dövrlərdə fərqli şəkildə səsləndirilib, ya humanizm tərbiyəsi, ya da “müəllim-şagird”, “şagird-şagird” münasibətlərinin humanistləşdirilməsi kimi mənalandırılıb. Ə.Əlizadə bu prinsipin izahında M.N.Berulavanın “təhsilin humanistləşdirilməsi təlimin və tərbiyənin məzmununun, forma və metodlarının elə qurulmasını nəzərdə tutur ki, bu zaman hər bir şagirdin fərdiyyətinin, idrak proseslərinin, şəxsi (şəxsiyyətəməxsus) keyfiyyətlərinin səmərəli inkişaf etməsi təmin olunur, uşağın yaxşı oxuya bilməsi və ya oxumaq istəməsi üçün əlverişli şərait yaradılır” fikrinə əsaslanır və onun üç istiqamətini ayırd edir:

1.İnkişafın psixologiyası və pedaqogikası məsələləri;
2.Şagirdin yaxşı oxumaq istəməsi üçün şəraitin yaradılması;
3.Müəllim-şagird münasibətləri.

Ə.Əlizadə birinci istiqamət kimi, şagirdlərin təlim prosesində inkişaf etdirilməsini təhsilin humanistləşdirilməsinin ana xətti kimi mənalandırır və inkişafın üç sahəsini – fiziki, koqnitiv və psixososial sahəsini fərqləndirir. İnkişaf insan doğulan gündən başlayır. Uşaq yaşa dolduqca, həm məişət səviyyəsində sosial təcrübəyə yiyələnir, həm ətraf aləmdə baş verənləri qavrayır, həm də onun psixi funksiyaları (qavrayış, hafizə, təxəyyül, iradə, hisslər və s.) yeni məna çalarları ilə fərqlənir. Təlimin necə təşkil olunmasından asılı olmayaraq, o şagirdin inkişafına xidmət edir. Əldə etdiyi biliklər onun həm sosial təcrübə toplamasında, həm ətraf aləmdə baş verənlərdən baş çıxarmasına, həm də psixi proseslərinin yeni məziyyətlər əldə etməsinə kömək edir. Təlimin öyrədici vəzifəsinin yerinə yetirilməsi onun yeni bilik əldə etməsinə istiqamətlənsə də, məzmunu etibarı ilə bu və ya digər dərəcədə öz məzmununda inkişafetdiricilik xarakterinə malikdir. Amma bu inkişafetdiricilik müəllimin xidməti kimi deyil, biliyin mənimsənilməsi prosesinin nəticəsi kimi qiymətləndirilir. Müəllim-şagird münasibətləri humanistləşəndə şagirdin inkişafı üçün daha geniş imkanlar açılır. Buna görədir ki, müasir təhsil konsepsiyalarında inkişafetdirici əsas təlim vəzifələrindən birinə çevrilir və təlim üç vəzifənin qovşağında – təhsil, tərbiyə və inkişaf – həyata keçirilir.

Şagirdin bilik və səriştələr əldə etməsi təhsil vəzifəsinin funksiyası olub, həm də şagirdlərin psixi proseslərinin inkişafına xidmət edir. Bu pedaqoji həqiqətdir, bunu inkar etmək olmaz. Lakin görəsən şagirdə bilik və səriştə əldə etməklə onun fikirləşmək qabiliyyətini inkişaf etdirmək olar? Bənzərsiz izahları ilə bu suala cavab verən Ə.Əlizadə bildirir ki, müasir təhsil konsepsiyası ənənəvi didaktik sistemdən fərqli olaraq koqnitiv strukturların inkişafı problemini sadəcə olaraq hafizə məkanında deyil, yeni psixoloji məkanda-təfəkkür və hiss məkanında həll edir.

Koqnitiv strukturların inkişaf yolu kimi Ə.Əlizadə interaktiv metodların (rollu oyunlar, əqli hücum, layihələrin hazırlanması, işgüzar səs-küy, söz assosiasiyaları, problemin interaktiv həlli, məsləhət mübadiləsi və s.) mühüm rol oynadığını bildirir, hər bir fənnin tədrisində onların tətbiqinin özünəməxsus yollarının axtarılıb tapılmasını zəruri sayır. Lakin müxtəlif psixoloji tədqiqatlara əsaslanaraq, bu metodların tətbiqi ilə yanaşı şagirdin inkişafının mənbəyini sinif məkanında mövcud olan şəxsiyyətlərarası münasibətlərdə axtarır. Sinif məkanında mövcud olan şagirdlərarası qarşılıqlı münasibətlər sistemindən asılı olaraq interaktiv təlim metodlarının tətbiqi müxtəlif nəticələri ilə fərqlənir. Bu artıq sinif məkanında humanist münasibətlərin nə dərəcədə bərqərar olması ilə başlı məsələdir.

İkinci istiqamət şagirdlərin oxumaq istəməsi ilə bağlıdır. Şagird məktəbə daxil olarkən və məktəbdə olduğu bütün müddətdə oxumaq istəməsi, ilk növbədə, onun üçün yaradılmış şəraitdən asılıdır. Pedaqogika da bu məsələ didaktik şərait anlayışı ilə mənalandırılır. Bu anlayış iki aspektdə önəmli əhəmiyyət kəsb edir.

I. Məktəbin (sinfin) tərtibatından tutmuş, şagirdlərin istifadə etdikləri maddi-texniki avadanlıqların hamısı şagirdin təlim maraqlarının formalaşmasına xidmət etməlidir. Bu məsələyə önəm verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və I Vitse-Prezident, Heydər Əliyev fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə müasir dövrün tələblərinə tam cavab verən məktəblərin tikilməsi və şagirdlərin ixtiyarına verilməsi təhsilin humanistləşdirilməsi baxımından, ilkin şərt kimi, mühüm əhəmiyyət kəsb edir.

II. Təlim uğurları təkcə şagirdlərin qabiliyyətləri ilə deyil, həm də onlarda motivasiyanın olmasından asılıdır. Müasir təlim konsepsiyaları motivasiyanın olmamasını şagirdin təlimdə geridə qalma səbəblərindən biri kimi qiymətləndirir. Ənənəvi təlimdə bu məsələnin həll edilə bilməməsinin səbəbi onun tədris fənnindən şagirdə doğru istiqamətlənməsi idi. Müasir təhsil konsepsiyaları şagirdin maraq və qabiliyyətlərindən tədris fənninə doğru istiqamətlənməni əsas sayır. Şagirdin maraq və qabiliyyətlərinin inkişafı təhsilin humanistləşdirilməsi prosesində prioritetə çevrilir.

Üçüncü istiqamət müəllim - şagird münasibətlərinin formalaşması ilə bağlıdır. Məktəb həyatında şagirdin məktəb yoldaşları ilə münasibətlərə daxil olması onun inkişafında mühüm rol oynayır. Lakin şagirdin münasibətlər məkanında önəmli rol müəllim-şagird münasibətləridir. Bu münasibətlər həm şagirdin fənnə münasibətini şərtləndirir, həm onun təlim fəaliyyətinin xarakterini müəyyənləşdirir, həm də digər şagirdlərlə münasibətinə bu və ya digər dərəcədə təsir edir. Başqa sözlə desək, müəllim-şagird münasibətləri şagirdin məktəb həyatının uğurlarına köklü şəkildə təsir edə bilir.

Müəllim-şagird münasibətləri müəllimin pedaqoji üslubu əsasında müəyyənləşir. Pedaqoji ədəbiyyatda müəllimin avtoritar, liberal və demokratik üslubu ayırd edilir. Müasir təlim konsepsiyalarında demokratik müəllim üslubuna üstünlük verilir. Belə ki, əməkdaşlıq prinsipi əsasında formalaşan müasir təhsil konsepsiyası bu prinsipin yalnız demokratik münasibətlər müstəvisində həyata keçirilməsinin mümkün olduğunu vurğulayır. Əməkdaşlıq məzmunu etibarı ilə özündə demokratizmi, bərabərliyi və partnyorluğu ehtiva edir. Bu zaman müəllim-şagird münasibətləri subyekt-subyekt müstəvisində təhlil olunur. Bu yanaşma sinifdə şəxsiyyətin inkişafı üçün geniş üfiqlər açır.

**Nəsibova Afaq Bəxtiyar qızı**
*Bakı Slavyan Universitetinin baş müəllimi, p.ü.f.d.*
*afaqnesibova@mail.ru*

## ƏBDÜL ƏLİZADƏ TƏHSİLİN PSİXOPEDAQOJİ MƏSƏLƏLƏRİ HAQQINDA

***Aşar sözlər:*** *təhsil, mədəniyyət, elmi irs, məktəb, problemlər, müəllim*

Azərbaycanda elmi psixologiyanın inkişafında müstəsna xidməti olan psixoloqlardan biri də Əbdül Əlizadədir. Onun elmi-tədqiqat işləri təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da tanınmışdır. Ə.Əlizadə hər zaman özünəməxsus dəsti-xətti, elmi yaradıcılığı, düşüncə tərzi və şəxsi keyfiyyətləri ilə öz müasirlərindən seçilmişdir.

Ə.Əlizadə yaradıcılığına nəzər salsaq görərik ki, o, öz əsərlərində psixologiyanın bütün sahələrinə nüfuz etmiş, bir çox problemlərə aydınlıq gətirməklə, özündən sonra böyük elmi bir irs qoymuşdur.

Öz tədqiqat işlərində tez-tez təhsil və onun psixopedaqoji məsələlərini işıqlandıran Əbdül müəllim, bu problemi öz yaradıcılığının prioritet məsələsi hesab edirdi. Təhsili mədəniyyətin əsas tərkib hissəsi hesab edən Ə.Əlizadə yazırdı: "Təhsil mədəniyyətin zəruri tərkib hisəsidir. Onun arxitektonikası mədəniyyətin xarakteri ilə müəyyən olunur və aydın məsələdir ki, inkişaf meylləri ancaq mədəniyyət aspektində sistemli təhlil olunub mənalandırıla bilər". Bu sözləri ilə müəllif təhsili şəxsiyyətin öznütəsdiqinin əsas vasitəsi hesab etmiş, "Təhsil əsri" adlandırılan XXI əsrdə dünya standartlarına uyğun, müasir cəmiyyətin tələblərinə cavab verən, yeni yanaşmalar əsasında təhsil sisteminin qurulmasının vacibliyini vurğulamışdı.

Qeyd etdiyimiz kimi, Ə.Əlizadənin yaradıcılıq fəaliyətinin əsas məsələlərindən biri müasir dövrdə Azərbaycan təhsilinin psixopedaqoji problemləri və onların həlli yollarının araşdırılması idi. Bu problemlər sırasında müasir Azərbaycan məktəbi və onun problemləri, müəllim hazırlığı, müəllim-şagird münasibətlərinin düzgün əsaslarda qurulması və s. kimi aktual məsələlər dururdu. Sadalanan problemlərin həllinin əsas vasitəsi kimi Ə.Əlizadə, "yeni pedaqoji təfəkkür" konsepsiyasının ana xəttini təşkil edən təhsilin humanistləşdirilməsində görürdü. O, "məktəb həyatının humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün ana xətti kimi özünü göstərir. İnsan amili ancaq bu yolla məktəb həyatına nüfuz edib önəmli məna kəsb edə bilər", – deyirdi. Bu ideya Ə. Əlizadə yaradıcılığının bütün dövrlərində öz aktuallığını qorumuş, müəllifi olduğu "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" (1998), "Yeni pedaqoji təfəkkür: psixopedaqoji araşdırmalar" (2008) və bir çox əsərlərində aparıcı mövzu olmuşdur. Ümumiyyətlə, onun məktəbə psixoloji xidmət, ailə psixologiyası, sosial psixologiya və bir çox sahələrdə apardığı tədqiqatlar və əldə etdiyi nəticələr, bu gün də Azərbycan psixologiya elminə böyük töhfədir.

Əbdül müəllim ömrünün 50 ilindən artıq bir müddətini çox sevdiyi və böyük məsuliyyət və ləyaqətlə icra etdiyi müəllimlik peşəsinə həsr etmiş, bir çox gənc tələbələrə psixologiya elminin dərinliklərini öyrətmiş, ümumiyyətlə Azərbaycan təhsilinin inkişafı, savadlı kadrların yetişdirilməsi üçün böyük işlər görmüşdür. O, bütün ömrü boyu öz tələbələrinə ədalətlilik, halallıq, zəhmətkeşlik nümunəsi olmuşdur. Əsl pedaqoq kimi tələbələrinə böyük sevgi və humanistliklə yanaşan Ə. Əlizadə tamamən təmənnasız olaraq hər mənada onlara dəstək, nümunəvi davranışı ilə ətrafdakı insanların hörmət, rəğbət və sevgisini qazanmış və gənc nəsillər üçün gözəl örnək olmuşdur. Məhz bu səbəbdəndir ki, hal-hazırda onun yetirmələri sırasında əməkdar müəllimlər, elmlər doktoru və professorlar var. Əbdül müəllim öz sevimli tələbələrinin yaddaşında hər zaman təmənnasız, səmimi, ləyaqətli, təvazökar, humanist, xeyirxah bir müəllim kimi yaşayacaqdır.

**Quliyev Akif Əlihüseyn oğlu**
*Azərbaycan Dillər Universitetinin dosenti, psixol.ü.f.d.*
*akif.quliyev.54@mail.ru*

# ŞAGİRDLƏRDƏ YARADICI FƏALİYYƏTİN FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *təxəyyül, əqli proseslər, istedad, eksperiment, yaradıcı surətlər, fantaziya, linqvistik qabiliyyətlər*

Yaradıcı fəaliyyət zamanı təxəyyül daim axtarışda olan psixoloji faktor kimi özünü göstərir. Yeni surətlərin yaradılması və onlarm yeni formada qurulması ani ixtiraya səbəb olur. Təxəyyülün aktiv fəaliyyəti diqqətin mərkəzləşməsinə və əqli proseslərin bir yerdə işə qoşulmasına zəmin yaradır. İstər şagirdlərin, istərsə də tələbələrin təxəyyülünün inkişaf etdirilməsi ilə bağlı tapşırıqlar, məsləhətlər, tövsiyələr və izahatlar zamanı müəllimin özündə də təxəyyülün sürətlə inkişaf etməsinə münasib şərait yaranır. Müəllim növbəti dərsi təxəyyülündə qura bilir.

Yaradıcı təxəyyülün yaranması insanın özü ilə bağlı bir proses olsa da, onun inkişaf etdirilməsi təkcə insanın özündən asılı deyildir. Belə ki, orta məktəbdə şagirdlərin yaradıcı təxəyyülünün inkişaf etdirilməsində məktəb müəllimlərinin də rolu böyükdür. Bu məsələ ilə əlaqədar olaraq professor Ə.Əlizadə aşağıdakı fikirləri qeyd etmişdir. “Müəllim səmərəli təlim üsullarından istifadə edib yeniyetmənin yaradıcı təxəyyülünü fəallaşdırdıqda, o, maraqlı hadisələr fıkirləşir, müəyyən bir ideyanı bədii surətlər vasitəsi ilə ifadə edir, surətlərin qarşılıqlı əlaqəsinə xüsusi diqqət yetirir. Xüsusilə orta məktəb yaşı dövründə şagirdlərin yaradıcı fəaliyyətində təxəyyülün reallığı yeni məna kəsb edir. Yeniyetmə yeni təxəyyül surətləri yaradarkən məntiqi reallığı nəzərə alır və onu məhz gerçəklik cəhətdən qiymətləndirir ” (4, s.97)

Yaradılan surətlər, onların təsviri, keçirdiyi bu və ya digər hisslər göydəndüşmə olmamalıdır. Bədii əsərdə təsvir olunan surətlərin daxili aləmi düzgün əks etdirmədikdə, hər hansı qəhrəmanın davranışı psixoloji cəhətdən əsaslandırılmadıqda hərəkətlər quraşdırma, süni təsir bağışlayır. Surətin daxili aləminin inandırıcı şəkildə açılması bədii əsərin təsir gücünü artırır. Bəzən surətlərin düzgün yaradılmaması bir sıra anlaşılmazlıqlara gətirib çıxarır. Belə ki, hər hansı bir bədii əsərdə yaradılan obrazlar oxucunu qane etmir. Surətlərin yaradılması yaş predmeti ilə də əlaqədardır.

Yaradıcılıq fəaliyyəti olduqca mürəkkəb bir prosesdir.Yaradıcılığın inkişaf etməsində bir sıra psixi proseslər fəal iştirak edir. Ona görə də bu hadisələri öyrənmək üçün,onları araşdırmağa imkan verən metodlardan istifadə etmək lazımdır. Burada eksperiment metodunun seçilməsi son dərəcə mühüm əhəmiyyət kəsb edir. Ona görə də psixologiyada, o cümlədən yaradıcılığın tədqiqində bu metoddan geniş istifadə olunur.

Orta məktəblərdə şagirdlər üzərində apardığım müşahidələr zamanı bir sıra maraqlı hallarla qarşılaşdım. Belə ki, V və VI siniflər istər kitablarda, istərsə də verilən əlavə materiallarda daha çox vizual görünüşə üstünlük verirdilər. Lakin təəccüb etdiyim bir hal o idi ki, yaş fərqləri az olmasına baxmayaraq artıq VII sinif şagirdləri materiallarda olan şəkil və ya rəngli fıqurlara deyil, daha çox materialın məzmununa, orada yazılan hər hansı bir cümlənin düzgün olub olmamasına, texniki (hərf və ya rəqəm ) və ya cümlənin düzgün quruluşu ilə bağlı səhvlərə diqqət edirdilər.

Müşahidədən əlavə V sinif şagirdlərindən şəkil çəkmələrini xahiş etdim.Onlardan bəziləri fantastik, real olmayan şəkillər təqdim etdilər. Lakin əksəriyyəti bütün uşaqların düşündüyü ətraf aləmi, müxtəlif heyvanları, öz istəklərini arzu etdikləri məfhumları çəkməyə çalışdılar. Şagirdlərdən bəziləri insan rəsmi çəkərkən iri gözlər və ya tam əksi kiçik gözlər təsvir etmişdilər. Araşdırmalara əsasən iri çəkilən gözlər uşağın dünyaya marağının yüksək olduğunu göstərir. İçi boş və ya nöqtə olaraq çəkilən gözlər isə uşağın qapalı olmasına işarətdir. Məhz bu şəkli təsvir edən uşaqlarla qabiliyyət testini həyata keçirdim. Sinif üzrə yalnız bir şagirddə şəxsiyyətdaxili qabiliyyət nəticəsini əldə etdim.

Şagirdlərin yaradıcı təxəyyülünün inkişafının sistemi, imkanları və yolları, metodik təminatı kiçik yaşlardan başlayaraq düzgün müəyyənləşdirildikdə və onun həyata keçirilməsində ardıcıllıq və məqsədyönlülük əsas götürüldükdə, istənilən səmərəli nəticəni əldə etmək mümkündür.

## ƏDƏBİYYAT


1. S.İ.Seyidov, M.Ə.Həmzəyev. Psixologiya. Bakı: Nurlan, 2007
2. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı: Çinar-çap nəşriyyatı, 2009
3. Ə.Ə.Qədirov. Yaş Psixologiyası. Bakı: Maarif nəşriyyatı, 2002
4. Ə.Əlizadə. Şagirdlərin yaradıcı fəaliyyətinin psixologiyası. Bakı: Maarif nəşriyyatı, 1968
5. Ə.Əlizadə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi. Bakı: Maarif nəşriyyatı, 1965



**Həsənova Pərişan Məhərrəm qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, p.ü.f.d.*
*perisanhesenova@gmai.com*


## MÜASİR AZƏRBAYCAN MƏKTƏBİ ƏBDÜL ƏLİZADƏNİN PSİXOPEDAQOJİ YARADICILIĞINDA

***Açar sözlər:*** *təhsil və psixoloji problemlər, pedaqoji təfəkkür, milli ənənələr, bəşəri dəyərlər*

Əbdül Əlizadə müasir təhsil nəzəriyyəsinin psixoloji problemlərini yeni pedaqoji təfəkkür baxımından şərhini vermiş pedaqoq alim kimi dəyərləndirilməlidir. Əlizadə hələ 20-30 il bundan əvvəl dünya psixopedaqoji fikrinin nümayəndələri, onların elmi tədqiqatları və sivil ölkələrin məktəb təcrübəsindən bəhrələnməyi tövsiyə edir, özü də bu mütərəqqi ideyaları Azərbaycan psixopedaqoji fikrinə çatdırırdı. O, qeyd edirdi ki, bu ideyalar milli ideya və ənənələrimizi bəzi dəyərlərlə üzvi surətdə üzləşdirən Azərbaycan məktəbi üçün önəmlidir. O, xatırladırdı ki, bu ideyalar artıq bərqərar olmuş yeni pedaqoji təfəkkürü əks etdirir və bir çox cəhətdən köhnə ənənələrə sığmır.

L.S.Vıqotskinin konsepsiyasına əsasən təlim inkişafı öz arxasınca aparmalıdır. Bəşəriyyət hər cəhətdən anbaan inkişaf edir. Bu inkişafı yaradan, onun memarı olan insan təhsildə formalaşıb yetişir. Bu günkü təlim inkişafı öz arxasınca apara bilərmi? Tarix boyu bu sual pedaqoji fikir nümayəndələrini düşündürmüşdür. Hazırda müasir texnologiyaların sürətli inkişafı bizə onu deməyə əsas verir ki, gələcəyə təkcə bilikli insan deyil, daha çox bacarıqlı insan lazımdır. Onsuz da biliyi əvəz edə biləcək NANO texnologiyalar kifayət qədərdir. Əsas məsələ məlumatı qəbul edib, onu təfəkkür süzgəcindən keçirərək biliyə çevirmək və tətbiq sahələrini tapıb ortaya qoymaqdır. Hələ keçən əsrin 90-cı illərində Əbdül Əlizadə hafizə məktəbindən təfəkkür məktəbinə keçməyin zəruriliyini irəli sürərkən məhz bu problemin olduğuna diqqəti yönəldirdi. Öyrədənə biliyi hazır şəkildə vermək yox, ona düşünməyi öyrətmək lazımdır. Əlizadə öz əsərlərində haqlı olaraq ənənəvi məktəbin daha çox bilik verdiyini qeyd edir, lakin onlara düşünməyi, fikirləşməyi öyrətməyi və bunu müasir Azərbaycan məktəbinin ən mühüm problemlərindən hesab edirdi. O, bu problemlərin həllini elmi cəhətdən əsaslandırır, bu sahədə öz sözlərini demiş tədqiqatçılardan P.P.Blonskinin, J.Piajenin, L.S.Vıqotskinin, D.B.Elkoninin və başqalarının konsepsiyalarını təhlilə cəlb edirdi. Ə.Əlizadə təfəkkürü əqlin zirvəsi hesab edirdi. Niyə? Bildiyimiz kimi, insan həmişə yeniliyə can atır. İnsan yalnız idraka sahib olduqda yenini kəşf edə bilər. İdrak yeninin kəşfidir. İdrak fəaliyyəti yalnız yüksək təlimin nəticəsi olaraq meydana çıxır. Hələ uşaqkən insan aləmi hissləri- duyğuları ilə dərk edir. Çünki o dünyaya gələndə duyğu aparatı ilə gəlir. Həyat təcrübəsi artdıqca, aləm haqqında bilikləri dərinləşdikcə, artıq o, təkcə duymur, həm də duyduqları haqqında düşünür- analiz edir, sintez edir, ayırır, sistemləşdirir, konkretləşdirir, müqayisə edir,

nəhayət, əqli nəticə çıxarır və hökm verir, yəni müəyyən təfəkkür əməliyyatlarını yerinə yetirir, fikri fəaliyyət həyata keçirir- hissi, duyğu səviyyəsindən ağıl səviyyəsinə, rassional səviyyəyə bir yol alır. Deməli, yeniyə nail olmaq üçün yüksək təfəkkürə sahib olmaq lazımdır.

Ə.Əlizadənin elmi yaradıcılığında didaktikanın "qızıl qaydası" adlandırılan əyanilik prinsipinə xüsusi münasibət var. Xüsusilə bu prinsip müasir təhsilin ən yaralı yeridir. Təlimdə əyanilik idrakın ilkin pilləsi olan hissi idrakı hərəkətə gətirir, məntiqi idrak üçün vəsilə olur. Çox təəssüf ki, müasir hesab etdiyimiz məktəblərimizdə inkişafetdirici mühiti formalaşdıra biləcək əyaniliyə əsaslanan tədris otaqları azdır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın dördüncü strateji istiqamətində göstərildiyi kimi, müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması və s. nəzərədə tutur.

Ümumiyyətlə, Ə.Əlizadənin elmi fəaliyyətində müasir Azərbaycan məktəbinin bütün cəhətlərinə toxunulur: o, pedaqoji prosesdə tərbiyənin psixoloji effektlərini şəxsiyyət mövqeyindən araşdırımış, müəllim-şagird münasibətlərini qlobal bir problem kimi irəli sürmüş, məktəb təcrübəsində psixoloji xidmət məsələlərinə xüsusi önəm verməyi vacib saymışdır.

**Həsənquliyeva Könül Ənvər qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının müəllimi*
*abalakisiyev020@gmail.com*

## ƏBDÜL ƏİZADƏNİN ƏSƏRLƏRİNDƏ PSİXOPEDAQOJİ MƏSƏLƏLƏR

***Açar sözlər:*** *psixologiya, psixopedaqogika, təlim, təhsil, müəllim, şagird*

90-cı illərdən başlayaraq prof. Ə.Əlizadənin elmi fəaliyyətində aparıcı rol oynayan istiqamətlərdən biri də ölkəmizdə milli təhsil quruculuğunun elmi-nəzəri platfomasının yaradılmasında, eləcə də yeni təhsil konsepsiyasının tələblərinə cavab verən dərslik və tədris vəsaitlərinin hazırlanmasında yaxından iştirak etməsidir. O, həmmüəllifləri ilə birgə “İlk addımlar”, “Ailə”, “İnsan və cəmiyyət”, “Psixologiya” və “Sosial psixologiya” dərsliklərinin müəllifidir. Həmin dövrdə onun pedaqoji psixologiya problemləri haqqında 200-ə yaxın elmi məqaləsi çap olunmuşdur. Əbdül müəllimin “Xalq qəzeti”ndə dərc olunmuş polemik xarakterli “Milli təhsil quruculuğu: problemlər, perspektivlər” adlı məqaləsi ən ciddi mütəxəssislərin iştirakı ilə geniş diskussiyanın başlanmasına yol açmış, ölkəmizdə milli təhsil konsepsiyasının formalaşmasında müəyyən rol oynamışdı.

XX əsrin 60-cı illərindən etibarən təhsil konsepsiyası şagirdlərdə təfəkkürün inkişaf etdirilməsinə istiqamətlənmişdirsə, XXI əsrin astanasında kreativlik önəmli yaradıcılıq problemi kimi formalaşdı. Əbdül Əlizadənin fikrincə, bu şəraitdə təhsil konsepsiyasında yeni bir mərhələ - təxəyyül mərhələsi əmələ gəldi. Nəticədə, müasir dərsin məzmununda koqnitiv proseslərlə bərabər, kreativ proseslər, yaradıcılıq prosesləri yarandı.

Təxəyyül bir psixi proses kimi hansı məziyyətlərlə seçilir? Uzun illər psixologiyada təxəyyülün məziyyətlərini açıqlayanda onu yeni obrazların yaradılması kimi səciyyələndiriblər. Müasir psixologiyada isə Əbdül Əlizadənin təbirincə desək, təxəyyülün mahiyyətini araşdırmaq üçün böyük elmi dəyərə malik olan yeni konsepsiyalar əmələ gəlib. Bu konsepsiyalara görə, təxəyyül psixi proses kimi:

1.Tamı hissədən əvvəl görməyi nəzərdə tutur;

2.Funksiyanı bir əşyadan başqasına keçirməyi nəzərdə tutur.

Klassik psixologiyada yeni obrazların yaradılması təxəyyül prosesi kimi qiymətləndirilirdi. Həmin dövrdə yaradıcı təfəkkür fenomeni bəlli deyildi. Yaradıcı təfəkkür fenomeni kəşf olunanda, təxəyyül psixologiyasında da yeni istiqamət əmələ gəldi. Problemin mübahisəli məsələləri

özünəməxsus psixoloji müstəvidə - təxəyyül və təfəkkür müstəvisində açıqlanmağa başlandı. Əbdül Əlizadənin fikrincə, bu yeni istiqamətdir. Təxəyyül obrazlarının əmələ gəlməsinin özünəməxsus psixoloji məkanı var: bu məkan hissi obrazla fikri obrazın mürəkkəb və çoxcəhətli sahəsindədir. Təxəyyül ancaq bu sahədə, hissi obrazla fikri obrazın dialektik ölçülərlə qovuşduğu sahədə yaranır. Hissi obrazla fikri obrazın qarşılıqlı əlaqəsi ikitərəflidir.

1. Fikrin konkretdən (hissi obrazdan) mücərrədə (fikri obraza) yüksəlməsi;
2. Fikrin mücərəddən (fikri obrazdan) konkretə (hissi obraza) yüksəlməsi.

Həyat və fəaliyyətini ölkəmizin müstəqillik dövrünə düşən yetkin çağlarında prof. Ə.Əlizadə təhsilin psixologiyası, xüsusən də etnopsixologiya ilə bağlı tədqiqatlarında xalqımızın klassik psixoloji irsinin öyrənilməsini diqqət mərkəzində saxlayır, bu sahədə böyük Azərbaycan alimi Nəsirəddin Tusinin konseptual ideyalarını dünya elminə dəyərli töhfə kimi qiymətləndirir. “Nizaminin psixoloji görüşləri” və “Xəmsə”də yaş və pedaqoji psixologiya məsələləri” monoqrafiyaları da məhz bu istiqamətli araşdırmaların məhsulu kimi meydana çıxmışdır. Bu mərhələdə prof. Ə.Əlizadənin təhsil psixologiyasına aid tədqiqatlarını təkmilləşdirməklə yanaşı, etnopsixoloji problemlərin araşdırılmasını da ön plana çəkməsi qanunauyğun hal idi. Bütün pedaqoji və elmi fəaliyyəti boyu gənc nəslin milli mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasını vacib hesab edən alimin müstəqil dövlət quruculuğu illərində şəxsiyyətin milli psixologiya zəminində formalaşdırılması ideyasını elmi tədqiqatlarının aparıcı xətti kimi qəbul etməsi tamamilə təbii görünür. Prof. Ə.Əlizadənin mövqeyinə görə, həyatın bütün sahələri kimi milli təhsil sistemini də yenidən quran Azərbaycanda təlim-tərbiyə işinin optimal inkişaf istiqamətlərinin düzgün seçilməsi, şəxsiyyət tərbiyəsinin elmi əsaslarda həyata keçirilməsi, ailədə, məktəbdə və cəmiyyətdə qarşılıqlı münasibətlərin humanist prinsiplərlə qurulması xüsusi əhəmiyyət daşıyır.

Həmin konsepsiyanın həyata keçirilməsində Əbdül Əlizadənin özü də dəyərli elmi əsərləri ilə yaxından iştirak edir. “Yeni pedaqoji təfəkkür”, “İstedadlı uşaqlar: psixoloji məsələlər”, “İdrak prosesi və hisslər”, “Təxəyyül: psixoloji etüdlər” kitablarını bu fəaliyyətin məhsulu kimi qiymətləndirmək olar. 1998-ci ildə nəşr olunmuş “Müasir Azərbaycan məktəbinin psixoloji problemləri” adlı fundamental əsəri isə çağdaş psixologiya elminin ən yüksək səviyyədə dayanan bir nümunəsidir.

Dərslik yaradıcılığı sahəsində ümumən 20-dən artıq kitabın müəllifi olan Əbdül müəllimin 2010-cu ildə prof. H.Əlizadə ilə birgə çap etdirdiyi “Pedaqoji psixologiya” dərsliyini mütəxəssislər müasir Azərbaycan psixologiyasının ən böyük nailiyyəti kimi qiymətləndirirlər. Kitab özünün pedaqoji, psixoloji, metodiki göstəriciləri ilə müasir təhsil nəzəriyyəsinin, yeni pedaqoji təfəkkürün prinsiplərinə tam cavab verir.

**Kərimova Gülarə Hüseynağa qızı**
*Bakı Dövlət Universitetinin dosenti*
*mansur.manerov@mail.ru*

## PROFESSOR ƏBDÜL ƏLİZADƏ ALİ MƏKTƏB MÜƏLLİMİ KİMİ

***Açar sözlər:*** *ali məktəb, müəllim, strategiya, humanistlik, müdriklik, şəxsiyyət, təhsil*

Ali məktəbdə təlim-tərbiyə prosesinin təşkili və həyata keçirilməsində böyük rol oynayan şəxsiyyətlərdən biri də müəllimdir. Müəllim pedaqoqdur, tədris edəndi, təhrik edəndi və ustaddır. Pedaqoji fəaliyyətin mərkəzində dayanan müəllim gənc nəslin tərbiyə olunması kimi məsul işi yerinə yetirir. Məşhur yunan filosofu Sokrat hələ vaxtı ilə peşəkar pedaqoqları “ Əqlin (fikrin) törədiciləri” adlandırmışdı. Deməli, bilikli müəllim hazır gərçəkliklər barədə məlumatlar verməklə deyil, tələbənin başında yeni fikirlərin yaranmasına kömək etməlidir. Öz biliyini tələbələrin beyninə köçürməyi bacaran, onlarda yaradıcı düşünmək qabiliyyətini formalaşdıra bilən müəllimlərdən bir professor, əməkdar elm xadimi, prezident təqaüdçüsü Əbdül Əlizadədir. Əbdül

müəllim peşəkarlığı və səriştəliliyi ilə seçilən alimlərdən biridir. Bəlkə elə buna görə idi ki, böyük nüfuza, ali zirvəyə yüksələ bilmişdir. Təsadüfi deyildir ki, 2013-cü ildə qəbul edilən Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında dönə-dönə müəllim peşəkarlığından nüfuzundan bəhs edilir. Strategiyada göstərilir ki, "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlardan, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur.

Əbdül müəllim yaradıcı şəxs idi. Onun psixoloji-pedaqoji yönümlü əsərləri müəllim və tələbələrin bilik alma mənbələrinə çevrilmişdi. İnkişafetdirici təlim texnologiyası tədrisin səviyyəsinin yüksəldilməsinə yönəlmişdi. Bu təlimin şagirdlərin gücü çatan çətinlik səviyyəsində qurulması və inkişafı öz ardınca aparması ideyasıdır ki, Əbdül müəllim onu daim öz əlində rəhbər tutmuşdur. Əbdül müəllim sakit, mülayim təbiətli alim idi. Bu mülayimlik tələbələrin dərsdə özlərini idarə edə bilməməsinə şərait yaratmırdı, əksinə onlar müəllimlərinin bu xüsusiyyətlərini özləri üçün vacib nümunə hesab edirdilər. Nümunə tərbiyənin ən sınanmış və böyük təsir gücünə malik metodlarından biridir. Görkəmli pedaqoq K.D.Uşiniski müəllim nümunəsinin böyük gücündən bəhs edərək yazırdı: "Müəllimin cavan ruha təsiri elə bir tərbiyə qüvvəsidir ki, heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz" . Bəli, Əbdül Əlizadə öz sakit və səmimi davranışı ilə nəinki tələbələrinə, ona yaxın olanlara da nümunə idi.

Əbdül müəllim dərsdə hirslənməz, kimə isə birbaşa irad tutmazdı. Onun özünəməxsus, dərsliklərdə verilməyən metodları var idi. O, tələbələrin həm təlim fəaliyyətinə cəlb olunmalarına, həm də tərbiyə olunmalarına güclü təsir göstərə bilirdi. Onun 1996-cı ildə təlim məqsədlərinin sistemli şəkildə xarakterizə edən taksonomiya terminindən istifadə etməklə üçtərkibli taksonomiya yaratmışdır. Birinci bölmədə təhsil, ikinci bölmədə inkişafetdirici, üçüncü bölmədə tərbiyəedici təlim məqsədləri onun məhz düşüncəsinin məhsulu olaraq irəli gəlmişdir.

Əbdül müəllim humanist pedaqoqlardan idi. Humanistlik onun təbiətinin atributlarından biri idi. Bu həm də onun peşəsindən gələn keyfiyyətlərdən biridir.Ona görə də Əbdül müəllim dəyişməz, möhkəm əqidəyə malik müəllim kimi sevilir. O tələbələrini sevir. V.A. Suxomlinski yazırdı: "Tərbiyəçinin ən qiymətli keyfiyyətlərindən biri insanlıqdır, uşaqlara dərin məhəbbətdir, atanın, ananın səmimi nəvazişi ilə müdrik ciddiyətini və tələbkarlığını özündə birləşdirən məhəbbətdir".

Əbdül müəllim həm də tələbkar müəllim idi. Şagirdlərə humanist münasibət birtərəfli xarakter daşımır, yəni humanistlik tələbkarlığı inkar etmir. Burada tələbkarlıq tələbə şəxsiyyətinə hörmətlə birləşir, onunla müşayiət olunur. Təsadüfi deyildir ki, humanistliyi arzu edən pedaqoqların bu gün həyatda gerçəkləşən ideyaları təhsilin humanist istiqamətliliyi prinsipi kimi ifadə olunmaqla pedaqoji prosesdə əsas məsələyə çevrilmişdir. Görkəmli türk mütəfəkkiri Əl-Fərabi yazırdı: "Müəllimin davranış normalarının mahiyyəti ondan ibarətdir ki, o nə həddindən artıq ciddilik nümayiş etdirməyi, nə də son dərəcə mülayim və ya hər şeyə göz yuman olmalıdır, çünki, sərtlik şagirdi müəllimin əleyhinə qaldırır, etikasızlıq müəllimə hörmətsizliyə, tədris etdiyi fənnə və onun elminə laqeyd münasibətə gətirib çıxarır".

Əbdül müəllim yenilikçi, zamanı qabaqlamağı bacaran alimlərdəndir. Belə ki, təlim üçün ilk növbədə psixoloji və öyrədici mühiti yarada bilməsi, tətbiq etdiyi yeniliyi özünün hazırladığı texnoloji plana əsaslanaraq tətbiq edə bilməsi və aldığı nəticələri təhlil edərək ümumiləşdirmələr aparması, biliyi yaradıcı tətbiq etməyi bacarması buna canlı sübutdur.

Azərbaycan psixologiya elminin ustadlarından sayılan Əbdül Əlizadə dərsdə ünsiyyət yaratmaq qabiliyyəti ilə də seçilirdi. Bu onun tələbə psixologiyasını dərindən bilməsindən irəli gələn məsələlərdəndir. O, yüksək müşahidəçilik qabiliyyətinə, analitik təfəkkürə, tələbənin daxili aləminə nüfuz etməyi bacaran şəxsiyyətlərdən idi. Bütün bunlar isə onun psixoloji biliyinin dərinliyindən irəli gəlirdi.

Əbdül müəllimin təbiətinə xas olan dəyərlərdən biri onun müdrik olmasıdır. Dərsdə şagirdlərə yanaşma tərzi, onlara təsiretmə imkanları, maraq yarada biləcək fikirləri Əbdül Əlizadənin müdrikliyindən irəli gəlir. Müdrikliyin ifadə formalarından biri sadəlik və

sözübütövlükdür. Təlim prosesində tələbələrə qayğılı münasibəti, onların fikirlərinə öz fikrini qatması, onlara təlimlə bağlı verdiyi sözü sübut etməsi bunun bariz nümunəsidir: Azərbaycan xalqı müdrik xalqdır, onun bariz nümunəsi Əbdül Əlizadədir.

**İsmixanov Məcid Abdulla oğlu**
*BDU-nun Pedaqogika kafedrasının professoru, p.ü.f.d.*
*m.ismixanov@mail.ru*

## ƏBDÜL ƏLİZADƏNİN TƏLİM TAKSONOMİYASI KONSEPSİYASI

***Açar sözlər:*** *təlim məqsədləri, taksonomiya, öyrənmə, inkişaf, mədəniyyət*

Bu il doxsan illik yubileyini qeyd etdiyimiz dünyaşöhrətli psixoloqumuz əməkdar elm xadimi, prof. Əbdül Əlizadə psixologiya elminin köklü məsələləri ilə yanaşı, pedaqoji psixologiyanın aktual problemləri ilə də məşğul olmuş, yeni konseptual yanaşmalarla zənginləşdirmişdir. Bu baxımdan təlim məqsədləri taksonomiyası problemi də onun yaradıcılığında önəmli yer tutur.

1. Hər cür fəaliyyət, o cümlədən təlim fəaliyyəti məqsədyönlü xarakter daşıyır; məqsədsiz fəaliyyət yoxdur. Bəs, təlimdə başlıca məqsədlər hansılardır, onları hansı sistemdə və necə reallaşdırmaq olar? Uzun müddət psixologiya və pedaqogikada bu məsələ lazımi dərəcədə öz həllini tapmamışdır. Pedaqoji nəzəriyyə və təcrübədə təlimə ancaq öyrətmək, bilik vermək prosesi kimi birtərəfli baxılmış və həyata keçirilmişdir. Pedaqoji psixologiyada da ilk dövrlərdə təlim taksonomiyaları koqnitiv məqsədlərə söykənirdi (B.Blum, C.Gilford, G.Lefransua və b.).

2. Uzun illər yaradıcılıq fəaliyyətini psixologiya və pedaqoji psixologiyanın actual nəzəri və tətbiqi problemlərinin öyrənilməsinə həsr edən görkəmli psixoloqumuz Əbdül Əlizadə təlim məqsədlərinin taksonomiyası probleminə yeni mövqedən – müasir təhsil nəzəriyyəsinin konseptual paradiqmalarından çıxış edərək özünün original modelini – üçtərkibli təlim taksonomiyasını işləyib hazırladı.

Bu taksonomiya mövcud taksonomiyalardan fərqli olaraq təlimin məqsədini təhsil verməkdə və inkişaf etdirməkdə yox, həm də tərbiyə etməkdə, onları vəhdət halında həyata keçirməkdə görürdü.

3. Ə.Əlizadənin təlim məqsədlərinin taksonomiyası iki variantda işlənmişdir. Taksonomiyanın "Təhsil→İnkişaf→Tərbiyə" adlanan I variantı (1998-ci il) 3 bölmədən ibarətdir: birinci bölmədə bilik, bacarıq və vərdişlərlə bağlı məqsədlər, ikinci bölmədə inkişafetdirici məqsədlər, üçüncü bölmədə isə şəxsiyyətin formalaşması istiqamətində təlimin tərbiyəedici məqsədləri açıqlanır.

Taksonomiyanın II variantı (2007-ci il) "Öyrənmə-İnkişaf-Mədəniyyət" paradiqmalarına söykənir. Burada "Öyrənmə" mahiyyət etibarı ilə əvvəlki variantda qeyd olunan "təhsilin" ekvivalentdir. Lakin müəllif B.Blumun öyrənmə taksonomiyasının 4 elementinə (bilik, anlama, tətbiq və qiymətləndirmə) yeni element (bacarıq, vərdiş, xatırlama) əlavə etməklə onu genişləndirmişdir. Eləcə də B.Blumun "İnkişaf" taksonlarına yeni elementlər (müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə) əlavə etmiş, bununla da təfəkkür prosesinə sistemli yanaşmanı təmin etmişdir.

Ə.Əlizadə təlimin tərbiyəedici məqsədini Taksonomiyanın I variantında "tərbiyə", II variantında isə "mədəniyyət" paradiqmaları ilə açıqlayır və "mədəniyyət" taksonları sistemini müəyyənləşdirir (hisslər, ünsiyyət, mənlik şüuru, əxlaqi, iradi, milli-mənəvi və ümumbəşəri mədəniyyət).

4. Ə.Əlizadənin təlim məqsədləri taksonomiyası pedaqoji psixologiya nəzəriyyəsinə mühüm töhfə olmaqla təlim prosesində böyük tətbiqi əhəmiyyətə malikdir. Onun reallaşdırılması sayəsində şagirdlər sadəcə öyrənmir, öyrənə-öyrənə inkişaf edir və şəxsiyyət kimi formalaşır. Təlim məqsədlərinin taksonomiyası Milli Kurikulumun elmi-psixoloji əsasını təşkil edir.

Kurikulum təhsil modelində nəzərdə tutulan təlim nəticələrinin, məzmun və qiymətləndirmə standartlarının əsasında təlim taksonomiyası durur. Məzmun standartları iki tərkib hissədən – bilik və fəaliyyətdən ibarətdir. Onların əsasını "üçtərkibli" taksonomiyanın "öyrənmə", "inkişaf" və "mədəniyyət" taksonlarına söykənən şəxsiyyətyönümlü təlim paradiqması təşkil edir.

**Əliyev Həsən Cahangir oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*hesen.cahangir@gmail.com*

## PSİXİ SAĞLAMLIQ PROBLEMLİ UŞAQLARIN MƏKTƏBƏ ADAPTASİYA OLUNMASINDA PEDAQOJİ DEONTOLOGİYANIN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *şəxsiyyət, psixika, etika, davranış, dezadaptasiya*

Deontologiya (yunan dilindən deon-borc, loqos-elm) – mənəvi borc, professional etika haqqında elmdir. Pedoqoji deontologiya humanist pedaqogikanın bir hissəsi olub, müəllimin uşaq və cəmiyyət qarşısında borcundan bəhs edir.

Müəllimin və ya tərbiyəçinin davranışı,sözləri,səs tonu,münasibəti mənəvi və psixi cəhətcə sağlam şəxsiyyətin formalaşmasına kömək etməklə yanaşı eyni zamanda dərin komfliktin yaranmasına səbəb ola bilər ki, son nəticədə də bu uşağın dezadaptasiyasına səbəb ola bilər.

Pedaqoji deontologiya psixoloji və psixoprofilaktik qaydalara əməl olunması üzərində qurulmalıdır.Bu xüsusən "risk qrupuna" daxil olan uşaqlara qarşı münasibətdə daha əhəmiyyətlidir. "Risk qrupuna" psixi inkişafı ləngiyən, müvəqqəti və ya daimi sinir-psixi pozuntulu (asteniya,nevrotik vəziyyət, psixopatiya, nevroz, nevrotik reaksiyalar,bəzi funksional pozuntular,yüngül formalı şizofreniya,autizm və epilepsiya),çətin tərbiyə olunan uşaqlar aiddirlər. Belə uşaqlar məktəbə adaptasiya ola bilmirlər, həyəcan keçirirlər, istənilən qıcığa qarşı həssas olurlar. Adətən psixi sağlamlıq problemi olan uşaqları sinif yoldaşları ələ salırlar ki, bu da vəziyyəti daha da kəskinləşdirir və onlar məktəbə gəlmək istəmirlər. Halbuki bu uşaqların içərisində xüsusən dəqiq elmlərə istedadı olanlarlar olur. Orta məktəb müəllimləri yüngül psixi xəstəlikli və psixi xəstəliklərlə sərhəd vəziyyətində olan uşaqlarla xüsusən müasir dövrdə tez- tez rastlaşırlar. Sözsüz ki, müəllimlər psixi xəstəlikləri diaqnozlaşdıra bilməzlər. Lakin müasir dövr pedaqoqları somatik və psixi xəstəliklər haqqında ümumi biliklərə malik olmalı, vaxtında uşağın xəstəlik əlamətlərinə diqqət verməli, sinir-psixi pozuntunu tərbiyəsizlikdən fərqləndirməlidirlər.

Xəstə psixikalı uşağın davranışına düzgün qiymət verilməməsi çox vaxt komfliktlərə səbəb olur və nəticədə nəinki uşaq əziyyət çəkir, eyni zamanda müəllim hörmətdən düşür və ümumilikdə təlim-tərbiyə prosesi pozulur.Buna görə də müəllimlərə nəinki uşağın şəxsiyyətinin formalaşması qanunauyğunluqlarını, həm də zəif psixikalı uşaqların psixi xüsusiyyətlərini bilmək vacibdir. Bu biliklər müəllimə belə uşaqlarla dil tapmağa, onların məktəbə uyğunlaşmasına və onların hərəkətlərinə müxtəlif üsullarla korreksiya etməyə imkan verər.

Əgər sağlam uşaqlarda düzgün sosial vərdişlər tərbiyə etmək, onları bilik və müəyyən vərdişlərə öyrətmək,iradəni,nizam-intizamı tərbiyə etmək,aktiv həyat pozitsiyası yaratmaq lazımdırsa, psixi pozuntulu uşaqlarda bunlarla yanaşı psixikanın patoloji,xəstə xüsusiyyətlərini düzəltmək, onların yalnış davranış formalarını dəyişmək lazımdır.

Zəif psixikalı uşaqların davranış xüsusiyyətlərini bilmək, pedaqoqlara nəinki təlim-tərbiyə prosesini düzgün təşkil etməyə kömək edəcək, həm də valideynlərə tərbiyə məsələlərinə aid mütəxəssis məsləhətləri vermək imkanı yaradacaq.

# PSİXOLOGİYADA GENDER PROBLEMLƏRİ

**Qasımova Ləzifə Nağı qızı**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müdiri, professor*
*lazifagasimova@gmail.com*
**Mahmudova Rəhimə Mahmud qızı**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının dosenti*
*ragimahamhudova@gmail.com*

## ƏBDÜL ƏLİZADƏNİN QADIN PSİXOLOGİYASI ƏSƏRİNDƏN

***Açar sözlər:*** *qadın, nümunə, tərbiyə, fenomen, ünsiyyət*

Azərbaycan elmi həmişə yetişdirdiyi təhsil fədailəri ilə fəxr etmişdir. Bu sırada Əbdül Əlizadə fenomeni də dayanmışdır. Azərbaycan psixologiya elminin nəhənglərindən sayılan Əbdül Əlizadənin elm və təhsil yolu maraqlı və ibrətamizdir. Onun həyatının psixoloji cığırları Azərbaycan Dövlət Universitetinin tələbəsi olduğu dövrlərdə açılmışdır. O, Azərbaycan tarixinin ziddiyyətli: dövlət siyasətinin sürətlə dəyişdiyi, ictimai münasibətlərin bir-birini əvəz etdiyi dövrlərində elmi yaradıcılığa başlasa da, bu çətinliklər onun psixoloji düşüncələrinə mənfi təsir göstərə bilməmişdir. Milli ruha məsub olan Əbdül Əlizadə fenomeninə “pislik”, “şər”,“paxıllıq” anlayışları yaddır. Onun yaşayışı, varlığı müsbət enerji mənbəyi, həvəsləndirici qida məhsuluna çevrilmişdir. Əbdül Əlizadənin elmi məclislərdə iştirakı, çıxışları, dəyərli tövsiyələri, onun psixoloji dünyasının inkişaf tarixi idi. 1963-cü ildə Leninqradda psixoloqların ikinci qurultayında 1968-ci ildə SSRİ psixoloqlarının Kiyev şəhərində keçirilən üçüncü qurultayda, 1971-ci ildə Tbilisidə keçirilən dördüncü qurultayında, 1977-ci ildə Moskva şəhərində keçirilən dördüncü qurultaylarında və s. mötəbər məclislərdə fəal iştirak etmişdir. Əbdül Əlizadənin yaradıcılığını tam tədqiq edib qurtarmaq olmaz. Onun yaradıcılığının elə zəngin çalarları vardır ki, onu hər kəs öz düşüncələri ilə təhlil edə bilər və ondan yeni-yeni ideyalar pöhrələnər. Zəngin məna çalarlarına malik əsərlər sırasında 2015-ci ildə ömrünün son dövrlərində ərsəyə gətirdiyi “Qadın psixologiyası” adlı əsəri fəlsəfi-psixoloji esselərdir. 6 hissə və əlavələrdən ibarət olan əsərdə qadın ailənin məhəbbət nurudur, elin, obanın şərəfidir, böyük və müqəddəs anadır. Əsərin birinci hissəsində romantik məhəbbət və onun təzahür xüsusiyyətlərindən, orta məktəb illərinin romantikasından və onların praktik məzmunundan bəhs edilir. Əsərdə müəllif uşaqlıq illərinin romantikasından bəhs etsə də, burada onların psixoloji dünyası və müəllimin pedaqoji təsiri aydın görünür. Müəllif: Görəsən, romantik münasibətlərin formalaşmasını nə ilə izah etmək olar? sualına cavabı E.Eriksonun və Qarri Stek Sallivanın konsepsiyası əsasında izah edir və ona münasibət bildirir.

Məhəbbət görüşlərinin eyforiyasından bəhs edən müəllif ünsiyyət qanunları ilə bir-birini sevən qız və oğlanların məktəb görüşlərindən bəhs edir, məhəbbət görüşlərinin özünəməxsusluğunu izah edir və göstərir ki, ailə kimi məktəb həyatının da öz sərt tabuları var. Bu tabular ailə tabuları qədər sərt olmasa da, hər halda qadağadır, nəyi isə rəğbətləndirmir, nəyə isə birmənalı əxlaqi öçülərlə nidalı “Yox!” deyir. Bu tabuların sehrində oğlan və qız sevişsə də, onların münasibətləri şagird statusu ilə şərtlənir. Əsərin ikinci fəsli “Qadın emosionallığının bəzi sosial-psixoloji sindromları” adlanır. “Emosionallıq: qadın psixologiyasının önəmli problemləri”, “Qadın psixologiyasında”, “Göz yaşı sindromu: V açar sözün işığında”, “Emosionallığın qız utancaqlığı və utanma dilemması” və s. məsələlər cəmləşmişdir. Qadın utancaqlığının iki aspektdə izahını verən müəllif Azərbaycan qadınına məxsus davranış rituallarını xarakterizə edir. Qadınların davranış ritualları həmişə əsrin mədəniyyət kanonları ilə şərtlənir. Onları bu konteksdə araşdıran Əbdül Əlizadə qadın davranış rituallarının çoxölçülü müasir mənzərəsini yaratmışdır. Əbdül Əlizadənin sözügedən tədqiqatında ailə münasibətləri də xüsusi səhifə təşkil edir. Əsərdə həm də göstərilir ki, qadın mimikası pantomimikası, intonasiyası, kinesikası qadının psixoloji

həyatına öz-özünə, möcüzəli emosional boyalar bəxş edir. Müəllif əsərin üçüncü hissəsində qadın təxəyyülündən, onun kreativ potensialından, qadın qısqanclığı və onun psixoloji modelindən, ustad ana dərslərinin Landau həqiqətlərindən, ailədə ana məktəblərinin paradoksları və s. bəhs edir. Qadın təxəyyülündən bəhs edən müəllif üç təxəyyül pərdəsinin geniş təhlilini verir. Birinci pərdədə Əbdül Əlizadə statistik məlumatlara əsaslanaraq göstərir ki, böyük yazıçıların, alimlərin, mühəndislərin, böyük əksəriyyəti kişilərdir. Onların qadınlara nisbəti 10:1-ə bərabərdir. Bu mahiyyətcə nə qədər təəccüblü görünsə də, həqiqət budur. Çünki statistika real rəqəmlərə əsaslanır.

İkinci pərdədə qadın təxəyyülünün röya salnaməsindən söhbət açılır. Bu pərdədə röya obrazları, məhəbbət royaları, təxəyyül nəğmələri, gənclik illərinin məhəbbət olayları və s. bəhs edilir. Əsərin dördüncü hissəsində nuklear ailələrin şəxsiyyətlərarası münasibətlər aləmindən bəhs olunur. Müəllif şifahi xalq yaradıcılığından gətirilən nümunələr əsasında nuklear ailələrin şəxsiyyətlərarası münasibətlər sistemində izah edir. O cümlədən burada humanist psixoloq A.Maslounun klassik "Sevib-sevilmək" parafrazı dörd hissədə əks olunmuşdur. Əsərin "Qadın psixologiyasının paradoksları və boşanma" adlı beşinci hissəsi boşanma, qadın problemi, ənənəvi ailənin ata-baba məktəbi, ailədə nənənin yeri, ailədə ögey uşaq problemi, qadının ikinci kəbini məsələlərini özündə birləşdirir. Altıncı fəsildə isə müasir qadın psixologiyasında qız tərbiyəsinin yeni versiyalarından bəhs olunur. Müasir qızların iradi keyfiyyətləri, qızların ailədə, hətta məktəblərdə iradi tərbiyəsi probleminə bu hissədə aydınlıq gətirilmişdir.

Yekun olaraq bildirmək istəyirik ki, prof. Əbdül Əlizadənin ərsəyə gətirdiyi "Qadın psixologiyası" əsəri müasir qadının bədii psixologiyasını əks etdirən Azərbaycan şəxsiyyət psixologiyası tarixində yazılan ilk əsərdir. Qadın psixologiyasının bütün çalarlarının ətraflı izahı bunu deməyə əsas verir ki, mürəkkəb məzmuna malik qadın keyfiyyətlərinin öyrənilməsi və gətirilən nümunələrlə qadınların öz həyatlarında müsbət keyfiyyətləri artıra biləcəklərinə kömək edə biləcək belə əsərlərin yazılması zəruridir. Və bu baxımdan "Qadın psixologiyası" əsərini Azərbaycan qadınlarına böyük töhfə verə biləcəyi baxımından yüksək dəyərləndiririk.

**Cəlilova Sevinc Xazay qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, p.ü.f.d.*
*sevinjjalilova@yahoo.com*
**Musayeva Gülşən Əli qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*gulsen.musayeva.75@mail.ru*

## ÜMUMİ ORTA TƏHSİL MƏKTƏBLƏRİNDƏ FİZİKA FƏNNİ ÜZRƏ MÖVZULARIN TƏDRİSİNDƏ İNKLÜZİV TƏHSİLIN PEDAQOJİ-PSİXOLOJİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *İnklüziv, inteqrativ təhsil, nitq pozğunluğu, fizika, sağlamlıq məhdudiyyətləri*

İnklüziv təhsilin əsas vəzifəsi cəmiyyətdə sağlam şəxsiyyətlərarası münasibətlərin qurulması və uşağın olduğu kimi qəbul edilməsi, onun mövcud təhsil sisteminə uyğunlaşdırılmasıdır. İnklüziv təhsilə xüsusi ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən və belə uşaqlara qarşı ayrı-seçkiliyi azaldan ideologiyaya əsaslanır. Beləliklə, inklüziv təhsil xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün ən perspektivli təhsil formasıdır.

İnklüziv təhsilə xas olan əsas dəyərlər aşağıdakılardır:

- hər kəsin təhsil hüququ var;
- tərbiyə doğulandan başlayır və yetkinlik dövründə bitmir;
- bütün uşaqlar öyrənə bilər;
- hər kəs müəyyən sahədə və ya müəyyən vaxtlarda öyrənmə çətinlikləri ilə üzləşə bilər;
- təlim prosesində hər kəsin köməyə ehtiyacı var;

- öyrənmənin təşviqinə cavabdeh olan müəllim, təhsil müəssisəsi, ailə və cəmiyyətdir;
- Ayrı-seçkilik yaradan münasibət və davranış tənqid edilməlidir.

Sağlamlıq imkanları məhdud, eyni zamanda nitq inkişafında ciddi qüsurları olan uşaqlar üçün müasir təhsil sisteminin islahatı, xüsusi təhsilə ehtiyacı olan uşaqların təhsil və tərbiyəsinin məhsuldarlıq aspektlərinin axtarışına, psixoloji və pedaqoji dəstək üçün yeni yanaşmaların işlənib hazırlanmasına gətirib çıxarır. Müasir cəmiyyətdə inklüziv təhsil şəraitində işləmək üçün ixtisaslı mütəxəssislərə ehtiyac vardır. XXI əsrin məktəbi, müxtəlif çətinlikdə olan problemləri həll etməyə hazır olan şagirdlərin hazırlanması və cəmiyyətin inkişafına töhfə verən şagirdlərin səriştələrinin təkmilləşdirilməsi problemləri ilə üzləşir. Yeni təhsil standartları göstərir ki, bütün şagirdlər təkcə bilik almamalı, həm də müəyyən bacarıqlara yiyələnməlidirlər. Bütün şagirdlərin, o cümlədən sağlamlıq imkanları məhdud olan şagirdlərin inkişafında müəllimin xüsusi rolu vardır.

Son dövrlərdə ciddi nitq pozğunluğu olan uşaqların sayı artmışdır. Müasir təhsilin mövcud şəraiti ilə əlaqədar olaraq sağlamlıq imkanları məhdud olan şagirdlər üçün təhsil mühitinin yaradılması zərurəti ilə psixoloqların, loqopedlərin və məktəb müəllimlərinin səyləri nəticəsində nitq pozğunluğu olan uşaqların şəxsiyyəti formalaşır, həmçinin onların sosiallaşması və mühitə uyğunlaşmasına zəmin yaradılır. Buna inklüziv təhsil kömək edir ki, bu da xüsusi ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edir.

İnklüziv təhsil xüsusi təhsilə ehtiyacı olan müxtəlif kateqoriyalı uşaqlar üçün rahat şəraitin yaradılmasını nəzərdə tutur ki, bu da psixoloji və pedaqoji dəstəyin keyfiyyətinin yüksəldilməsini tələb edir.

İnklüziv təhsilin 6-9-cu siniflərində fizikanın tədrisi, ilk növbədə fənn müəlliminin həmin şagirdin hazırlığı haqqında biliklərinə əsaslanmalıdır: fizioloji, psixoloji, tərbiyəvi və sosial. Təlim məşğələləri hazırlayarkən nitqində inkişaf pozğunluğu olan uşaqların spesifik xüsusiyyətlərini nəzərə almaq mütləqdir.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün fizika dərsləri keçərkən təfəkkürün, nitqin, əsas bacarıqların və s. inkişafına yönəlmiş sinif və sinifdənkənar iş formalarından istifadə etmək lazımdır. Bu formalara aşağıdakılar daxildir: fizikadan ev tapşırıqları, o cümlədən müşahidələr və təcrübələr, fizikadan frontal laboratoriya dərsləri, əlavə ədəbiyyatla işləmək.

Fizikadan ev tapşırığı: müşahidələr və təcrübələr. Fizikanın əsaslarının güclü və dərindən mənimsənilməsi bir qədər çətindir, bu isə ilkin fiziki anlayışların şagirdlərin şüurunda şəxsi təcrübələrini mücərrədləşdirmək əsasında qurulması ilə əlaqədardır. Bu şərt yerinə yetirilərsə, bu anlayışlar müxtəlif problemlərin həllində istifadə edilə bilər. Beləliklə, fizikanı öyrənərkən şagirdlərin təcrübə və müşahidələrinin həyata keçirilməsi üçün müstəqil işlər çox böyük əhəmiyyət kəsb edir. Onlar metodoloji mənada dərindən düşünülmüş tapşırıqlara əsaslanmalıdırlar. Onları yerinə yetirərkən şagirdlər ətrafdakı dünya hadisələrini dərk edən bütün əsas hiss orqanları ilə işləməlidirlər.

Fiziki anlayışların mənimsənilməsi üçün şagirdlərin öyrəndikləri anlayışları və qanunları fəal və təkrar tətbiq etmələri, təcrübələr aparmaları, fiziki və texniki hadisələr üzərində düşünmələri vacibdir. Beləliklə, şagirdin fiziki hadisələrin və qanunauyğunluqların təzahürü üzərində düşünməsi, bu anlayış və qanunauyğunluqları daha dərindən və şüurlu şəkildə mənimsəmək üçün vacibdir. Buna görə də fizika metodologiyasında qanun və hadisələri praktikada öyrənmədən fiziki biliklərə normal şəkildə yiyələnməyin qeyri-mümkünlüyü haqqında dəyişməz bir qayda mövcuddur.

Fizikada ev təcrübələri və müşahidələrin tədris prosesində öz yeri var. Fizikada işin forma və üsulları kifayət qədər genişdir. Ancaq ev təcrübələri və fizikada müşahidələr yalnız özünəməxsus xüsusiyyətlərə malikdir:

- ✓ nəzəriyyə ilə təcrübə arasındakı əlaqəni genişləndirmək üçün yeni imkanların yaranması;
- ✓ fizika və texnologiyaya marağın inkişafı;
- ✓ ixtiraçılıq qabiliyyətinin inkişafı;
- ✓ müstəqil tədqiqat işi bacarıqlarının aşılanması;
- ✓ müşahidə, diqqət, əzmkarlıq və dəqiqlik kimi keyfiyyətlərin inkişafı;

- ✓ şüurlu, məqsədəuyğun iş bacarıqlarının aşılanması.

Şagirdlərə evə verilən tapşırıq yaradıcı və onların idarə edə biləcəyi qədər sadə olmalıdır. Bundan əlavə şagirdlərin xüsusi təhsil ehtiyaclarını və onların fərdi xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Fiziki hadisələrin və təcrübələrin metodik olaraq düzgün öyrədilməsi, ağır nitq pozğunluğu olan uşaqların mövcud imkanlarına əsaslanaraq qavrayışlarının, diqqətinin, məntiqi və mücərrəd təfəkkürün inkişafına kömək edir və şagirdin şəxsiyyətinin formalaşmasına töhfə verir.

Fizikadan frontal laboratoriya dərslərində şagirdlərin hərtərəfli inkişafı üçün müxtəlif təhsil formalarından istifadə olunur, lakin onların arasında frontal laboratoriya dərsləri xüsusi yer tutur. Bunlar laboratoriya təcrübələri, müşahidələr, frontal eksperimentlər və s. Bu cür maarifləndirici fəaliyyətlər şagirdləri tədqiqat və layihə fəaliyyətinə cəlb etmək məqsədi daşıyır. Bu müddət ərzində təhsil xarakterli tədqiqatların həyata keçirilməsində universal təhsil tədbirləri formalaşır.

Fizika dərslərində sadalanan iş formalarının tətbiqi zamanı ən vacib prioritet məsələ həmin nitq inkişafında ciddi pozuntuları olan şagirdlərin psixikasının və sağlamlığının xüsusiyyətlərini nəzərə alaraq onlara fərdi yanaşılmalıdır.

Sadalanan iş formaları, fizika dərslərində nitq inkişafında ciddi pozuntuları olan uşaqlar üçün müasir inklüziv təhsil modelinin əsas vahidləridir.

**Abasova Səlbi Ağamehdi qızı**
*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*
*s-asadzade@mail.ru*

## HİPERAKTİV VƏ DİQQƏTİN POZULMASI OLAN UŞAQLARIN PSİXO-PEDAQOJİ MÜŞAYİƏTİ

***Açar sözlər:*** *hiperaktiv və diqqət pozulması sindromu, psixo-patoloji vəziyyət, asosiallıq,* psixo-pedaqoji kömək, müsbət iqlim

Məktəbəqədər müəssisələr psixi inkişafında müxtəlif pozulmalar olan uşaqlar üçün ilkin təhsil sahəsidir. DDHS olan uşaqlara psixoloji-pedaqoji köməyin bir sıra komponentləri məktəbəqədər müəssisələrin imkanı daxilindədir. Məktəbəqədər uşaq müəssisəsi şəraitində iş istiqamətləri:

1. Erkən aşkarlama üçün diaqnostik müayinələrin dəqiq keçirilməsi. Bu optimal tədris proqramlarının və təlim-tərbiyə şəraitinin seçilməsi (valideynlərin razlığı ilə);
2. Uşaqların təlim-tərbiyə xüsusiyyətləri ilə əlaqədar kompetentlik səviyyəsini qaldırmaq məqsədilə valideyn və tərbiyəçilərlə mütəmadi olaraq maarifləndirici və profilaktik işlər;
3. Uşaqların kompleks tibbi-psixoloji-pedaqoji reabilitasiyasını həyata keçirmək üçün həkim, tərbiyəçi və valideynlərin birgə fəaliyyəti;
4. Uşaqların təlim-tərbiyəsi barədə valideynlərə və tərbiyəçilərə konsultativ kömək.

Tərbiyəçinin uşağa köməyi:

1. Uşaq üçün optimal olan proqram üzrə təlimi təmin etmək;
2. Pedaqoji fəaliyyətdə DDHS olan uşağın xüsusiyyətlərini yaxşı bilməli və nəzərə almalıdır. Tərbiyəçinin uşağı başa düşə bilməsi çox vacibdir. Tərbiyəçi uşağın intellektual potensialı ilə potensialın realizasiya imkanları arasında fərqi anlamalıdır. Uşağın iş qabiliyyətində stabilliyin olmaması onun təlimə yararsız olduğundan xəbər vermir;
3. Uşaqda DDHS-nin təzahürünün dinamikasına nəzarət etmək. Ehtiyac olduğu halda psixoloq və həkim konsultasiyasını tövsiyə etmək;
4. Uşağın təlim-tərbiyəsi üçün optimal şəraiti təmin etmək üçün psixoloqla mütəmadi əməkdaşlıq;
5. Daim valideynlərlə kontaktda olaraq onları gündəmdə saxlamaq;
6. Sakit, xeyirxah əməkdaşlıq atmosferi qurmaq;

7. Uşaqlardan ideal intizam tələb etməmək. Vaxtaşırı uşaqlara bir qədər azadlıq vermək, məsələn, bir qədər ayaq üstə işləmək, ayağını qatlayaraq oturmaq və s. məsləhətdir;

8. Məşğələ başlayandan 15-20 dəqiqədən gec olmayaraq mütləq yüngül idman və ya relaksasiya pauzaları olmalıdır;

9. DDHS olan uşaqların məşğələlər zamanı hərəki aktivliyi təmin edilməlidir;

10. Nəinki DDHS olan uşaqlara, həm də bütün qrup üzvlərinə fəal istirahət imkanı verilməlidir. Uşaqların istirahətini də şüurlu surətdə tənzimləmək məsləhətdir. Bu xüsusilə də DDHS olan uşaqlara aiddir. Onlar çox hərəkətlilikdən o qədər həyacanlanırlar ki, təkrarən işə qoşula bilmirlər. Əgər tərbiyəçi məşğələ zamanı uşağın "söndüyünü" görürsə, ona dincəlmək üçün bir qədər vaxt verməlidir;

11. DDHS olan uşaqlara daha işgüzar, daha yaxşı qavrayan uşaqları nümunə kimi göstərmək məsləhət deyil;

12. Pedaqoji texnologiyalar və metodikalar seçilərkən xırda motorikanın inkişafına fikir vermək vacibdir.

Uşaqlarla işləyərkən emosional informasiyalardan, parlaq əyani nümunələrdən ehtiyatla istifadə etmək lazımdır. Çünki DDHS olan uşaqların yaddaşında ancaq əlavə informasiya qala bilər. Materialı möhkəmləndirmək üçün məşğələlər dəfələrlə təkrarlanmalıdır. Hiperaktiv uşaqlarla korreksiya işinin təşkili zamanı uşağın aşağıda sadalanan bacarıqlarına üstünlük verilməlidir :

- diqqətin konsentrasiyası;
- başlanılanı sona çatdırmaq;
- hərəkətlərinə nəzarət etmək;
- əzələ gərginliyini aradan qaldırmaq;
- öz emosional təzahürlərini nəzarətdə saxlamaq;
- böyüklərlə və yaşıdları ilə əməkdaşlıqda davranış repertuarını genişləndirmək.

Böyüklərlə, xüsusilə də valideynlərlə iş zamanı onların uşağa olan münasibətini, əməkdaşlıq stilini dəyişmək vacibdir. Onlar anlamalıdırlar ki, hiperaktiv uşaqlara nizam-intizam tədbirləri təsir etmir. Uşaqla ünsiyyətin emosional fonu ahəngdar, pozitiv olmalıdır. Belə uşaqlar manipulyasiyaya meyilli olduqlarından hər şeyi icazə vermə taktikası yolverilməzdir. Hiperaktiv uşaqlara 10 sözdən artıq olmayan instruksiyalar verilə bilər. Onlardan eyni zamanda bir neçə tapşırığı yerinə yetirməyi istəmək olmaz (məsələn, oyuncaqları yığmaq, dişləri təmizləmək, əl-üzünü yumaq və s.), çünki uşaq sadəcə onları yadda saxlamayacaq. Hər bir sonrakı tapşırıq əvvəlki icra edildikdən sonra verilməlidir. Tapşırığın məsuliyyətlə yerinə yetirilməsinə nəzarət vacibdir.

Məhdudiyyətlər və qadağalar dəqiq, qətiyyətli, idarə olunan olmalıdır. Qadağalar ancaq uşağın sağlamlıq və təhlükəsizliyi nəzərə alınaraq minimuma endirilməlidir. Qadağalarla bərabər onların pozulduğu halda cəza tədbirləri də işlənilməlidir. Uşaqlarla ünsiyyətdə olarkən valideynlər düzgün qurulmuş ifadələrdən istifadə etməlidirlər. Məsələn, uşağa "qaçma" demək əvəzinə "həyətdə qaçmaq olar" ifadəsi daha səmərəlidir. Daha yaxşı olar ki, uşağın enerjisi lazımi istiqamətə yönəldilsin.

Hiperaktiv uşaqlar mütləq rejimə uyğunlaşdırılmalı, gündəlik rejimə riayət olunmalıdır. Hətta müstəsna hallarda da rejimi dəyişmək məsləhət deyil. Tədris məşğələləri zamanı təqdim edilən materialdakı alqoritmlərin müxtəlif formalarda təkrarını təmin etmək vacibdir. Məşğələlər oyun formasında keçirilməlidir. Hiperaktiv uşaqlardan mütləq intizam tələb etmək onun işgüzarlığını azaldar, materialın mənimsənilməsi zəifləyər. Uşaq tapşırıqları yerinə yetirərkən onun yanında olmaq, başını sığallamaq, sakitləşdirmək, sakit, mülayim səslə fəaliyyətini qeyd etmək səmərəli nəticələr verir.

DDHS-li uşaqlara korreksiyaedici işin tərkibinə aşağıdakı üsul və texnologiyalar daxil edilməlidir :

1. Relaksasiya, vizualizasiya vasitəsilə özünütənzimləmə üsullarına yiyələnmə;
2. Özünü massajı öyrətmə;
3. Reaksiyanın itiliyini və hərəkətlərin koordinasiyasını inkişaf etdirmək üçün oyunlar;

4. Taktil qarşılıqlı əlaqəni inkişaf etdirmək üçün oyunlar;
5. Barmaq oyunları;
6. Məhdudlaşdırma anları ilə hərəkətli oyunlar;
7. Gil, su və qumla işləmək.

Korreksiyaedici işin mərhələli qurulması səmərəlidir:

- Fərdi
- Cüt
- Qrupla.

DDHS-dan əziyyət çəkən uşaqlarla iş tədris müəssisəsi və ailə tərəfindən birgə vahid sistemli tələblər əsasında qurulmalıdır. Onlara fərdi yanaşma ilə psoxoloji-pedaqoji müşayiət təmin olunmalıdır.

**Aslanova Səbinə Ramiz qızı**
*ADPU-nun Xüsusi təhsil kafedrasının dosenti, ped.ü.f.d.*
*sabina-aslanova@bk.ru*

## SOLƏLLİLİYİN PEDAQOJİ-PSİXOLOJİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *soləllilik, baş beyin yarımkürələri, solluluq, beyin funksionallığı, pedaqoji çətinliklər, psixoloji pozulmalar*

Muasir dövrdə "Soləllilik" aktual mövzu olaraq gündəmdə olan uşaqlarin inkişafına dair problemlərə aid edilə bilər. Uzun muddətdir ki, ümumi standarta uygun olaraq sol əlini aktiv şəkildə istifadə edən uşaqları sağ ələ kecirilmələrinin yenidən öyrədilməsi vurgulanırdı. Tətbiq olunan bu cür yanaşma müsbət nəticələr vermədi, əksinə bir sıra problemlər yaratdı. Əksər hallarda uşaqlarda adətən nevrotik reaksiyaların artması müşahidə olunurdu. Müasir biliklər sayəsində belə izah olunur: soləllilik – bir tək sol ələ üstünlük vermək deyil, eyni zamanda norma ilə müqayisədə, tamamilə fərqli olaraq baş beynin funksiyalarının yarımkürələr arasında paylanmasıdır. Solaxay uşağı sağ əli ilə yazmağa məcbur etmək artıq qurulmuş və kifayət qədər mürəkkəb funksional sistemə müdaxilə etmək və yenidən qurmağa çalışmaq deməkdir. Əgər uşaq sol əli ilə yazırsa, deməli, qismən də olsa bu proses sağ yarımkürə tərəfindən tənzimlənir, onu sağ əli ilə yazmağa məcbur etmək artıq sol yarımkürənin sistemlərini əlavə yükləmək deməkdir. Nəticə etibarilə bu o demək deyil ki, sollularda yarımkürələr sadəcə yerlərini dəyişib: yəni sol yarımkürə sağ yarımkürə edəcəyini edir və əksinə. Belə yanaşma çox bəsit və kobud olardı.

Tədqiqatlar əsasında müəyyənləşdirildi ki, müəllim zamanında uşağa soləlliliyin normadan kənara cıxma olmadığını, fərdi xüsusiyyət olduğunu izah etməli, uşağa artıq diqqət yetirməli, düzgün oturmağı, düzgün yazmağı öyrətməlidi. Bunlar edilmədikdə bir sıra problemlərlə qarşılaşmalar olur. Nəticədə uşaq çətinliklə "düzgün" sağ əli ilə yazmağı öyrənməyə başlayacaq və beləliklə, onda özünə inam hissi azalacaq, öyrənmək istəyi azalacaq, oxumaq həvəsi itəcək. Öyrənmə xoşagəlməz duyğularla assosiasiya edəcək. Belə vəziyyətlərdə uşaq kollektivdə özünü təsdiq etmək ücün məktəbdə dəcəllik etməyə başlayacaq. Beləliklə, məktəb, müəllim özləri də bilmədən adi normal inkişaf edən uşaqdan bir cinayətkar böyüdə bilər. Bu problemin başqa, maddi tərəfi də var. Bütün təlimatlar və tövsiyələr bu sözlərlə başlayır: "Sağ əlinizə alın ... sol əlinizlə saxlayın ...". Alətlər də adətən sağəllilər üçün hazırlanır. Təkcə məktəbdə deyil, gündəlik həyatda, iş şəraitində, məişətdə də belə nümunələr çoxdur.

Solaxay insanların xüsusiyyətlərini nəzərdən keçirərək onların morfolojı, psixofiziki, emosional-psixolojı xüsusiyyətlərini təhlil etmək olar.

1. Morfoloji xüsusiyyətlər:

a) sol əl sağdan bir qədər böyükdür;
b) sol kiçik (çeçələ) barmağın dırnağı sağdan bir qədər genişdir;
c) sol əlin icində damarlar (venelar) daha çox inkişaf etmişdir;

d) üzün sol yarısının mimikası daha hərəkətlidir.

2. Psixofiziki xüsusiyyətlər:

a) zəif vizual-motor koordinasiya. Nəticədə zəif əl yazısı – xəttin pis olması, qrafik şəkilləri çəkməkdə çətinliklər ola bilər;

b) nitq pozulmaları. İ.Makariyev "Əgər uşağınız solaxaydırsa" kitabında hər üçüncü solaxay uşağın kəkələdiyi barədə məlumatlar verir;

c) fəza qavrayışının xüsusiyyətləri. Fiqurların forma və nisbətlərinin təhrif edilməsi, zəif vizual yaddaş;

d) diqqəti cəmləmək və dəyişmək çətinliyi.

3. Emosional və psixoloji xüsusiyyətlər:

a) emosional həssaslığın artması;

b) zəiflik;

c) sürətli yorğunluq nəticəsi olaraq məhdud işgüzarlıq;

d) yüksək yaradıcılıq səviyyəsi;

e) orijinal bədii yaradıcılıq qabiliyyətləri;

f) əsəbilik və inciklik;

g) müxtəlif qorxulara yönümlülük (ürkəklik-qorxaqlıq);

h) özünə nəzarətin aşağı səviyyədə olması;

i) emosional fonun zəifləməsi (demək olar ki, həmişə pis əhval-ruhiyyə);

k) konformizm (reallığın passiv qavranılmasına meyl);

m) yuxululuq;

l) narahatlıq səviyyəsinin artması;

Solaxaya bir az da diqqət yetirsək, bunun müqabilində öz bacarıqlarına arxayın olan və sinifdə uğur qazanmış uşaq alacaq.

Soləlliliyin pedaqojı-psixolojı problemləri dedikdə, tədqiqatçılar uşaqların boyunun, sağlamlığının, fiziki inkişafının xususiyyətlərini öyrənərək bu uşaqlara xüsusi yanaşma və xüsusi diqqət yetirilməli olduğu nəticəsinə gəlirlər. Tədqiqatçıların əksəriyyəti onları risk qrupuna aid edirlər: məktəb dezadaptasiyası riski, məktəb stresi, təlim prosesində çətinlik riski. Əslində bu narahatlıqlar əsassız deyil, çünki məktəb və təlimin ilk ili, xüsusilə ilk ayı uşaqda güclü yorğunluq və uzunmüddətli gərginlik tələb edir. Şəxsiyyət keyfiyyətlərinə qarşı yüksək irəli tələblər sürür. Soləlli uşaqlarla aşağıda sadalanan istiqamətlərin üzərində xüsusilə işləmək vacibdir:

a) Görmə-motor koordinasiyası;
b) Məkan təsəvvürlərinin dəqiq qavranılması;
c) Görmə hafizəsi;
d) Əyani-obrazlı təfəkkür;
e) İnformasiyanı tam olaraq təhlil etmə bacarığı;
f) Motorika;
g) Fonematik eşitmə;
h) Nitq

Qeyd olunan aspektlər üzərində işləyərkən əməkdaşlığa loqoped, defektoloq, psixoloq kimi mütəxəssislərin cəlb edilməsi vacibdir.

**Çıraqova Vəfa Məsim qızı**
*BDU-nun Pedaqogika kafedrasının müəllimi, p.ü.f.d.*
*chiragovav@gmail.com*

## TƏHSİLİN PEDAQOJİ-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *təhsil, tərbiyə, şəxsiyyət, taksonomiya*

Müstəqil Azərbaycan ildən-ilə güclənir, sürətli inkişaf edir. Bu gün ölkəmiz təkcə neft ölkəsi deyil, həm də mədəni irsə malik olan, öz dəyərlərini, adət-ənənələrini qoruyan, soykökünü, milli mental dəyərlərini bütün ölkələrə tanıdan bir ölkədir. İstər iqtisadi cəhətdən, istər siyasi, istərsə də təhsil sahəsində öz inkişaf və uğurlarına görə bir çox inkişaf etmiş ölkələr sırasındadır.

Bu gün əldə olunmuş sıçrayışlı inkişafın keyfiyyətcə yeni pilləyə – modernləşmə mərhələsinə qədəm qoyub. Hər hansı sahədə olursa-olsun, inkişafa aparan yol heç vaxt hamar olmayıb. Müstəqilliyimizin ilk illərindən başlayaraq bu günə bir inkişafın şahidi oluruq. Bu irəliləyişlə bərabər, Azərbaycanın təhsil sahəsində də xeyli dəyişikliklər və inkişaf göz önündədir. Azərbaycanda təhsilin inkişafı dövlətin diqqət mərkəzindədir və bu isə böyük diqqət, qayğı göstərilir. Son illər ölkəmizdə müasir standartlara tam cavab verən, bir-birindən yaraşıqlı, modern məktəb binaları inşa edilir, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmlənir, pedaqoji işçilərin iş şəraiti yaxşılaşır.

Azərbaycan məktəbinin kompüterləşdirilməsi və XXI əsrin məktəbi kimi inkişaf etməsi tarixi hadisədir. İstər dərsliklər, istər dərs otaqları, elektron lövhələr, müasir texnologiyalar məhz müasir gənclərin, məktəblilərin düşüncə tərzinə, onların tələbatına cavab verir. Bu da özü özlüyündə pedaqoji fəaliyyətin səmərəsini artıran amillərdəndir. İnformasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifələri dəyişir. Ağlın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Sadəcə bilik və bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünki təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Qeyd olunan müasirlik, inkişaf müəllimin də təbii olaraq dəyişməsini tələb kimi qarşıya qoydu. Əgər ənənəvi dərsdə müəllim dedikdə, biz yalnız dərs deyən, sinfə girib çıxan, fənnini ətraflı tədris edən, həmçinin gəncliyə nümunə ola bilən kamil bir insan fikirləşirdiksə, müasir dövrdə bu baxışlar dəyişib.

Yeniləşən müasir cəmiyyətdə müəllim özü də yeniləşməli, artan tələbələrə uyğunlaşa bilməlidir. Müasir təlim texnologiyalarından istifadə, təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması yeni təhsil paradiqmasının və taksonomiyasının yaradılması, şəxsiyyətyönümlü, nəticəyönümlü təhsilin inkişaf etdirilməsi, dünya təhsil standartlarına keçid kimi yeniliklər yeni pedaqoji, psixoloji təfəkkürə malik olan peşəkar, səriştəli müəllimlər tələb edir. Hazırda məktəbin, təhsilin qarşısında duran ən ümdə vəzifə şagirdlərdə təfəkkürü və düşüncəni, vərdiş, bacarıq və səriştəni öyrətməkdir. Təbii olaraq təlim prosesinin quruluşu, onun təşkili formaları, vasitə və metodları, məzmunu, nəticələri, öyrənmə və öyrətmə məqsədləri dövrün pedaqoji təfəkkürünün meyarlarını əks etdirir. Təhsildə qarşıya düzgün məqsəd qoymaq, təhsil alanların tapşırıqları qiymətləndirmək, düzgün adekvat təhlil etmək üçün təlim taksonomiyalarından istifadə mürəkkəb fəaliyyət sahələrini sistemli nizama salmaq üçündür. Müxtəlif fəaliyyətlər üzrə bir çox taksonomiyalar hazırlanmışdır. Azərbaycanda ilk dəfə professor Əbdül Əlizadə təlim məqsədlərini sistemli şəkildə nizama salmaq üçün, xarakterizə etmək üçün taksonomiya terminindən istifadə etmişdir. O, üçtərkibli taksonomiya yaratmış, birinci bölmədə təhsil, ikinci bölmədə inkişafetdirici, üçüncü bölmədə tərbiyəedici təlim məqsədlərini vermişdir. Qeyd edirdi ki, yeni pedaqoji təfəkkürün təməl prinsiplərindən biri belədir: "Şagirdin yaxşı oxumaq istəməsi və yaxşı oxumaq istəməsi üçün şəraitin yaradılması". Bunları gəlişi gözəl sözlər kimi yox, həqiqətən də şagirdin yaxşı oxumaq istəməsi onun üçün yaradılan şəraitdən çox asılıdır. Bu təhsilin humanistləşməsindən tutmuş, sinif otaqlarının rənginə qədər məktəbin qiraət zalının olmasına qədər müəllimlə şagird ünsiyyətinə qədər, şagirdin asudə vaxtının necə keçirtməsinə qədər, məktəblə ailənin qarşılıqlı təsirinə qədər özünü göstərir. Pedaqoji psixologiyada bunlar konkret, fundamental amillər kimi açıqlanmışdır.

**Əli-zadə Səbinə Hikmət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Psixologiya üzrə fəlsəfə doktoru*
*sabina.az@gmail.com*

## MÜHİTƏ ADAPTASİYA SOSİAL İNTELLEKTİN FORMA0LAŞMA AMİLİ KİMİ

***Açar sözlər:*** *sosial intellekt, şəxsiyyət, adaptasiya, formalaşma, ontogenetik inkişaf*

Sosial intellekt gündəlik həyatda hər bir insanın digər insanlarla qarşılıqlı əlaqə qurması üçün zəruri, əsas və önəmli olan intellektdir. Belə ki, sosial intellekt qarşılıqlı ünsiyyət prosesində meydana çıxan istənilən problem zamanı insanın uğurlu nəticə əldə etməsi üçün "açar" rolu oynayır. O, beyində mövcud olan hər hansı bir orqan deyil, sadəcə insanın potensialıdır. Onun formalaşması və ontogenetik inkişafı üçün uşaqlıq dövründən başlayaraq buna imkan yaradılmalıdır. Apardığımız tədqiqatlar göstərir ki, heç də həmişə sosial intellektin formalaşması və inkişafı üçün məqsədəmüvafiq mühit yaradılmasına diqqət göstərilmir.

Qarşıya nəzəri və praktik əhəmiyyət kəsb edən bir sual çıxır: - Sosial intellektin formalaşmasına və inkişafına nə mane ola bilər? Bunu müəyyən etmək üçün ailədə və məktəbdə uşağın bir şəxsiyyət kimi inkişafı prosesini sadəcə müşahidə etmək kifayətdir. Müşahidə etsək görərik ki, "yaşlılar" (valideyn və müəllimlər) şagirdlərlə qarşılıqlı münasibətləri heç də həmişə düzgün qurmurlar. Bu sosial intellektin inkişafına mane olmaq üçün yetərli olur.

İnsan hazır sosial intellektlə doğulmur. Sosial intellekt uşaqlıqdan etibarən insanın digər insanlarla, əsas etibarı ilə yaşıdları ilə qarşılıqlı münasibətlər prosesində, necə deyərlər, "bərkə-boşa" düşərək, qazandığı sosial təcrübə nəticəsində yaranan davranış reaksiyalarıdır. Yaşa dolduqca bu reaksiyalar təkmilləşir. Yaş artdıqca insanın müxtəlif problem situasiyalara düşməsi ilə bu reaksiyalar inkişaf edir. Uşağın qarşısına çıxan problemləri onun yerinə, onu əhatə edən "yaşlılar" (müəllim və valideynlər), necə deyərlər, "canla başla", ona kömək etmək məqsədi ilə həll etdikdə əks reaksiya baş verir, yəni uşağın sosial intellektinin inkişafı müşahidə edilmir və ya bu inkişafın dinamikası uşağın yaşına adekvat olmur.

Təhsilin tarixindən məlumdur ki, hələ çox illər bundan əvvəl mütəfəkkirlər erkən uşaqlıq yaş dövründən etibarən uşağın müstəqil fəaliyyətinin və bu prosesdə əldə etdiyi təcrübənin onun inkişafında mühüm rol oynadığını vurğulamışlar. Bu müddəa istər pedaqogikada, istərsə də psixologiyada bu gün aksioma kimi səslənir. Belə ki, müəyyən edilmişdir ki, sosial intellektin əsası uşağın müstəqil fəaliyyəti prosesində, onun xüsusən yaşıdları ilə ünsiyyəti prosesində qarşısına çıxan problemləri müstəqil həll etməsi ilə qoyulur. Uşaq fəaliyyətin nə qədər çox növünə cəlb edilərsə, onun sosial intellekti bir o qədər çox inkişaf edir. Təbii ki, bu inkişafın "təbii generatoru" onun düşdüyü müxtəlif mühitlər və bu mühitlərdə əldə etdiyi təcrübələrin davranış reaksiyasına çevrilməsidir. Bu öz təzahürünü uşağın düşdüyü hər bir mühitə necə adaptasiya olmasında göstərir. Bunu hər bir insan müşahidə edə bilər. Məsələn, beş-altı uşaq bir yerdə olarkən onların bir neçəsi bir-biri ilə oynayır, onlar bu prosesdə fəal və hegemondurlar, uşaqlardan biri və ya ikisi bu prosesdə "qonaq" kimi dayanıb, ya digərlərinin fəaliyyətini müşahidə edir və ya onların tapşırıqlarını kor-koranə icra edir və ya oyunun müəyyən mərhələsində dava salır. Digərləri oyun prosesinə adaptasiya olub, "öz rollarını" ona uyğun etiketlərlə həyata keçirdiyi halda, sonuncular bu prosesə adaptasiya ola bilmirlər və onların bu prosesdə müşahidə olunan davranışı sosial intellektin zəif inkişafı ilə bağlıdır.

Əgər uşağın sosial adaptasiyası onun həmin mühitdə uğurlu fəaliyyət göstərməsi ilə nəticələnirsə, bu, eyni zamanda onun sosial intellektinin inkişaf dinamikasının artmasını şərtləndirir. Davranışını düşdüyü mühitin zəruri tələblərinə uyğun olaraq quraraq mühitə adaptasiya olması bu zaman fərdin reaksiyalarının nəticəsidir.

Müxtəlif mühitə düşmək və həmin mühitə adaptasiya olmaq çətindir. Bəzən uşağa qarşılaşdığı mühitə adaptasiya olmaq üçün kömək etmək lazımdır. Müəyyən edilib ki, uşağın mühitə adaptasiyası nə qədər tez baş verərsə, onun sosial mühitin bir üzvünə çevrilməsi bir o qədər

uğurlu olur. Təbii ki, hər bir "mühit" ona daxil olmağa hazırlaşan yeni üzvləri xoş qarşılamaya bilir. Bu zaman həmin mühitə adaptasiya olmaq sosial intellektin inkişaf səviyyəsindən asılı olur. Sosial intellekt insana digər insanların davranışını başa düşməyə kömək edir. Bunun son nəticəsi fərdin qarşısındakı insanın fəaliyyətinə uyğun münasibət yaratması, onunla qarşılıqlı münasibət qurması və həmin mühitə uğurla adaptasiya etməsidir. Bu prosesdə o, yeni təcrübə əldə edir və təbii ki, buna müvafiq olaraq onun sosial intellekti növbəti inkişaf mərhələsinə keçid edir.

İnsanın sosial intellekti onun yaşadıqlarından gündəlik olaraq çıxardığı nəticələrin və qazandığı sosial təcrübələrin nəticəsində inkişaf edir. Bu belə qənaətə gəlməyə əsas verir ki, insan nə qədər çox sosial mühitə düşdükdə və hər bir mühitə sosial adaptasiya təcrübəsi əldə etdikdə, onun sosial intellekti yüksək olur. Uşaq bağçasına və məktəbə yeni gələn uşaqlar (burada I sinfə qəbul olan uşaqlar nəzərdə tutulur) üzərində apardığımız müşahidələr və həyata keçirdiyimiz araşdırmalar belə deməyə əsas verir. Bu məsələyə diqqət edək:

Bağçaya və I sinfə gedən uşaqlar arasında ilk günlərdə ağlayan və ağlamayan uşaqlar olduğunu hamı müşahidə edə bilər. Valideynlərlə apardığımız sorğular nəticəsində aydın olmuşdur ki, bağçaya və məktəbə gələnə qədər sosial münasibətlərdə daha çox iştirak etmiş uşaqlar ağlamırlar. Onlar bu məqama qədər müxtəlif yaşıdlar qrupunda iştirak etmişlər və onu əhatə edən digər uşaqlarla ünsiyyətə asanlıqla daxil ola bilirlər. Yeni qrupa daxil olmaq onlar üçün vahiməli olmur. Onlar bu yeni mühitə həvəslə adaptasiya olur və yaranan müxtəlif çətinliklərdə və gərginliklərdə maraqlarını qoruya bilirlər.

Lakin bağçaya və məktəbə gələnə qədər yaşıdları ilə sosial münasibətlərdə aktiv iştirak etməyən uşaqlarda sosial intellekt aşağı olur, yeni mühit onlarda qorxu yaradır, onlar bu mühitə adaptasiya ola bilmirlər və ya olmaqda çətinlik çəkirlər. Təbii ki, valideyn və tərbiyəçilərin (müəllimlərin) əməkdaşlığı nəticəsində bu problemi zamanla aradan qaldırmaq mümkün olur. Bu problem aradan qaldırıla bildikdə uşaq qrupun və sinfin tam hüquqlu, aradan qaldırıla bilmədikdə isə passiv üzvünə çevrilir. Bir çox hallarda məktəbdə geridə qalan şagirdlərin yaranmasının səbəbini burada axtarmaq daha məqsədəuyğun olardı.

**Yaralıyeva Aydan Baxtiyar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitet*
*aydan.yaraliyeva@mail.ru*

## GÖRMƏ POZULMASI OLAN UŞAQLARDA SENSO-MOTOR ÇATIŞMAZLIQLARIN ARADAN QALDIRILMASINDA OYUNLARIN ROLU

***Açar sözləri:*** *görmə pozulması, oyunlar, senso-motor, məktəbəqədər uşaq, analizator*

Senso-motor sahə uşaqların intellektual inkişafına, onların gələcək həyatda uğur qazanmasına, yazı və digər əl bacarıqlarının mənimsənilməsinə, ən əsası isə onların psixoemosional inkişafına yardım edir.

Kinestetik hisslər xarici mühitdən gələn stimulların qavranılması dad, temperatur, ağrı və bədən səthində yerləşən reseptorların işi ilə sıx bağlıdır. Kinestetik, xüsusilə də dəri hisslərinin, görmə, eşitmə, vestibulyar və digər analizatorlar insan həyatında mühüm rol oynayır.

Görmə pozulması olan məktəbəqədər yaşlı uşaqların onu əhatə edən cisim və hadisələri, dünyanı dərk etməsində toxunma və yaxud təmasın xüsusi, özünəməxsus rolu böyükdür. Toxunma vasitəsilə ətraf mühit ilə qarşılıqlı əlaqədə əldə olunan məlumatların qəbulu və emalı aktiv idrak xüsusiyyəti daşıyır. Görmə pozulması olanlar məhz toxunma sayəsində ətrafında olan cisimlərin səthi, quruluşu, forma, ölçü və çəkisi haqqında əsas məlumatları ala bilirlər.

Görmə pozulması olan məktəbəqədər yaşlı uşaqların ətraf aləm haqqında məlumatlar alınmasında oyunların rolu əvəzsizdir. Bu kateqoriyadan olan məktəbəqədər yaşlı uşaqlarda senso-motor bacarıqları inkişaf etdirmək üçün istər ailə şəraitini, istərsə də uşaq müəssisələrində müxtəlif xüsusi oyunlardan istifadə edilməsi tövsiyə olunur. Belə xüsusi oyunlara "Əlin ilə hiss et,

ayağın ilə təyin et!", "Toxunmaqla müəyyən et", "Bu nədir?", "Hiss et və tap", "Bir cütü seçin" və s. kimi aiddir.

"Əlin ilə hiss et, ayağın ilə təyin et!" oyununun əsas məqsədi görmə pozulması olan kiçik yaşlı uşağın toxunduğu obyektin keyfiyyət və xüsusiyyətlərini şifahi olaraq təyin etməyi öyrətməkdir. Bu oyundan istifadə etməklə görmə pozulması olan, xüsusilə də kor uşaqlarda əlin, əl barmaqlarının hissiyyatı artırılır və onların vasitəsi ilə əşyaların tanınması başlanır. Uşaq əlinin barmaqlarını sərbəst və yavaş-yavaş bu və ya digər əşyaya (kağız, taxta və ya maye) toxundurur və onu hiss edir. Sonrakı mərhələdə ayaqlarla obyektlərin tanınması və keyfiyyətinə görə fərqləndirməsi prosesinə keçilir.

"Toxunmaqla müəyyən et" oyununda uşaqlara müxtəlif materiallardan hazırlanmış əşyalar təqdim olunur və toxunaraq müəyyən etməsi tələb edilir. Oyun zamanı həndəsi fiqurlardan da istifadə oluna bilər. Bu oyunda təqdim olunan əşyalar uşaqların yaşına uyğun olmalıdır.

"Bu nədir?" oyununun əsas məqsədi kinetik və kinestetik analizatorların qarşılıqlı əlaqəsini, senso-motor bacarıqlarını, məkan oriyentasiyasını, iradi davranış bacarıqlarını inkişaf etdirmək və ünsiyyət qurma vərdişini mənimsətməkdir.

Digər oyunlarda olduğu kimi, "hiss et və tap" oyununda da toxunma, əşyaların keyfiyyət xüsusiyyətlərini ifadə etmə, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinə kömək edir.

"Bir cütü seçin" oyununda məqsəd görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlara çoxsaylı əşyalar təqdim etməklə daha çox ətraf aləm haqqında təsəvvürlərin yaradılmasıdır.

Qeyd edilən bu oyunlar görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlarda senso-motor çatızmazlıqların zəiflədilməsi, əşyalar haqqında daha dolğun təsəvvürləri yaratmağa imkan verən mexanizmləri inkişaf etdirir. Həmçinin uşaqların müstəqil idrak fəaliyyətinə senso-motor bacarıqları aktiv formada daxil etməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Ağayeva T.H. Görmə funksiyalarının pozulmaları və onların psixo-korreksiyası. Bakı, 2017
2. Dostuzadə D., Quliyeva İ. Tiflopedaqogika. Bakı, 2012
3. Dostuzadə D.Ə. Sağlamlıq imkanları məhdud uşaqlarla işə dair ibtidai məktəb və məktəbəqədər tərbiyə, Bakı, 2004



**Mürsəlova Adilə Ağaməmməd qızı**

*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*

*loqoped55@mail.ru*


## EŞİTMƏ POZULMASI OLAN ŞAGİRDLƏRİN PSİXİ İNKİŞAFINDA MUSİQİLİ-RİTMİK MƏŞĞƏLƏLƏRİN ROLU

***Açar sözlər:*** *musiqili ritmik məşğələ, eşitmə pozulması, kar, nitq, uşaq, korreksiya*

Musiqili ritmik məşğələ eşitmə pozulması olan şagirdlərin hərtərəfli inkişafına, cəmiyyətə daha mükəmməl sosial uyğunlaşmasına və inteqrasiyasına yönəlmiş tədris-korreksiya iş sistemində ən vacib xüsusi (korreksiyaedici) fənlərdən biridir. Eşitmə pozulması olan şagirdlərdə eşitmə qavrayışının inkişafı onun hərtərəfli inkişafı üçün böyük əhəmiyyət daşıyır. Musiqili-ritmik məşğələlər zamanı uşaqların səsli dünya haqqında təsəvvürləri zənginləşir, müxtəlif akustik informasiyaların – nitq, nitqsiz səs və musiqini qavraması inkişaf edir. Bundan əlavə, musiqili ritmik məşğələlər eşitmə pozulması olan şagirdlərin şəxsiyyət kimi inkişafına; musiqi mədəniyyəti (xalq və klassik musiqi) ilə tanışlıq, dünyagörüşünün genişlənməsi, vətənpərvərlik hisslərinin, tolerant münasibətlərin tərbiyəsi, idrak fəaliyyətinin aktivləşdirilməsi, yaradıcı bacarıqların inkişafı və həyata keçirilməsi, musiqi ilə bağlı bədii fəaliyyətlərdə iştirak etmək istəyi və bacarığının inkişafına kömək edir. Musiqili-ritmik məşğələlər zamanı eşitmə pozulması olan uşaq

şəxsiyyətinin inkişafı istiqamətində aşağıda qeyd edilən işlər həyata keçirilir:

- şagirdlərdə təlim prosesinə müsbət münasibəti gücləndirmək;
- sosiallaşma üçün musiqi vasitələri ilə eşitmə qavrayışının inkişafının vacibliyini və musiqinin həyatda əhəmiyyətini dərk etmək;
- öyrənmədə uğur və ya uğursuzluğun səbəblərini adekvat mühakimə etmək bacarığını formalaşdırmaq; böyüklərdən gələn şərhlərə rəğbət bəsləmək; özünün güclü və zəif tərəflərini görmək, özünə hörmət etmək və uğura inanmaq bacarığı aşılamaq;
- təhsil fəaliyyəti üçün motivasiyanı, kollektivdə fəal mövqe tutmaq istəyini (bayram tədbirlərində iştirak etmək istəyi) formalaşdırmaq;
- eşitmə pozulması olan şagirdlərdə kommunikativ sahəni inkişaf etdirməklə dinamik dəyişən və inkişaf edən dünyada ilkin sosiallaşma bacarıqlarını mənimsətmək;
- fikrə, başqalarının çatışmazlıqlarına hörmətlə yanaşmanı, müxtəlif sosial vəziyyətlərdə böyük və həmyaşıdları ilə əməkdaşlıq, münaqişə yaratmamaq və mübahisəli vəziyyətlərdən çıxış yollarını tapmaq bacarıqlarını inkişaf etdirmək.

Bu, eşitmə pozulması olan uşaqların cəmiyyətə tanıdılması, onların cəmiyyətə inteqrasiyası üçün vacibdir.

Musiqi və ritmik məşğələlərin əsas məzmununu aşağıdakı məsələlər əhatə edir:

- tələffüz vərdişlərinin avtomatlaşdırılması;
- musiqinin müşayiəti ilə hərəkətlərin təlimi;
- musiqini qavramaq bacarığının təlimi;
- musiqinin müşayiəti ilə mahnıların oxunması;
- sadə musiqi alətlərində çalmaq.

Məktəblilər məşğələ prosesində musiqi və nitqi fərdi eşitmə cihazlarının köməyi ilə qavrayırlar. Onlar musiqi və nitqi dinləməyi, eşitdiklərini təhlil və müqayisə etməyi öyrənirlər. Bu məşğələlərin ən vacib vəzifəsi şagirdlərin səs tələffüzünü təkmilləşdirmək, nitq tənəffüsü, nitqin səs və ritmik-intonasiya quruluşunu inkişaf etdirməkdir. Bu, uşaq nitqinin daha təbii səslənməsinə nail olmağa, eşitmə qüsurlu uşaqların nitqinin səslənməsini eşidən insanların nitqinə yaxınlaşdırmağa kömək edir. Musiqili ritmik məşğələnin əsas məqsədi: şəxsiyyətin ahəngdar inkişafının ən vacib komponenti kimi musiqi mədəniyyəti vasitəsi ilə məktəblilərin mənəvi və əxlaqi tərbiyəsinin əsaslarını formalaşdırmaq; nitq-hərəkət və eşitmə analizatorlarının işini ümumi motor bacarıqların inkişafı ilə birləşdirmək, uşaqlarda təbii nitq vərdişlərini formalaşdırmaq, eşitmə qavrayışını inkişaf etdirmək və ondan tələffüz vərdişlərinin formalaşması və korreksiyası gedişində istifadə etməkdir. Musiqili-ritmik məşğələlər aşağıda qeyd edilən bir-biri ilə sıx bağlı olan psixo-pedaqoji vəzifələri həyata keçirir:

- eşitmə pozulması olan uşaqların musiqi və nitq səslərini kompleks qəbulu zamanı eşitmə qavrayışını fəallaşdırmaq;
- musiqi vasitələri ilə eşitmə qavrayışının inkişafı, müxtəlif akustik informasiyaların – nitq, nitqsiz səslərin və musiqinin qavranılmasının inkişafı;
- şagirdlərdə dünyagörüşünü genişləndirmək, tələffüz vərdişlərini təkmilləşdirmək, lüğət ehtiyatını, şagirdlərin nitqini yeni sözlərlə zənginləşdirmək;
- musiqi və rəqs vasitəsi ilə şagirdlərdə ali funksiyaları (hafizə, diqqət, təfəkkür, təxəyyül) inkişaf etdirmək, şagirdlərin estetik və əxlaqi tərbiyəsini həyata keçirtmək;
- mahnı və sadə musiqi parçalarının eşitmə ilə qavranılmasını və musiqi hafizəsini formalaşdırmaq, şagirdlərin sözlü təlimatlara uyğun motor hərəkətləri yerinə yetirmə bacarıqlarını inkişaf etdirmək;
- hər bir eşitməsi pozulmuş şagirdin psixo-fiziki xüsusiyyətlərinə uyğun olaraq sözlü, jest-mimiki təlimatlardan istifadə etməklə emosional-iradi sahəni, davranış və şəxsiyyət keyfiyyətlərini inkişaf etdirmək, uşaqların musiqi zövqünü, dinlədikləri əsərlərə, öz ifalarına qarşı qiymətləndirici münasibəti formalaşdırmaq;
- kollektivdə işləmək və onun maraqlarını öz maraqlarından üstün tutmaq, nəzakətli

davranış, sinif yoldaşına və başqalarına hörmət bacarığını formalaşdırmaq;

- fəaliyyət növlərini tez-tez dəyişməklə şagirdlərdə hərəkətlərin düzgün koordinasiyasını, qamət, duruş və yerişi formalaşdırmaq.

Kar və zəif eşidən uşaqlar üçün xüsusi məktəblərdə musiqili-ritmik məşğələlərdə şagirdlərin ümumi və nitq inkişafından, fərdi xüsusiyyətlərindən, eşitmə funksiyasının vəziyyətindən, nitqi və əsas musiqi quruluşlarını qavramaq qabiliyyətindən, tələffüzün inkişafı vəziyyətindən, habelə hərəki bacarıqlarından və digərlərindən asılı olaraq diferensial yanaşmanın həyata keçirilməsinə xüsusi diqqət verilir. Bu məşğələlərdə təlim-korreksiya işi musiqi, hərəkət və şifahi nitqin daimi qarşılıqlı əlaqəsinə: musiqi və hərəkət, musiqi və nitq, hərəkət və nitq, musiqi, hərəkət və nitqə əsaslanır. Fənnin əsas korreksiya-inkişafetdirici əhəmiyyəti musiqi ilə hərəkətin birləşməsi, musiqi strukturlarının motor modelləşdirilməsi uşaqlarda musiqini eşitmə qavrayışının inkişafıdır. Bu, musiqini qavramaq imkanlarının inkişafına, müəyyən emosional əhval-ruhiyyənin yaranmasına və hərəkətlərin ona uyğun ritmik təşkilinə, musiqinin hərəkətlər vasitəsilə qavranılmasının inkişafına kömək edir. Məşğələlərin xüsusi korreksiya-inkişafetdirici işinin səmərəliliyi, mövcud nitq elementlərinin reproduksiyasının təbiətinə uyğun hərəkətlərindən istifadə etməklə eşitmə-görmə və eşitmə qavrayışına əsaslanan nitqin inkişafına musiqi ilə hərəkətlərin düzgünlüyü, əlaqələndirilməsi, ifadəli və ritmik hərəkətlərin inkişafı, tarazlıq hissi, düzgün duruşun formalaşması, əzələlərin sərbəstlik və gərginlik bacarıqlarının, nitqin səs, söz, fraza və s. ritmik-intonasiya quruluşunun inkişafı, habelə nitqin bərpasının stimullaşdırılmasına əsaslanan fonetik ritmlərdən geniş istifadə etməklə nitqin tələffüz tərəfinin formalaşmasına müsbət təsir göstərilməsindən ibarətdir.

**Məmmədova Münəvvər İsmayıl qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
*sehran61@mail.ru*

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ İNKİŞAF ŞƏRAİTİNİN REALLAŞDIRILMASININ TƏDQİQİ

***Açar sözlər:*** *tələbələrin idrak fəallığı, fərdi yanaşma, pedaqoji şərait, dəyərlər sistemi, inkişaf səviyyəsi*

Tələbələrin idrak fəallığının inkişafında aparıcı ideyalar qismində: 1) fəal şəxsiyyətin formalaşması amili kimi təhsil-idrak fəallığı potensialından istifadə; 2) tələbələr tərəfindən bilik vasitələrinin sərbəst və şüurlu seçiminin həyata keçirilməsi baş verir.

*Sistem yanaşması* ayrı-ayrılıqda deyil, onların qarşılıqlı əlaqəsi, inkişafı və hərəkəti ilə nəzərə alınmaqla müstəqil komponentlərə imkan verdi. *Fəaliyyət yanaşması* tələbənin subyekt kimi çıxış etdiyi təhsil mühiti ilə fəal qarşılıqlı əlaqəsini nəzərdə tuturdu. *Aksioloji yanaşma* çərçivəsində universitetin tədris prosesi qarşılıqlı əlaqəni tənzimləyən və tələbənin subyekt kimi formalaşmasına təsir göstərən normalar, qaydalar, dəyərlər sistemi kimi başa düşülürdü. *Yaş yanaşması* yaş dövrünün imkanları və xüsusiyyətləri əsasında tələbələrin psixoloji xüsusiyyətlərini nəzərə alırdı.

Təcrübənin müəyyənləşdirilməsi mərhələsinin əsas vəzifəsi tələbələr arasında idrak fəallığının real inkişaf səviyyəsini müəyyən etmək idi. Bu problem bir sıra diaqnostik üsulların köməyi ilə həll edildi, onlardan istifadə hər bir tələbədə idrak fəallığı haqqında fikirləri müxtəlif aspektlərdən öyrənməyə və bunun əsasında nəticə çıxarmağa imkan verdi. Bir sıra meyarlardan istifadə edərək tələbələrin idrak fəallığının səviyyələri və göstəriciləri müəyyən edilmişdir:

**Cədvəl 1. Tələbələrin idrak fəallığının xüsusiyyətləri**

| Səviyyələr | Göstəricilər |
|---|---|
| **Aşağı** | 1. Müəllimin ona müraciətindən sonra dərhal fəaliyyətə başlayır. Davamlı olaraq dərsə aid olmayan işlərlə məşğul olur (danışır, rəsm çəkir);<br>2. Dəfələrlə təkrarlardan sonra məlumatı təkrar edə bilmir (həm ucadan, həm də vizual olaraq).<br>3. Kənar şəxslərin (müəllim, tələbə yoldaşı) köməyi olmadan nəticə çıxara bilmir.<br>4. Mühazirənin məzmunu ilə bağlı suallar vermir. Əlavə ədəbiyyatdan istifadə bacarığı yoxdur. Fərdi məşğələlərə, məsləhətləşmələrə getmir.<br>5. Təşəbbüskar deyil. Öyrənməyə maraq göstərmir. Müstəqil olaraq əldə etdiyi bilik və bacarıqlardan yeni problemlərin həllində istifadə etmir.<br>6. Qeydlər aparmağı və nəzəri materialdan (təriflər, anlayışlar və s.) istifadə etməyi bilmir. |
| **Orta** | 1. Öyrənilən mövzu ilə bağlı ancaq fəaliyyət qeyri-adi olduqda (məsələn, söhbət) sual verə bilər.<br>2. Müəyyən təkrarlardan sonra məlumat vizual olaraq bərpa olunur.<br>3. Təkrarlamalardan sonra müstəqil nəticələrin reallaşması baş verir.<br>4. Kreditə təsir etmək şərti ilə əlavə ədəbiyyatdan yararlanır, fərdi dərslərdə iştirak edir.<br>5. Mövzunun müəyyən məsələlərinin öyrənilməsində təşəbbüskarlıq (seçmə yolu ilə) nümayiş etdirir.<br>6. Seminarda nəzəri materialdan istifadə, səsyazma üçün mühazirə qeydləri edir. |
| **Ortadan yüksək** | 1. Dərs zamanı öyrənilən mövzu ilə bağlı çoxlu suallar verir.<br>2. Ucadan təkrar edərək və vizual olaraq məlumat bərpa olunur.<br>3. Müəyyən göndərişdən sonra müstəqil nəticələr əldə edilir.<br>4. Öyrənilən məlumat maraqlı olarsa, o zaman əlavə ədəbiyyatdan yararlanır və əlavə dərslərdə iştirak edir.<br>5. Mövzunun ayrı-ayrı məsələlərinin öyrənilməsində təşəbbüskarlıq göstərir.<br>6. Müəyyən bir tempdə işləmək, qeyd üçün mühazirəni tərtib etmək, nəzəri materialdan istifadə etmək bacarığını göstərir. |
| **Yüksək** | 1. Dərs zamanı öyrənilən mövzunun məzmunu ilə bağlı çoxlu suallar verir.<br>2. Bir dəfə təkrardan sonra məlumatı vizual olaraq bərpa edilir.<br>3. Müəyyən göndərişdən sonra müstəqil nəticələri reallaşdıra bilir.<br>4. Əlavə ədəbiyyata daima istinad edir. Tədqiq olunan məsələ maraqlı və onun üçün əhəmiyyətli olarsa, əlavə dərslərdə iştirak edir.<br>5. Müəyyən məsələlərin öyrənilməsində təşəbbüskarlıq göstərir. Bilik və bacarıqlarını başqaları ilə bölüşmək istəyini nümayiş etdirir.<br>6. Münasib tempdə işləmək, mühazirədə qeydlər aparmaq, seminarda nəzəri materialdan istifadə etmək, başqalarının cavablarını nəzərdən keçirmək bacarığını göstərir. |
| **Çox yüksək** | 1. Dərs zamanı öyrənilən mövzu ilə bağlı çoxlu suallar verir.<br>2. Təkrardan sonra məlumatı ucadan və vizual olaraq çatdırır.<br>3. Bir müddəadan sonra müstəqil olaraq nəticələrini reallaşdırır. Yeni və əvvəllər öyrənilmiş material arasında əlaqə yarada bilir.<br>4. Əlavə ədəbiyyatın müstəqil axtarışını aparır, öz təşəbbüsü ilə bütün əlavə dərslərdə iştirak edir.<br>5. Akademik fənlərin məzmununu müstəqil şəkildə genişləndirir. Fərdi məsələlərin öyrənilməsində təşəbbüskarlıq nümayiş etdirir. Bilik və bacarıqları başqaları ilə bölüşmək istəyir. Olimpiadalarda, yarışlarda iştirak edir. |

| | |
|---|---|
| | 6. Müəyyən tempdə işləmək, mühazirədə qeydlər aparmaq, seminar məşğələsində nəzəri materialdan istifadə etmək, müdafiə zamanı inandırıcı dəlillər gətirərək başqalarının cavablarını nəzərdən keçirmək və öz fikrini bildirmək bacarığını göstərə bilir. |

**Məmmədova Zeynəb Camal qızı**
*ADPU-nun Xüsusi təhsil kafedrasının baş müəllimi*
*zeynabcamal09@gmail.com*

## TƏLİMİN TƏŞKİLİNİN KOQNİTİV BACARIQLARIN FORMALAŞMASINDA ROLU

***Açar sözlər:*** *koqnitiv bacarıq, kompetensiya, təlim, fəaliyyət, problem*

Müasir təhsil konsepsiyası şagirdlərin təfəkkür imkanlarının inkişaf etdirilməsi ilə yanaşı, onlarda yaradıcılıq qabiliyyətinin formalaşdırılmasına da istiqamətlənmişdir. Yaradıcılıq insan təxəyyülünün məhsuludur və bunun ortaya çıxması, formalaşması, inkişaf etməsi üçün səmərəli təlim mühitinin yaradılması vacib şərtlərdəndir. Dərs prosesinin aparıcı subyektlərindən biri olan müəllim mövzunun məzmununda həm koqnitiv proseslərə, həm kreativ proseslərə, həm də konstruktiv proseslərə önəm verərək təlim strategiyasını yaratmalıdır. Bu zaman ən önəmli məqam şagirdlərdə nəzəri biliklərin praktik tətbiqetmə bacarıqlarına çevrilməsinə nail olmaqdır. Çünki bu gün şagird koqnitiv (dərketmə) öyrənmə mövqeyindədir. Koqnitiv öyrənmə şagirdləri verilən tapşırığın məzmununu praktik araşdırmağa, məzmunu daha dərindən başa düşməyə imkan verir. Bu cür yanaşma şagirdlərdə koqnitiv bacarıqların formalaşdırılmasına nail olmağa imkan yaradır. Koqnitiv bacarıqlar şagirdlərin köhnə biliklərlə yeni biliklərinin əlaqələndirilməsi ilə yanaşı, onlarda yeni ideyaların formalaşmasına zəmin yaradır. Bununla da koqnitiv öyrənmə şagirdlərdə mövzunun məzmununu dərk etmək, problemi həll etmək, nəticə çıxartmaq və yeni ideyalar üzərində düşünmək kimi bacarıqlar formalaşdırır. Bacarıqlara əsasən koqnitiv bacarıqlar, təlim və ya əmək bacarıqları, konstruktiv bacarıqlar, təşkilati bacarıqlar, texnoloji bacarıqlar və kommunikativ bacarıqlar aiddir. Bu bacarıqlar içərisində koqnitiv bacarıqlar bilavasitə insanın dərketmə sahəsinə aid olan bacarıqdır. Bu baxımdan koqnitiv bacarıqlara daha çox əqli keyfiyyətlərə daxil olan bilik, bacarıq və vərdişlər sistemi kimi yanaşılması tələb olunur. Bu da dərketmə fəaliyyətində subyektin sensor siqnalları dəqiqliklə qəbul edərək onları qavraması, əvvəllər mənimsədiyi bilik, bacarıq və vərdişlərə uyğun üzərində əməliyyatlar aparması, yeni əqli nəticəyə gəlməsi və bu biliklərə uyğun olaraq yerinə yetirilməli olan hərəkətləri icra etmək bacarığının mənimsənilməsidir.

Bacarıqlar psixoloji məzmuna malik olmaqla yanaşı, pedaqoji elmlər sistemində əsas yer almışdır. Təlim prosesində bacarıqlarla yanaşı, şagirdlərdə digər kompetensiyalar da formalaşır. Bu kompetensiyalar bilik, dəyər və vərdişlərdir. Şagirdlərdə müəyyən kompetensiyalar həm əqli, həm də hərəki imkanlar sayəsində formalaşır. Bunun üçün təlimin planlaşdırılması müxtəlif yanaşma tələb edir. Belə ki, yerinə yetiriləcək tapşırıqların növündən asılı olaraq bacarıqların formalaşdırılması məqsəd kimi qarşıya qoyulur. Aydındır ki, bu zaman uşaqlarda diqqət və hafizə kimi psixi proseslər də koqnitiv öyrənmə zamanı inkişaf edir. Ə.Əlizadənin təbirincə desək, idrak proseslərindən duyğu, qavrayış, diqqət, hafizə, nitq, təfəkkür və təxəyyülün hər birinin koqnitiv funksiyanın həyata keçirilməsində özünəməxsus rolu var. Koqnitiv bacarıqlar texnoloji resurslardan səmərəli istifadə etməklə zəruri məlumatların axtarışı və seçimini, yeni informasiyanın yaradıcı şəkildə təhlil edilməsini, fəaliyyət zamanı məqsədəuyğun istifadəsini, qorunmasını, informasiyaların işlənməsini, ümumiləşdirilməsni, saxlanılmasını, ötürülməsini və yüksək səviyyədə nəticə əldə edilməsini təmin edir. Dərs prosesində uşağın praktik fəaliyyəti müxtəlif formalarda, əmək, təlim və ya oyun formalarında özünü göstərir. Koqnitiv bacarıqların

formalaşdırılmasında onlardan hər birinin özünəməxsus rolu vardır. Bu prosesdə uşağın inkişafı üçün idrak əməliyyatları əhəmiyyətli rola malikdir.

Müasir dərsin tələblərindən doğan yanaşma şagirdlərdə yeni bilik və bacarıqların vərdişlərə çevrilərək həyatda tətbiqinə nail olmaqdır. Bunun üçün mövzunun problem şəkildə qoyuluşu, tapşırıqların yerinə yetirilmə forması, kreativ yanaşmanın tələbi şagirddə təxəyyülün imkanlarını genişləndirir. Şagirdlər koqnitiv fəaliyyət zamanı koqnitiv bacarıqlara yiyələnirlər. Bu da öz növbəsində dərketmə, konstruktiv, təşkilati, texnoloji, əmək və kommunikativ bacarıqları formalaşdırır. Ona görə də əqli keyfiyyətlərə söykənən bilik, bacarıq, vərdiş və dəyərlər sistemi koqnitiv bacarıqların formalaşmsını tələb edir ki, bu da insanın idrak sahəsinə aid olan bacarıqdır. Şagirdlərə problemlərə yeni həll yolları tapmağa istiqamət vermək, öyrənilənlər haqqında müzakirələri təşviq etmək, fikirlərin bir-biri ilə necə əlaqəli olduğunu araşdırmaq və anlamağa kömək etmək, onlarda fikirlərini əsaslandırmaq və izah etmək bacarığı formalaşdırılır. Koqnitiv bacarıq insana xas olan bir bacarıq növüdür. Bu bacarıqların formalaşmasında ən mühüm proses koqnitiv prosesdir. Koqnitiv proses özü isə insanın dünya haqqında aldığı informasiyanı təsəvvür etməsi, hafizəsində saxlayaraq biliyə çevirməsi, bu biliklərin koqnitiv bacarıqlar sayəsində fəaliyyətə çevirilməsi prosesidir. Koqnitiv fəaliyyətdə idrak proseslərindən başqa emosiya, psixi hal, xassə, fərdi xüsusiyyətlər də fəal iştirak edir.

Dərs prosesində şagirdlərin koqnitiv fəaliyyətində onlarda formalaşdırılmalı olan koqnitiv bacarıqlara aşağıdakılar aid edilir:

- təlim məqsədini anlayaraq tapşırıqları (problemi) müstəqil şəkildə həll etmək;
- yerinə yetiriləcək tapşırığın quruluşunu, qaydalarını, istiqamətlərini bilmək və əməl etmək;
- tapşırığa məzmun və texniki baxımdan yaxşı bələd olaraq onun strategiyasını, planını qurmaq, modelləşdirmək və sxemləşdirmək;
- tapşırığın yerinə yerinə yetirilməsini düzgün icra edərək səmərəli nəticəyə gəlmək;
- nümunə əsasında hərəkətlərin qoyulmuş vaxtda keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək;
- fəallıq göstərmək;
- qoyulmuş fərziyənin doğruluğunu sınaqdan keçirərkən gözlənilən nəticələrin vasitələrlə icrasına səy göstərmək;
- hərəkətlərinin icrası zamanı özündə aşkar etdiyi koqnitiv quruluşların formalaşmasına yaradıcı yanaşmaq;
- tapşırığın həlli üsullarının seçilməsinə kreativ yanaşmaq;
- məntiqi nəticəyə gəlmək;
- özünün bacarıqlarını obyektiv qiymətləndirmək.

Bütün bu bacarıqların formalaşdırılması üçün dərsin yaradıcı şəkildə təşkili, metodiki dəstək və istiqamətin olması vacib şərtlərdəndir. Məhz o zaman koqnitiv fəaliyyətin təşkili koqnitiv bacarıqla nəticələnər. Koqnitiv bacarıqlar şagirdlərin təlim fəaliyyətində yalnız onların ayrı-ayrı idrak prosesləri kontekstindən deyil, eyni zamanda bütün idrak prosesləri ilə yanaşı, emosiya, iradə, davranış, fəaliyyət və kommunikativ bacarıqlarından da asılı olaraq formalaşır.

**Dadaş-zadə Leyla Səfərbəyovna**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müəllimi*
*leyla_azizova81@mail.ru*

## YENİYETMƏLƏRDƏ DEPRESSİYA PROBLEMİ VƏ ONUN ARADAN QALDIRILMASI

***Açar sözlər:*** *depressiya, psixoloji vəziyyət, simptom, koqnitiv pozğunluq, psixoloji korreksiya*

Yeniyetmələrin depressiv vəziyyəti, risk altında olan uşaqların müəyyən edilməsi, onların korreksiyası uşaq şəxsiyyətinin ahəngdar inkişafı üçün əhəmiyyətlidir və müasir dövrdə də aktualdır. Depressiya ən çox görülən psixi pozğunluqlardan biridir və ömür boyu yayılma nisbəti təxminən 20% təşkil edir. Dünyada 300 milyondan çox insana təsir edir. Depressiya koqnitiv pozğunluqlarla (məsələn, gələcəyə ümidsizlik, əsəbilik, günahkarlıq, mərkəzləşmənin pozulması, yuxu və iştaha problemləri, intihar düşüncələri ilə birləşən davamlı, pis əhval-ruhiyyə ilə) xarakterizə olunur və hər yaşda baş verə bilər. Depressiya daha çox yeniyetməlik yaş dövründə başlayır və xroniki vəziyyətlə, risklə əlaqələndirilir. Yeniyetməlik yaş dövrü davamlı, sosial, koqnitiv və neyrobioloji inkişaf dövrüdür. Bundan əlavə, depressiya əlamətləri daha ciddi psixi problemlərə, o cümlədən böyük depressiv pozğunluğa çevrilə bilər.

Depressiyanın şəxsiyyətlərarası kontekstdə baş verdiyi ehtimal edilir və problemli şəxsiyyətlərarası münasibətlər tez-tez depressiyanın proqnozlaşdırıcıları kimi göstərilir. Yeniyetməlik dövründə depressiya bir sıra mənfi uzunmüddətli funksional və kliniki nəticələrlə əlaqələndirilir ki, buraya məktəb çətinlikləri, pozulmuş şəxsiyyətlərarası münasibətlər, intihar davranışı, fiziki sağlamlıq problemləri və münasibətlərdə ziddiyyətlər aid edilir. Müsbət münasibətlər yeniyetmələrə həmyaşıdlar qrupuna daxil olmağa imkan yaradır. Həmçinin həmyaşıdların qəbulu sosial dəstəyi təşviq edir, stresin zərərli təsirlərini aradan qaldırmağa kömək etməklə yeniyetmələrin özünə hörmətini artırır və psixososial problemlər riskini azaldır.

Əksinə, həmyaşıdların onu bəyənməməsi təkcə rədd etməyi deyil, həm də başqalarının mənfi mülahizələrini əks etdirir və affektiv münaqişənin, antoqonizmin, antipatiyanın, düşmənçiliyin mövcudluğunu göstərir. Mənfi qarşılıqlı təsirlər psixoloji stresə səbəb olur, öz növbəsində tənhalıq və depressiya da daxil olmaqla problemlərin daxililəşdirilməsi riskini artırır. Yeniyetmələrin sosial münasibətlərinin müxtəlif aspektləri depressiya üçün risk faktorları kimi tədqiq edilmişdir. Buraya münaqişə, həmyaşıd qruplarında qeyri-populyarlıq, habelə təcrid, sosial dəstəyin olmaması və ya dostların olmaması və s. aiddir.

Bu amillər arasında tənhalığın ön planda olduğu aydın görünür. Tədqiqatlar göstərir ki, tənhalıq əksər yeniyetmələr tərəfindən yaşanır və ardıcıl olaraq depressiyanın əhəmiyyətli bir göstəricisi hesab olunur. Depressiya kimi tənhalıq da ümumi bir vəziyyətdir və ciddi ictimai sağlamlıq problemidir. Statistikaya görə, təxminən 30 milyon yetkin insan özünü çox vaxt tənha hiss edir. Yeniyetmələr arasında tənhalığın yayılması daha yüksəkdir. Tənhalıq kədər və narahatlıqla dolu xoşagəlməz və stresli emosional bir vəziyyətdir, onun mənbəyi insanların şəxsiyyətlərarası münasibətlərinin gözlənilən və qəbul edilən psixoloji vəziyyəti arasındakı uyğunsuzluqdadır. Bundan əlavə, tənhalıq hissləri depressiya əlamətlərinin artmasına səbəb olur. Yeniyetməlik yaş dövründə aşağı özünüqiymətləndirmə və depressiya əlamətləri arasında əlaqə çoxsaylı tədqiqatlarda öz əksini tapmışdır. Depressiya qeyri-sabit öznüqiymətləndirmə olan yeniyetmələrdə inkişaf edir.

Alimlərin fikrincə, depressiya vəziyyətinin görünüşü ilə yeniyetmənin özünüdərketmə səviyyəsi arasında sıx əlaqə vardır. Bu da çox vaxt depressiyanın əsas səbəbi hesab olunur, buna yeniyetmənin özünəhörmətinin, uğurlarının tədricən azalması misal ola bilər. Belə bir vəziyyət yeniyetmənin özü haqqında xoşagəlməz fikirlərinin təsiri altında baş verir. Yeniyetməlik yaş dövrü depressiv simptomların və tənhalığın başlanğıcı, eləcə də onlar arasındakı əlaqənin öyrənilməsində kritik dövr hesab olunur.

Bu dövrdə depressiya özünəinamın aşağı səviyyədə olması, tənhalıq, sosial uyğunsuzluq, sağlamlığın pisləşməsi hallarında özünü təzahür etdirir. Təklik riskinin yeniyetməlik dövründə ən yüksək həddə çatdığını da nəzərə alsaq, aydın olur ki, bir-biri ilə əlaqəli olan bu iki psixososial problem ciddi və mənfi nəticələrə səbəb olur.

Depressiya motivasiya, koqnitiv davranışın ümumi passivliyi sahəsində dəyişikliklərlə, mənfi emosional fon ilə xarakterizə olunan affektiv vəziyyətdir. E.P.İlyin yazır ki, yeniyetməlik yaş dövründə depressiya ehtimalı aşağıdakı amillərin mövcudluğu ilə artır: 1) ailədəki problemlər, iqtisadi çətinliklər və valideynlərin səhhəti; 2) həmyaşıdları arasında aşağı özünüqiymətləndirmə; 3) məktəb uğursuzluğu.

G.V.Starshenbaumun fikrincə, psixogen depressiya geri dönməz itki vəziyyətində baş verir. Bu, ölüm, ayrılıq, boşanma və ya həbslə əlaqəli sevilən birinin itkisi, müəyyən bir statusun itirilməsi, maliyyə itkisi və ya digər əhəmiyyətli dəyərlərin itirilməsi ola bilər. Psixogen depressiya melanxoliya, narahatlıq, apatiya, aşağı özünüqiymətləndirmə, keçmişin, indinin və gələcəyin mənfi qiymətləndirilməsi və vegetativ pozğunluqlarla özünü göstərir.

Depressiyanın aradan qaldırılmasında öz hisslərini, vəziyyətini ifadə etməkdə, hekayələr və ya şeirlər yazmaq yaxşı kömək edir. Emosional vəziyyəti tənzimləmək üçün musiqi dinləmək daha yaxşı nəticə verir. Subdepressiv vəziyyətləri aradan qaldırmağa kömək edən psixoloji amillər vardır. Bunun üçün neqativ düşüncə tərzini aradan qaldırmaq, həyatda baş vermiş anları yada salaraq onlara tez-tez qayıtmaq vərdişindən əl çəkmək və gələcəyi yaxşı görmək lazımdır. Ailə daxilində xoş ünsiyyət mühiti yaratmaq, tənqidi mühakimələrdən və konfliktlərdən qaçmaq lazımdır. Etibara söykənən isti münasibətlər və tanışlıqlar yaratmaq lazımdır ki, onlar sizə gələcəkdə emosional dəstək versinlər. Əgər xəstəlik uzun müddət davam edərsə, qəfil sağalma çox nadir hallarda baş verir və faiz nisbətində bütün halların 10%-ni təşkil edir, eyni zamanda depressiv vəziyyətə qayıdış ehtimalı da çox yüksək olur. Davranış terapiyası xəstərələrə xoşagələn işlə məşğul olmağı və eyni zamanda xoşa gəlməyən, ağrılı işdən uzaq durmağı öyrədir. Koqnitiv terapiya depressiv xarakterli koqnitiv pozuntuları, eləcə də faydalı aktivliyə mane olan həddən artıq pessimistlik və ağrılı fikirləri müəyyənləşdirən davranış metodikaları ilə birgə tətbiq olunur.

**Kazımova Şəfa Eyvaz qızı**
*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*
*sheyvazli87@gmail.com*

## YENİ PEDAQOJİ TƏFƏKKÜR VƏ İNKLÜZİVLƏŞƏN TƏHSİL

***Açar sözlər:*** *təhsil, təfəkkür, inkişaf, inklüziv təhsil, yeni pedaqoji təfəkkür, sağlamlıq imkanları məhdud olan şəxslər*

Azərbaycan Respublikası müstəqil və inkişaf etməkdə olan bir ölkə kimi daim öz iqtisadi, sosial-mədəni sferasında Avropa təhsil məkanına inteqrasiya etməyə və onun qabaqcıl ideyalarını mənimsəyərək öz təhsil sisteminə tətbiq etməyə çalışır. Müasir təhsilin inkişaf meyilləri hər onillikdə dəyişir və daha mütərəqqi sistemlərin tətbiqinə ehtiyac yaranır. Yeniliklərin tətbiqi sadəcə ehtiyac olmaqla qalmır, həm də zamanın tələbi olaraq təhsil sahəsində fəaliyyət göstərən şəxslərin və dövlətin qarşısında əsas məsələ kimi dayanır.

Lakin elə konseptual məsələlər vardır ki, onlar müəyyən bir zaman kəsiyində icra olunmur və məhdud bir sistemə aid edilmir. Təhsil sistemində ən köklü ideyaları özündə cəmləşdirən, hörmətli professor, psixologiya elmləri doktoru Əbdül Əlizadə tərəfindən hərtərəfli tədqiqata cəlb olunan yeni pedaqoji təfəkkür konsepsiyası və yeniləşən məktəb sisteminin yaradılması məhz bu cür bir konseptual məsələdir. Bu məsələnin konseptuallığı onun bir tarixi dövr çərçivəsində mövcud olan kiçik bir məsələ deyil, bütöv bir fəlsəfi ideya kimi nəzəri və praktik əsaslara malik olmasındadır.

Müasir dövrdə Azərbaycan məktəblərinin inklüzivləşdirilməsi yolunda mühüm addımlar atılmaqdadır. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaq əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Bu Proqramın tələbinə uyğun olaraq, Azərbaycanda bütün ümumtəhsil məktəblərinin və orada fəaliyyət göstərən pedaqoji kadrların inklüziv təhsilin tələblərinə uyğunlaşdırılması prosesi həyata keçirilməkdədir.

Azərbaycanda təhsilin inklüzivləşdirilməsini və bu prosesin əsas metodologiyasını izləyərkən hörmətli professor Əbdül Əlizadənin yeni məktəb və yeni dərs haqqında ideyaları dəyərli mənbə kimi qarşımıza çıxır. Prof. Ə.Əlizadənin yenilənən məktəb və pedaqoji proses haqqında dəyərli elmi fikirləri təhsil işçilərinə öz fəaliyyətlərini qurmaq üçün mayak rolu oynayır.

Bu gün hər bir müəllim şagirdlə – böyüməkdə olan vətəndaşla, şəxsiyyətlə münasibətlərində professor Əbdül Əlizadənin fikirlərinə istinad etməli və praktik fəaliyyətin nəzəri sistemindən bəhrələnməlidir.

Professor Əbdül Əlizadənin müəllifi olduğu "Uşaqlarda diqqətin tərbiyəsi", "Uşaqlarda kollektivçilik hisslərinin tərbiyəsi", "Yoldaşlıq və dostluq tərbiyəsi", "Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi", "Ailədə uşaqların cinsi tərbiyəsi", "Şagirdlərin yaradıcılıq fəaliyyətinin psixologiyası", "Yeni pedaqoji təfəkkür", "İstedadlı uşaqlar: psixoloji məsələlər", "İdrak prosesi və hisslər", "Təxəyyül: psixoloji etüdlər" və s. kimi elmi ideyalarla zəngin əsərlər müasir məktəbdə müəllimlərin ən çox istifadə etdiyi stolüstü kitablara çevrilməli və inklüziv təhsili düzgün formalaşdırmaq, şagird şəxsiyyətinin incəliklərinə bələd olmaq üçün ən əsas nəzəri ədəbiyyat rolunu oynamalıdır.

Professor Əbdül Əlizadənin 2013-cü ildə "Azərbaycan məktəbi" jurnalının birinci nömrəsində nəşr etdirdiyi "Yeni pedaqoji təfəkkür konsepsiyası haqqında" adlı məqalə müəllimlər üçün çox dəyərli mənbə rolunda çıxış edir. Alimin fikrincə, yeni pedaqoji təfəkkür təhsilin fəlsəfəsi və sosiologiyasının, psixologiyasının, pedaqogikasının, hətta biologiyasının inteqrasiyası kökündə əmələ gəlmişdir.

Təkcə bu fikrin analiz edilməsi onu deməyə əsas verir ki, Əbdül müəllim təhsilin hərtərəfli olmasını və bütün şagirdləri əhatə etməsini əsaslandırmaqla yanaşı, ənənəvi təlim metodlarından, yorucu dərslərdən xilas olmağı və yeni üsullara müraciət etməyi tövsiyə edirdi. Professor bu dəyərli elmi məqaləsində məktəblərin və müəllimlərin ünsiyyət üslubuna da toxunur və avtoritar üslubu kəskin tənqid edirdi.

Professor Əbdül Əlizadə həm namizədlik, həm də doktorluq dissertasiyalarında təhsilin bugünkü inkişafı üçün çox dəyərli mənbə olan ideyaları işləyib hazırlamışdır. Hər nə qədər birbaşa təhsilin inklüzivləşdirilməsi ifadəsi bu elmi əsərlərdə istifadə olunmasa da, bu gün həmin ideyalar inklüziv təhsildə birbaşa istifadə olunur.

Professor Əbdül Əlizadənin irsi bu gün inklüzivləşən cəmiyyətdə pedaqoji kadrlar üçün mühüm əhəmiyyət kəsb edir. Bu irsi daha geniş kütlələrə çatdırmaq və professor Əbdül Əlizadənin dəyərli tədqiqatlarından hərtərəfli istifadə etmək üçün gənc elmi kadrlara imkan yaratmaq lazımdır ki, Əbdül Əlizadə irsini tədqiqata cəlb etsinlər və təhsilin bütün pillələrində onun pedaqoji ideyalarının yayılmasına yardımçı olsunlar.

**İsazadə Elnarə Əkbər qızı**
*ADPU-nun Quba filialı*
*elnare.zade93@gmail.com*

## EMOSİONAL SFERADA UŞAQ QORXULARI VƏ ONLARIN KORREKSİYASI

***Açar sözlər:*** *qorxu, emosional sfera, emosional vəziyyət, nevrotik pozğunluqlar, özünüqoruma instinkti*

Qorxu təhlükəli amillərin təsirinə cavab olaraq yaranan, özünüqoruma instinktinə əsaslanan bir hissdir. Uşaqlarda qorxuların spesifik xüsusiyyəti ondan ibarətdir ki, bu qorxular birbaşa təhlükə ilə əlaqəli deyil. Uşaqlarda qorxular əsasən yaxın insanlardan aldıqları məlumatları öz təsəvvür və təxəyyüllərində canlandırmaqdan yaranır. Uşaq qorxularının öyrənilməsi onların emosional vəziyyətinin, psixi proseslərin gedişinə və uşağın şəxsiyyətinin inkişafına nə qədər güclü təsir etdiyini göstərir. Uşaq qorxuları on ilədək nəticə vermədən düzəldilə və yox ola bilər. Buraxılmış və işlənməmiş qorxular uşağın öyrənmə fəaliyyətinə,

valideyn-uşaq münasibətlərinə, eləcə də sosial fəaliyyətinə və başqaları ilə qarşılıqlı əlaqəsinə güclü mənfi təsir göstərə bilər. Y.Z.Şerbatıxın sözlərinə görə, “qorxuların nəticələri çox müxtəlifdir və mənfi dəyişikliklər demək olar ki, bütün psixoloji sahələrə təsir edir”. Qeyd etmək lazımdır ki, uşaq qorxuları yaşla bağlıdır, müvəqqətidir, keçicidir. Lakin uzun müddət davam edən və uşaq tərəfindən ağır şəkildə yaşanan qorxular əsəb zəifliyindən, valideynlərin düzgün olmayan davranışlarından, ailədəki münaqişə münasibətlərindən xəbər verir. Uşaq qorxuları şəxsiyyətin quruluşuna və onun ətraf mühitin təsirinə reaksiyasına əhəmiyyətli dərəcədə təsir göstərir. Buradan belə bir nəticəyə gələ bilərik ki, əgər qorxular dəyişirsə, onda hər bir nəsil fərdi əsas təcrübəyə malikdir və nəticədə ətraf mühitin təsirlərinə bir az fərqli şəkildə reaksiya verir. Dərhal qeyd etmək lazımdır ki, eyni homosapiens növünə aid olduğumuz üçün əsas qorxular prinsipcə bizim üçün eynidir. Bunlara qaranlıq qorxusu daxildir, çünki uzun müddətdir qaranlıq insanlar üçün təhlükədir, buna görə də bir çox uşaqlar üçün də o əsas qorxulardan biri olaraq qalır. Həmçinin əsas qorxulara iri heyvanlardan, ölümdən, tənhalıqdan, yad insanlardan qorxmaq və s. aid edilə bilər. Psixologiya və pedaqogikada qorxunun müxtəlif təsnifatları mövcuddur. Y.A.Namer qorxunun 3 əsas növünü müəyyən edir: *real, nevrotik və azad qorxu. Həqiqi qorxu* xarici təhlükənin dərk edilməsinə normal reaksiya kimi özünüqoruma instinktinin rasional ifadəsidir. *Nevrotik qorxu* psixi proseslərin fəaliyyətinin pozulması nəticəsində yaranan "məqsədsiz qorxu"nun müxtəlif formalarındandır. *Sərbəst qorxu* ümumi şəkildə qeyri-müəyyən qorxaqlıqla, hər hansı bir yaranan fürsətə bağlanmağa bir müddət hazır olan və "qorxulu gözləmə" vəziyyətində ifadə edilən qorxulardır. Bu qorxuya səbəb heç bir obyektlə əlaqəli deyildir. A.İ.Zaxarov tərəfindən qorxuların təsnifatı işlənilmişdir. O, qorxuları aşağıdakı xüsusiyyətlərə görə fərqləndirir:

- *Təbiətinə görə– təbii qorxular.* Bu qorxular özünüqoruma instinkti əsasında yaranır. Buraya insanın öz ölümü, valideynlərinin ölümü, canavarlar, xəyallar, heyvanlar, qaranlıq, hərəkət edən nəqliyyat vasitələri, yüksəkliklər, dərinliklər, su, qapalı məkan, yanğın, qan, infeksiya, ağrı, həkimlər, gözlənilməz səslər aid edilir.
- *Sosial qorxular.* Bu qorxulara tənhalıq, cəza, vaxtında işdə olmamaq, gecikmək, işin öhdəsindən gəlməmək, hisslərə sahib ola bilməmək, həmyaşıdların qınaması və s. daxildir.
- *Situasiya qorxuları.* Bu qorxular uşaq və yeniyetmələr üçün qeyri-adi, son dərəcə təhlükəli və ya şokedici mühitdə baş verə bilər. Çox vaxt bir qrup insanda zehni bir çaxnaşma infeksiyası, ailə üzvlərinin narahatedici proqnozları, çətin sınaqlar, münaqişələr və həyat uğursuzluqları nəticəsində onlar təzahür edir.
- *Şəxsi qorxular.* Bu qorxu insanın təbiəti ilə, məsələn, onun narahat şübhəsi ilə əvvəlcədən müəyyən edilir, yeni mühitdə və ya yad insanlarla təmasda görünə bilir.

R.V.Ovçarova qorxunun aşağıdakı növlərini təsnif edir: 1. Yaşla bağlı qorxular uşaqlarda onların psixi və şəxsi inkişafının xüsusiyyətlərinin təzahürü kimi müşahidə olunur. Bu qorxular narahatlıq və narahatlıqla dolu ailə mühiti, tez-tez münaqişələr, yaxın ətraf mühit, ətraf mühit obyektlərinin potensial təhlükə mənbəyi kimi şişirdilmiş qəbulu, qarşılıqlı əlaqə uşağın mövcud qorxuları şəklində özünü göstərir. Bunlarla yanaşı, mövcud uzunmüddətli təcrübələrin nəticəsi fərdin psixikasında iz qoyan nevrotik qorxular da ola bilər. Odur ki, ətraf mühitdə daha çox həssaslığı ilə müşahidə edilən uşaqlara diqqət yetirilməlidir. Bu qorxular çox vaxt emosional-iradi sferada, münaqişə münasibətlərində özünü göstərən ailə iqliminin pozulması ilə əlaqədardır. Təhlükəsizlik, qayğı, anlayış, dəstək, müsbət səlahiyyət mənbəyi kimi çıxış edən əhəmiyyətli yetkinlərin olmaması əsas səbəblərdəndir. Təhsil mühitinə daxil olarkən bu təzahürlər sosiallaşma, təcrid həm müəllimlərdən, həm də həmyaşıdlarından qorxma, başqalarının gözləntilərini yerinə yetirməmək qorxusu problemlərində özünü göstərə bilər. Qorxu tədqiqatçılar tərəfindən əsas duyğulardan biri hesab olunur. Qorxu xüsusi kəskin emosional vəziyyətə aiddir, təhlükəli vəziyyətdə o özünü göstərən bir reaksiyadır. Qorxu artıq gəlib çatmış konkret təhlükədən yaranır. Eləcə də qorxular mənfi rəngli emosional proses hesab olunur və emosional sahənin inkişafında problemlərin mövcudluğunu göstərir. Narahatlıq və narahatlıq vəziyyətini qorxu təcrübəsindən ayırmaq lazımdır. Qorxu və narahatlıq arasındakı fərqi başa salmaq lazımdır. Qorxudan fərqli

olaraq narahatlıq uzaq və qeyri-müəyyən təhlükə təcrübəsidir. Əgər reallıqda obyektiv təhlükə varsa, o zaman qorxudan, heç bir obyektiv əsası olmayan qorxunu yaşayanda isə narahatlıqdan danışmaq olar. Düzəliş fərdi qrup seansları vasitəsilə həyata keçirilə bilər. Uşaqlar üçün psixoterapiya üsullarından biri dramatik psixoelevasiyadır. Bu üsul 1990-cı ildə İ.Medvedyeva və T.Şişova tərəfindən yaradılmışdır. Metod nevrotik və buna bənzər sərhəd pozğunluqlarından əziyyət çəkən uşaqlarla işləmək üçün nəzərdə tutulmuşdur: qorxular, aqressiv davranışlar, tiklər, obsesyonlar. Bu metodun tətbiqi üçün ilkin şərt valideynlərin fəal iştirakıdır. Bəzi aspektlərdə dramatik psixo-yüksəklik C.Morenonun psixodraması kimi teatr üsullarına bənzəyir. Beləliklə, uşaqların qorxularını düzəltmək üçün psixoloji üsullardan istifadə edərək hərtərəfli proqramların hazırlanması problemi hələ də aktualdır. Proqramların strukturu, onların tematik məzmunu, effektivliyin qiymətləndirilməsi meyarları, habelə uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla bağlı suallar qalır. İnkişafın gücləndirilməsinə və intensivləşməsinə, uşağın tam qorxusuz yaşamasına kömək edən korreksiyaedici inkişaf proqramının hazırlanmasına və onun sınaqdan keçirilməsinə ehtiyac vardır ki, o da öz növbəsində emosional ehtiyatları artırmaqla narahatlıq səviyyəsini və qorxu sayını azaltmağa kömək edəcəkdir.

**Ramazanova Kəmalə Şaban qızı**
*ADPU-nun Şəki filialının baş müəllimi*
*kemale.semedova@mail.ru*

## "MƏNLİK ŞÜURUNUN" FORMALAŞMASININ SOSİAL KONTEKSTDƏ TƏHLİLİ

***Açar sözlər:*** *mənlik, sosial bağlılıq, sosial interaksionizm, inkişaf, özünüdərketmə*

Körpələr dünyaya mənlik hissi ilə gəlməsələr də, zaman keçdikcə bədənlərini və hərəkətlərini qavrayaraq və fərqinə vararaq, tam şüurlu olmayan örtük, mənlik hissi inkişaf etdirirlər. Altıncı aydan sonra öz bədənləri haqqında fikirləri artır, digər insanlara və obyektlərə birbaşa təsir göstərdiyini dərk edir və beləliklə, mənlik və mənlikdən kənar olanlar arasındakı fərqi daha aydın dərk edə bilirlər. Digər tərəfdən, körpələr yeddinci aydan başlayaraq özləri və digər insanlar haqqında fərqli qavrayışlara sahib olduqlarını anlayır, başqalarının yaşadıqlarının və öz yaşadıqlarının eyni olmadığını ayırd edə bilirlər. Təxminən on səkkiz aylıq körpələr özlərini vizual olaraq fərqli fərdlər kimi fərqləndirə bilirlər. Orta və son uşaqlıqda mənlik şüuru fərdin xarici aləmdən və fiziki fəaliyyətindən, öz daxili proseslərinə və psixoloji xüsusiyyətlərinə doğru dəyişir. Eyni zamanda, bu dövrdə uşaqların özünü dərk etməsi sosial cəhətdən başqaları ilə ünsiyyət quraraq və ya müqayisə etməklə daha da artır.

İki ilə dörd yaş arasında uşaqlar özlərinin görünən tərəflərini dərk etməyə başlayırlar. Məsələn, bu yaşda olan bir uşaq saya bildiyini, gözəl otağı olduğunu və ya qarışqaları sevdiyini söyləməklə, özündə müşahidə edilə bilən xüsusiyyətləri dilə gətirə bilər. Lakin bu yaşda uşağın öz mənliyi ilə bağlı müəyyən etdiyi xüsusiyyətlər ayrı-ayrı kateqoriyalar təşkil edir və bu kateqoriyalar hələ uşaqda özünü müəyyən edən vahid qavrayış yaratmır. Təxminən beş-yeddi yaşa qədər uşaqlar fərqli sahələrdə əvvəllər müəyyən etdikləri mənliklərinin bəzi cəhətlərini artıq birlikdə qiymətləndirə bilirlər. Məsələn, bu yaşda olan uşaq özünü sadə səviyyədə təsvir edərkən və özündə yaxşı hesab etdiyi bəzi xüsusiyyətləri birləşdirərək həm futbolda, həm də üzgüçülükdə yaxşı olduğunu söyləyə bilər. Bununla belə, o, hələ də öz mənini tam ifadə etməkdə çətinlik çəkir, çünki o, yaxşı-pis, doğru-yanlış kimi ikiliklər vasitəsilə mülahizə irəli sürür.

Səkkiz ilə on bir yaş arasında uşaq öz xüsusiyyətlərindən bəzilərini qruplaşdırmaqda daha uğurludur. Yeniyetməlik dövründə mücərrəd düşünə bildikləri üçün fərqli xüsusiyyətləri bir araya gətirərək daha mücərrəd keyfiyyətlər çərçivəsində özlərini müəyyən edə bilirlər. Bu dövrdə sosiallaşmanın artması ilə yeniyetmənin çoxlu mənlik inkişaf etdirməsi mümkündür. Yəni yeniyetmə ən yaxın dostu ilə fərqli bir tərəfini, müəllimi ilə fərqli, anası ilə fərqli bir tərəfini

paylaşdığını görür. Bu vəziyyət ilk başlarda onu çaşdırsa da, bu mənlik bütününə çatma və özünü tam dərk etmə vacibdir.

Mənliyin sosial təsirlər vasitəsilə formalaşmasına dair yanaşmalardan biri də simvolik interaksionizm nəzəriyyəsinin yaradıcısı Koley və Middir. Simvolik interaksionizmə görə, gerçəklik təsirlə yaradılır. Fərdlər özlərinə, davranışlarına və digərlərinə simvolik mənalar aid edir və həmin mənaları inkişaf etdirərək təsir yolu ilə bir-birinə ötürürlər. Məna və simvolların yaradılması zamanı mənlik formalaşır. Mid fərdlərin öz fəaliyyətlərinə digərlərinin nə reaksiya verdiyini müşahidə edərək və başqalarının rolunu mənimsəyərək öyrəndikləri fikrini irəli sürür. Yəni fərd hər hansı söz, ya da davranışı ilə digərlərindən necə reaksiya alacağını təyin edə bilir, baxış tərzini dəyişdirə bilir. Özü haqqında düşünərkən eyni zamanda başqalarının onun haqqında nə düşündüyünü fikirləşir. Mənlik müsbət və mənfi xüsusiyyətə sahib sistem olaraq başqaları ilə təsir zamanı dəyişir. Yəni mənlik vəziyyət deyil, bir prosesdir. Mənlik davamlı formalaşmaqdadır. Aparılan araşdırmalarda fərdlərin özləri haqqında fikirlərində digərləri tərəfindən qəbul edilmələri və ya rədd edilmələrindən böyük ölçüdə təsirləndiyi sübut olunmuşdur.

Sosial kontekstin fərdlərin mənlik anlayışlarının inkişafına təsirini nəzərdən keçirən digər yanaşma bağlılıq nəzəriyyəsidir. Bu yanaşma fərdi əhatə edən, ona qayğı göstərən fiqurların (ana, müəllim, yaşıdlar) onlarda mənliyin inkşafında önəmli olduğunı qeyd edir. Bağlılıq nəzəriyyəsinə görə fərdlərin erkən dövrdə onlara qayğı göstərən insanlarla qurduğu əlaqənin keyfiyyətinin fərdlərin özünə və başqalarına dair modellərinə təsir edir. Boulbi baxıcı ilə körpə arasındakı əlaqənin xarakterini xüsusilə vurğulayır. Sözügedən əlaqənin xarakterinin uşağın özünü və başqalarını qavramasına təsir edəcəyini iddia edirərək daxili iş modelləri konsepsiyasını işləyib hazırlamışdır. Boulbi fərdin özü üçün, eyni zamanda xarici dünya və şəxs üçün vacib olan digər şəxslər üçün inkişaf etdirdiyi zehni təsvirləri təsvir etmək üçün daxili iş modelləri terminindən istifadə edirdi. Bu təsvirlər bağlanma fiqurları ilə yaşanan təcrübə nəticəsində əldə edilir. Körpə-baxıcı münasibətinin keyfiyyəti və daxili iş modellərinin təbiəti, qayğı göstərənin körpənin ehtiyaclarına cavab vermə səviyyəsindən və emosional hazırlığından asılıdır. Sevgi dolu və həssas baxıcıları olan, ehtiyacları baxıcıları tərəfindən adekvat və vaxtında ödənilən uşaqlar sevgiyə layiq olduqlarına dair mənlik modelinə, eyni zamanda başqalarının etibarlı və yardımsevər olduqlarna dair "başqaları modeli"nə sahib olurlar. Təhlükəsizlik ehtiyacları qarşılanmayan uşaq özünə dəyərsiz olduğuna dair mənlik modeli və başqalarının etibarsız olduğuna dair "başqaları modeli"ni inkişaf etdirir. Bu, mənlik modeli və "başqaları modeli" daxili iş modelləri adlanır.

Daxili iş modellərinin ən mühüm cəhəti fərdin digər insanların münasibətini proqnozlaşdırması və davranışını buna uyğun planlaşdırmasıdır. Bu modellər fərdlərə vəziyyəti yenidən qiymətləndirməyə ehtiyac olmadan, yeni situasiyalarda necə davranacaqlarına qərar verməyə imkan verən bağlanma sisteminin bir hissəsidir. Başqa sözlə, fərdlər başqa insanlar və özləri üçün yaratdıqları modellər əsasında hərəkət edirlər. Məsələn, başqalarının mənfi modelinə sahib olan bir fərd başqa insanlarla yaxın münasibətlər qurmaqdan çəkinmək, başqalarına etibar etməmək, kömək istəməmək kimi davranışlar göstərə bilər, çünki onlar başqalarının əsas etibarilə etibarsız olduğuna dair zehni düşüncəyə sahibdir. Bu zehni təsvirlər erkən uşaqlıqda ətraf mühitə uyğun olaraq çevik və dəyişkən olsa da, təkrar və təcrübə nəticəsində sabit və davamlı olur.

Sosial kontekst və münasibətlərin fərdi inkişafa təsirinə diqqətçəkən başqa bir yanaşma Eriksonun psixososial inkişaf nəzəriyyəsidir. Erikson iddia edir ki, hər bir inkişaf mərhələsində həll edilməli olan böhranlar bir-biri ilə bağlıdır və hər bir böhranın müvəffəqiyyətlə həlli növbəti mərhələdə yaranacaq böhranın da daha yaxşı idarə oluna bilməsi deməkdir. Ancaq bu uğurlu həll birtərəfli proses deyil. Erikson iddia edir ki, fərd müəyyən mərhələdə qarşılaşdığı böhranı aradan qaldırmaq üçün böhranın müsbət və mənfi həlləri arasında müəyyən nisbət əldə edir. Bu nisbət tarazlığı müsbət həll lehinə olarsa, fərd növbəti mərhələdə qarşılaşacağı böhranla daha yaxşı mübarizə apara biləcək. Ümumiyyətlə, müəyyən yaş aralıqları çərçivəsində deyil, təmsil etdikləri ikili həllər çərçivəsində təqdim olunur.

**Qurbanova Lamiyə Mehdi qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, psixol.ü.f.d.*
*lamiye.74@mail.ru*

# FEMİNİZM, QADIN VƏ QADINLIQ ARASINDA MÜQAYİSƏLİ PSİXOLOJİ TƏHLİL

***Açar sözlər:*** *feminizm, qadın, qadınlıq, cinsi tərbiyə, cinsi bərabərlik*

Feminizm (lat.-ca *femina* - "qadın" deməkdir: qadınların siyasi, iqtisadi, şəxsi, sosial, hüquqi baxımdan kişilərlə cəmiyyətdə bərabər mövqe qazanmaları naminə yaranmış cərəyandır) ilk dəfə XVIII əsrdə qərbdə qadınların hüquq bərabərliyi uğrunda hərəkatı kimi meydana çıxmışdır. Burjua nümayəndələrinin əksəriyyəti vaxtilə belə hesab edirdilər ki, təbiət qadınlara yalnız hiyləgərlik, yalançılıq, xəyanətə meyillilik, naşükürlük kimi hisslər bəxş etmişdir və qadınlara belə şəkildə yanaşmaya qarşı olan proses feminizm cərəyanının yaranmasına təkan verdi və getdikcə bu cərəyanı inkişaf etdirdi. Normalda qadın və kişi hüquqlarının bərabərliyi üçün yaranmış feminizm cərəyanı sonradan siyasi oyunların müdaxiləsi nəticəsində qadın-kişi qarşıdurmasına, ailələrin dağılmasına və digər fəsadlara səbəb olan yanlışlıqlara yönəldildi. Məqsəd kişi və qadın qarşıdurmalarının sayını artırmaq, ailələri dağıtmaq, dağılmış ailələr, eləcə də ailəsiz şəraitin qurbanı olan insanların daha asanlıqla idarəsini həyata keçirməkdən ibarət idi. Qadın ailəlidirsə, təbii ki, onu var gücü ilə işlətmək çətinlik törədir, çünki bu qadının ailəsi qarşısında da öz öhdəlikləri mövcuddur: övladlarına, eləcə də həyat yoldaşına qayğı göstərməlidir. Lakin ailəsi dağılmış qadın ərinə qulluqdan "azad" olur, o cümlədən işləmək üçün övladlarını baxıcı yanına qoymağa məcbur olur, işdəki tapşırıqları var gücü ilə yerinə yetirir ki, dolanışığını təmin edə bilsin və s. Eləcə də ailəsi dağılmış kişilər ərlik "məsuliyyəti"ndən azad olaraq daha çox idarə olunmağa, təsir altına düşməyə meyilli olur, çünki travmatik streslər onların sağlam düşüncəsinə problem yaradır, o cümlədən aliment problemləri və s. Belə misalları çox çəkmək olar. Yuxarıda da qeyd edildiyi kimi, məqsəd birdir – qlobal məkanda insanların daha asanlıqla idarə edilməsi...! Aldadılmış bir çox qadınlar hüquqi bərabərliklə fiziki bərabərliyi qarışdırırlar: fiziki baxımdan kişilərlə qadınlar bərabər ola bilməz, yaranışa necə qarşı çıxmaq olar..?! Hazırkı feministlər istəyirlər ki, həm zəif məxluq kimi kişidən istifadə etsinlər, həm də güclü məxluq olaraq onlardan faydalansınlar, məsələn, ağır əşya qaldırmasınlar, əsgər getməsinlər, ağır iş görməsinlər, bütün ağır işləri kişi görsün, qarşılığında isə güclü cins olaraq kişi qəbul olunmasın. Axı, bu ağır işləri görən insanın (kişinin) da heç olmasa fiziki baxımdan üstünlüyünü, faydalılığını dəyərləndirmək lazımdır. Əsl feministlər isə belə hesab edirdilər ki, hansı qadın bioloji olaraq da özlərini kişilərlə eyniləşdirirsə, onda zəhmət çəkib ağır işlərini də özü görməlidir. Elmi-texniki inqilab getdikcə ağır işləri də həyata keçirməyi asanlaşdırır: müxtəlif məişət robotlarının, maşınlarının ixtirası kişi, eləcə də qadın əməyinin əvəzlənməsinə gətirirb çıxardı və kişi-qadın asılılığının azalmasını sürətləndirdi. Qadınlar bu gün geniş hüquqlara malikdir, amma bu hüquqlara malik qadınların əksəriyyəti yanlarında güclü kişidən məhrumdurlar: qadın güclü olduqca özündən güclü kişini tapmaq çətinləşir; qadınlar "kişiləşdikcə" kişilərdə də "qadınlaşma" sürətlənir. Hətta evlənmədən süni mayalanma ilə övlad dünyaya gətirmə ilə bağlı da təbliğat maşını hazırda aktiv şəkildə işləyir, milli-mənəvi, bəşəri dəyərlər pislənir, onların aradan qaldırılması istiqamətində böyük maddi vəsait xərclənir. Məqsəd aydındır: dünya əhalisinin sayının azaldılması, insanların asan idarə edilməsi və s. Bu gün cinsi tərbiyə ilə seksual tərbiyə də qarışdırılır: bunları eyniləşdirmək olmaz! Cinsi tərbiyə – kişi və qadın şəxsiyyətinin formalaşdırılması prosesini özündə əks etdirir, seksual tərbiyə isə seksual münasibətlərdə heyvani deyil insani rəftar qaydalarına köklənməni aşılayır. Qadın kimi doğulmaq bioloji aləmin tələbi və qanunauyğunluğudursa, qadınlıq keyfiyyətlərinin formalaşması sosial aləmin bir çox tələb və şərtlərindən qaynaqlanır. Qadın adını daşımaq asandır (bunu onsuz da təbiət insana heç bir əziyyət çəkmədən bəxş edib), amma qadınlıq davranışını nümayiş etdirmək çox çətindir, qadının vəzifəsi də qadınlıq vəzifəsilə müqayisədə çox-çox asandır. Hətta birinə "qadındır, fikir vermə!" deyərək səhvlərindən keçib güzəşt edilərsə, "hanı sənin qadınlığın (xanımlığın)?" deyərək məzəmmət edərlər. Qadınlıq davranışı nümayiş

etdirənlərə hörmət və ehtiram əlaməti olaraq "xanım" deyərək müraciət edərlər. "Xanım" sözü ərəb mənşəlli "xatun" sözündən götürülmüşdür və "şah arvadı" mənasını verir (türk mənşəlli hesab olunan "qadın" sözü sonradan ərəb dilinə keçərək "kadın", "katun", "xatun" şəklində işlənmişdir). Xanım-xatun deyərək müraciət olunan qadına sanki bir tərif söylənilir: "səndə qadınlığa xas ən elit xüsusiyyətlər cəmlənib, səndə ən nümunəvi qadınlıq keyfiyyətləri var, sən öz nümunəvi davranışınla ətrafdakı qadınlardan seçilirsən və s." anlamında başa düşülür. Elə ona görə müasir dövrdə də hər qadına xanım deyə müraciət edilmir, xanımda qadınlıq keyfiyyətləri cəmlənməlidir. Qadınlıq keyfiyyətlərinə əsasən aid edilir: zəriflik, saflıq, paklıq, həssaslıq, səmimilik, sadiqlik, mərhəmətlilik, təmkinlilik, dözümlülük, empatiklik, romantiklik, təvazökarlıq və s. digər etik və estetik xüsusiyyətlər. Sadalanan qadınlıq keyfiyyətləri əslində qadının istər psixi, istərsə də fiziki sağlamlığının qorunub saxlanmasına xidmət edir. Çünki qadın bədəni, qadının ruhu dünyaya doğulacaq insanın yetişməsində bir baza, məkan rolunu oynayır. Bu məkanın sağlam olması təbii ki, sağlam nəslin dünyaya gəlməsini şərtləndirir. Dərindən təhlil edərkən bəlli olur ki, qadınlıq həm də qadının müdriklik gösrəticisidir. Qadın savadlı olduqca, dünyagörüşü genişləndikcə o, qadınlaşır, qadınlığından zövq alır. Çünki təbiətin onu nə üçün yaratdığının mahiyyətini dərk edir, üzərinə düşən rolları, vəzifələri bilir. Savadı olmayan qadın isə hər zaman cəmiyyətdə əks cinsdən olan kişilərin rollarına qibtə edir, onlardan biri olmağa çalışır və istədiyini əldə etdikdə isə çox gec dərk edir ki, kişilərin etməli olduğunu o edə bilmir, hətta etməsi üçün təbiət bu enerjini ona vermir, əksinə öz tələblərinə qarşı çıxdığına görə onu cəzalandırır da: qadınlıq təravəti, qadınlıq gözəlliyi, qadınlıq nuru itir, qadın aura baxımından sanki bir qoca və eybəcər qarğaya, bayquşa bənzəyir. Müdrik qadın isə bilir ki, cəmiyyətə özünü yüksək səviyyəli şəxsiyyət kimi təqdim etmək üçün istər həmcinslərinin, istərsə də əks cins nümayəndələrinin hörmət və rəğbətini qazanmaq üçün harada necə danışmalıdır, necə davranış nümayiş etdirməlidir.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Qadın psixologiyası. Bakı: Təhsil, 2015, 413 s.
2. Əliyev R.İ. Mən. Atam-anam. Sevgilim və övladlarım. Bakı: ADPU, 2019, 172 s.
3. Qurbanova L.M. Qadınlığın psixoloji mahiyyəti // Elmi əsərlər, beynəlxalq elmi-nəzəri jurnal, Bakı: AMEA, №2(31), 2018, s.149-155



**Əliyeva Sona İbrahim qızı**

*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*

*sonasi83@mail.ru*


## Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA CİINSİ TƏRBİYƏ PROBLEMİ


***Açar sözlər:*** *cinsi fərq, cinsi tərbiyə, ailə münasibətləri, etnopsixologiya, psixoanaliz, seksual inkişaf, sosial yetkinlik*


Ə.Ə.Əlizadə cinsi fərqlərin öyrənilməsi üzrə fundamental tədqiqatlar müəllifidir. O, bu sahədə tədqiqat aparan psixoloq və pedaqoqların əksəriyyətinin tədqiqatları ilə tanış olmuş, onlara münasibət bildirmişdir. Onların əsasında özünün mövqeyini ortaya qoya bilmişdir. "Cinsi həyat insan həyatının önəmli sahəsidir. Bu fenomenin psixoloji manifestini Z.Freyd yazıb və seksual inkişafın psixoloji sirlərini açıqlayıb" (1, s.12).

Ə.Ə.Əlizadə cinsi tərbiyə məsələlərindən bəhs edərkən belə bir fikri əsaslandırır ki, psixoseksual inkişafı öyrənmədən cinsi tərbiyəni də düzgün qurmaq mümkün deyil. Cinsi tərbiyə, ilk növbədə, cinsi fərqlərin öyrənilməsi, nəzərə alınması əsasında aparılmalıdır. "Cinsi fərqlər insanın ümumi somatik xarakteristikasından tutmuş motivasiya sahəsinə qədər müxtəlif səviyyələrdə təzahür edir" (2, s.6).

Cinsi tərbiyə sahəsində ailənin əvəzsiz rolunu qeyd edən Ə.Ə.Əlizadə göstərir ki, bir çox hallarda ailədə cinsi tərbiyə ilə bağlı böyüklər bir sıra nöqsanlara yol verirlər. Cinsi tərbiyə sahəsində valideynlərin buraxdığı səhvlər içərisində Ə.Ə.Əlizadənin nöqteyi-nəzərinə daha çox rast gəlinən problemlərdən biri də cinsi fərqlərin kifayət qədər nəzərə alınmaması ilə bağlıdır.

Aydındır ki, hər bir xalqın özünəməxsus qadın və kişi etalonları vardır və bu özünü hələ kiçik yaşlarından oğlan-qız tərbiyəsində əks etdirir. Ə.Ə.Əlizadə də məsələnin bu aspektinə diqqət yetirərək cinsi tərbiyəni, cinsi fərqlərin psixologiyasını etnopsixoloji aspektdə araşdırır. Göstərir ki, Azərbaycan ailəsində qız tərbiyəsi “həya mədəniyyətinə” söykənir. Qızın özünü abırlı-həyalı, ağır, ədəb-ərkanlı aparmasına xüsusi diqqət yetirilir. Cinsi tərbiyədən, oğlan-qız xüsusiyyətlərindən bəhs edərkən Ə.Ə.Əlizadə fikirlərini yalnız elmi əsaslarla deyil, həm də yeri gəldikcə xalq yaradıcılığına, klassik ədəbiyyata istinad etməklə əsaslandırır, ona bədii gözəllik verir. Məsələn, qız tərbiyəsindən, valideyn nəsihətindən bəhs edərkən Füzuliyə müraciət edir: “Qızsan ucuz olma, qədrini bil” və s.

Cinsi tərbiyə sahəsində valideynlərin qarşılıqlı münasibətləri, davranış və rəftar tərzi uşaqlar üçün cinsi rolların mənimsənilməsi sahəsində ən təsirli vasitələrdən sayılır. Burada Ə.Ə.Əlizadə müdrik pedaqoji kəlam kimi “Dədə Qorqud”un fikirlərinə müraciət edir: “Qız anadan görməyincə öyüd almaz; oğlan atadan görməyincə süfrə açmaz” (3, s.312).

Ə.Ə.Əlizadə ana-övlad münasibətlərinin özünəməxsus simbioz qanunlar əsasında yaranıb inkişaf etdiyini göstərir. O, simbiozun özünəməxsus psixoloji münasibət forması olduğunu və psixi inkişafda həlledici rol oynadığını qeyd edir. Məlum olur ki, uşaqların əqli inkişafında ataya nisbətən ana daha çox təsirə malikdir. Bununla belə, Ə.Ə.Əlizadə uşağın tərbiyəsi və əqli inkişafında atanın rolunun anadan heç də az olmadığını fakt və dəlillərlə sübut edir.

“Uşaqlar kiçik yaşdan etibarən ailə həyatının yazılmamış qanunlarını öyrənirdilər. Qız uşağı əksər hallarda anasının, oğlan isə atasının həyat yolunu təkrar edirdi” (4, s.4).

Ə.Ə.Əlizadə psixi cinsin inkişafını 3 mərhələyə ayırır. O, birinci mərhələyə 3-10 yaşları daxil edir. Bu dövrdə cinslər haqqında ilkin, sadə təsəvvürlər formalaşır.

İkinci mərhələyə yeniyetməlik, ilk gənclik və gənclik yaş dövrləri aid edilir. Bu mərhələdə cinsi yetişmə və cinslərarası ünsiyyət təcrübəsi zəminində oğlan və qızların tələbat motivasiya sahəsində köklü dəyişikliklər əmələ gəlir. Onların emosional həyatı daha da mürəkkəbləşir, cinsi mənlik şüuru formalaşır.

Üçüncü mərhələ ailə həyatına hazırlıq dövrüdür. Bu mərhələdə atalıq və analıq hissi əmələ gəlir, onlar valideyn rolunu mənimsəməyə başlayırlar. Ə.Ə.Əlizadənin təsnifatından göründüyü kimi, hər bir yaş dövrünün öz inkişaf məntiqi var. Cinsi fərqlər bu məntiqi ölçülər əsasında formalaşır və hər yaş dövründə özünəməxsus cəhətləri ilə seçilir.

Ə.Ə.Əlizadənin cinsi tərbiyə ilə bağlı mövqeyini belə ümumiləşdirmək olar. Cinsi tərbiyə uşaqların qadın və kişi xüsusiyyətlərini mənimsəmələrində, gələcək ailə həyatına hazırlanmalarında, əks cinsə hörmətlə yanaşa, ünsiyyət qura bilmələrində, əlbir fəaliyyət göstərmələrində mühüm əhəmiyyət kəsb edir. Bütün bu deyilənlər isə valideyn-övlad münasibətlərində, bütövlükdə ailə tərbiyəsində özünün praktik həllini tapır.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Uşaqlar və yeniyetmələr: Seksual inkişafın psixopedaqogikası. Bakı: ADPU, 2009, 576 s.
2. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 364 s.
4. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. IX sinif şagirdləri üçün dərs vəsaiti. Bakı: Maarif, 1986, 276 s.

***Qəhrəmanova Qızxanım Nizaməddin qızı***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, psixol.ü.e.d.*
*xanimgahraman@gmail.com*

## AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ GENDER FƏRQLƏRİNİN TƏZAHÜRÜ

***Açar sözlər:*** gender anlayışı, gender idealları, gender fərqləri, gender mədəniyyəti, gender rolları

Qadın və kişinin psixoloji xüsusiyyətləri arasındakı əsaslı fərq qadın, yoxsa kişi başlanğıcının birinciliyini sübut etməyə çalışan alimləri həmişə maraqlandırmışdır. Demək olar ki, qadın psixologiyasına, onun psixoloji xarakteristikasına toxunan ilk psixoloq Avstriya psixoloqu, psixoanalizin banisi Ziqmund Freyd olmuşdur. O, qadını özünü kişi ilə müqayisə edərək "natamamlıq kompleksi yaşayan" varlıq kimi təsvir edirdi. Sonralar Karl Qustav Yunq kişi-qadın fərqliliklərini anima, animus adı ilə təsvir edirdi. Anima anlayışı ilə kişi şəxsiyyətinin şüursuz qadın tərəfini, Animus adı ilə qadın şəxsiyyətinin kişi tərəfini qeyd edir. Karen Xorninin neofreydizmini qadın psixologiyasının təməli hesab etmək olar. Qadına Freydin yanaşmasını tənqid edərək, cinsi rolların formalaşmasında mədəniyyətin əhəmiyyətini vurğulayır.

Azərbaycan psixologiyasında isə görkəmli psixoloq, professor Əbdül Əlizadə ilk dəfə olaraq cinsi dimorfizm, psixi cins anlayışına diqqəti yönəltmişdir. Ə.Əlizadə ailədə uşaqlıqdan qadının qadın kimi, kişinin kişi kimi tərbiyə olunmasının vacibliyini qeyd edirdi. Daha sonralar isə Azərbaycan psixologiyasında "gender" anlayışı işlənməyə başladı və R.İbrahimbəyova tərəfindən geniş tədqiq olundu. Zaman keçdikcə hələ də gender problemi və gender bərabərliyinin təmin olunması dünyanın bir çox ölkələrində aktual problemlər sırasında durur. Belə ki, problemin ciddi xarakter alması sosial-iqtisadi tərəqqiyə mane olur və cəmiyyətdə sosial ədalətsizliyin dərinləşməsinə gətirib çıxarır. Gender anlayışına nəzər salsaq, qeyd etməliyik ki, insan cəmiyyətini qadın və kişilər təşkil edir. Cinslər arasında anatomik- fizioloji fərqlər məlumdur və dəyişməzdir. Lakin bu o demək deyil ki, kişi və qadının cəmiyyətdə tutduğu yer də dəyişməzdir. Qadın hərəkatının tarixinə nəzər salanda açıq-aşkar məlum olur ki, qadının cəmiyyətdəki rolu necə dinamik şəkildə dəyişmişdir. Ümumiləşdirilmiş şəkildə gender anlayışı altında qadın və kişilərin cəmiyyətdəki sosial rolu nəzərdə tutulur. Qadın və kişilər arasında sosial bərabərlik gender bərabərliyi kimi qəbul edilir.

Gender probleminə müxtəlif baxışlar mövcud olmuşdur. Qeyd etmək lazımdır ki, cinslərin sosial bərabərlik nəzəriyyəsini qəbul etməyənlər və gender konsepsiyasının tənqidçiləri də mövcuddur. Onlar əsas gətirirlər ki, qadın və kişilərin təbiəti fərqlidir və bu fərqlər yalnız fizioloji deyil, psixoloji sahəni də əhatə edir. Belə tənqidi nəzəriyyənin tərəfdarları iddia edirlər ki, texniki və texnoloji tərəqqiyə baxmayaraq, elə fəaliyyət sahələri mövcuddur ki, orada əsasən qadınların və yaxud kişilərin çalışmaları daha məqsədəuyğundur. Hətta Azərbaycan mentalitetinə görə də, belə fərqlər məqbul götürülür. Məsələn, qız övladı dünyaya gələn ailələr onların gələcəkdə həkim, müəllim olmalarını xəyal edirlər. Onlar arasında yəqin ki, qız övladlarını sürücü, pilot görmək istəyənlər yoxdur.

Bizim mədəniyyətdə "Kişilik-qadınlıq" parametrləri fərqli qəbul edilir.

| İndeks göstərici | Kişilik | Qadınlıq |
|---|---|---|
| Rol fərqinin bölgüsü | Kişi kobud, qadın isə həlim və qayğıkeş olmalıdır: kişi və qadın rolları kəskin sürətdə fərqlənməlidir; kişi üstünlük, hakim vəziyyətdə olmalıdır; ancaq kişi güc istifadə edə bilər. | Kişi sərt, lakin qayğıkeş olmalıdır: kişi və qadın rolunun ifasında zirəklik olmalıdır: kişi və qadın arasında bərabərlik olmalıdır: nə kişi, nə də qadın güc istifadə etməli deyillər. |
| Həyati dəyərlər, həmkarlarla münasibət | Uğur qiymətləndirilir: işin yerinə yetirilməsi səviyyəsi mühümdür: həyat iş üçündür: maddi həyat | Qayğı qiymətləndirilir: həyatın keyfiyyəti daha mühümdür: yaşamaq üçün işləmək: insanları |

| | | |
|---|---|---|
| | üçün pul və əşyalar mühümdür: özü üçün müstəqillik və başqası üçün asılılıq idealdır: rəqabətə söykənmə | əhatə edən şeylərin mühümlüyü: başqaları ilə münasibətdə qarşılıqlı asılılığın ideal olması: bərabərlik və həmrəyliyə arxalanma |
| Motivasiya | Ambisiyalar, maddi stimul və nailiyyətlər vasitəsilə təmin edilir: güclüyə və uğura çatanlara həsəd aparma | Qayğı, əxlaq stimulları və iş şəraiti ilə təmin edilir. Bədbəxt və zəiflərə təəssüf hissi |
| Təhsil və öyrənmə | Ən yaxşı olmağa cəhd: uğursuzluq – bu qəzadır: rəhbərliyi ekspert biliklər qiymətləndirir; ayrı-yrılıqda təlimin alqıslanması | Adi olmaq cəhdi: uğursuzluq – adi problemdir: rəhbərliklə münasibəti mühüm sayır: birgə təlim prosesinin alqışlayır |
| Problemin həlli və qərarın qəbulu | Yeninin alınmasına yönələn problemin həllinə maraq. Faktora diqqət, fərdi qərarların gücünə inam; qətiyyət və sərtliyin vacibliyi | Yeni işin tətbiqinə yönələn problem həllinə maraq. Başqalarının rəyinə diqqət. Konsensusa çatma və intuisiyanın mühümlüyü |
| Ziddiyyət | Güclə həll olunur | Kompromis və danışıqlar vasitəsilə icazə verilir |
| Karyera | Cəld, vertikal, qısa ixtisaslaşma | Sabit, horizontal, əhatəli ixtisaslaşma |

Gender nəzəriyyəsinin tənqidçilərinə görə, cəmiyyətdə kişi və qadınlar arasında fəaliyyət sahələrinin psixoloji amillərə əsaslanan bölümü hər iki qrupu daha xoşbəxt edə bilər. Tənqidçilər gender probleminin həlli yolunu inkişaf üçün eyni şəraitin yaradılmasında görürlər. Onların fikrincə, cəmiyyət üçün belə yanaşma daha əhəmiyyətlidir. Bu baxışlara görə, gender probleminin həlli qadınları qadın kimi, kişiləri isə kişi kimi xoşbəxt etməkdən keçir.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə., Bayramov Ə. Psixologiya. B., 2002
2. Гендер и общество /под ред.Широбоковой А.А. и др./ - Иркутск, 2001 Гендер: новая стадия женских проблем. I-выпуск /на азерб.яз./ - Б,.1998
3. Каган В.Е. Система половых различий. М: Выш. школа, 1983, 35 с.
4. Herzberg F. Work and the nature of man. World Publishing, N.Y., 1966. p. 34



**Məmmədova Günay Kamil qızı**

*Psixologiya üzrə fəlsəfə doktoru*

*Azərbaycan Dillər Universiteti*

*ms.gunayfrench@mail.ru*


## AZƏRBAYCANDA GENDER PROBLEMİNİN TƏDQİQİ İSTİQAMƏTİNDƏ QADIN PSİXOLOQLARIN ROLU

***Açar sözlər:*** *gender, cinsi fərqlər, qadın-kişi münasibətləri, sosial cins, kişi-qadın qütbləşməsi*

Qadın psixologiyasının problemləri psixologiya tarixinin bütün səhifələrində bu və ya digər səviyyədə iz salmışdır. Kişi və qadın qütbləşməsinin yaranması uşaq anadan olmamışdan başlayaraq sonrakı mərhələlərdə də özünü göstərir. Hələ qədim zamanlardan qadın-kişi

münasibətləri, onların ailədə yeri cinsi fərqə görə müəyyən olunurdu. Əmək bölgüsü və s. məsələlər haqqında danışarkən onları ancaq bioloji cins kimi nəzərdən keçirsələr də, qadının sosial cins kimi daha geniş tədqiq olunması XX əsrdə başlanmışdır. XX əsrin ikinci yarısına kimi qadının müxtəlif istiqamətlərdə, müxtəlif elm sahələrində yeri və rolu öyrənilsə də, onların hüquq və vəzifələri haqqında hələ də skeptik düşüncələr qalmaqda davam edirdi. Keçən əsrin 70-ci illərində patriarxal strukturlu sinifli cəmiyyət, hökmran-tabeçilik, kişi-qadın münasibətində tarixin öyrənilməsi məsələsini ön plana çəkdi. Bu cərəyan qadın tarixini də bəşəriyyət tarixinə daxil etməyi öz qarşısına məqsəd qoyaraq qadının ancaq fəaliyyətdə olan "Mən"ini deyil, onun əsl, həqiqi "Mən"ini araşdırmağa yönəlmişdir. Tarixə nəzər salsaq görərik ki, keçmiş dövrlərdə kişi cinsi İlahi ilə eyniləşdirilmiş, qadının şəxsiyyətinə isə daha çox bioloji cins kimi baxılmışdır. Antik dövr mütəfəkkirlərindən tutmuş hazırkı dövrə qədər də gender problemi və onun aradan qaldırılması mövzusunda müxtəlif fikirlər irəli sürülür.

Azərbaycanda gender probleminin tədqiqi istiqamətində xüsusi rolu olan qadın psixoloqlardan psixologiya elmləri namizədi, BDU-nun Psixologiya kafedrasının dosenti Cəmilə Təhmasibi qeyd etmək lazımdır. Gender probleminin tədqiqi istiqamətində onun rolundan danışarkən 1966-cı ildə müdafiə etdiyi "Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının mənəvi simasını səciyyələndirmiş yeni keyfiyyətlərin təşəkkülünə dair" mövzusunda psixologiya elmləri üzrə namizədlik dissertasiyasını xüsusilə göstərmək lazımdır. O, dissertasiyasının "Sovet dövründən əvvəlki Azərbaycan qadınlarının tipik xüsusiyyətlərinin formalaşması" adlanan I fəslində qeyd edirdi ki, əvvəlki cəmiyyətlərdə hesab edirlər ki, qadın natamam, qabiliyyətsiz olmaqla yanaşı, anadan olanda qul kimi doğulur. O, bu fikirlə razılaşmır və dastan və nağıllarındakı Nüşabə, Məhinbanu, Şirin kimi qadın rollarının timsalında Azərbaycan qadınlarına xas olan xüsusiyyətlərdən bəhs edir və sovet dövrünə qədərki Azərbaycan qadınları ilə müqayisə edərək onların hüquqlarının bərpasının vacibliyini qeyd edirdi. Dissertasiyada qeyd olunur ki, "1920-ci ilə qədər qadın ictimai həyatdan uzaqlaşdırılmış və yalnız ev işləri ilə məşğul ola bilərdi. Ata və qardaşın köləsi, ərinin isə şəxsi əşyası olan qadın övladlarını da bu ruhda tərbiyə edirdi. Belə bir qadında özünəinamsızlıq, qərarsızlıq, öz kölə hüquqları ilə razılaşma özünü göstərirdi". Cəmilə Təhmasib Sovet dövrü qadınlarını orta əsr qadınları ilə müqayisə edərək, qadınların bir çox hüquqlarının geri qaytarıldığını qeyd edirdi.

Bundan əlavə gender probleminin tədqiqində əvəzsiz rola malik olan psixologiya elmləri namizədi, dosent Rəna İbrahimbəyovanı xüsusilə qeyd etmək lazımdır. Onun gender problemlərinin həlli istiqamətində bir çox layihələrin həyata keçirilməsində xüsusi xidməti olmuşdur. Psixologiya elmləri namizədi, dosent R.İbrahimbəyova 1995-ci ildə Pekin konfransı ərəfəsində BMT-nin Qadınların statusu üzrə Komissiyasında "Hərbi münaqişə zonalarında girov götürümüş qadınların və uşaqların azad olunması" haqqında Qətnamənin qəbul olunmasında, Azərbaycan tərəfindən təkidlə təklif olunan qadınların girov götürülməsi haqqında düzəlişin Pekin Fəaliyyət Platformasına (116-cı bəndinə) əlavə olunmasında fəal iştirak etmişdir. 1997-ci ildə R.İbrahimbəyova BMT İnkişaf Proqramının və Azərbaycan Hökumətinin üç il davam edən "Azərbaycanda gender inkişafda" layihəsinin milli koordinatoru təyin olunub. Məhz bu dövrdə o, Oksford Universitetində (Böyük Britaniya) xüsusi gender treninq kursları keçmişdir. 2000-ci ildə R.İbrahimbəyova YUNİFEM-in 11 ölkədə həyata keçirilən "Zorakılıqsız həyat bizim hüququmuzdur" regional layihəsinin Azərbaycan üzrə koordinatoru təyin edilir. Qadınlara qarşı zorakılıq, qadın əməyi və s. mövzuda gender problemləri sahəsində tədqiqat aparmaqla yanaşı, Respublika üzrə ilk gender şəbəkəsinin yaradılmasında, "Azərbaycanda yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının" hazırlanmasında gender eksperti kimi iştirak etməklə yanaşı, qadınların seçki fəallığının artırılması sahəsində də mühüm rol oynamışdır. O, "Siyasi strategiyaların gender aspektləri: müqayisəli təhlil", "Gender terminlərinin izahlı lüğəti", "Bərabər imkanlara təminat. Milli qanunvericiliyin və dövlət büdcəsinin gender ekspertizası", "BMT-nin insan inkişafı haqqında hesabatı. Gender münasibətləri Azərbaycanda" və s. əsərləri, eyni zamanda müxtəlif jurnal və qəzetlərdə dərc olunmuş məqalə və tezisləri ilə gender probleminin tədqiqinə xüsusi töhfə vermişdir.

Gender probleminin tədqiqində psixologiya elmləri üzrə fəlsəfə doktoru Vəfa Nağıyevanın "Müasir gənclərdə gender təsəvvürlərinin formalaşmasının sosial-psixoloji tədqiqi" adlı dissertasiya işini də qeyd etmək lazımdır. Dissertasiya işində şəxsiyyətin gender xüsusiyyətləri, gənclərin etnomental şüurunda gender komponentlərinin onların həyat və peşə perspektivlərinə təsiri (Azərbaycan və Ukrayna gəncləri nümunəsində müqayisəli təhlil), gender münasibətləri cəmiyyətdə şəxsiyyətin sosial-peşəkar təşkilinin tənzim olunmasının kompleks amili kimi araşdırılmışdır. Müəllif belə nəticəyə gəlmişdir ki, müasir cəmiyyətdə kişi və qadının gender rolunun təbiətinə ənənəvi etnomental baxışlar və bioloji cinsi mənsubiyyət subyektin müvafiq gender identifikasiyasını avtomatik təmin etmir.

AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun kiçik elmi işçisi Afət Kamalovanın "Azərbaycan ailələrində ailədaxili münasibətlərin dinamikası" adlı dissertasiya işinin "Ailənin funksional strukturu, gender xüsusiyyətləri" adlanan birinci yarımfəslində də cins-rol diferensiasiyası anlayışı ilə bərabər, rol identifikasiyası geniş planda təhlil olunur, gender xüsusiyyətləri ilə əlaqədar olaraq ailədaxili münasibətlərdə yarana biləcək gərginlik və çətinliklər araşdırılır və belə nəticəyə gəlinir ki, həmin gərginlik və çətinliklərin xarakterinə uşaqlıqda formalaşmış stereotip və yönümlər də təsir göstərir.

Gender probleminin tədqiqi istiqamətində psixoloqların, xüsusilə də qadın psixoloqların rolunu araşdıraraq belə bir nəticəyə gəlirik ki, ilk növbədə onlar gender tədqiqatları ilə feminist tədqiqatları fərqləndirməklə gender problemini araşdırarkən tək qadınların deyil, eyni zamanda kişilərin də hüquqlarının pozulduğunu qeyd edirlər. Yuxarıda adları göstərilən müəlliflərin tədqiqat işlərindən belə qənaətə gəlmək olur ki, gender probleminin həlli istiqamətində qadın tədqiqatları kişi tədqiqatları ilə birgə aparılmalıdır.

## ƏDƏBİYYAT

1. Məmmədov Sabir. Qadın, gözəllik və ülviyyət: Ensiklopedik toplu. Bakı: Azərbaycan nəşriyyatı, 2001
2. İbrahimbəyova R.F., Fərzəliyev İ.İ., Haqverdiyev O.Ə. Bərabər imkanlara təminat. Milli qanunvericiliyin və dövlət büdcəsinin gender ekspertizası. Bakı: Səda nəşriyyatı, 2006
3. Kamalova A.Q. Azərbaycan ailələrində ailədaxili münasibətlərin dinamikası: Psixol. üzrə fəl. dok. ... dis. avtoref. Bakı, 2016
4. Nağıyeva V.Q. Müasir gənclərdə gender təsəvvürlərinin formalaşmasının sosial-psixoloji tədqiqi: Psixol. üzrə fəl.dok. ...dis. avtoref. Bakı, 2012

**Baxışova Şərafət Aram qızı**
*ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının dosenti, p.ü.e.d.*
*sharafat_baxishova1960@mail.ru*

## TƏHSİL SİSTEMİNDƏ GENDER PROBLEMİ

***Açar sözlər:*** *gender təhsili, gender kimliyi, bərabərlik siyasəti, gender problemi, gender mədəniyyəti, özünüdərk və özünüdərkin formalaşması, şəxsiyyət*

2006-cı ildə "Gender qanunu" Azərbaycanda təhsil sistemini tənzimləyən hüquqi-normativ sənədlərə əlavə olundu. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında qanun" və "Gender Qanunu" cinsindən asılı olmayaraq hər bir vətəndaşın təhsil almaq hüququna malik olmasını qanunvericiliklə təsbit edir. "Gender Qanunu"nda təhsildə gender bərabərliyinin təsbit olunması öz əksini tapmışdır.

Gender probleminin təhsil sisteminə gətirilməsi cəmiyyətin sosial-iqtisadi, siyasi, mədəni məqsədlərinə daha tez və uğurla nail olmasına kömək edir. Təhsilin humanistləşdirilməsi, nəticəyönümlü və şəxsiyyətyönümlü olması, təlim-tərbiyənin xüsusiyyəti, təhsilin idarə

edilməsinin qanunauyğunluqları və s. bu kimi amillər təhsilin fəlsəfəsini müəyyən edir. Burada təhsilin fəlsəfəsində də dəyişikliklərin olması tələb edilir.

Akademik V.İ.Zaqvyazinski təhsil fəlsəfəsinin əhatə dairəsini daha geniş mənada şərh etmişdir. Onun fikrincə, təhsil fəlsəfəsi insan şəxsiyyətinin və fərdiyyətin formalaşmasına strategiyanın təsiri imkanları, istiqamətləri, insanın bacarıq və qabiliyyətinin gerçəkləşməsində əlverişli mühitin yaradılması üçün zəmindir.

Müasir dövrdə pedaqoji elmlərin inkişafının mühüm istiqamətlərindən biri də müxtəlif cinslərdən olan uşaqların tədrisi və tərbiyəsinin xüsusiyyətlərini öyrənən elmi biliklərin yeni sahəsinin – gender pedaqogikasının və psixologiyasının formalaşmasıdır. İstər gender pedaqogikasının, istərsə də gender psixologiyasının öyrənilməsinin mövzusu qlobal sosial-iqtisadi və mədəni transformasiyalar dövründə gənc nəslin cinsindən asılı olaraq sosiallaşması prosesinin korreksiyasıdır.

Dövlətin eqalitar siyasəti ictimai həyatın bütün sferalarına kişi və qadınların balanslaşdırılmış şəkildə daxil edilməsinin gender modelinə əsaslanır. Odur ki, təhsildə cəmiyyətin hər iki sosial-gender qruplarının maraqlarının hərtərəfli nəzərə alınmasına əsaslanan gender yanaşmasının işlənib hazırlanması və həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, təhsil cinsindən asılı olmayaraq, hər kəsə ictimai həyatın müxtəlif sahələrində iştirak etməyə imkan verir və onları səmərəli fəaliyyət şəraiti ilə təmin edir. Təhsil müəssisələri öz növbəsində cəmiyyətin və bütövlükdə mədəniyyətin gender təbəqələşməsini əks etdirir, öz nümunəsi ilə kişi və qadınların qeyri-bərabər statusunu nümayiş etdirir. Gender təhsilinin ən mühüm məqsədi insanın cinsindən asılı olaraq potensialının inkişafı ilə bağlı pedaqoji qarşılıqlı əlaqə prosesində oğlan və qızların maksimum özünü reallaşdırması üçün şəraitin yaradılmasıdır. Onun inkişafı genderin həyatın hər hansı bir sahəsində ayrı-seçkilik üçün əsas olmadığı fikrini formalaşdırmağa imkan verir və məktəb məzunlarına özlərini həyata keçirmə yollarını və formalarını sərbəst seçmək imkanı verir.

Məktəbəqədər təhsil müəssisələrində gender yanaşmasının məqsədi uşağın (oğlan və qızın) şəxsiyyətinin uğurlu inkişafına mane olan gender stereotiplərini aradan qaldırmaq olmalıdır. Uşaqların təhsilində gender yanaşmasının həyata keçirilməsi inkişaf və tərbiyədə uşağın şəxsiyyətini və fərdiliyini genderin ənənəvi sərhədlərindən üstün tutmaq deməkdir. Ümumiyyətlə, təhsildə gender yanaşması oğlan və qızların təhsili üçün elə şərait yaratmağı qarşısına məqsəd qoyur ki, bu onların hətrərəfli inkişafına kömək edəcəkdir. Təcrübə göstərir ki, təhsil müəssisələrində gender yanaşmalarının tətbiqi cinslər arasında tərəfdaşlığın inkişafına üstünlük verir, onları tolerantlıq ruhunda tərbiyə edir. Təhsildə gender yanaşmasının mahiyyəti uşaq tərəfindən gender kimliyinin təzahürünə fərdi yanaşmadır. Tərbiyənin qarşısında gender kimliyinin fərdiləşdirilməsi və hər bir uşaq tərəfindən bu və ya digər şəxsiyyət modelinin yaradılmasının subyektiv mənalarının öyrənilməsi vəzifəsi durur.

Beləliklə, təhsilə gender yanaşmasının tətbiqi vəzifələrindən biri insanın özünüdərkinin və mənlik şüurunun formalaşması, cəmiyyət həyatına daxil olması, sosiallaşması imkanlarının artmasına şərait yaratmaqdır. Təhsildə gender problemlərindən danışarkən müəllimin özünün gender mədəniyyətinə nə dərəcədə malik olması məsələsinə xüsusilə diqqət yetirmək lazımdır. Çünki müəllim özü gender mədəniyyətinin daşıyıcısı və eyni zamanda ötürücüsü olmalıdır. Müəllimlərin daim gender problemlərinin həllinə doğru istiqamətlənmiş kurslara, təlimlərə cəlb edilməsi məqsədəuyğundur.

Müasir dövrün prioritet məsələlərindən biri olan Azərbaycan təhsilinin, bütövlükdə cəmiyyətin Avropa məkanına inteqrasiyası şəraitində ölkəmizdə qiymətli mənəvi irs kimi bizə gəlib çatan adət-ənənələrimizə, milli-mənəvi dəyərlərimizə yeni münasibət formalaşmaqdadır. Gender bərabərliyinin kiçikyaşlı uşaqlara aşılanması zamanı milli xüsusiyyətlərin, milli-mənəvi dəyərlərin, milli mentalitetin nəzərə alınması tərbiyə prosesində əldə ediləcək nəticənin hər iki tərəf üçün əhəmiyyətli olmasına zəmin yaradır. Uşaqlara gender bərabərliyinin aşılanması zamanı milli mentalitetin əsas ünsürləri olan adət və ənənələrin gender baxımından düzgün təhlili tərbiyə prosesinin milli dəyərlər əsasında qurulmasına kömək edir.

Gender problemi müasir Azərbaycanın əxlaqi keyfiyyətlərini, həyat tərzini, adət və ənənələrini, digər xalqlara və millətlərə münasibətini özündə ehtiva edir. Gender bərabərliyinə gedən yolun məhz tərbiyədən keçdiyini nəzərə alsaq, qızlara verilən tərbiyədəki köhnə stereotiplərin aradan qaldırılması tərbiyə işində ən vacib məsələdir. Artiq müasir dünyagörüşə zidd olan köhnə baxışları inkar etmək və bununla da təhsildə mövcud olan gender problemlərini aradan qaldırmaq çox vacib məsələlərdəndir və günün tələbidir. Təhsil müəssisələrinin əsas vəzifələrindən biri gender mədəniyyətinə malik olan şəxsiyyətin formalaşdırılmasından ibarətdir. İnteraktiv videolar, radio və televiziya da uşaqların gender təhsili üzərində böyük təsirə malikdir. Məktəbəqədər dövrdə gender elementlərinin təbiətlə, ətraf mühitlə tanışlıq, təsviri fəaliyyət və digər məşğələlərdə uşaqlara öyrədilməsi və onlara hər iki cins arasında kollektivdə ünsiyyət qurmaq, dostluq, qarşılıqlı dəstək, sosial-emosional əlaqələri dərinləşdirmək kimi keyfiyyətlərin aşılanması vacib məsələlərdəndir.

Ümumiyyətlə, cəmiyyətdə gender bərabərliyi haqqında elmi biliklərin aşağı səviyyədə olması bir çoxlarına bu problemi istədikləri istiqamətə yönəltməyə şərait yaradır. Genderin ölkəmizdə reallaşmasına mənfi təsir göstərən amillərdən biri də təhsil işçilərinin bu problemi yaxşı bilməmələri və bu həlli çətin məsələdə özlərinə əlavə problem yaratmaqdan ehtiyat etmələridir. Gender mədəniyyətinə hansı dərəcədə malik olmaq gələcək nəsillərin gender ruhunda böyüməsinə müsbət və yaxud mənfi təsir göstərəcək. Müəllimlər bu sahədə uğur əldə etmək üçün diqqətini yalnız bilik öyrətməyə yönəltməməlidirlər. Onlar tədris etdiyi fənnin gender aspektindən maksimum dərəcədə yararlanmalıdırlar.

Təhsildə gender yanaşmasının effektiv tətbiqi üçün uşaqların gender şəxsiyyətinin formalaşması prosesinə təsir edən pedaqoji mühitin amillərini, gender sosiallaşması üçün əhəmiyyətli olan təlim-tərbiyə işinin formalarını öyrənmək və bunun üçün pedaqoji kadr hazırlamaq lazımdır. Buna görə də gender problemlərinin dərk edilməsi, gender konsepsiyasının əsas müddəalarının mənimsənilməsi gənclərin təlimi və tərbiyəsi sahəsində, eləcə də onların təhsili ilə peşəkarlıqla məşğul olan mütəxəssislərin hazırlanması sahəsində aktual vəzifəyə çevrilir.

Uşağın inkişafı təklikdə baş vermir. Bu prosesə ətraf mühit və hər şeydən əvvəl uşağın kiçik yaşlarında qoşulduğu sosial münasibətlər sistemi təsir edir. Böyüyən nəslin gender tərbiyəsinin düzgün aparılmasında ailə mühüm rol oynayır. Uşaqlar əsasən ailələrdə tərbiyə olunur, ailələr biri-birindən fərqli xüsusiyyətlərə, tərbiyə sisteminə malikdirlər. Tədqiqatlar göstərir ki, gender bərabərliyi təmin olunan ailələrdə yetişən uşaqlar cəmiyyətin tələb etdiyi istiqamətdə formalaşırlar. Bu baxımdan genderlə bağlı problemin düzgün həll olması üçün valideyn, müəllim və gender üzrə mütəxəssislərin vahid gender yanaşmasına riayət etməsi olduqca vacib məsələlərdəndir.

**Rzayeva Nurəngiz Tofiq qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının dosenti, psixol.ü.f.d.*
*nurengiz.rzayeva@gmail.com*

## ƏBDÜL ƏLİZADƏ: AİLƏ VƏ QADIN PSİXOLOGIYASI MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *ailə, qadın, tərbiyə, inkişaf, mədəniyyət, dəyərlər, şəxsiyyət, psixoloji fikir*

Əbdül Əlizadə: ailə və qadın psixologiyası məsələləri – bu iki böyük məna kəsb edən kəlmələr bir-biri ilə bağlı olan fəlsəfi-psixoloji köklərlə seçimlidir. Əvvəla, psixologiya elmində əvəzedilməz insan kimi tanınan Ə.Əlizadə şəxsiyyəti bir fenomendir. “İstər elmdə, istərsə də həyatda çoxları üçün əlçatmaz zirvələri fəth etmiş xoşbəxt taleli həqiqi ziyalılardandır”(4, s.4). Digər tərəfdən söhbət ailə və qadın psixologiyasından gedirsə, birmənalı qeyd etmək olar ki, bu məsələlər Ə.Əlizadənin əsərlərinin kredosunu təşkil edir. İstər güzəran psixologiyası, istərsə də elmi psixoloji kontekstdə yazdığı əsərlərində bu problemlər həmişə aktual olub. Bu kontekstdə Əbdül müəllimin “Ailə”, “Qadın psixologiyası”, Azərbaycan etnopsixologiyasına giriş” əsərləri,

eyni zamanda mtəfəkkirlərin əsərlərində “qız tərbiyəsi”, “qadın effektləri”, “ata-oğul münasibətləri” və s. məsələlər bütün dövrlər üçün önəmlidir və hər zaman əhəmiyyətini artırır.

Məlumdur ki, Azərbaycan xalqının psixologiyasında, dəyərlər sistemində ailə, ailədaxili münasibətlər və bu xüsusda qadın psixologiyası məsələləri aparıcı yer tutur. Zamanın təfəkkür süzgəcindən bu günə kimi gələn və aktual səslənən ailə, onun formalaşması, qadın və qız tərbiyəsi məsələləri Azərbaycan xalqının deyimlərində həmişə ülvi və müqəddəs ölçülərlə dəyərləndirilmişdir. Xalqımız özünün psixoloji fikir tarixində ailəni müqəddəs ocaq sanmışdır. Azərbaycan psixoloqu professor Ə.Əlizadə tədqiqatlarında məhz bu məsələləri xüsusi təhlil etmiş, həm güzəran, həm də elmi cəhətdən ailə dəyərlərinin ülviliyini, qız tərbiyəsi, qadınlıq hissini ön planda tutmuşdur. O, Azərbaycan ailəsinin özünəməxsus spesifik çalarlarını açıqlamış, bu kontekstdə qadının bənzərsiz rola malik olduğunu dəfələrlə vurğulamışdır. “Qadın ailənin məhəbbət nurudur, elin-obanın şərəfidir, böyük və müqəddəs anadır” (3, s.18), - deyən Ə.Əlizadə qeyd etmişdir ki, “Ailədə emosional şəxsi münasibətlərin episentri məhz qadının möcüzəli həyatı ilə bağlıdır... ailənin psixoloji havası, ilk növbədə evin xanımının ılıq nəfəsi – sirli-sehrli qadın qayğılarından qaynaqlanır. Bu fəlsəfədə qadının əzaməti maestro əzəməti kimi təsvir olunur” (3, s.78). Şəxsiyyətin təşəkkülündə ailənin rolunu başlıca qeyd etmək lazımdır. İki nəslin, soyun qovşağında yeni ailə əmələ gəlir. Tədqiqatlarda ailə sözünün geneszisi belə açıqlanır: “Ailə adlı təsisatın 4 min ildən artıq yaşı vardır. Ailə sözünün mənası ərəb mənşəli **“A ilə”** sözündən olub, “dayanmaq” mənasında olmaqla, “bir-birinə dayanan, etimad edən insanlar” kimi anlaşılır” (6, s.13). Ailə spesifik çalarlarla xarkterizə olunan bütöv bir konsepsiyadır.

Bu konsepsiyanın əsasında təbii ki, ailədaxili münasibətlər durur. Şəxsiyyətlərarası münasibətlər kontekstində ailədaxili münasibətlərin öyrənilməsi, tənzimlənməsi və münasibətlərin sağlam psixoloji əsaslar üzərində qurulması məsələləri əlbəttə ki, hər bir ailənin möhkəmliyi üçün zəruridir. “Xalqımızın çağdaş dünya ilə culğalaşdığı, milli mentalitet cəhətdən bir-birindən fərqli xalqlarla inteqrasiya olunduğu, kütləvi informasiya vasitələrinin həyatımıza daha çox daxil olduğu müasir dövrdə ailə, dövlət və bəşəriyyət üçün əxlaqın saflaşdırılması ən vacib problemlərdən biridir” (5, s.3). Problemlərin həlli kontekstində qeyd etmək lazımdır ki, yeniləşmə və qloballaşma şəraitində informasiyaların sürətli inkişafı, kütləvi kommunikasiya və təbliğatın genişlənməsi, cəmiyyətdə özünü göstərən bu və ya digər proseslər ailədaxili məsələlərə də təsir göstərir. Şəxsiyyətlərarası münasibətlər kontekstində ailə, qadın, valideynlik, övladlıq əlaqələri, oğlan və qızların tərbiyəsi sosial-psixoloji aspektdə tədqiqat obyektinə çevrilməsi prioritet əhəmiyyət kəsb etmişdir. Bu, həm də gənclərin ailə həyatına hazırlığı və dəyərlərimizə hörmətlə yanaşması nöqteyi-nəzərindən önəmlidir.

Ailə münasibətlərinin tipoloji təhlili maarifçilərin əsərlərində də geniş vüsət almışdır. Mütəffəkirlərin yaradıcılığına nəzər saldıqda da görünür ki, onlar tərbiyə və tərəqqi işində ailə münasibətlərinə diqqət yetirmişlər. Ailənin möhkəmləndirilməsini cəmiyyətin sağlam əsaslar, mütərəqqi qaydalar üzrə inkişafı üçün zəruri hesab etmişlər. F.Köçərli bu xüsusda yazırdı: “Ər və övrət (arvad)... bir bədənin iki şaqqası və müvafiq hissəsi olduqlarına görə bunların arasında olan yekdillik, ülfət, məhəbbət və mənəvi qərabət gərəkdir. Heç bir kəsin mabeynində mülahizə olunmasın... (7, s.108). Bu xüsusda professor Ə.Ə.Əlizadə qeyd edir ki, “Ailə münasibətlərinin əsasını ər və arvad münasibətləri təşkil edir. Onlar ailənin qoşa qanadlarıdır”. Ə.Əlizadənin əsərlərində qadının əxlaqi şüurunun xüsusiyyətləri Şirin effektində açıqlanır. “Dünyada Veysətək olaram bədnam”, - deyən Şirin “sosial-mən”ə söykənir və özünü başqalarının gözü ilə dəyərləndirir.

Haqlıyam, qapını bağlamışam mən,
Çünki görüşümə sərxoş gəlmisən.
Sən sərxoş gəlmisən, mən də burda tək,
Görüb eşidənlər nə söyləyəcək? - ifadələrində effekt aydın görünür.

Ə.Əlizadə qadın şəxsiyyətinin əzamətini parlaq qadın obrazları timsalında təhlil etmişdir. Təhlillərdə göstərir ki, qadının hisslər aləmi nə qədər zəngin olsa da, şəxsiyyət səviyyəsində onlar qadının mənlik şüuruna və əxlaqi şüuruna söykənir. Qadın psixologiyası özünəməxsus psixoloji

məkanda ağılla hissin qovşağında açıqlanır. Burada bir meyar var – əxlaq meyarı. Ağılla hissin qovşağında bu meyar qadının hisslər aləmində, xüsusilə namus sahəsi, həya-abır sahəsinə söykənir. Nüşabə, Şirin, Leyli effektləri Azərbaycan psixoloji fikrində bu kontekstdə bənzərsizdir. Ə.Əlizadə eyni zamanda cinsi fərqlər kontekstində qadın psixologiyası məsələləri, qız tərbiyəsi və onun xüsusiyyətləri, mentalitetin arxetipik kökləri, ata-ana arxetipi, övlad borcu arxetipi və s. məsələlərə də toxunmuş, güzəran psixologiyasından üzübəri müasir dövrümüzə qədər təhlillər vermişdir.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003
2. Əlizadə Ə.Ə. Abbasov A.N. Ailə . Bakı, 1989
3. Əlizadə Ə.Ə. Qadın psixologiyası. Bakı, 2015
4. Əliyev R.İ. Əmrahlı L.Ş. Azərbaycan psixologiyasının korifeyi- Əbdül Əlizadə. Bakı, 2009
5. Çələbiyev N.Z. Ailə və gender psixologiyası. Bakı, 2015
6. Çələbiyev N.Z. Əfəndiyeva Ü.A. Ailə və gender psixologiyası. Bakı, 2021
7. Rzayeva N.T. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası: Psixol. üzrə fəl. dok. ... diss. Bakı, 2005



**Çələbiyev Nuralı Zərbalı oğlu**

*ADPU-nun Şəki filialının dosenti, p.ü.f.d.*

*n_chelebiyev@mail.ru*


## Ə.ƏLİZADƏNİN DİFERENSİAL PSİXOLOGİYA SAHƏSİNDƏ TƏDQİQATLARI ELMİ PSİXOLOGİYANI ZƏNGİNLƏŞDİRƏN MƏNBƏLƏR KİMİ


***Açar sözlər:*** *diferensial psixologiya, cinsi fərqlər, "psixi cins", cinsi identiklik, feminizasiya və maskulinizasiya, cinsi mənlik şüuru*


Azərbaycanda elmi-psixoloji fikrin görkəmli simalarından olan, həyatının 60 ilə yaxın bir dövrünü müəllimliyə və elmi kadrların hazırlanmasına həsr etmiş professor Əbdül Əlizadənin yaradıcılıq yolu geniş və çoxşaxəlidir. Onun ümumi psixologiya, yaş və pedaqoji psixologiya, sosial və etnik psixologiya, hüquq və yaradıcılıq psixologiyası sahəsindəki uğurlu elmi araşdırmaları elmi psixologiyanı zənginləşdirən mənbələr kimi daim öz dəyərini və aktuallığını saxlamaqdadır.

Professor Ə.Əlizadənin "Ailədə uşaqların cinsi tərbiyəsi" (B.: Maarif, 1968), "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" (B.: Maarif, 1986), "Ailə həyatının etika və psixologiyası" (B.; 1988, prof. A.N.Abbasovla müştərək), "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" (2004), "Uşaq və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası" (2009), "Qadın psixologiyası (Fəlsəfi-psixoloji esselər. B.: Təhsil, 2015) və s. kimi sanballı əsərləri, habelə çoxsaylı məqalələri respublikamızda psixologiya elminə dəyərli töhfələr kimi yüksək qiymətləndirilir. Görkəmli psixoloq- alim "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" (1986) adlı monoqrafiyasında cinsi tərbiyə məsələləri psixoloji aspektdə tədqiq edilmiş, cinsi yetkinlik və şəxsi qarşılıql münasibətlərin formalaşması məslələrini "oğlan-qız" tipli şəxsi münasibətlər kontekstində şərh etmişdir. Kitabda şəxsi qarşlıqlı münasibət tipləri, cinsi identikliyin xüsusiyyətləri, cinsi və əxlaqi mənlik şüurunun formalaşması kimi aktual məsələlər şəxsiyyət psixologiyası müstəvisində araşdırılmışdır.

Görkəmli alimin psixologiya sahəsində tədqiqatları içərisində diferensial psixologiya üzrə tədqiqatları özünün orijinallığı, milli-mənəvi dəyərlərə bağlılığı və əhəmiyyəti ilə xüsusilə diqqəti cəlb edir. Ə.Əlizadənin başlanğıcını 1900-cü ildən götürən diferensial psixologiyanın "Cinsi fərqlər psixologiyası" adlanan sahəsi üzrə tədqiqatları müasir psixologiyada ən mürəkkəb və

diskussiya doğuran problemlərə həsr olunmuşdur. Cinsi fərqlər problemini ailə münasibətləri kontekstində tədqiq edən professor Ə.Əlizadə bu fərqlərin dəyərlər və həyat şəraitinin təsiri altında dəyişdiyini vurğulayırdı. Cinsi fərqlərlə bağlı psixologiya sahəsində tanınmış alim, rus psixoloqu İ.S.Kon qeyd edirdi ki, kişi həyat üslubu, oriyentasiyası, davranışı və maraqları daha çox əşyavi-instrumental, qadın xarakteristikası isə emosional və sosial istiqamətlərinin üstünlüyünə görə fərqlənir.

Diferensial psixoloji tədqiqatlara xüsusi önəm verən Ə.Ə.Əlizadənin 1975-ci ildə uğurla müdafiə etdiyi və bir çox görkəmli rus alimləri (E.S.Kuzmin, A.A.Bodalev, İ.S.Kon, A.Q.Xripkova və s.) tərəfindən yüksək qiymətləndirilən "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" adlı doktorluq dissertasiyası ilə respublikamızda psixoseksual inkişafın sosial-psixoloji nəzəriyyəsini əhəmiyyətli dərəcədə zənginləşdirmiş, cinsi fərqlər psixologiyası elminə "psixi cins" anlayışını daxil etmişdir. Görkəmli psixoloq alim bu fundamental tədqiqat işində qeyd edirdi ki, "psixi cins sosial-psixoloji fenomendir və o, şəxsiyyətin strukturunda önəmli yer tutur. Onun formalaşması prosesinin xüsusiyyətlərini ancaq və ancaq şəxsiyyət psixologiyasının uğurları axarında açıqlamaq olar. O, müəyyən sosial-psixoloji sosiumda əmələ gəlir, tələbat-motivasiya sahəsində, sərvət meyillərində, münasibətlər sistemində, xarakterin strukturunda və mənlik şüurunda formalaşan özünəməxsus cinsi xüsusiyyətlərlə səciyyələnir". Ə.Əlizadə cinsi fərqlər və cinsi tərbiyə problemlərini ilk növbədə ailə kontekstində tədqiq etmiş və qeyd etmişdir ki, cinsi tərbiyə cinsi fərqlər nəzərə alınmaqla həyata keçirilməlidir.

Professor Ə.Əlizadə qeyd edirdi ki, oğlan-qız tərbiyəsi, cinsi xüsusiyyətlər, yaş xüsusiyyətləri, qadın-kişi münasibətləri, ər-arvad münasibətləri, ilk növbədə valideyn-övlad münasibətləri müstəvisində formalaşır və inkişaf edir. Həyatının son dövrlərində də diferensial psixologiya üzrə tədqiqatlarını davam etdirən professor Ə.Əlizadə 2015-ci ildə çap olunmuş "Qadın psixologiyası" (Fəlsəfi-psixoloji esselər) adlı sanballı tədqiqat işi ilə bu sahədəki elmi araşdırmalarının zirvəsinə yüksəlmiş oldu. Qadınlığı və qadın psixologiyasını gender aspektində araşdıran professor Ə.Əlizadə qeyd edirdi ki, qadınlığın ilk möcüzələri qız uşağının anatomiyası və fiziologiyasında yazılır". Görkəmli alim diferensial psixologiya və gender psixologiyası üzrə tədqiqatlarında "bioloji cins" kateqoriyasına istinad edir, sosial cinsin (genderin) formalaşmasının ilkin və təbii əsasının bioloji cinsə bağlı olduğunu vurğulayırdı. O, müasir qloballaşma şəraitində Azərbaycan ailəsinin sistemli tədqiqatlara ehtiyacı olduğunu, bu problemin etnopsixoloji aspektdə öyrənilməsinin zəruriliyini qeyd edir və yazırdı ki, "müasir ailənin sosioloji, fəlsəfi, sosial-psixoloji, sosial-pedaqoji və kulturoloji obrazı təəssüf ki, hələ yaranmayıb".

Ə.Ə.Əlizadə "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" (B.; 2004) adlı iri həcmli tədqiqat işinin V fəslində "psixi cins"in genetik və struktur təhlili, cinsi fərqlər, psixi cinsin formalaşması, feminizasiya və maskulinizasiya kimi məsələləri geniş şəkildə araşdırmış, problemi etnopsixoloji və etnopedaqoji aspektdən təhlil edərək, psixi cinsin formalaşmasında, cinsi identikliyin təşəkkülündə milli mədəniyyətin və stereotiplərin güclü təsirə malik olduğu qənaətinə gəlmişdir. Feminizasiya və maskulinizasiya effektlərindən bəhs edərkən, Ə.Ə.Əlizadə qeyd etmişdir ki, "feminizasiya və maskulinizasiya effektlərini həyat həqiqətlərinin sərt ölçüləri ilə qitmətləndirdikdə, onların birbaşa, dolayı və əlavə nəticələri daha aydın olur: valideynlər də, müəllim və tərbiyəçilər də bu haqda ciddi düşünməlidirlər".

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə: Ümumtəhsil məktəblərinin IX sinifləri üçün dərslik. B;, Maarif, 1989
2. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. B.: Maarif, 1986
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B.: Pedaqogika, 2004
4. Əlizadə Ə.Ə. Qadın psixologiyası (Fəlsəfi- psixoloji esselər) B.: Təhsil, 2015
5. Əliyev R.İ. Unudulmayan adam Əbdül Əlizadə. B.: ADPU, 2022

6. Əliyev R.İ. Psixologiya tarixi. B.: Nurlan, 2006
7. Çələbiyev N.Z. Ailə psixologiyası. B.: Mütərcim, 2015
8. Çələbiyev N.Z., Əfəndiyeva Ü.A. Ailə və gender psixologiyası. B.: ADPU, 2021
9. Çələbiyev N.Z. Dünyanın məşhur və tanınmış psixoloqları (Tarixi-bioqrafik oçerklər). B.: ADPU, 2017

**Mollayeva Elza Əlipaşa qızı**
*Bakı Dövlət Universitetinin dosenti, p.ü.e.d.*
*elzamollayeva@rambler.ru*

## Ə.ƏLİZADƏNİN “QADIN PSİXOLOGİYASI” ƏSƏRİNDƏ GENDER PROBLEMİNƏ PEDAQOJİ KONTEKSTDƏ BAXIŞ

***Açar sözlər:*** *Ə.Əlizadə, gender bərabərliyi, etnopedaqogika, qadın psixologiyası, psixoloji portret*

Çağdaş Azərbaycan elminin nəhəng simalarından biri psixologiya elmində özündən sonra onlarla davamçı alimlər yetişdirən, psixologiya elminə böyük töhfələr vermiş və verməkdə davam edən “Ə.Əlizadə psixologiya məktəbi”ni bizə miras olaraq qoyub getmiş Ə.Əlizadə öz ideyaları, elmi fikirləri ilə zamanın fövqündə dayanmağı bacaran elm fədaisi idi. Onun əsərləri yaşadığı dövrü bir neçə onilliklər qabaqlayır və aktuallığını hər zaman saxlayır. Elm tarixindən də məlumdur ki, mütəfəkkirlər öz elmi-fəlsəfi məntiqi ilə zamanı qabaqlayır, bəşəriyyətin çox sonralar əldə edəcəyi kəşf və ixtiraların təxmini konturlarını cızırdılar. Ə.Əlizadə də öz elmi yaradıcılığında Azərbayanda psixologiya elminin inkişaf prioritetlərini verməklə onun dinamikasının istiqamətini gələcək illər üçün müəyyənləşdirmişdir. Onun əsərlərini psixologiya elmi ilə bərabər, pedaqogika elmi üçün də əhəmiyyətli və zəngin mənbə hesab etmək olar. Ə.Əlizadə cəmiyyətdə mövcud olan sosial problemlərə hər iki müstəvidə qiymət verir və onun həlli yollarını göstərirdi.

Ə.Əlizadənin müasir psixologiya elm məkanında fenomen kimi qəbul edilməsi onun psixoloji hadisələrə lokal yox, qlobal miqyasda yanaşması ilə şərtlənir. Bu böyük elm adamının əsərləri ilə hələ gənc yaşlarımdan tanış idim və onun psixologiya ilə bağlı yazdığı elmi əsərləri Azərbaycan elmi təfəkkürünün qızıl fondlarından biri sayıla bilər. Ə.Əlizadənin əsərləri bu gün də istər psixoloji, istərsə də pedaqoji tədqiqatlarda alimlər üçün əvəzolunmaz mənbələrdir. Çünki onun əsərləri yalnız bir yox, bir neçə elmi istiqaməti birləşdirir, bu əsərlər cəmiyyət həyatının sosial-psixoloji-pedaqoji mənzərəsini çox gözəl ifadə edir.

Ə.Əlizadənin əsərləri elmlər sisteminə sinergetik yanaşmanı çox gözəl ifadə edir və bu baxımdan onun sonuncu əsəri olan “Qadın psixologiyası” əsəri xarakterikdir. Bu əsərdə son illərin yeni elmi istiqaməti olan genderin dəyər kimi psixoloji aspekti elmi-psixoloji və bədii çalarlarla verilmişdir. Bu mənada Ə.Əlizadənin əsərlərini sosial-psixoloji ensiklopediya adlandırmaq olar və prof. R.Əliyevin alim haqqındakı fikirləri yerinə düşür: “Əbdül Əlizadənin bütün fəaliyyəti dəyərlilik prinsipi ilə tənzimlənir. Dəyərlərə xüsusi əhəmiyyət verən insanlar isə hər şeydən əvvəl həqiqətin açılmasında maraqlıdırlar. Belə adamlar həyata rasional, tənqidi və empirik yanaşırlar. Psixoloji nəzəriyyələrdəki təsnifləşdirmələrə görə, Əbdül Əlizadə şəxsiyyətini "nəzəri tip”ə daxil etmək olar. Belə insanlar isə daha çox fəlsəfəyə yaxın olan fundamental fəaliyyət seçirlər”.

“Qadın psixologiyası” əsəri gender elminin milli-mənəvi və bəşəri dəyər kimi mahiyyətini açmaqla, qadının həm ailədə, həm də cəmiyyətdəki önəmli rolunu işıqlandırır. Bu əsəri oxuyarkən oxucuda belə bir fikir formalaşır ki, qadının həm ailədə, həm də cəmiyyətdə psixoloji və pedaqoji rolu bir-biri ilə vəhdətdə götürülməli, qadının sosial-ictimai roluna lokal yox, daha qlobal yanaşmaqla bərabər, tərbiyə prosesində mental dəyərlər də ciddi nəzərə alınmalıdır. Ə.Əlizadənin bu ideyaları ailə pedaqogikası baxımından da aktualdır: "Uşaqlarda təfəkkür, intellekt və təxəyyülün inkişafı və tərbiyəsi yolu – bu böyük yol nəinki məktəbdən, həm də bəlkə də ilk

növbədə ailədən, ANADAN başlayır... Müasir ananın qüdrəti, necə deyərlər, əsl psixoloq qüdrəti bənzərsizdir, o, sevə-sevə başa çatdırdığı ağıllı oğlunun və qızının təfəkkür, intellekt və təxəyyülünün inkişafını həmişə ailə üçün prioritet problem sayır, bu işıqlı səhifələrdə haçansa onların fantaziya binomuna birər-birər yaradıcılıq naxışları vurur". Ananın ailədə və daha geniş miqyasda, cəmiyyətdə tərbiyəvi roluna alim tərəfindən verilən psixoloji-pedaqoji dəyər, Azərbaycanda ailədaxili münasibətlərin gender arxitekturasını yaratmağa imkan verir. Qadın ilə kişi arasındakı gender bərabərliyinin daha aydın dərk edilməsi üçün hər iki cins arasındakı münasibətlər sosial-psixoloji baxımdan qiymətləndirilməli, sosial müstəvidə qadın-kişi bərabərliyi həm də psixoloji aspektdən qəbul edilməlidir. Azərbaycan etnopsixologiyasında qadının, ananın rolunu "psixoloji möcüzə" kimi dəyərləndirən Ə.Əlizadənin psixoloji-pedaqoji yanaşması Azərbaycan elm məkanında genderşünaslığa verilən töhfə kimi qiymətləndirilə bilər. Çünki alimin yalnız bu əsəri deyil, digər əsərləri də tərbiyə prosesində cinsi-rol amilinin gender istiqamətini ehtiva edır.

Ə.Əlizadənin "Qadın psixologiyası" əsəri müasir Azərbaycan ailəsinin və bütövlükdə Azərbaycan cəmiyyətinin gender mənzərəsini yaratmağa imkan verir. Onun yaratdığı psixoloji qadın portretində qadının bütün elmlər kontekstində hələ də kifayət qədər öyrənilməməsini vurğulayan alimin bu fikirləri genderşünaslığın paradiqmaları ilə üst-üstə düşür. Qadının emosional dünyası, ünsiyyət mədəniyyəti hələ də tədqiqatına ciddi ehtiyac duyulan məsələ kimi səciyyələndirilir: "Bu dilin, əgər belə demək olarsa, hələ öyrənilməmiş emosional fonetikası, emosional morfologiyası, emosional sintaksisi, emosional semantikası necə də əlamətdardır! Qadın güləndə də, ağlayanda da, qorxanda da, təşviş boyaları ilə yaşayanda da...emosiyaların definisiyasının bu məqamları artıq, necə deyərlər, vokal mimikası məqamları kimi aydın səslənir. Onlar sosiallaşdıqca təkcə özlərinin "intonasiya konturları" ilə deyil, bilavasitə emosional semantikası ilə qadın şəxsiyyətinin əlamətdar səhifələrinə çevrilir! Qadın emosionallığı da bu səhifələrdə – qadın dilinin bu möcüzəli səhifələrində işıqlanır. Qadın dilinin emosionallıq nüansları necə də seçimlidir?! Uşaqlar bu dilin romantikasını, ana laylalarının tilsimli romantikası ilə yaşayırlar". Bu sətirlər bəşəriyyətin gələcək sosial-ictimai inkişafında, insanlar arasındakı ahəngdar münasibətlər sisteminin formalaşmasında qadının rolunu milli-mənəvi dəyərlər çərçivəsindən çıxarıb bəşəri miqyasda şərh edir.

Ə.Əlizadə "Qadın psixologiyası" əsərində ailə münasibətlərinin ahəngdar inkişafında davranış mədəniyyətinin əhəmiyyətini önə çəkməklə gender mədəniyyətinə də toxunur. Doğrudur, bu əsərdə heç yerdə "gender" termininə rast gəlinməsə belə, əsərin ümumi qayəsi qadın şəxsiyyətinin formalaşmasında sosial bərabərliyin əhəmiyyətini elmi cəhətdən əsaslandırır: "Müasir qadınların şəxsiyyət faktorları ilə qaynaqlanan köklü fəlsəfəsi – ailə, qadın, ər, uşaqlar... fəlsəfəsi var. Özünəhörmət qadının özünü qiymətləndirməsi, xüsusilə öz ləyaqətini dərk etməsi və qadın ləyaqəti prosedurları ilə dəyərləndirilməsi prosesidir. Qadın şəxsiyyətinin köklü parametrlərindən biridir". Ə.Əlzadənin bu fikirlərini oxuyan zaman genderşünaslığın əsasını qoymuş və " İkinci cins" əsərinin müəllifi S.Bovuarın bu aforizmi yada düşür: "Qadın kimi doğulmurlar, qadın kimi formalaşırlar".

Gender elmi istiqaməti Azərbaycan elm məkanı üçün digər fundamental elmlərlə müqayisədə daha gəncdir və bu elmin inkişafı cəmiyyətin bütün sferalarında sosial-psixoloji, pedaqoji inkişafa təkan verir, vətəndaş cəmiyyətinin sosial tərəqqisinin perspektivlərini müəyyənləşdirən amil kimi özünü göstərir. Azərbaycanda gender elminin inkişaf səviyyəsini müəyyənləşdirmək üçün həm klassik, həm də çağdaş mütəfəkkirlərin, alimlərin cinslərin sosial bərabərliyi haqqındakı ideyalarını məhək daşı hesab etmək olar. Çünki hələ "gender" termininin elmə daxil olmasından çox əvvəl qadın-kişi bərabərliyinin hüquqi-sosial-psixoloji-bədii aspektləri bu alim və mütəfəkkirlərin əsərlərində öz əksini tapmışdır. Bu mənada Azərbaycan psixologiya elminin korifeylərindən biri olan Ə.Əlizadənin əsərləri müasir gender elminin bütün elmlər kontekstində tədqiq edilməsi üçün əhəmiyyətlidir. Onun "Qadın ailənin məhəbbət nurudur, elin-obanın şərəfidir, böyük və müqəddəs anadır" aforizmini müasir genderşünaslığın kredolarından biri kimi qəbul etmək olar.

**Rəhimli Türkan İlqar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*turkan.rehimli60@gmail.com*

## UŞAQLARDA GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASI

***Açar sözlər:*** *gender anlayışı, gender fərqləri, gender rolları, gender və mədəniyyət, gender stereotipləri, sosial öyrənmə nəzəriyyəsi*

Şəxsiyyətin formalaşması “mən kiməm?” sualına verilən cavablarla başlayır və insan həyatının hər bir dövründə fərqli cavablarla davam edir. Uşaq ətrafdakı informasiyaları qruplaşdıraraq dünyanı anlamağa meyillidir, eləcə də insanları da ən sadə şəkildə kişi və qadın olaraq təsnif edir. Bundan əlavə, cəmiyyət də cinsiyyətə önəm verdiyi üçün çox kiçik yaşlardan etibarən cins və gender anlayışı uşaq üçün funksional məna qazanır. Bioloji fərqliliyə əsaslanan cins anlayışından fərqli olaraq, gender dedikdə, kişi və qadınların sosial və ictimai münasibətlər sistemində formalaşan rol və vəzifələri nəzərdə tutulur. Başqa sözlə, gender cəmiyyətin kişi və qadın olmaqdan nə gözlənildiyini müəyyən edən sosial normaları ehtiva edir. Gender emosiya, münasibət və davranış kimi rol modelləri ilə əlaqələndirilir. Buna görə də hər cəmiyyətin hər bir cinsiyyətə aid edilən və gözlənilən müəyyən davranışlar haqqında fərqli anlayışlara malik olması, kişilik və qadınlığı fərqli qavraması səbəbiylə kişi və qadın olmaqdan gözlənilən gender rolları mədəniyyətlər arasında fərqlilik göstərə bilir.

Kişi və qadınların bioloji cəhətdən fərqlilikləri, üstün və zəif tərəfləri vardır. Buna əsaslanaraq hər iki cinsiyyətin bioloji aspektdən rəqabətdə olması və ya müqayisəsi doğru deyildir. Bioloji olaraq iki cins də unikal və xüsusidir. Fəqət əvvələ, sosial həyatda uşaqların qidalanması, tərbiyəsi, ailədə qida maddələrinin təmin olunması və ya tədarükü və s. vəziyyətlər fərdlərin bioloji strukturları ilə bağlı və hətta bu strukturlardan əlavə sosial rollar almasına səbəb olmuşdur.

İnsanın özünü qadın və ya kişi kimi təyin etdiyi bu proses 3-4 yaşında inkişaf etməyə başlayır. Valideynlərin övladlarının davranışlarına verdikləri reaksiyaya uyğun uşaqlar müəyyən gender rollarına sahiblənməyə başlayırlar. Onlar qız və ya oğlan olduqlarını qəbul edərək yaşadıqları cəmiyyətin gözləntilərini ödəməyə və buna uyğun davranmağa çalışırlar. Gender rollarının öyrənilməsi prosesi Albert Banduranın sosial öyrənmə nəzəriyyəsinə əsaslana bilər. A.Banduranın nəzəriyyəsinə görə, öyrənmə prosesləri operant öyrənmə, modelləşdirmə və təqlid üzərində formalaşır. Bu anlayışları gender stereotipləri aspektindən açıqlamaq məqsədəuyğundur. Operant öyrənmədə öz cinsinə uyğun davranan uşaq mükafatlandırılır, əks halda isə cəzalandırılır. Mükafatlandırılaraq möhkəmlənən davranışlar təkrarlanır, cəzalandırılan davranışdan isə qaçınılır. Məsələn, oğlan uşağı bər-bəzəkdən istifadə etdikdə günahlandırıldığı və ya mənfi reaksiya aldığı halda, qız uşağı bu kimi hallarda xoş qarşılanır. Modelləşdirmə və təqlid prosesində isə valideynlər, müəllim, televizordakı qəhrəman kimi görünən fiqurlar nümunə kimi qəbul edilir və davranışları təqlid edilir. Məsələn, cizgi filmində qadın rolundakı fiqur zərif bir varlıq kimi göstərildiyi halda, kişi fiqurları güclü, iddialı və təşəbbüskar olaraq qadını valeh edərək onunla münasibət qurur və əksərən bu münasibət xoşbəxtliklə nəticələnir, baxmayaraq ki, qadının seçmə haqqı məhdud olur. Beləliklə, qız uşaqları gözləmə prosesinə alışdırıldıqları halda, oğlan uşaqları cəsarətli və təşəbbüskar olmaqla eyniləşdirilir. Bu prosesdə eyni cinsdən olan insan təqlid edilir, əks cinsin xüsusiyyətləri isə müşahidə yolu ilə ideallaşdırılır. Bandura bunu öz-özünə rolları öyrənmə, sosiallaşma kimi təsvir edir.

Cəmiyyətdəki gender rollarına məxsus olan stereotiplər təhsil, ailə, iş mühitində, eləcə də reklam, televiziya, jurnal, qəzet, mahnı sözləri kimi kütləvi-informasiya vasitələrində, nağıl və dərsliklərdə özünü büruzə verir.

Hər bir fərdin ilk sosiallaşdığı mühit ailədir. Ailədə valideynlər övladlarına şüurlu və ya şüursuz şəkildə öz dünyagörüşlərini, həyata baxışlarını ötürür. Bundan əlavə uşaqlara danışılan nağıllar, hekayələr onların qadın və kişi haqqında təsəvvürlərinin formalaşmasına təsir göstərir. Məsələn, nağıllarda qadın fiqurları zorakılığın qurbanı, yoxsul, tərk edilmiş və s. kimi, kişi

fiqurları düşməni öldürməklə, vuruşmaqla və başqa yollarla qadını xilas edən kimi təsvir edilir. Kişi dəyər verən, həyat verən, qadın isə dəyərlənən rolunda çıxış edir. Bu nağıllarda qız uşaqları həyatın ən sarsıdıcı travmaları ilə üzləşirlər, lakin buna baxmayaraq, onlar əxlaqi cəhətdən qüsursuzluq, zəriflik, incəlik kimi keyfiyyətlərlə müəyyənləşdirilirlər.

Gender rollarını uşaqlar ailədən sonra təhsil mühitində öyrənməyə davam edirlər. Məktəbəqədər yaş dövründən başlayaraq fərdlərin həyatında müəllimin özünəməxsus rolu vardır. Müəllim onların düşüncə tərzinin, qavrayışının və şəxsiyyətinin formalaşmasına təsir edir. Müəllimin şagirdlərə müraciət tərzi, istifadə etdiyi mükafat və cəza sistemi, sinifdə həyata keçirdiyi fəaliyyətlər, şagirdlərindən uğur gözləntiləri və peşə seçimindəki rolu tələbələrin bütün həyatına təsir göstərir. Bütün bu təcrübələr gender stereotiplərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bundan ziyadə müəllimlər uşaqların məktəbə gəlməzdən öncə digər sosial mühitlərdə (ailədə, bağçada və s.) müəyyən stereotipləri öyrəndiklərini nəzərə almalıdırlar. Bununla da onlar lazım gəldikdə şagirdlərin dünyaya baxışını dəyişdirməli, gender mövzusundakı fikirlərini genişləndirməlidirlər.

Uşaqlara göndərilən bu mesajlar onların qavrayış və rəftarlarına təsir edir. Başqa sözlə, stereotiplər fərdlərin bir şəxs, hadisə və ya vəziyyət qarşısında göstərəcəkləri idrak, davranış və emosional reaksiyalarına təsir göstərir. Gender bərabərsizliyi bu şəkildə ötürülməklə qorunur və çoxaldılır.

## ƏDƏBİYYAT


1. Şeydayeva S. Azərbaycan təhsilsistemində gender stereotiplərinin tədqiqi, 2021, 79 s.
2. Alpan E.D. Toplumsal cinsiyet kalıp yargılarının çocuk oyunlarına yansıması. Sanat Dergisi, 2017, 80-89 s.
3. Ünal F., Tarhan, S., Köksal, E. Ç. Toplumsal cinsiyet algısını yordamada cinsiyet, sınıf, bölüm ve toplumsal cinsiyet oluşumunun rolü. Bartın University Journal of Faculty of Education, 2017, 227-236 s.
4. Daro B.S. Gender Equality in Education. Aalborg University. Retrieved March, 2016, p.75


**Heydərova Simnarə Nadir qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının dosenti*
*simnarah@gmail.com*

## CƏMİYYƏTDƏ GENDER PROBLEMİ VƏ CİNSİ FƏRQLƏR MƏSƏLƏSİ

***Açar sözlər:*** *cəmiyyət, gender problemi, fərqlilik, kişi, qadın, bərabərsizlik*

Gender kişi və qadın arasında universal olan, bioloji, genetik və fizioloji cəhətdən müəyyən edilən fərqlərə işarə edən bir anlayışdır. Qadın və kişilərin özlərinə məxsus olan fərqləri (xüsusiyyətləri) bərabərsizlik deyil, yalnız gender fərqini təşkil edir. 1960-cı illərdən sonra ortaya çıxan gender anlayışı, qadın və kişilərin cəmiyyətdəki statusunu, statusuna uyğun rollarını, vəzifə və öhdəliklərini cinsiyyətlərinə uyğun dəyərləndirib, fərdi qiymətləndirdiyi sosial-iqtisadi təsnifata istinad edir. Bu tərifdən də anlaşıldığı kimi, gender anlayışı bioloji fərqlərlə müəyyən edilən gender anlayışından tamamilə fərqli olaraq mədəni bir anlayışdır.

Cinsi fərqlərin öyrənilməsi əsasən iki amil üzərində qurulmuşdur:

1. İnsan cəmiyyəti yarandığı vaxtdan bu günə qədər ictimai-tarixi, iqtisadi-siyasi proseslərdən asılı olmayaraq oğlan və qızların, kişi və qadınların düşüncə və davranış tərzi bir-birindən fərqli olmuşdur. Yəni bütün dövrlərdə, quruluşlarda cinsi fərqlərin psixologiyası mövcud olmuşdur.

2. Cəmiyyətin bütün inkişaf dövrlərində müxtəlif cinslərin nümayəndələrinə fərqli tələblər verilmiş, fərqli tərbiyə üsulları tətbiq olunmuşdur.

Cinsi fərqlərin öyrənilməsinin tarixi çox qədimdir. Professor Ə.Ə.Əlizadə bu barədə yazır: "Cinsi fərqlər nəzəriyyəsinin tarixi b.e.ə. V-IV əsrdən, qədim yunan filosofu Ksenofanın kişi və qadın təbiəti haqqında baxışlarından başlasa da, bu köklü problem uzun müddət sistemli şəkildə öyrənilməyib. Ayrı-ayrı cinsi fərqləri müəyyən ediblər, lakin onlann mahiyyətini araşdıra bilməyiblər. Bu, görünür təkcə anatomiya, fiziologiya, təbabət, psixologiya və s. kimi elmlərin inkişaf səviyyəsi ilə deyil, həm də bəlkə də hər şeydən öncə köklü əxlaqi maneələrlə şərtlənmişdir. Cinsi həyat adi şüurda qeyri-adi qadağalara söykənən sirli-sehirli dünya idi. Bu sahədə hələ qədim qərinələrdən köklü tabular, özü də adi qadağalar deyil, birmənalı sərt yasaqlar sistemi əmələ gəlmişdi. İnsan münasibətlərində onları təkcə hüquqi ölçülərlə deyil, sərt əxlaqi qanunlarla qoruyurdular".

Oğlan və qızların fərqli psixoloji xüsusiyyətlərə malik olmasını, demək olar ki, bütün psixoloqlar qəbul edirlər. Lakin bu fərqlərin təşəkkülü, təzahürü, mahiyyəti, ona təsir edən amillərlə bağlı fikir ayrılıqları mövcuddur. Onların bir qismi (B.G.Ananyev, Z.Freyd, F.Sperri, A.Q.Xripkova və b.) bioloji, digərləri (İ.S.Kon, E.Formem, Ə.Ə.Əlizadə və b.) sosiomədəni amillərin daha güclü təsirə malik olduğunu qəbul edirlər.

Qeyd etmək lazımdır ki, cinslərin sosial bərabərlik nəzəriyyəsini qəbul etməyənlər və gender konsepsiyasının tənqidçiləri də mövcuddur. Onların əsas arqumenti odur ki, qadın və kişilərin təbiəti fərqlidir və bu fərqlər yalnız fizioloji deyil, psixoloji sahəni də əhatə edir. Belə tənqidi nəzəriyyənin tərəfdarları iddia edirlər ki, texniki və texnoloji tərəqqiyə baxmayaraq, elə fəaliyyət sahələri mövcuddur ki, orada əsasən qadınların və yaxud kişilərin çalışmaları daha məqsədəuyğundur. Gender nəzəriyyəsinin tənqidçilərinə görə, cəmiyyətdə kişi və qadınlar arasında fəaliyyət sahələrinin psixoloji amillərə əsaslanan bölümü hər iki qrupu daha xoşbəxt edə bilər. Tənqidçilər gender probleminin həlli yolunu inkişaf üçün eyni şəraitin yaradılmasında görürlər. Onların fikrincə, cəmiyyət üçün belə yanaşma daha əhəmiyyətlidir. Bu baxışlara görə, gender probleminin həlli qadınları qadın kimi, kişiləri isə kişi kimi xoşbəxt etməkdən keçir.

Tarixi qaynaqlara görə, eramızdan əvvəlki əsrlərdə Azərbaycanda qadınların cəmiyyət həyatında böyük rolu və hüquqları olub. Qadınlarımız həm ailədə, həm cəmiyyətdə, həm təsərrüfat işlərində, həm də döyüş meydanlarında kişilərlə çiyin-çiyinə dayanıb. Hürrəmilərin hakimiyyəti zamanı qadınlara geniş hüquqlar verilməsi, sonrakı Azərbaycan dövlətlərində də qadınların mövqeyinin artması tariximizdə gender problemi ilə bağlı təqdirəlayiq işlərdəndir.

1918-ci ildə müsəlman şərqində yaradılan ilk respublika – Azərbaycan Xalq Cümhuriyyəti tarixdə qadınlara seçki hüququ və s. hüquqlar verən ilk ölkələrdən sayılır. Sovet İttifaqının tərkibində olduğumuz zamanlarda isə qadınların cəmiyyətdə, ailədə, dövlət sistemində rolu daha sürətlə artdı və gender bərabərliyi həm hüquqi, həm də faktiki olaraq təmin olundu.

Azərbaycanda gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsasını məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyası təşkil edir. Beynəlxalq hüquqi aktlarda və konvensiyalarda əksini tapmış əsas insan hüquq və azadlıqlarının geniş şəkildə təsbit olunduğu bu Konstitusiyada qadınların cəmiyyət həyatındakı yeri və rolu, qadın siyasətinin fundamental prinsipləri də əksini tapmışdır. Əsas Qanunda gender məsələsi ilə bağlı bütün problemlərin qanunvericilik və hüquq tətbiqi səviyyəsində qarşısının alınması üçün zəruri hüquqi baza mövcuddur. Konstitusiyanın qadın hüquqlarının müdafiəsinə etibarlı zəmin formalaşdıran 25-ci maddəsində hamının qanun və məhkəmə qarşısında bərabərliyi, habelə kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğu birmənalı şəkildə təsbit edilir. Həmin maddənin üçüncü hissəsi cinsindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verməklə yanaşı, insan və vətəndaş hüquqlarının və azadlıqlarının cinsi mənsubiyyətə görə məhdudlaşdırılmasını qadağan edir.

2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu da respublikamızda qadınların hüquqlarının etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyətə malikdir. Qanunda gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizmi öz əksini tapıb. Qanunun

əsas məqsədi kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlarının təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. Qanun gender bərabərliyinin təmini ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini və vəzifələrini müəyyən edir.

**Əfəndiyeva Ülviyyə Akif qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, psixol.ü.f.d.*
*ulviyya16@yandex.com*

## Ə.Ə.ƏLİZADƏNİN YARADICILIĞINDA CİNSİ FƏRQLƏR, AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ QADIN PSİXOLOGİYASI MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *cinsi fərqlər, ailədaxili münasibətlər, qadın psixologiyası*

Professor Ə.Ə.Əlizadə XX əsrin 60-cı illərindən başlayaraq psixoseksual inkişafın sosial-psixoloji nəzəriyyəsi, cinsi fərqlər, ailə psixologiyası sahəsində tədqiqatlar apararaq Azərbaycan psixologiyasını sanballı əsərləri ilə zənginləşdirdi.

XX əsrdən başlayaraq Avropada, o cümlədən Rusiyada cinsi fərqlər problemi ciddi şəkildə araşdırılırdı. Keçmiş SSRİ-də Sovet hakimiyyətinin ilk illərində sosial-siyasi iqlim dəyişdi. Bu dövrdə kişi və qadınların bərabərliyi ideyası irəli sürülürdü, qadını ictimai və istehsalat işi ilə bağlı olaraq ailədən ayırmaq istəyirdilər. Bu ona gətirib çıxarırdı ki, cinslər arasındakı fərqlər, qadın psixologiyası kimi məsələlər qəbul edilmirdi. Bu məsələlər uzun müddət davam etdi və həmin dövrü "cinssiz psixologiya" və "cinssiz pedaqogika" adlandırırdılar. Ötən əsrin 30-cu illərindən başlayaraq cinsi fərqlərin öyrənilməsinə qadağa qoyuldu, bu dövrdə pedologiya, psixotexnika, sosial psixologiya kimi elmlər qadağan edildi. Yalnız 60-cı illərdən başlayaraq yenidən bu məsələyə qayıdıldı. Nəinki Azərbaycanda, SSRİ-də bu sahədə ilk tədqiqatçılar sırasında Ə.Ə.Əlizadənin də adı xüsusi hörmətlə anılır. Hazırda problemə gender bərabərliyi kontekstində yanaşılır.

Ə.Ə.Əlizadənin bu sahədə yazdığı ”Yoldaşlıq və dostluq tərbiyəsi” (Bakı, 1964), “Ailədə uşaqların cinsi tərbiyəsi” (Bakı, 1968), “Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi” (Bakı, 1986), “Ailə” (Bakı, 1986) adlı kitabları və məqalələri alimə böyük şöhrət gətirdi.

Ə.Ə.Əlizadə elmi axtarışlarının nəticəsi olaraq 1975-ci ildə “Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin psixoloji problemləri” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etdi. Bu dissertasiya Rusiya və Azərbaycan psixologiyasında bir tərəfdən psixoloji cins, digər tərəfdən cinsi fərqlər konsepsiyasının formalaşmasında önəmli rol oynamışdır. Təsadüfi deyildir ki, E.S.Kuzminin “Sosial psixologiya” (LDU, 1979) əsərində A.A.Bodalyev, İ.S.Kon, A.Q.Xripkova kimi tanınmış alimlərin sırasında professor Ə.Ə.Əlizadənin də adı çəkilir və ona yüksək qiymət verilir.

Ə.Ə.Əlizadəyə görə, psixi cins sosial-psixoloji fenomendir və şəxsiyyətin strukturunda önəmli yer tutur. Onun formalaşması prosesinin xüsusiyyətlərini ancaq və ancaq şəxsiyyət psixologiyasının uğurları axarında açıqlamaq olar. Psixi cinsin strukturu çoxcəhətlidir. O, müəyyən sosial-psixoloji sosiumda əmələ gəlir, tələbat-motivasiya sahəsində, sərvət meyillərində, münasibətlər sistemində, xarakter strukturunda və mənlik şüurunda formalaşan özünəməxsus cinsi xüsusiyyətlərlə səciyyələnir.

Cinsi fərqlər və cinsi tərbiyə məsələləri Ə.Ə.Əlizadənin yaradıcılığında müxtəlif istiqamətlərdə araşdırılmışdır. Ə.Əlizadəyə görə, cinsi tərbiyə ilk növbədə cinsi fərqlərin öyrənilməsi, nəzərə alınması əsasında aparılmalıdır.

Ə.Ə.Əlizadə bu sahədə araşdırmalarını ümumiləşdirərək dünya psixologiyasının inkişafında mühüm əhəmiyyəti olan “Uşaqlar və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası” (Bakı, 2009) monoqrafiyasında əks etdirmişdir. Əsərdə uşaq seksuallığı, seksual inkişaf bilavasitə psixopedaqoji qaynaqlarla açıqlanır.

Ə.Ə.Əlizadə cinsi tərbiyə və cinsi fərqlər problemini ilk növbədə ailə kontekstində nəzərdən keçirir. Onun əsərlərində bu problem oğlan-qız tərbiyəsi, yaş xüsusiyyətləri, cinsi xüsusiyyətlər, qadın-kişi münasibətləri, ər-arvad münasibətləri, valideynlərin övladları ilə münasibətləri kontekstində öyrənilir. Ə.Ə.Əlizadəyə görə, ailənin xoşbəxtlik piramidası hər şeydən əvvəl psixoloji fenomenlərlə qaynaqlanır. O, göstərir ki, bütün bunların kökündə cinslərarası ünsiyyət dayanır. Bu ünsiyyət olmadıqda faciə baş verər.

Ə.Ə.Əlizadə müasir dövrün sosial-psixoloji problemlərini, onun ailə münasibətlərinə, xüsusilə qadına (anaya) təsirini araşdırır, göstərir ki, bütün bu amillərin kompleks təsiri nəticəsində insanların psixoloji durumunda dəyişiklik baş verir. İnsanlar daha çox fərdiyyətçiliyə, tənhalığa meyil edirlər. XXI əsrdə informasiyaların və kommunikativ rabitələrin aşıb-daşdığı bir dövrdə bu çox maraqlı problemdir və ərli arvadın qeyri-məkanda – ər evində özünü tənha hiss etməsi bu fenomenin bəlkə də bir möcüzəsidir. Bir çox ailələrdə elegiya mahnıları açıq-aşkar çalınır, boşanma az qala əsrin probleminə çevrilir (2, s.456).

Ə.Ə.Əlizadəyə görə, boşanmanın daha çox səbəbkarı qadınlardır. O, belə ritorik sual verir: “Ərli qadın görəsən ər evində özünü nə üçün tənha hiss edir”. Sualın cavabını isə özü verir: “Əri ilə qaynayıb qarışmayanda” (2, s.456). Alim qadınların “tənhalığının” səbəbini ilk növbədə ünsiyyət mədəniyyətinin məhdudluğunda görürdü. Ə.Ə.Əlizadə daha sonra “Kleopatra” sindromunu təhlil edir: Qadın həmişə gözəl, sirli-sehirli görsənməlidir. Bütün bu xüsusiyyətlər isə hələ uşaqlıq illərində formalaşdırılmalıdır.

Azərbaycan psixologiya elminin korifeyi, professor Ə.Ə.Əlizadə ömrünün son illərində cinsi fərqlərin psixologiyası, ailədaxili münasibətlərdə qadının rolu sahəsində olan tədqiqatlarını davam etdirərək "Qadın psixologiyası" (Bakı, 2015) adlı samballı əsərini ərsəyə gətirdi. Çox təəssüf ki, əsər görkəmli alim dünyasını dəyişdikdən sonra işıq üzü gördü. "Qadın psixologiyası" kitabı həm Azərbaycan psixologiyasını, həm dünya gender psixologiyasını zənginləşdirdi. Kitabda qadın psixologiyasının aktual məsələləri etnopsixoloji ənənələr və müasirlik, elm və praktika reprozentasiyası axarında araşdırılır. Əsərdə Ə.Ə.Əlizadə göstərir: "Sevib-sevilmək qızların, gəlinlərin ən ülvi arzularından biridir. Qadın psixologiyasında başlıca açar sözlər belədir: onlar – qızlar, gəlinlər" ancaq sevərkən yaşayırlar" (Helvetsi). Ailə məkanında isə bu parafraz onlarla qadının təcrübəsi kökündə bu gün əsrin paradoksları ilə səslənməyə başlayır: qadın ancaq sevilərkən yaşayır, sevilməyəndə isə..." (4). Problemin konseptual modeli müəllifin məhəbbət konsepsiyası kökündə Azərbaycan etnopsixologiyasının önəmli perimetrləri ilə açıqlanır.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə: IX sinif şagirdləri üçün dərs vəsaiti. Bakı: Maarif, 1989
2. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası. Bakı: ADPU-nun nəşri, 2009
3. Əlizadə Ə.Ə.Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986
4. Əlizadə Ə.Ə. Qadın psixologiyası (fəlsəfi-psixoloji esselər). Bakı: Təhsil, 2015



**Cəfərova Elnarə Novruz qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının laborantı*
*elnaracafarova1970@gmail.com*


## Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA CİNSİ FƏRQLƏR PROBLEMİ


***Açar sözlər:*** *cinsi fərq, cinsi tərbiyə, cinsi dimorfizm, cinsi yetişmə, gender bərabərliyi, ailə, şəxsiyyət*


“Ə.Ə.Əlizadə XX əsrin 60-cı illərindən başlayaraq psixoseksual inkişafın sosial psixoloji nəzəriyyəsi sahəsində tədqiqatlar apararaq Azərbaycan psixologiya tarixində yeni bir məktəbin

əsasını qoydu. “Yoldaşlıq və dostluq tərbiyəsi” (Bakı, 1964), “Ailədə uşaqların cinsi tərbiyəsi”(Bakı, 1968), “Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi” (Bakı, 1986) adlı kitabları və yüzlərlə məqalələri, “Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri”(1975) adlı doktorluq dissertasiyası bu sahədə alimə böyük şöhrət gətirdi” (1, s.373).

Sosial psixologiya üzrə tanınmış psixoloqlar Y.S.Kuzmin və V.Y.Semyonovun “Sosial psixologiya” əsərində cinsi fərqlərin öyrənilməsi sahəsində A.A.Bodalyov, A.T.Xarçev, İ.S.Kon, Y.L.Kolominski, T.A.Repina kimi tanınmış psixoloq və sosioloqlarla yanaşı Ə.Ə.Əlizadənin də adı qeyd olunur. Cinsi fərqlərin ailə tərbiyəsindən asılılığından bəhs edərkən müəlliflər yenə də Ə.Ə.Əlizadənin tədqiqatına istinad edirlər. “Valideynlərin oğlan və qızlara nəzarəti fərqlidir. Ə.Ə.Əlizadə bunu sosial-cinsi nəzarət adlandırır” (2, s.270).

Ə.Ə.Əlizadə yaradıcılığının ana xəttinin cinsi fərqlərin öyrənilməsi və cinsi tərbiyədə onun nəzərə alınmasının yollarının göstərilməsi tutur, söyləsək, yanılmarıq. Bu fikirdə olmağımızın bir neçə səbəbini qeyd edək:

1. Ə.Ə.Əlizadə yaradıcılığında cinsi dimorfizm başlıca yer tutur. Onun doktorluq dissertasiyası da məhz bu problemə həsr olunub.
2. Ə.Ə.Əlizadənin demək olar ki, bütün əsərlərində, hansı sahəyə həsr olunmasından asılı olmayaraq, az və ya çox dərəcədə cinsi fərqlərdən, cinsi tərbiyədən bəhs olunur.
3. Cinsi fərqlər və cinsi tərbiyə sosial-psixoloji, pedaqoji-psixoloji, yaş psixologiyası kontekstində araşdırılır.
4. Ə.Ə.Əlizadə yaradıcılığında cinsi tərbiyə, cinsi fərqlərin psixologiyası etnopsixoloji aspektdə öyrənilir.
5. Ə.Ə.Əlizadə cinsi fərqlərin öyrənilməsində müxtəlif psixoloji nəzəriyyələrə – psixoanalizə, koqnitiv psixologiyaya, humanist psixologiyaya istinad edir.

Göründüyü kimi, Ə.Ə.Əlizadə cinsi fərqlərin öyrənilməsi üzrə fundamental tədqiqatlar müəllifidir. O, bu sahədə tədqiqat aparan psixoloq və pedaqoqların əksəriyyətinin tədqiqatları ilə tanış olmuş, onlara münasibət bildirmiş, onların əsasında özünün mövqeyini ortaya qoya bilmişdir. Ə.Ə.Əlizadə özü bunları belə təqdim edir: “1970-ci illərdə ADPU-nun Ümumi psixologiya kafedrasının araşdırmalarında elmdə demək olar ki, ilk dəfə psixi (psixoloji) cins anlamı təklif edilmiş, cinsi tipikləşmə kontekstində onun strukturu açıqlanmış, cinsi fərqlər məsələsi tədqiqatının metodologiyası və metodikası kökündə sistemli araşdırılmışdır” (3, s.5).

Cinsi fərqlər və cinsi tərbiyə məsələləri Ə.Ə.Əlizadə yaradıcılığında müxtəlif istiqamətlərdə araşdırılır. Yəni bu problem təlim fəaliyyəti prosesində koqnitiv və humanist psixologiya, ailə münasibətlərində şəxsiyyət psixologiyası kontekstində araşdırılır. Cinsi fərqlərin psixologiyası digər cəhətlərlə yanaşı, psixoanalitik baxımdan öyrənilir, təhlil edilir.

Ə.Ə.Əlizadə cinsi tərbiyə məsələlərindən bəhs edərkən belə bir fikri əsaslandırır ki, psixoseksual inkişafı öyrənmədən cinsi tərbiyəni də düzgün qurmaq mümkün deyil. Cinsi tərbiyə ilk növbədə cinsi fərqlərin öyrənilməsi, nəzərə alınması əsasında aparılmalıdır. “Cinsi fərqlər insanın ümumi somatik xarakteristikasından tutmuş motivasiya sahəsinə qədər müxtəlif səviyyələrdə təzahür edir” (4, s.6).

Ə.Ə.Əlizadə cinsi tərbiyə və cinsi fərqlər problemini ailə münasibətləri kontekstində nəzərdən keçirir. Burada uşaqların tərbiyəsi, oğlan-qız tərbiyəsi, yaş xüsusiyyətləri, cinsi xüsusiyyətlər, qadın-kişi münasibətləri, ər-arvad münasibətləri, valideynlərin övladlarla münasibətləri konteksində öyrənilir. Göstərilir ki, ailənin xoşbəxtlik piramidası hər şeydən əvvəl psixoloji fenomenlərdən qaynaqlanır. Ə.Ə.Əlizadəyə görə, bütün bunların kökündə cinslərarası ünsiyyət dayanır. Ə.Ə.Əlizadəyə görə, cinsi fərqlər anlayışının düzgün dərk olunması uşaqların, gələcək ailə həyatına hazırlanmalarında, əks cinsə hörmətlə yanaşa bilmələrində, əlbir fəaliyyət göstərmələrində mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007, 528 s.
2. Сеидов С.И. Феноменология творчества. Баку: Çaşıoğlu, 2009, 304 с.
3. Əlizadə Ə.Ə. Uşaqlar və yeniyetmələr: Seksual inkişafın psixo-pedaqogikası. Bakı: ADPU, 2009, 576 s.
4. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.



**Rəhimova Kamilə Adil qızı**
*BSU-nun Pedaqogika və psixologiya kafedrasının dosent əvəzi, psixol.ü.f.d.*
*ragimovakamilya@hotmail.com*


## GENDER PSİXOLOGİYASININ ƏSASLARI VƏ İNKİŞAF TARİXİ

***Açar sözlər:*** *gender, cinsi fərqliliklər psixologiyası, liberal feminizm, radikal feminizm, qadın və kişi psixologiyası*

Gender psixologiyası cins və cinslərarası münasibətlər probleminin öyrənilməsinə həsr olunmuş və ayrı-ayrı tədqiqatları birləşdirən elmi bilik sahəsidir. Gender psixologiyası aşağıdakı problemləri əhatə edir:

Müxtəlif cinsdən olan insanlar arasındakı psixoloji fərqlər; sosial gender rolu fərqləndirmə və təbəqələşmə; kişiliyin və qadınlığın mədəni stereotipləri; kişilərin və qadınların sosiallaşma xüsusiyyətləri; şəxsin müəyyən bir cinsin nümayəndəsi kimi psixoloji identifikasiyası.

Gender bir insanın cəmiyyətdəki davranışını və bu davranışın digər insanlar tərəfindən qəbul edilməsini təyin edən sosial cinsdir. Bu termin 1955-ci ildə psixolog və seksoloq Con Mani tərəfindən istifadəyə verildi. Gender psixologiyası yeni və inkişaf edən bir istiqamətdir. Aşağıda göstərilən sahələri vardır:

1. Kişilərin psixologiyası. 2. Qadınların psixologiyası. 3. Kişilərlə qadınların müqayisəli psixologiyası. 4. Cinsi sosiallaşma. 5. Cinsi münasibətlər psixologiyası. 6. Liderliyin gender psixologiyası.

Qərbdə gender tədqiqatlarının inkişafında üç əsas mərhələ mövcuddur:

1. Birinci mərhələ (XX əsrin 60-70-ci illəri) Qərbdə liberal yönümlü feminist hərəkatın intensiv inkişafı ilə əlaqəli ilk cinsi yönümlü elmi əsərlərin ortaya çıxması dövrüdür.

Liberal feminizm islahatlar yolu ilə əldə edilə bilən gender bərabərliyini elan edir. Nəzərdə tutulan dövrdə struktur və funksionalizm nəzəriyyəsi sosial və psixoloji elmlərdə üstünlük təşkil edirdi ki, buna görə cinslər arasındakı əlaqə gender-rol bölgüsü konsepsiyası ilə müəyyən edildi. Ailə nümunəsini nəzərdən keçirsək, o zaman funksiyalar bölünməlidir: qadın ifadəli bir funksiyanı yerinə yetirir (ailədə daxili tarazlıq yaradır), kişi isə instrumental funksiyanı yerinə yetirir (ailə ilə digər sosial strukturlar arasındakı münasibətləri tənzimləyir).

Bu dövrdə gender psixologiyasına dair yerli nəşrlər yox idi. Alimlərin diqqətini Z.Freyd, K.Yunq, O.Veyninqerin tədqiqatları çəkdi. Əsrin əvvəllərində rus dilinə tərcümə olunan Avstriya alimi O.Veyninqerin "Cins və xarakter" kitabı qızğın müzakirələrə səbəb oldu. Bu işdə qadınların, kişilərin xüsusiyyətlərinə zidd olaraq qütbləşən spesifik psixoloji xüsusiyyətlərin təsvirinə çox diqqət yetirilmişdir. O dövrdə qadının cəmiyyətdəki vəziyyəti və rolu, kişilərin xüsusiyyətləri ilə müqayisədə qadının psixoloji xüsusiyyətləri haqqında düşünən psixoloqlar deyil, ictimai xadimlər, filosoflar idi. Bu problemlər V.Solovyev, S.Bulqakov, N.Berdyaev, V.Rozanov kimi rus filosoflarının əsərlərində müzakirə edilmişdir. Bütün tədqiqatlarda ortaq olan kişi və qadınların psixoloji keyfiyyətlərinin bir-birinə uyğun gəlməsidir.

İnqilabdan sonrakı dövrdə gender psixologiyası problemləri də elm adamlarının tədqiqat maraqları arasında lider yer tutmadı. O dövrdə ictimai və elmi düşüncə üçün ən aktual olan

“gender” və “cins” kimi yaxın problemli mövzular idi. Sovet Rusiyası 1918-ci il Konstitusiyasında ictimai həyatın bütün sahələrində qadın və kişi bərabərliyini elan edən dünyada ilk dövlət idi. Bu illər ərzində elmi və populyar nəşrlər qadınların yeni cəmiyyətdəki vəziyyəti, ailədəki rolu və cinsi əlaqələr azadlığı ilə bağlı müzakirələrin nəticələrini əhatə edirdi.

2. Cinsi tədqiqatların inkişafındakı ikinci mərhələ 1980-ci illərin birinci yarısına təsadüf edir. Bu dövrdə radikal feminizm geniş yayılmışdı. Əgər cinslər arasındakı “oxşarlıq-fərq” dilemmasındakı liberal feminizm problemi kişi və qadının eyniliyi, oxşarlığı yolu ilə həll edilirdisə, radikal feminizm nəzəriyyəsini və tətbiqini kişi və qadın arasındakı fərqlərə əsaslanaraq qurdu.

Radikal feminizm ideologiyasında qadınlara qarşı zülm və ayrı seçkiliyə önəm verilirdi. Klassik psixoanaliz fəal şəkildə tənqid olunurdu, burada Freyd qadına cəmiyyətdə daha zəif bir mövqe bəxş etdi və bunu bioloji xüsusiyyətlərlə izah etdi. Bütün sosial sahələrdə kişilər və qadınlar arasında ədalətsiz güc bölgüsü ilə bağlı suallar qaldırıldı.

1980-ci illərdə cins psixologiyasına həsr olunmuş əsərlərin sayı artmağa başladı. Birinci qrup (V.S.Ageeva, T.A.Pepinov, N.Y.Privalova, V.V.Abramenkovanın tədqiqatları) müxtəlif növ insanlar arasındakı tədqiqat və psixoloji xüsusiyyətləri əhatə edir.

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, psixologiyada gender məsələlərinin inkişafından əvvəl qadınların ictimai hərəkatı və nəzəri feminist konsepsiyalar çərçivəsində gender yönümlü fikirlərin inkişafı olmuşdur.

Bundan əlavə Qərb psixologiyasında gender tədqiqatları əsasən aşağıdakı paradiqmalar çərçivəsində formalaşmışdır:

1) cins rolu yanaşmasının təsiri altında inkişaf edən cins (gender) fərqləri paradiqması; 2) psixoanaliz tənqidinin təsiri altında formalaşan qadın psixologiyasının özünəməxsusluğunun paradiqması; 3) sosial-konstruktiv intellektual hərəkatın təsiri altında formalaşmış paradiqma.

3. Üçüncü mərhələ 90-cı illəri əhatə edir. 90-cı illərdən bəri cəmiyyətdəki vəziyyət dəyişdi. Gender problemlərinin insanların bir çoxunu narahat etdiyi ortaya çıxdı və onlar bu mövzularda populyar və elmi ədəbiyyat alıb oxumağa başladılar. 90-cı illərdə nəşr olunan gender psixologiyasının müxtəlif aspektlərinə dair çox sayda populyar ədəbiyyatlar onun üç sahəyə ayrılmasına imkan verir.

Birinci sahə qadın və kişi psixologiyası haqqında məlumat verən, qadın və kişi münasibətlərindəki mürəkkəb problemlərin həlli üçün ibtidai tövsiyələr verən çox sayda populyar nəşri əhatə edir. İkinci istiqamət kişi və qadınlar üçün çoxsaylı psixoloji ekspedisiyaları bir araya gətirir. Üçüncü sahə kişilərin və qadınların fərdi böyüməl追ərinə, öz inkişaflarına, özlərini realizə etmələrinə, peşə və ailə sahələrinə müdaxilə edən cinsi stereotipləri anlamaqda kömək etməyə yönəlmiş çox kiçik bir hissəsini əhatə edir.

Son dövrlərdə gender tədqiqatları ABŞ və Qərbi Avropa, Afrika, Asiya, Şərqi Avropa ölkələrində qəbul olunmuşdur. Postsovet məkanında isə gender psixologiyası 90-cı illərdə inkişaf etməyə başladı.

Bildiyimiz kimi, Azərbaycanda 10 ildən çoxdur gender tədqiqatları aparılır. Respublikamızda gender tədqiqatlarının tətbiqi çox vacibdir. Gender tədqiqatlarını inkişaf etdirmək işi yalnız elmi-nəzəri xarakter daşıya bilməzdi. Hər hansı uğura nail olmaq üçün tədqiqatlar aparılmalı, təhsillə, təşkilat və ictimaiyyətlə bağlı fəaliyyəti birləşdirən proqram işləyib hazırlamaq lazım idi.

**Muradova Nigar Hadi qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrası*
*muradovanigar983@gmail.com*

# ÜNSİYYƏTDƏ GENDER FƏRQLƏRİ

***Açar sözlər:*** *ünsiyyət, qadın, xüsusiyyət, problem, münaqişə*

Bütün insanlar təkrarsızdır və özünəməxsus fərdi xüsusiyyətlərə sahibdirlər. Cəmiyyətdə bir-birinin eyni olan iki insan tapmaq mümkün deyildir. Əsas fərqlərdən biri də kişi və qadınlar arasında olan cinsi fərqlərdir. Bu fərqlər yalnız cinsin fərqləndirici xarici əlamətləri deyil, eyni zamanda onların daxili fərqlərini də özündə ehtiva edir.

Kişilər və qadınlar arasındakı fərqlərə həsr olunmuş çoxsaylı elmi tədqiqatlarda bu iki cins arasındakı fərqlərin onların qavrayış, məntiq və intuisiyalarında, ətrafdakı insanlarla ünsiyyət və münasibətlərində, tələbatlarında, xarakter və temperament xüsusiyyətlərində olduğu öz əksini tapmışdır.

Ünsiyyətdə gender fərqlərinin öyrənilməsində ilk təşəbbüs XX əsrin 30-cu illərinə təsadüf edir. Ünsiyyətdə qadınlar və kişilər bir-birindən fərqli olurlar. Bu onların həm məlumatları bölüşməsində, həm qarşısındakı insanı dinləməsində, həm qərar verməsində, həm də problemlərə və münaqişələrə yanaşma baxımında özünü göstərir. Qadınlar məlumatları münasibət qurmaq üçün bölüşürlər. Kişilər isə məlumatları mütəxəssis olduqlarını göstərmək məqsədilə bölüşürlər. Kişilər bölüşməyi öz güclərini artırmaq üçün sevirlər. Qadınlar isə bunu başqalarının da məlumatlanması üçün fürsət sayarlar. Tarazlığı quraraq digərləriylə yaxınlaşarlar. Bəzən qarşısındakının sözünü kəsərək danışmaq növbəsinin onlara çatmasına çalışarlar.

Daha çox qadınlar qarşılarındakı insana onun “həyat təcrübəsini və gücünü” anlamaq üçün qulaq asarlar. Kişilər isə problemi həll etmək üçün. Qadın və kişilərin bu mövzuda olan münasibət və hadisələrə yanaşması fərqlidir. Qadınların mövzudan asılı olmayaraq qarşılarındakı insanı onu başa düşmək üçün dinləyir, kişilər isə mövcud problemləri həll etmək üçün. Bu səbəbdən bir-birlərini diqqətlə dinləmirlər. Kişi və qadının qarşısındakı insanı nə dərəcədə dinlədiyi onun yanaşma şəklindən və maraq dairəsindən asılıdır. Münasibətləri canlı tutmağın tək yolu qadın və kişilərin dinləmə bacarıqlarını inkişaf etdirmələridir.

Qadınlar məlumatlanmaq və uzlaşmaq axtarışında olurlar. Kişilər isə təktərəfli qərarlar verməyə meyillidirlər. Qərar qəbul edərkən onların fikirləri nəzərə alındıqda qadınlar daha rahat davranırlar.

Qadınlar “Bu haqda nə düşünürsən?”, “Səncə, münasibətimiz hara gedir?” və bu kimi suallar verərkən qarışıq siqnallar göndərirlər. Qadınlar bu suallara cavab və təklif istəyərkən, kişilər bunu zəiflik, mühakimə, inam əskikliyi olaraq qavrayarlar.

Qadınlar kişilərdən fərqli olaraq qərar və dəyişikliklərlə bağlı qarşı tərəfdən məsləhət gözləyərlər. Əks halda isə özlərini tənha, alçaldılmış, qiymətsiz hiss edərlər. Qadınlar eyni zamanda ortaq məxrəcə gəlmək məsələsində kişilərə nəzərən daha istəklidirlər və fikir uyğunsuzluğunu münasibətlərinə daha çox təhlükə yaratdığını düşünərlər. Kişilər isə əksinə olaraq müzakirəyə və qarşılarındakıların fikirləri ilə razılaşmamağa daha çox meyillidirlər. Məsələn, “güc” müstəvisinə gətirməyə çalışırlar və çox vaxt da belə davranırlar. Səbəbi nə olursa-olsun, qarşıdurma zamanı kişilər özlərini daha yaxşı hiss edirlər. Qadınlar isə qarşıdurmaya getməyin çətin olduğunu düşünərək bundan qaçırlar. Ümumiyyətlə kişilər onları dinləyən, təsdiqləyən və həsrətlə müşahidə edən qadınları çox bəyənirlər. Ta qədimdən qadınlar hər zaman yaxşı dinləyici olurlar. Kişilər beyinlərinin sol yarımkürəsini işlətməyə meyilli olduqları halda qadınlarda beyinin hər iki hissəsi eyni vaxtda işləyə bilir. Bu isə öz növbəsində kişilərin problemlərə daha praktik, qadınların isə daha duyğusal yanaşmasına gətirib çıxardır.

Ünsiyyətin mənası sizin nə danışdığınızda yox, qarşınızdakının nə anladığındadır. Çünki ünsiyyət bilgi və anlayışın bir yerdən başqa bir yerə keçməsi mərhələsidir. Qadın və kişi münasibətlərinin təməlində də ünsiyyət dayanır. Ünsiyyət münasibətlərin səviyyəsinə və

gələcəyinə təsir edən təməl bir faktordur. O, fərdi səviyyədə insanın qarşısındakı ilə bütünləşməsini, sevgi və hörməti, "biz" anlayışını və bu münasibətin davam edib-etməyəcəyini müəyyən edir.

**Məmmədova Könül Allahverdi qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*
*mmmdovakonul391@gmail.com*

## GƏNCLİK YAŞINDA ŞƏXSİYYƏTİN İNKİŞAFI

***Açar sözlər:*** *gənclik, əxlaq, şəxsiyyət, şagird, keyfiyyət*

Gənclik yaşında – gənclərin bu çılğın, coşqun, hərtərəfli inkişafı dövründə onlar bir-birinə qarşılıqlı təsir edir, bir-birini qavrayır, dərk edir, eyni zamanda ünsiyyət dairəsi daha da genişlənir, ailə, valideyn asılılığından müstəqilliyə, özünəxidmətə, özünüidarəyə keçir. Bunlar gənclərdə sosial keyfiyyətlərin formalaşmasını sürətləndirir.

Gənclik çağında şəxsiyyətin bir sıra sosial-psixoloji keyfiyyətləri, xüsusilə ideallıq, əxlaqi saflıq, mənəvi zənginlik, fəallıq, işdə prinsipial olmaq, sözlə əməlin uyğunluğu, məqsəd aydınlığı və s. kimi keyfiyyətlər daha çox nəzərə çarpır və sürətlə formalaşır. Eyni zamanda onlar ideya, əqidə uğrunda mübarizəyə girişir, dünyagörüşlərini müdafiə edirlər.

Gənclik formalaşdıqca məqsədi tam dərk edir və ona nail olmağa cəhd göstərir, bu da şəxsiyyətin kamilləşməsinə təsirsiz qalmır. Əlbəttə, bu zaman şagirdə qayğı göstərmək, onu istiqamətləndirmək, onun tərbiyəsi ilə ciddi məşğul olmaq daha vacib məsələlərdəndir.

Gənclik dövründə şəxsiyyəti səciyyələndirən əsas sosial keyfiyyətlərdən biri də əxlaqi saflıqdır. Əxlaqi saflıq gənclərin şəxsiyyətini yalnız öz işinə, əməlinə görə yox, həm də insanlara münasibətinə, qayğıkeşliyinə, həssaslığına görə səciyyələndirir. Beləliklə, insanlara münasibətin təşəkkülü gənclərin şəxsiyyətinin əxlaqi saflığını müəyyən edən əsas meyardır. Əxlaqi saflıq şagirdlərin humanizmində, məsuliyyətində, qrupa münasibətində özünü büruzə verir və məktəbli şəxsiyyətini xarakterizə edərək, bir növ, onu idarə edən keyfiyyətə çevrilir.

Bu dövrdə gənclərdə təşəkkül tapıb formalaşan sosial keyfiyyətlərdən biri də mənəvi zənginlikdir. Sosial-psixoloji mahiyyəti olan mənəvi zənginlik hərtərəfli, ahəngdar inkişaf etmiş gəncin mühüm xüsusiyyətidir. Məktəbli şəxsiyyəti mənəvi cəhətdən zənginləşərkən həm də onlarda biliklərə, elmə, incəsənətə yiyələnmək üçün tələbat və maraq əmələ gəlir. Şagirdlər təlim-tərbiyənin vəhdəti prosesində incəsənətə və təbiət elmlərinə bələd olur, müstəqil öyrənməyə, bilikləri dərindən mənimsəməyə başlayır. Mənəvi zənginlik şagirdlərdə yaradıcılıq qabiliyyətini də inkişaf etdirir.

Gənclərdə formalaşan və tərbiyə olunmağa ehtiyac hiss edilən keyfiyyətlərdən biri də şəxsiyyətin vahidliyi, inteqrasiya xassəsidir. Vahidlik, bütövlük gəncləri şəxsiyyət nöqteyi-nəzərindən səciyyələndırir. Sözü ilə işi arasında vahidlik şagirdlərdə ikiüzlülük, tərəddüd halları olunur, onlar söz verdiyi, öhdəsinə götürdüyü işi mütləq yerinə yetirmək əzmində olurlar.

Gənclərin mühüm xüsusiyyətlərindən biri onların fəallığıdır. Fəallıq inteqral xassə olub şəxsiyyətin ideallığında, əxlaqi saflığında, mənəvi zənginliyində, münasibətlər sistemində ifadə olunur. Fəal şagird məhsuldar, yaradıcı fəaliyyət göstərir, özünün işgüzarlığı, energiyası, qüvvə və qabiliyyəti ilə fərqlənir.

Gəncləri səciyyələndirən mühüm sosial keyfiyyətlərdən biri də orijinallıqdır. Belə keyfiyyət şəxsi məna kəsb etdikdə şagird özünün davranışında, həyati məsələlərin həllində özünəməxsus xüsusiyyətləri nümayiş etdirir. Orijinallığa yiyələnmiş şagirdlərin özünəməxsus həyat yolu, amalı olur, onlarda imkan və qabiliyyət sürətlə təşəkkül tapır. Məktəbdə tədris olunan humanitar fənlərin (tarix, ədəbiyyat və s.) şagirdlərin sosial keyfiyyətlərinin formalaşmasında, mənimsədikləri biliklərin möhkəmləndirilməsində böyük rolu vardır. Belə ki, ayrı-ayrı bilik sahələrinə yiyələnib onları praktikada tətbiq edən gəncdə bu və ya digər yeni keyfiyyətlər tərbiyə olunur. Xüsusilə

humanitar fənlərdə ayrı-ayrı mövzularla bağlı qəhrəmanlıq səhnələri, orada təsvir olunan şəxslərin nümunəvi fəaliyyəti gənclər üçün məktəb olur.

Gənclərin sosial-psixoloji keyfiyyətlərinin formalaşmasında yaş və yaşarası birləşmə imkanları, məqsədləri, amalları, yaş və fərdi xüsusiyyətləri, bilik, bacarıq səviyyəsi, idrak imkanları müəyyən rol oynayır.

Şagird qruplarının fəallığında yaşlıların iştirakının əhəmiyyəti də vardır. Belə ki, məktəbli həyatında iştirak edən yaşlı özünün nümunəsi, onlara təsiri, nəzarət və məsləhəti sayəsində qruplarda aparılan tərbiyəvi işi səmərələşdirir, gənclərin formalaşmasını sürətləndirir.

Sosial keyfiyyətlərin formalaşmasında siyasi-mədəni işlərin, kütləvi tədbirlərin, texniki vasitələrin tərbiyəedici təsirləri, imkanları daha çoxdur. Belə ki, gənclər mədəni-kütləvi informasiyaların vasitəsilə dünyada baş verən siyasi hadisələrə, dövrü mətbuata maraq göstərir, qəzet, jurnal materiallarının, televiziya, radio verilişlərinin məzmununa daha çox diqqət yetirirlər və aldıqları məlumatlar onların formalaşma işində mühüm rol oynayır. Amma bəzən kütləvi informasiyalar əxlaqi normalara zidd, etik qaydaları gözləməyən məzmuna malik olur. Gəncləri neqativ hallardan qorumaq məqsədilə televiziya, radio elə məlumatlar verməlidi ki, onlar yetişməkdə olan nəsildə müsbət keyfiyyətləri tərbiyə edib formalaşdırsın.

Beləliklə, qeyd olunanlardan aydındır ki, siyasi-kütləvi, mədəni tədbirlər şəxsiyyətlərarası münasibətləri, ünsiyyəti formalaşdırmaq işində əsas rol oynayır. Lakin gənclər kütləvi məlumat və dəbə bəzən kor-koranə meyil göstərir, onun təsirinə düşürlər. Yadda saxlamaq lazımdır ki, dəb keçici, birtərəfli xarakter daşıyır, ona uymaq, moda əsiri olmaq tərbiyə işinə mənfi təsir edir.

**Səlimov Mahir Məhəmmədəli oğlu**
*ADPU-nun Ağcabədi filialının dosenti, fəls.ü.f.d.*
*mahir.0707@mail.ru*

## CİNSLƏRİN BƏRABƏRLİYİ PROBLEMİNƏ KOMPLEKS YANAŞMA KONSEPSİYASI

***Açar sözlər:*** *gender, cəmiyyət, zorakıllıq, cinslər, konsepsiya, təhlil*

Cəmiyyətdə və ailədə qadınlara qarşı zorakılıq əməlləri özünün mürəkkəbliyi ilə səciyyələnir. Söhbət açdığımız məsələnin bu səviyyədə büruzə verməsi ona dəlalət edir ki, qadınlara qarşı zorakılıq problemi bir qanun ya da bir qurumun səyi nəticəsində həll olunmur, onunla mübarizə aparmaq üçün praktiki cəhətdən bütün səviyyələrdə humanist qüvvələrin səfərbərliyinə, adekvat hüquqi və metodoloji zəminlər sisteminə ehtiyac var.

Son zamanlar dünyanın bir sıra inkişaf etmiş ölkələrində geniş istifadə olunan gender təhlili metodoloji cəhətdən yenidir və artıq qadın problemlərinin öyrənilməsi sahəsində aparıcı yerlərdən birini tutmaqdadır.

Gender təhlili cəmiyyət və dövlətin bütün sahələrində mövcud və ya təklif olunan proqramlar, qanunvericilik, siyasi dövlət kursu vasitəsilə qadınlara və kişilərə göstərilən təsirin qiymətləndirilməsi prosesidir. Gender təhlili, keyfiyyətli informasiyanın toplanması iqtisadiyyatda və cəmiyyətdə gender tendensiyalarının dərk edilməsi, gündəlik işdə potensial problemlərin və onların həlli yollarının araşdırılması üçün istifadə olunur. Eyni zamanda o, sosial prosesləri anlamaq üçün vasitədir. Sosial təsirin təhlili (sosial ekspertiza) mədaxil və məxaricin qiymətləndirilməsindən sonra nəzərdən keçirilməli olan sadə “artım” deyil, bütün həyat sferalarında siyasi kursun hər bir davamlı analizinin ayrılmaz komponentlərini özündə cəmləşdirən hadisədir. O, dövlət fəaliyyətinin işlənməsi və reallaşması üzrə siyasi prosesin bütöv silsiləsini başdan sona qədər əhatə edir. Gender təhlilinin mahiyyəti – tərəflərdən birinin (qadın və kişi) mövqeyinin önə çəkilməsi və ya zəiflədilməsinə səbəb olmaq deyil, hər iki cins üçün istənilən nəticənin tam açılmasıdır. Gender təhlili müxtəlif faktorların (iqtisadi, siyasi, sosial və s.) qadın və kişilərə olan təsirini müəyyənləşdirmək və müqayisə etməkdən ibarətdir. Gender təhlili

cinsindən asılı olmayaraq hər bir insanın siyasi kursların, proqramların və qanunvericiliyin təsirinə eyni dərəcədə həssas olması fikrini şübhə altında qoyur. Gender təhlilinin təcrübədə tətbiq edilməsinin müxtəlif üsulları vardır. BMT, Beynəlxalq Əmək Təşkilatı, Dünya Bankı beynəlxalq səviyyədə gender təhlili üzrə vəsait hazırlayıb və ya gender təhlili haqqında bəyanat nəşr etdiriblər.

Burada Qərbi Avropada və Kanadada cinslərin bərabərliyi probleminə kompleks yanaşma kimi tanınan və qadınlara qarşı zorakılığın dərindən öyrənilməsi məqsədilə aparılan tədqiqatların ayrılmaz hissəsi olan gender təhlilinin bir sıra aspektləri barədə söz açmaq istərdik.

İlk dəfə kompleks yanaşma konsepsiyası barəsində 1985-ci ildə Nayrobidə keçirilən konfransda danışılmış və bu termin sonradan həmin tədbir çərçivəsində hazırlanmış müxtəlif beynəlxalq sənədlərdə özünə yer almışdır. Kompleks yanaşma ideyasının əsas qayəsini cinslərin bərabərliyi prinsipi təşkil edir.

Məlumdur ki, cəmiyyətdə həmişə qadın və kişi maraqlarını özündə ehtiva edən ictimai münasibətlər mövcuddur. Müxtəlif səviyyələrdə müxtəlif cür təzahür edən həmin maraqların təmin olunması bilavasitə cəmiyyətdə gedən proseslərdən asılıdır. Cəmiyyətdə cərəyan edən və eyni zamanda mürəkkəbliyi ilə səciyyələnən hadisələr cinslərə müxtəlif cür təsir göstərir və fərqli nəticələrə gətirib çıxarır. Əhalinin yalnız bir hissəsinin maraqlarını müdafiə edən və onlara əsaslanan qanunlar və qərarlar, dövlət proqramları və fəaliyyət planları ümumi vəziyyətə mənfi təsir göstərərək, cəmiyyətdə disharmoniyaya, bəlkə də daha geniş vüsət alsa, xaosa səbəb olur.

Cəmiyyətdə mövcud olan ehtiyatlara qadının çıxışının öyrənilməsi, həmin çıxışın təmin olunması üçün effektiv mexanizmin yaradılması və inkişaf etdirilməsi, gender təhlili vasitəsi ilə həyata keçirilə bilən fəaliyyətdir. Gender təhlinin aparılması cəmiyyətdə gedən inkişaf proseslərində qadınların iştirakına imkan verməyən maneələrin aşkar olunması üçün yaxşı vasitədir. Praktiki cəhətdən gender təhlili sadəcə texnikaların toplusu deyil. Əslində o, qadınla kişi münasibətlərini müəyyən edən amillərin və onların proqram və layihələrə təsirinin daimi qeydiyyatını aparan yanaşmadır. Bunun üçün istifadə olunan vasitələr ehtiyatlardan, əməkdaşların təcrübəsindən və işin kontekstindən asılıdır. Buraya müşahidə və müsahibələr, fokus-qruplarda müzakirələr və s. daxildir. Həmin vasitələrin istifadəsi zamanı rəhbər tutulan əsas prinsiplər qadınlar tərəfindən mövqelərini bildirmək imkanının verilməsi, çətinliklərinin və ehtiyaclarının müəyyən olunması, onların kişilərlə münasibətlərinin və cəmiyyətdəki mövqelərinin təhlil edilməsi kimi məsələlər üzərində köklənir. Məsələyə yalnız bu tərzdə yanaşıldıqda, iştiraketmə prosesinə qadınların ehtiyac və tələblərinin ödənilməsi məqsədilə həyata keçirilən fəaliyyətin effektivliyini müəyyən etmək üçün proqramın icra, monitorinq və qiymətləndirmə mərhələsində geniş istifadə olunmalıdır.

Daha geniş mənada, gender təhlili tədqiq etdiyimiz sahədə həqiqətə uyğun məlumatın toplanılması və bu minvalla həyata keçirilən sosial siyasətin kişi və qadınlara təsirini aşkara çıxarmaq yolu ilə real mənzərəni yaratmağa qadir olan vasitə deməkdir. Digər sosial kontekstdən yanaşsaq, sosial gender təhlili interaktiv üsulların (insanların iştirakı) geniş istifadəsi ilə sosial fəlsəfə və genderin təhlilini ehtiva edən cəhddir. Burada iştirak deyəndə, problemin təhlili, qərarların qəbul olunması, ehtiyatlar üzərində nəzarətin tətbiqi prosesinə əhalinin daha zəif müdafiə olunan təbəqəsinin cəlb olunması və bu yolla onların cəmiyyət üçün vacib olduqları hissinin təlqin edilməsi vasitəsilə özlərinə inamın artırılması nəzərdə tutulur. Gender təhlili problemli qrupların müəyyən olunması, problemə cəlbolunma dərəcəsinə görə qrupdaxili bölünmə, müxtəlif sosial qruplar aspektində problemli vəziyyətin idarə olunma amillərinin müəyyən olunması və təhlili, problemin həlli üçün zəruri olan institusional ölçülərin və strategiyanın, o cümlədən müvafiq ehtiyatların mövcudluğunun müəyyən edilməsi deməkdir. Zənnimizcə, yuxarıda sadalanan dörd mərhələ çərçivəsində qoyulan vəzifələr yerinə yetirildikdən sonra gender təhlilini baş tutmuş hesab etmək olar.

**Rəhimova Anaxanım Qədir qızı**
*Bakı Slavyan Universiteti*
*anaxanimrhimova805@gmail.com*

## İNSAN PSİXOLOGİYASI FONUNDA GENDER MÖVZUSU

Gender-qadınlıq və kişiliyi fərqləndirən xüsusiyyətlər toplusu, qadınlar və kişilərin öz cinslərinə xas olan davranışlarına və fəaliyyətlərinə, onlara aid olan sosial gözləntilərə deyilir.

Gender psixologiyası – ümumi və diferensial psixologiyanın əsasında formalaşaraq, cinslər arasındakı psixoloji fərqlərin aşkara çıxarılması və onların səbəbinin axtarışını ehtiva edir.

Psixologiyada gender problemləri mövzusunda günümüzə qədərki on il ərzində, ümumilikdə isə qadın azadlığının təmsilindən, yəni XX əsrin əvvəllərindən başlayaraq gender və gender bərabərliyi anlayışına münasibət, sərt çıxışlar və yanaşmaların cəmiyyətə sirayət etməsi üçün lazım olan siyasətlərin həyata keçirilməsi hələ də arzu olunan səviyyədə deyil. Buna görə də, gender problemlərinin həlli yolunda atılan hər addımda lazımi bilik, bacarıq və zamanın imkanlarına istinad etmək vacibdi. Diqqətinizi psixoloji yöndən gender problemlərində çox rast gəldiyimiz bir yanılqıya çəkirəm: Sağ beyin, Sol beyin.

Heç bir insan bərabər deyil, qaldı ki, cinslərin bərabər olması, ümumiyyətlə düzgün fikir deyil. Hər kəs qanunlar qarşısında bərabərdir. Bu, qanunlar qarşısında belədir, belə olmalıdır. Lakin bizim psixoloji yanaşmalarımız və düşüncələrimiz bununla uyuşmur. Hər biri ayrı dərin və üzərinə çoxca fikir müxtəlifliyi, müqayisə və araşdırma tələb edən məsələlərdir.

Qadınlar sağ beyinlidir – bunu niyə deyirik, çünki qadınların cəmiyyətdəki rollarında həyata keçirdiyi bacarıqlarını daha çox sağ beynin idarə etdiyi bacarıqlar olaraq qiymətləndiririk. Belə düşünməyimizin səbəbi qadınların daha çox fiziki və mexaniki işlərə nisbətən sənət, ədəbiyyat, dizayn ilhamlandırma və xırdalıqlara diqqət yetirilməsi lazım olan bir çox yerlərdə, sahələrdə var olmasından qaynaqlanır. Lakin görürük ki, polis, mühəndis, riyaziyyatçı, texnologiya işləri ilə az sayda olsa da, qadınların özünü göstərdiyi sahələr də var. Bəs bunlar sol beynin fəaliyyəti və idarə etdiyi bacarıqlar deyilmi?

Belə məsələlərdə şirkətlər və daha bir neçə sahə üzrə müəssisələr "Biz qadın-kişi bərabərliyinə önəm veririk, həmçinin işçilərimizin kəmiyyətində buna diqqət yetiririk". Baxdığımızda, düzdür, kəmiyyət fərqi böyük deyil, qadınlarda da çalışma şansı haradasa kişilərlə bərabər dəyərləndirilib. Lakin qadınların işçi qüvvəsi olaraq çalışması hansı vəzifələrdə və mövqelərdədir? Təbii ki, təmizlikçilər və sanitar sahəsində çalışanların çoxu qadınlar, idarəetmədə isə bu rol daha çox, hətta gözlə görülə biləcək fərqlə, kişilərə məxsusdur. Artıq cəmiyyətdə belə bir fikir yaranıb, bu çox yanlışdır. Məsələn, "Mən müdirimizlə görüşə getdim", "Demək, müdir bəylə artıq görüşmüsən", "Xeyr bizim müdirimiz xanımdır". Bəli, demək, bizə şüuraltı olaraq da bu öyrədilib ki, yüksək vəzifə və idarəetmə vəzifələrində kişilər olur və olmalıdır. Yanılqı bizim psixologiyamızda qəbul edilmiş və etdirilmiş fikirlərdir.

Kişilər sol beyinlidir. Kişilərin cəmiyyətdəki rollarından yola çıxaraq sahib olduqları bacarıqları sol beynin idarə etdiyi bacarıqlar olaraq dəyərləndiririk. Hansı ki, mühəndislik, texnologiya, riyaziyyat və s. kimi mexaniki və ya fiziki daha çox düz, qısa və nəticəyönümlü işlərlə məşğul olduqları üçün belə qənaətə gəlirik. Lakin fərqindəyik ki, ədəbiyyat, abstrakt və s. mövzularla məşğul olan kişilər də vardır. Bəs bunlar sağ beynin bacarıqları deyilmi?

Mütəxəssislərin araşdırmalarına görə müəyyən olunmuşdur ki, iş görərkən kişilərin beyinlərində hər iki beyin yarımkürəsi öz-özündə əlaqəli şəkildə işləyir. Sağ yarımkürədəki neyronlar özləri qarşılıqlı, sol yarımkürədəki neyronlar da özləri qarşılıqlı çalışırlar. Qadın beyninin fəaliyyətinə baxdıqda isə, sağ və sol beyindəki neyronların tərəflərin bir-birinə əlaqəsi ilə çalışdığını görürük.Yəni qarşılıqlı olaraq sağ beyin neyronları sol beynin neyronları ilə qarışıq şəkildə əlaqədə olur. Belə nəticəyə gəlinir ki, kişilər nəticəyönümlü düz və qısa yöntəmlərlə səthi olaraq, qadınlar isə daha mürəkkəb, diqqətli, hər bir nöqtəni ayrıca nəzərdən keçirərək problemi həll edirlər. Yəni bir fəaliyyət zamanı hər iki cinsdə də hər iki beyin eyni anda işləyir. Bacarıqların

formalaşması isə insanın inkişafı mərhələsində cəmiyyətdəki rolları baxımından biri digərindən fərqli formalaşıb. Sırf bu səbəbdəndir ki, hazırda bir çox insan öz potensialını yerindəcə istifadə edə bilmir. Qadındır deyə polisliyə seçilmək faizi azdır, mühəndisliyə getmək üçün şansı ailəsi tərəfindən alınır. Niyə? Çünki o, bir qadındır və müəllimlik ona ən uyğun peşə sayılır. Həmçinin kişidir deyə müəllim olmaqda özünü daha yaxşı göstərə biləcək potensialı polislikdə yaxud kompüter mühəndisliyində xərclənir. Səbəb? Çünki insanlar artıq mövcud sistemdəki rolların belə paylanmasını psixoloji cəhətdən qəbul edib və "dəyişməz qanun" kimi sabitləyiblər.

Şəxsiyyət vəsiqəsindəki fotoşəklimizin çəkilməsi prosessində qadınların baş örtüsünün açdırılması, lakin kişilərin saqqalına toxunulmaması da gender problemlərinin bir növü kimi sayıla bilər. Əgər kişilərə dinlərində rahatlıq yaradılırsa, qadınlara da həmçinn bu şərait eyni səviyyədə yaradılmalıdır.

Digər bir nümunə: uşaq vaxtlarımızdan bizə tətbiq olunan rolların üzərimizə geyindirilməsi, beynimizə yeridilməsi bu dövrdən başlayır. Həmin bu həssas dövrdə bizə danışılan nağıllar, hekayələr və hazırkı çizgi filmləri və s. misal göstərmək olar. Bu hekayələrdə şahzadənin bir oğlan tərəfindən öpülərək oyadılması əslində uşaqlarda şüuraltına "Mən birisinin izni, icazəsi olmadan ona fiziki şəkildə müdaxilə edə bilərəm" düşüncəsi yaranır. Həmçinin "Rapunzel"də saçları ilə oğlanı qalanın yuxarısına çıxarıb onu qaladan qurtarmasını istəməsi və s. kimi. Burada hər zaman qurban rolu qızlara, qəhrəman rolu isə oğlanlara verilir.

Dəyişməz və qəlibləşdirilmiş bir digər məsələ də kişilərin heç bir zaman çarəsiz, həssas və ya qorxan birisi olmamalı sayılmasıdır. Kişilərin üzərindəki qurtarıcı, güclü və qəhrəman olmaq basqısı bir yükdür. Əgər nədənsə çətinlik çəkirlərsə, bunun üçün əsla yardım istəmirlər, bunu etsələr, digərləri tərəfindən xoş qarşılanmaz və zəif olduqları düşünülər. Kişilər də bərabərlikdən yararlana bilmirlər. Kişilər də, qadınlar da həssas olmaq məsələsində azad olmalıdırlar. Kişilər hər zaman qəbul edilmək üçün aqressiv olmasalar, qadınlar da itaət etmək üçün məcbur olmazlar. Kişilər idarə etmək üçün məcbur olmasalar, qadınlar da idarə edilmək məcburiyyətində qalmazlar.

"Hər güclü bir kişinin arxasında güclü bir qadın vardır" məşhur ifadəsini “Hər güclü bir kişinin yanında güclü bir qadın vardır” ifadəsi ilə dəyişsək, daha doğru olardı. Çünki dediklərimiz və eşitdiklərimiz birbaşa psixologiyamıza təsir edir. Qadın və kişi hər biri ayrılıqda möhtəşəm varlıqlardır və onlar bir-birlərini tamamlayırlar.

## ƏDƏBİYYAT


1. AçıkBeyin, SoruYorum, Erkekler Sol, Kadınlar Sağ beyinlidir https://www.youtube.com/watch?v=_1zfD0-qcQ4
2. BaBaLa TV/Yansıma#9, Kadın ve Erkek eşitliği Tartışması https://www.youtube.com/watch?v=j9T9Q_fZpoY
3. BMT, HeForShe Campaign, Emma Watson https://www.youtube.com/watch?v=gkjW9PZBRfk
4. Caterina Mayer, Cinsiyet Eşitliği Dünyayı Nasıl Kurtaracak, United States: İletişim Yayınları, Ağustos 2019, 360 səh.
5. Cordelia Fine, Delusions of Gender, United States: W.W.Norton & Company Publishing, August 8.2011
6. Habertürk TV, Prof.Dr.Sinan Canan, Kadın ve Erkek beyni nasıl çalışır https://www.youtube.com/watch?v=HR4uLr-tv74
7. Haberler, Toplumsal Cinsiyet Eşitliği Uzm.Aysun Töngör Katmer https://www.youtube.com/watch?v=KUXH-cnPb_0
8. Henri Morel, Gender Equality Past, Present and Future Perspectives, Latin America: Nova Sience Publishing, August 11.2021, 228 səh.
9. Hilary M. Lips, Toplumsal Cinsiyet, Türkiye: KitapYurdu Yayıncılık ve İletişim A.Ş., Yanvar 29.2021, 368 s.
10. Feryal Sayılıgül, Tolumsal Cinsiyet Tartışmaları, Türkiye: KitapYurdu Yayınları ve İletişim A.Ş., Mart 23.2022, 328 s.
11. Nitasha Ramparsad, Gender Equality at Work, South Afrika: KR Publishing, Sentyabr 2.2019

12. Prof.Dr.Nevzat Tarhan, Psikolojik farklılıklarıyla Kadın ve Erkek https://www.youtube.com/watch?v=ble-RRtYxuw
13. Vicki Heigeson, Psychology of Gender, USA: Routledge Publishing, Mart 17.2020, 734 s.

## ŞƏXSİYYƏT VƏ ETNOPSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

**Əzizov Qulam Qəribəli oğlu**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının dosenti*
*azizov.qulam@gmail.com*

# XIX ƏSR MAARİFÇİLƏRİNİN (A.A.BAKIXANOV, M.F.AXUNDOV) ÖZÜNÜDƏRK VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ HAQQINDA İDEYALARI

***Açar sözlər:*** *milli mənlik şüuru, milli özünüdərk, özünütəkmilləşdirmə, özünüqiymətləndirmə, özünüduyum*

Azərbaycan maarifçilərinin irsində yeni nəslin milli şüur, milli xarakter, milli dilin inkişafı problemi, şəxsiyyət konsepsiyası, tarixi keçmişi öyrənməyə tələbatın artması, milli özünüdərketmə, ailə və qadına münasibət və s. əsrin qlobal aktual məsələləri geniş əks olunmuşdur.

Azərbaycan maarifçiliyi sistemli psixoloji konsepsiya ilə səciyyələnir. Bu konsepsiya əsasən iki istiqamətdə təzahür edir. Bir tərəfdən həyati müşahidələri nəticəsində şəxsiyyətə məxsus xüsusiyyələrin adekvatlıq dərəcəsini müəyyənləşdirib əsərlərində əks etdirmiş, digər tərəfdən isə əsərlərində elmi psixoloji ideyaları, məfhum və təsəvvürləri aydınlaşdırmışlar.

Azərbaycan maarifçiliyində şəxsiyyətə onun özünüdərkinin formalaşmasına dair əsaslı fikirlər ədəbiyyatımızın dahiləri olan A.A.Bakıxanova və M.F.Axundova məxsusdur. Onların fikirləri bugünkü dövr üçün də aktualdır.

A.A.Bakıxanov yalnız ayrıca bir fərdin deyil, bütün insanların xilas yolunu maariflənməkdə, avamlıqdan yaxa qurtarmaqda görür. Çünki müəllifin fikrincə, “Avam adamların idrak və mərifətlərinin yüksək dərəcəsi təqliddir, onlar heç bir halda təqliddən kənara çıxmağa qadir deyillər. Etdikləri hər cür tədqiqat və təfəkkür zirəklikdən deyil, adət üzündəndir”.

A.A.Bakıxanov insanlar arasında psixoloji uyuşmazlığa təsir göstərən amillər içərisində mənəvi amilləri ön plana çəkir. Məsələn, yaxşı adamla pis adamın və ədalətli adamla zülümkar adamın arasında məhəbbət əlaqələri ola bilməz. Habelə ağıllının dəli ilə və insaflı adamın alçaq adamla dostluğu tutmaz.

A.A.Bakıxanovun yaradıcılığında insana şəxsi ləyaqətlərinə, xüsusiyyət və xarakterinə görə qiymət vermək, maarifçi mütləqiyyət ideyasını müdafiə etmək, vətənpərvərlik, elmə çağırış, şəxsiyyətin inteqral keyfiyyətlərinin formalaşması, əməyin təbliği və s. ideyalar əks olunur.

A.A.Bakıxanova görə, insan özünə elə bir mühit yaratmalıdır ki, orada yüksək tərbiyə ala bilsin, həm əqli, həm də əxlaqi cəhətdən kamilləşə bilsin. A.A.Bakıxanov elmə böyük ictimai qüvvə kimi baxırdı. O, göstərirdi ki, əgər sən elm aləmində lazım olan bilik əldə etsən və özündən sonra gələcək nəsil üçün öz bildiyindən iz qoyub getsən, özünü xoşbəxt adam hesab etmək hüqüqun olar və sən şəxsiyyət kimi kamilləşmiş olaraq dünyadan köçmüş olarsan. Bunun da nəticəsində daima yad ediləcəyinə əmin ola bilərsən.

A.A.Bakıxanov istər ayrıca bir fərdin və ya şəxsiyyətin özünütəkmilləşdirməsində ağıl və idrakın, özünüdərketmə və adekvat qiymətləndirmənin mühüm rol oynadığını xüsusi olaraq qeyd etmişdir. Onun fikrincə, “İnsanın vücudu ruh və cisim üzərində qurulmuşdur. Bunların birindən ağıl, o birindən nəfs doğur. Hər kəs nəfsin müxtəlif yaramaz hərəkət və günahdan ibarət olan istəklərindən çəkinərək ağılla maarifin zövqündən qida və qüvvət verərsə, özünü, biz insanı gözəl surətdə xəlq etdik dərəcəsinə çatdıraraq allahın sifətlərini özündə əks etdirər və tükənməz feyzə yetişər. Şəhvətə qapılaraq nəfsinə qüvvət verən adamın heyvaniyyəti ruhaniyyətə qalib gələrək onu “ən alçaq dərəcə” məqamına sürükləyəcəkdir”.

A.A.Bakıxanov bütün fəaliyyəti boyu xalqın istəklərinin istifadəçisi kimi çıxış edərək xalqın taleyi üçün dərin narahatçılıq keçirmişdir. A.Bakıxanov insanları fərdi xüsusiyyətlərinə görə bir-birindən fərqləndirirdi. Hər kəs eyni bir şeyi müxtəlif şəkildə görür. Bir-birinə oxşayan iki adam göstərmək çətindir. Hər bir insanın özünəməxsus xarakteri var və hər kəs hadisələri özünəməxsus

şəkildə dərk edir. Bu barədə A.A.Bakıxanov yazır: "İnsanlar şəkil və simaca bir-birindən fərqli olduqları kimi əxlaqca da müxtəlifdirlər. Dünyada iki nəfər tapılmaz ki, onların əxlaqı bir-birinin eyni olsun, hər kəsin hər işdə ayrı cür rəyi vardır".

M.F.Axundova görə, bəşəriyyətin xoşbəxtliyi və səadəti o vaxt mümkün olacaqdır ki, insan ağlı zindandan xilas olsun və insan ağlı fikir və işlərdə əsas götürülsün. İnsan-şəxsiyyət konsepsiyasında insanın vətənpərvərlik hissinə malik olması, namusluluğu, qeyrətliliyi, ağıllı və elmli olması, öz ideyaları uğrunda fədakarlığa getməsi, sevinc-kədər hissinə malik olması, şənlənməsi, özünü təkmilləşdirməsi M.F.Axundov ideyalarının əsas qayəsini təşkil edir.

M.F.Axundov kələkbaz ruhanilərin, qırmızı saqqal mövhumatçıların hər şeyi Allahın adı ilə bağlayıb, xalqı aldatmalarından və dindən şəxsi mənafeləri üçün istifadə etmələrindən hiddətlənərək yazırdı: "İslam dini ancaq o zaman yaşayıb davam edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar".

Azərbaycan psixoloji fikrində insan, onun azadlığı probleminin qoyuluşu, şəxsiyyətin bir tam kimi formalaşması, dinamik inkişafın təsviri, əxlaqi kamilləşməsi, milli şüurun yetkinləşməsi bütövlükdə M.F.Axundovun adı ilə bağlıdır. M.F.Axundov xalqın milli mənlik şüurunun inkişafı məsələsinə ciddi əhəmiyyət verir, onu xalqın özunudərketməsi üçün əsas hesab edirdi.

M.F.Axundov şəxsiyyətə tam, bütöv halda yanaşır. Elə buna görə də onun fiziki kamilliyi, bədii-estetik duyumunu, sevinc və kədərini, məhəbbət və nifrətini, dərin elmi intellektuallğını vəhdətdə görür və bunları özündə birləşdirənləri şəxsiyyət hesab edirdi.

M.F.Axundovun milli mənlik və milli özünüdərkə yönəlmiş ictimai-siyasi, fəlsəfi, psixoloji ideyaları xalqımızın psixoloji fikir tarixində keyfiyyətcə yeni mərhələni təşkil edir. Onun mütərəqqi ideyaları maarifçiliyin sonrakı inkişafı üçün, eləcə də xalqın özünüdərkində mühüm əhəmiyyət kəsb etmişdir.

Maarifçiliyin komponentlərinin ən yüksək forması, milli şüur, milli özünüdərk, özünüduyum və şəxsiyyət konsepsiyası M.F.Axundovun görüşlərində adekvat təhlil olunmuşdur. Ümumilikdə götürdükdə isə, maarifçilər şəxsiyyət və onun formalaşmasına, fərdin müstəqil özünüdərkinə böyük önəm vermişlər. Həmçinin onlar öz ideyalarını irəli sürərkən milli və beynəlmiləl dəyərlərə arxalanmışlar.

**Rəhimova Qəribə Vahid qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, psixol.ü.f.d.*
*qariba648@mail.ru*

## ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

***Açar sözlər:*** *müasir, gənclər, tərbiyə, şəxsiyyət, təlim, klassik, yaradıcılıq*

Qeyd etmək lazımdır ki, şəxsiyyət haqqında bilik və təcrübələr, şəxsiyyətin məzmun və keyfiyyətləri, idrak xüsusiyyətləri, emosional-iradi cəhətləri fərdi-psixoloji, ədəbi-bədii surətlər, obrazlar vasitəsilə daha dolğun ifadə olunur. Odur ki, bəşəriyyətin çoxəsrlik söz sənəti nümunələrinin psixoloji kontekstdə tədqiqi psixologiya elminin aktual problemlərindən birinə çevrilmişdir. Digər tərəfdən müxtəlif dövrlərdə yaşayıb-yaratmış bədii söz ustaları insan şəxsiyyəti, onun təşəkkülü, məzmunu, mənəvi, sosial, psixoloji keyfiyyətləri haqqında özünəməxsus biliklərə malik olmuş, həmin baxışları ya birbaşa və yaxud dolayı yolla yaratdıqları obrazlarda ifadə etmişlər.

Şəxsiyyət anlayışı müasir psixologiyanın ən mühüm kateqoriyalarından biridir. İnsan sadəcə bioloji varlıq deyil, həm də sosial varlıqdır. O, daim ictimai sistemi səciyyələndirən sosial keyfiyyətlərin məcmu daşıyıcısı kimi çıxış edir. Şəxsiyyətin quruluşu, insanın digər insanlarla əlaqələrinə, cəmiyyətə uyğunlaşmasına, özünüifadə formasına təsir edir. Ona görə də bir insanı şəxsiyyət kimi qiymətləndirərkən onun xasiyyətinə, ya da şəxsiyyətinin quruluşuna diqqət yetirilir.

Şəxsiyyət – bir fərdin bütün marağını, istedadını, danışıq tərzini, xarici görünüşünü və ətrafa uyğunlaşma formasının xüsusiyyətlərini özündə cəmləyən bir termindir.

Şəxsiyyət problemi min illərdir ki, bəşəriyyətin ən ağıllı, müdrik adamlarını düşündürmüş və bu barədə onlar müxtəlif ideyalar irəli sürmüşlər. Görkəmli yazıçı və şairlərin yaradıcılığında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinə aid fikirlər sistemli şəkildə yox, az da olsa, əks olunmuşdur.

Yaşadığımız müasir dövrdə insan amili, şəxsiyyət və onun mahiyyəti, sosial-psixoloji kökləri və s. kimi problemlər xüsusi aktuallıq kəsb edir.

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da müxtəlif dövrlərdə yazıb-yaratmış bədii söz ustaları öz əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri, mənəvi-psixoloji təkamülü, təlim-tərbiyəsi, xarakteri, ağıl və təfəkkürü, iradəsi, hissi, arzu və xəyalı haqqında fikir söyləmişlər. Bu fikir və mülahizələrin öyrənilməsi psixologiyanın ümumi-nəzəri və tarixi problemlərinin yeni ideyalarla zənginləşdirilməsinə təbii ki, çox böyük kömək edir.

Azərbaycanın görkəmli mütəfəkkirləri (N.Tusi, İ.Nəsimi, M.Füzuli, A.A.Bakıxanov və b.) öz əsərlərində bir tərəfdən yaşadıqları dövrün ictimai-sosial hadisələrini bədii obrazlarda təsvir etmiş, digər tərəfdən əsl şəxsiyyətə xas olan psixoloji keyfiyyətləri göstərmişlər. Həmin mütəfəkkirlərin şəxsi nümunəsində də əsl şəxsiyyətə xas olan xarakterik xüsusiyyətləri görmək mümkündür. Mütəfəkkirlərin bədii yaradıcılığı onların bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan ünsiyyət və fəaliyyət sahələrinin öyrənilməsi baxımından da olduqca əhəmiyyətlidir. Bu dəyərli mütəfəkkirlər öz dövrünün ictimai-sosial, siyasi, mədəni, iqtisadi hadisələrinin iştirakçısı olmaqla bərabər, həm öz timsallarında təsvir etdikləri bədii obrazlarda şəxsiyyəti səciyyələndirən xarakterik xüsusiyyətləri böyük ustalıqla açıb göstərə bilmişlər.

Qeyd etmək lazımdır ki, görkəmli tarixi şəxsiyyətlərin (məsələn, N.Tusi, İ.Nəsimi, M.Füzuli, A.A.Bakıxanov və b.) heç biri ayrıca bir psixoloji əsər yazmamışlar. Lakin onların yaratdıqları əsərlərdə yeri gəldikcə təlim-tərbiyəyə, psixologiyaya, pedaqogikaya, fəlsəfəyə aid elə ibrətamiz fikirlər vardır ki, onları seçib, ümumiləşdirib vermək hər bir tədqiqatçının vətəndaşlıq borcudur. Yazıçı və şairlərin, filosofların əsərləri həmin dövrün güzgüsüdür. Şəxsiyyətin sosial-psixoloji, pedaqoji-psixoloji, mənəvi-psixoloji problemlərini, xalqın iztirabarını, adət-ənənələrini, əxlaqını, keçirdiyi hissləri, arzu və xəyallarını, xarakterini, milli ləyaqət və qürurunu öyrənmək üçün bu tarixi mənbələrə müraciət etmək lazımdır. Bu baxımdan Azərbaycan klassiklərinin yaradıcılığı möhtəşəm bir abidədir.

Şəxsiyyətin formalaşmasında xarakterin xüsusilə uşaqlarda iradi və ixtiyari aşılanma nəticəsində dəyişdiyini, valideynlərin, tərbiyəçi və müəllimlərin, o, cümlədən, ictimaiyyətin tərbiyəsi ilə məşğul olan bütün şəxslərin böyük məsuliyyət daşıdıqlarını xüsusi qeyd etmək lazımdır.

Şəxsiyyətin formalaşmasında aktual problemlərdən biri də uşaqların mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmaq, onları düzlüyə, doğruluğa, bir sözlə, vicdanlı olmağa öyrətməkdir.

Gənclik yaş dövründə şəxsiyyətin yeni keyfiyyətləri, xüsusilə də özünü yaxşı adam kimi aparma, özünüdərketmə meylinin daha sürətli inkişafı kimi nəzərə çarpır. Gənclik yaş dövründə mühüm psixoloji fenomen olan özünüdərketmənin inkişafı sayəsində gənc öz şəxsiyyətini, qabiliyyətini, mənəvi keyfiyyətlərini daha yaxşı anlamağa başlayır, qrupda tutduğu yeri, mövqeyi qiymətləndirir, müsbət və mənfi cəhətləri görməyi bacarır, onda "mən" məfhumu daha davamlı sürətə çevrilir. Bu dövrdə oğlan və qızların özlərinə verdiyi qiymət və başqalarının onları qiymətləndirməsi gənclərdə şəxsi ləyaqət, özünəhörmət hissini formalaşdırıb inkişaf etdirir.

Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Lakin bir sıra səbəblər üzündən şəxsiyyətin inkişafı düzgün getmir və ya artıq formalaşmış şəxsiyyətin daxilində xoşagəlməz dəyişikliklər baş verir. Bu səbəblər müxtəlifdir.

Şəxsiyyətin bütün keyfiyyət və xassələri isə ictimai varlığın məhsuludur. Ona görə də normal beynə malik şəxs cəmiyyətin xaricində böyüdülərsə, o, heç vaxt şəxsiyyətə çevrilə bilməz. İnsanın sinir sistemi ətraf aləmi dərk etmək üçün müəyyən anadangəlmə imkanlara malikdir.

Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərindən olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu, bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir.

Aparılmış tədqiqatlardan belə bir nəticə çıxır ki, sosial mühit şəxsiyyətin inkişafına birbaşa deyil, həyat tərzi vasitəsilə təsir göstərir. Əgər belə olmasaydı, onda mühitin təsiri hamıya eyni cür olardı, həyat tərzinin müxtəlifliyi mühitin təsirinin transformasiya edilməsinə gətirib çıxarır.

**Rüstəmova Zülfiyyə Rufət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*rustamovazulfiyya@gmail.com*

## BULLİNQ – MÜASİR PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

***Açar sözlər:*** *bullinq, uşaq, valideyn, müəllim, məktəb, cəmiyyət*

Müasir dövrün psixologiyası bir çox məsələləri araşdırır ki, onlardan biri də bullinq problemidir. Gəlin, ilk öncə bullinqin nə olduğuna aydınlıq gətirək. UNICEF-ə görə, bullinq uşaqların incidilməsinə səbəb olan ixtiyari və təkrar olaraq törədilmiş aqressiv davranışdır. Bullinq – qarşı tərəfin alçaldılmasıdır, təhqir olunmasıdır, ona qarşı yönəlmiş hər cür aqressiv davranışdır. Bura həm fiziki, həm psixoloji, emosional sferaya təsir edəcək qeyd etdiyimiz davranış nümunələri aiddir. Bullinqin bir çox növləri vardır. Onlara aiddir: kiber bullinq, fiziki bullinq, şifahi bullinq, psixoloji bullinq, sosial bullinq və s. İndi isə kiçik nümunələr əsasında bullinqin növlərini izah edək.

Kiber bullinq – mesajlar vasitəsilə, sosial şəbəkələrdə insanları alçaltmaq, qorxutmaq; şifahi bullinq – sözlərlə qorxutmq, adına ləkə yaxmaq, alçaltmaq; sosial bullinq – şəxsin hər hansı bir qrupdan kənarlaşdırılması, sinifdən təcrid edilmə, ona qarşı qruplaşma yaratmaq; fiziki bullinq – vurmaq, itələmək, şəxsin əşyalarını oğurlamaq; psixoloji bullinq – qərəzli baxış, təqib etmək və s.

Bullinqlə biz hər yerdə rastlaşırıq: evdə, məktəbdə, avtobusda, parkda, yolda və s. Bu zaman yaşlıların həmin vəziyyətə etinasız yanaşmasının şahidi oluruq. Bunun bir çox səbəbləri var. Onlardan biri və ən vacib olanı yaşlıların bu barədə məlumatsızlığı, maarifsizliyidir. Misal üçün, çox zaman uşaqlar arasında baş verən münaqişələr böyüklər tərəfindən o qədər də ciddiyə alınmır. Bu zaman yaşlılar belə düşünürlər ki, uşaqlar bununla öz problemlərini özləri həll etməyi öyrənirlər. Əslində isə əlbəttə ki, bu, belə deyil. Bu zaman uşaqlar mütləq şəkildə yaşlılardan kömək istəməli, dəstək almalıdırlar.

Bullinqdən danışarkən biz mütləq şəkildə onun üç tərəfinin olduğunu qeyd etməliyik.

- ✓ Bullinqi törədən
- ✓ Bullinqin qurbanı
- ✓ Bullinqin şahidləri

Bütün uşaqlar bullinqlə rastlaşırlar: ya qurban, ya törədən, ya da şahid qismində. Bullerlər əsasən özlərini təsdiq etməyə, şəxsi üstünlüyünü sübut etməyə çalışırlar. Bullinqin şahidləri isə çox zaman qorxurlar ki, əgər kömək edərsə, özlərini də həmin aqibət gözləyir. Qrupdan təcrid olunmaqdan, tək qalmaqdan qorxurlar. Bullinqin qurbanı istənilən uşaq ola bilir. Lakin bu cür davranışın qurbanı olan uşaqlar digərlərindən daha çox seçilən olurlar. Hansı uşaqlar bullinqə məruz qalırlar:

- ✓ cavab qaytara bilməyən uşaqlar;
- ✓ fiziki cəhətdən gücsüz olan uşaqlar;
- ✓ ümumi qaydalara tabe olmayan uşaqlar;

✓ davranışlarında və xarici görünüşlərində fərqlilik olan uşaqlar;
✓ qapalı uşaqlar və s.

Bu siyahını çox artırmaq mümkündür. Bu cür halların baş verməməsi üçün həm valideyn həm müəllimlər diqqətli olmalıdırlar. Uşaqlarda baş verən kiçik bir dəyişikliyi belə sezməlidirlər. Çünki bütün uşaqlar gəlib bu cür hallarla qarşılaşdığını anlatmazlar. Valideynlər övladlarının bullinqə məruz qalmasına işarə ola bilər:

✓ Uşaq başqa uşaqlara tabe olmağa meyillidirsə;
✓ Üzündə, qolunda və s. göy ləkələr varsa, paltarı cırıq evə gəlirsə;
✓ Əşyalarını tez-tez itirirsə;
✓ Daimi dostlara malik deyilsə;
✓ Məktəbə getmək istəmirsə, qorxursa;
✓ Yuxuda ağlayırsa, qarabasmalar görürsə;
✓ İştahını itirirsə və s.

Müəllimlər də öz siniflərində bu cür halların baş verməməsi üçün bütün şagirdlərinə fərdi yanaşmalı, onlarda baş verən kiçik dəyişikliyi sezməlidir. Məsələn, yaxşı oxuyan uşağın qiymətləri birdən aşağı düşür, lövhəyə çıxmaqdan utanır və s.

Bu cür halların qarşısı alınmasa, uşaq intahara belə sövq edə bilər. Ona görə də həm valideyn, həm müəllimlər, həm uşaqlar, bir sözlə, bütün cəmiyyət birgə çalışmalıdır. Yəni cəmiyyətdə hər hansı bir hadisə baş verirsə, ona biganə qalmamalıdır. Ancaq o zaman istədiyimiz nəticəni ala bilərik.

**Mirzəyev Ramil Nazim oğlu**
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi, psixol.ü.f.d.*
*mrpsixoloq@gmail.com*

## ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ETNOPSİXOLOJİ AMİLLƏRİN ROLU

***Açar sözlər:*** *etnopsixologiya, kulturoantropologiya, multikultural davranış, krosskultural tədqiqat, uşaqlığın etnoqrafiyası*

Etnopsixologiya ayrıca götürülmüş etnosun, xalqın, millətin psixoloji keyfiyyətlərini öyrənməklə yanaşı, həm də etnoslararası münasibətlərin də psixologiyası məsələlərini öyrənir. Son dövrlərdə məhz etnopsixologiyanın bu istiqaməti ilə bağlı tədqiqat işlərinin aparılmasına güclü tələbat var. Çünki cəmiyyətin sosial və siyasi problemləri bəzi hallarda etnoslararası münasibətlərlə bağlı olur.

Şəxsiyyətin formalaşması prosesi mədəniyyət daxilində baş verən sosial-psixoloji hadisədir. Etnopsixologiyada "Mədəniyyət və şəxsiyyət" konsepsiyasının tərəfdarlarını maraqlandıran əsas məsələ müxtəlif mədəniyyətlərdə şəxsiyyətin inkişafı məsələsinin öyrənilməsidir. Uşaq etnik xüsusiyyətləri necə mənimsəyir? Bu suallara dolğun cavab axtarışı etnopsixologiya və kulturoantropologiyanın daxilində yeni bir elmi istiqamətinin əmələ gəlməsi ilə nəticələndi. Bu elmi istiqamət uşaqlığın etnoqrafiyası adlanır [1, s.18-19].

Amerika antropoloqu Marqarid Mid öyrəndiyi xalqların ekzotik mənəviyyatını, adət-ənənəsini şərh etməklə kifayətlənmirdi, o, həmçinin müşahidə etdiklərini nəzəri təhlildən keçirərək bir faktı sübut edirdi ki, insan təbiəti heç də bioloji determinizmin tərəfdarlarının təsdiq etdiyi möhkəm, dəyişməz deyil, o, plastikliyi ilə fərqlənir. O, inamla qeyd edirdi ki, məhz mədəniyyət ən başlıca faktor kimi uşağa cəmiyyətdə necə fikirləşməyi, hiss etməyi və davranmağı öyrədir. İstənilən cəmiyyətdə uşaq universal bioloji xüsusiyyətlərlə doğulur, amma hər bir cəmiyyət bu "açarlardan" özünəməxsus tərzdə istifadə edir.

Marqarid Midin Samoa adalarında apardığı tədqiqatlar uşaq və yeniyetməlik haqqında yeni elmi təsəvvürlərin yaranmasında mühüm rol oynadı. O, sübut etdi ki, insan davranışında yaranan ziddiyyətlər və onların əmələ gəlməsinin bioloji səbəblərlə bağlı olması fikri əsassızdır. Samoa

adasında uşağın doğulduğu günə əhəmiyyət vermirlər və bu gün ailə üçün heç bir mərasim əhəmiyyəti kəsb etmir. Ailədə "uşaqların faktiki yaşına yox, nisbi yaşına əhəmiyyət verirlər. Bu mərasimin ailə həyatında öz psixoloji əhəmiyyəti var. Ailədəki ziddiyyətlər və qarşıdurmalar belə mərasimlərin hesabına yumşaldılır" [4, s.24-27].

İstər elmi, istərsə də bədii ədəbiyyatlarda müxtəlif mədəniyyətə məxsus olan fərdlər və qruplar arasında kommunikasiya çətinliklərinin, yəni bir-birini düzgün başa düşmədiklərini göstərən çoxlu faktlara rast gəlinir. Şəxsiyyətlərarası kommunikasiyanın, informasiya mübadiləsinin səciyyəvi xüsusiyyəti onunla şərtlənir ki, həm məlumat verən, həm də məlumat alan kodlaşdırma və dekodlaşdırma sisteminə malik olsun. Adi dillə desək, hər iki tərəf eyni dildə danışmalıdır ki, bir-birini düzgün başa düşsünlər. Bundan əlavə ünsiyyət partnyorlarının eyni dildə danışması, həmin tərəflərin mütləq mənada bir-birini düzgün başa düşəcəyinə zəmanət vermir. Belə ki, qarşı tərəfin daxil olduğu mədəniyyətə bələd olmadan, səmərəli ünsiyyət qurması mümkün olmur. Məlumdur ki, ünsiyyət iki yolla: verbal və qeyri-verbal vasitələrlə həyata keçirilir. Ona görə də qarşı tərəfin verdiyi informasiyanı yaxşı və düzgün başa düşmək üçün verbal kommunikasiya ilə yanaşı, qeyri-verbal kommunikasiyanı da izləmək lazımdır. Bəzi hallarda qeyri-verbal kommunikasiya faktiki surətdə kommunikatorun nitqini respondentə çatdırır.

İnsanlar üçün həm universal, həm də fərqli emosiyaların olması etnopsixoloji mədəniyyət faktı ilə bağlıdır. Mədəniyyət etnopsixoloji fərqlə insana təsir göstərir və onun emosional-iradi sferasını formalaşdırır. Bununla oxşar və fərqli hisslər yaşanılır. İnsan emosiyalarının tədqiqi ilə aparılan krosskultural tədqiqatların bir qismi emosiyaların ifadə olunması (mimika) ekspressiyası ilə bağlıdır. Tədqiqatçıların bir qismi belə hesab edir ki, emosiyaların ekspressiyası bütün xalqlarda universaldır və bioloji, anadangəlmə olur. Bir çox hallarda xalqlar və millətlər bir-birindən hiss və emosiyanın yaranma səbəbinə görə fərqlənirlər. Məsələn, azərbaycanlıların stenik hiss və emosiyaları əsasən ailə həyatı ilə bağlı olduğu təqdirdə amerikanlarda şəxsi həyatla bağlı olur. Övlad xoşbəxtliyinin bizdə yaratdığı müsbət emosiyalar amerikan valideynləri üçün heç də uyğun deyil.

Amerikan antropoloqu Edvard Hol proksimika sahəsində nüfuzlu tədqiqatçı hesab olunur. O, qeyd edir ki, müasir dünyada "üst qatda" bütün mədəniyyətlər bir-birinə oxşardır. "Dərin qatlara" baş vurduqda isə onların ünsiyyətin qeyri-verbal xüsusiyyətlərinə görə aşkar şəkildə fərqləndiklərinin şahidi oluruq. Məkana və zamana münasibət fərqi mədəniyyətin nüvəsində dayanır və digər dəyərlər bunun ətrafında dövr edir. Elə xalqlar var ki, onların qeyri-verbal nitqi tam şəkildə sözlü ünsiyyəti əvəz edir. Nitq kommunikasiya prosesinin bir hissəsidir. Əslində verbal və qeyri-verbal ünsiyyət vasitələri vahid kommunikasiya prosesinin tərkib hissələridir və vəhdətdə cərəyan edir. Fərqli cəhət əsasən onunla bağlıdır ki, insanlar qeyri-verbal ünsiyyət vasitələrindən istifadə edərkən özlərinin qeri-verbal davranışı barədə düşünmürlər. Qeyri-verbal ünsiyyət sanki avtomatik surətdə, xüsusi nəzarət olmadan həyata keçirilir.

Bu baxımdan Edvard Hol mədəniyyətləri ünsiyyət xüsusiyyətlərinə görə iki qrupa bölməyi təklif edirdi:

Zəif kontekstli mədəniyyət: bu mədəniyyət nümayəndələri, kommunikasiya prosesində əsasən verilən informasiyanın məzmununa, yəni danışanın nə dediyinə diqqət yetirirlər. Onlar üçün kommunikasiya şəraiti və məlumatın necə deyilməsi əhəmiyyətli deyil.

Yüksək kontekstli mədəniyyət: bu mədəniyyətin daşıyıcıları isə məlumatın kontekstinə fikir verməyə meyilli olurlar. Ünsiyyət kiminlədir və hansı şəraitdə baş verir? Yəni onlar sözün, məlumatın çatdırılma tərzinə, deyilişinə daha həssas münasibət bəsləyirlər [3, s.19-23].

Edvard Hol amerikan, alman, Skandinaviya və İsveçrə mədəniyyətini zəif kontekstli, Asiya mədəniyyətini isə yüksək kontekstli mədəniyyətə aid etmişdir.

Araşdırmalar bir daha göstərir ki, hər bir insan öz mədəniyyətinin məhsuludur. Bu baxımdan fərdin kommunikativ vərdişləri və şəxsi keyfiyyətləri aid olduğu mədəniyyətin təsiri altında formalaşır.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003, 260 s.
2. Hacıyev A., Cəfərova E., Məmmədov İ. Multikulturalizmə giriş. Bakı, 2018, 372 s.
3. Мацумото Д. Человек, культура, психология. СПб., 2008, 668 с.
4. Мид М. Культура и мир детства. М., 1988, 395 с.



**Həsənli Solmaz Qüdrət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, p.ü.f.d.*
*solmazhasanli@hotmail.com*


## GÜNÜMÜZDƏ SOSİAL MEDİYANIN ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINA TƏSİRİ


***Açar sözlər:*** *sosiallaşma, sosial mediya, internet, insanlararası ünsiyyət, internet bağlılığı*


Sosiallaşmanın fərd və cəmiyyət üçün müxtəlif funksiyaları vardır. Sosiallaşma sayəsində fərd insani keyfiyyətlər qazanır, cəmiyyətinin normal üzvünə çevrilir, həyat tərzini formalaşdırır, keçmişin təcrübələrindən bəhrələnib vaxt itirmir, müxtəlif səviyyələrdə yarana biləcək risklərdən uzaqlaşır. "İnsanın cəmiyyətə inteqrasiyası prosesi" kimi ifadə edilən sosiallaşma sadəcə bir fərdin cəmiyyətin üzvü olması deyil, eyni zamanda onun sahib olduğu toplumun norma və dəyərlərinə uyğunlaşma prosesidir. Bu proses insanın doğulması ilə başlayır və onun yaşadığı müddətcə davam edir. Sosiallaşma prosesində insan ailədən başlayaraq geniş sosial mühitə qədər birbaşa qarşılıqlı təsirdə olaraq öz şəxsiyyətini formalaşdırır.

Sosiallaşma prosesi iki mərhələdə həyata keçir. Bunlardan birincisi ailədə başlayan və məktəbə qədər olan dövrü əhatə edən ilkin sosiallaşma prosesidir, digəri isə məktəbdən başlayan və insanın həyatının sonuna qədər davam edən ikinci mərhələdir. Bu iki sosialllaşma sistemi bir-birindən onunla fərqlənir ki, birinci sosiallaşma mərhələsi fərdin öz ailəsi və yaxınlarının formalaşdırdığı qapalı mühit xarakteri daşıyır. İkinci sosiallaşma mərhələsində isə mühit daha böyük bir sahəni əhatə edir və insan bu prosesdə sosial-mədəni varlıq olaraq toplumun dəyərlərinin, normalarının daşıyıcısına çevrilir.

Sosiallaşma dinamik və çoxşaxəli bir prosesdir. Bu prosesdə sosial mediyanın rolu böyükdür. Günümüzdə ünsiyyət mühitinin genişlənməsi sosiallaşma adlandırdığımız fenomenin də mahiyyətində dəyişikliyə səbəb olmuşdur. Xüsusilə günümüzdə sosial mediyanın da böyük təsiri ilə sosiallaşma anlayışı yeni mahiyyət kəsb edərək daha geniş arealı əhatə edir.

Hər hansı bir dövlətin ideoloji əsasının formalaşmasını ailə, təhsil, media və dini strukturlar təşkil edir. Bu strukturlar şəxsiyyətin ilkin və ya ikinci dərəcəli sosiallaşmasında ən təsirli vasitələrdir.

Kütləvi kommunikasiya vasitələrinin interaktiv sosial mediaya çevrilməsi ilə başlayan və bəlkə də xarakterinə görə hazırda insanlararası ünsiyyət tarixinin ən sürətli inkişafının yaşandığı günümüzdə insanın sosiallaşmasına təsir edən vasitələrin həcmi və xarakteri də dəyişir. O, həyatımızın hər sahəsinə nüfuz edir və gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilir. Güclü təsir qüvvəsinə sahib olmaqla sosial mediya fərdin sosiallaşma prosesində və şəxsiyyətinin formalaşmasında təsirli vasitə rolunu oynayır.

Sosiallaşmanın əsas funksiyası insanı yaşadığı cəmiyyətin dəyərlərinə uyğun bir üzvə çevrilməsini təmin etməkdir. Lakin bir reallıq var ki, günümüzdə sosiallaşan insan sadəcə yaşadığı toplumun dəyərləri və təsirləri ilə üz-üzə qalmır. O, bir çox hallarda yaşadığı toplumun dəyərləri ilə təzad təşkil edən faktorların da təsirinə məruz qalır.

Kommunikasiya texnologiyalarında köklü dəyişikliklər "elektrondan rəqəmsala" adlanan dövrdə baş verdi. Bu dövr XX əsrin son rübünə təsadüf edir. XX əsrin son rübü ilə birlikdə kommunikasiya sahəsində yeni bir dövr başladı və bu proses son 20 ildə toplumda şəxsiyyətin

formalaşmasına real təsirini göstərdi. Yeni sosial mediya ənənəvi mediyadan tamamilə fərlənir. Belə ki, yeni sosial mediyada senzura yoxdur, istənilən yanlış informasiya asanlıqla bu mediyada yer ala bilir və gənclər arasında ənənəvi mediyaya nisbətən daha çox təsirə malikdir.

Günümüzdə internet ağıllı telefonlar və kompüterlər vasitəsi ilə insanların daima artan və dəyişən informasiyaya sahib olmasını asanlaşdıran bir vasitədir. Keçmişdə lazım olan məlumat və informasiya əldə etmək üçün sadəcə kitabxanalardan istifadə edilirdisə, günümüzdə insanlar daha çox internet vasitəsilə elektron kitabxanalardan faydalanmağa başlamışlar. Lakin müasir dövrdə internet imkanları sadəcə məlumat əldə etmək deyil, əyləncə, oyun, söhbət məqsədi ilə də istifadə edilir. Təsadüfi deyildir ki, internet asılılılığı probleminin meydana gəlməsinin əsas səbəbi məhz oradakı gərəkli məlumatı əldə etmək məqsədi ilə bağlı deyil. Bu problem daha çox yuxarıda sadaladığımız digər məqsədlərlə bağlı olaraq yaranır. İnternetin əyləncə, oyun, söhbət kimi imkanlara sahib olması onu daha çox yeniyetmə və gənclər arasında istifadəsinin sürətlə yayılmasına səbəb olur ki, bu da gənc nəslin sosiallaşmasına mənfi təsir göstərir, asosial, internet asılılığı olan bir insan kütləsi meydana gətirir.

Yeniyetmə və gənclər internetdə daha aktiv fəaliyyətdə olmasına baxmayaraq, ailə içərisində və daha geniş sosial mühitdə asosial həyat yaşamağa başlayırlar. Asosiallılıq anksiyetə və həddindən artıq stresə səbəb olur ki, bu da sonradan mənlik şüurunun zəifləməsinə, digər insanlara qarşı güvənsizlik, yuxu problemlərinə, ağır depressiyalara, tənhalığa, daha dərin sosial-psixoloji problemlərə və hətta intiharlara gətirib çıxarır.

İnsanlarda internet asılılığı kimi bir problemin meydana gəlməsində onların ailə tərəfindən hələ uşaqlıq dövründən sosial mühitdən təcrid olunması, ailənin özünün sosial münasibətlərinin çox aşağı səviyyədə olması və uşağın da bunu bir nümunə götürərək digər insanlara, geniş sosial mühitə qarşı güvənsizlik hissinin formalaşması böyük rol oynayır.

İnsanların müəyyən səbəblərdən sosial mühitdə fəaliyyətinə mane olunması da asosiallılıq yaradan və onda internet asılılığına səbəb olan amillərdən biridir. Sosial mühitdə qəbul görməyən, sosiallaşmada müəyyən problem yaşayan insanlar adətən özünütəsdiq üçün başqa imkan və yollar axtarırlar. Bu tələbatı təmin etmək üçün sosial media vasitələri geniş imkanlara sahibdir. Texnoloji vasitələr yeniyetmə və gənclərin bu baxımdan daha çox fəallığını təmin edən bir mühit meydana gətirir.

Digər bir tərəfdən gənc nəslin gözləntilərinin onun potensial imkanlarından yüksək olması da onların sosial mühitdən soyuyaraq virtual mühitə yönəlməsinin bir səbəbi olaraq göstərilə bilər. Yəni bu zaman gəncin iddia səviyyəsinin onun real imkanları ilə üst-üstə düşməməsi əsas asosiallılıq və nəticədə tənhalığın səbəblərindən biridir.

İnsanların internet asılılığı probleminin səbəblərindən biri də onların introvert xarakterə sahib olmalarıdır. Sosial fəallıq xüsusiyyətinə sahib olmayan, içəqapanıq xüsusiyyətə sahib olan bu tip insanlar xarakter xüsusiyyətinin səbəb olduğu boşluğu doldurmaq üçün sosial mediyaya yönəlir və virtual aləm onun hiss etdiyi boşluğu doldurmaq üçün bir vasitəyə çevrilir.

İnternet əslində faydalı məqsədlər üçün istifadə edildiyində lazımlı bir texnologiya vasitəsidir. Lakin texnologiyanın inkişafı sayəsində cəmiyyətdə, xüsusən də yeniyetmə və gənclər arasında sosial media asılılılığı gedərək daha çox artır. Nəticədə internet asılılılığı artarkən buna bağlı olaraq sosial həyatdan qopmalar reallaşır, gənc nəslin sosiallaşmasında, sahib olduqları toplumun bir üzvü kimi formalaşmalarında ciddi problemlər meydana gəlir və bəzən sahib olduqları toplumla, onun dəyərləri ilə təzad təşkil edirlər.

**Дадашова Гарифат Шариф кызы**
*преподаватель кафедры педагогической психологии АГПУ*
*qerifet_73@mail.ru*

# ЛИЧНОСТЬ И ЭТНОПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ В ТВОРЧЕСТВЕ А.А.АЛИЗАДЕ

***Ключевые слова:*** *личность, психическое развитие, наследие, традиции, обычаи*

Фактор личности в современных условиях стал особенно актуальным. Сегодня все гуманитарные науки вплотную интересуются и изучают проблему личности. В особенности можно отметить две такие науки, как социология и психология. И в психологии, и в социологии проблема личности занимает особое место.

Одним из сложных вопросов социальной психологии – вопрос о национальных особенностях человеческой психики. Каждая нация, народность имеет характерные для них психические черты и свойства, совокупность которых обозначаются понятиями «Психический склад наций» и «Национальный характер». Тем временем же задачей этнопсихологии является изучение этнических особенностей конкретной общественной группы, психики и поведения людей, обусловленные их этнической общностью.

Этнопсихологические особенности личности – это аспекты личности, которые выражаются через специфику восприятия, мышления, мотивации поведения и деятельности. История развития психологической науки в Азербайджане тесно связана с именем профессора А.А.Ализаде. Недаром многие известные русские исследователи в своих трудах ссылались на научные изыскания А.А.Ализаде. Такие известные психологи по социальной психологии как Ю.С.Кузьмин и В.Ю.Семенов в своем произведении «Социальная психология » наряду с такими учеными как А.А.Бодалевым, А.Т.Хорчевым, И.С.Коном, Ю.Л.Коломенским, Т.А.Репиным отмечают и имя А.А.Ализаде. В своем творчестве ученый в различных аспектах исследовал проблему воспитания личности. Как и советская психологическая наука, критиковавшая творчество З.Фрейда, А.А.Ализаде тоже не был согласен с ним по поводу биологизации личности, но он не отказывался полностью от трудов австрийского психолога, психиатра и невролога. А.А.Ализаде обосновывал свои выводы ссылаясь на Л.С.Выготского . «Еще в свое время Л.С.Выготский был против ненаучного решения этого вопроса и указывал, что период подросткового развития личности не может быть характеризован факторами полового созревания» (3, с.81).

Профессор А.А.Ализаде принимал позицию Фрейда кроме учения, что на процесс развития оказывают влияние только биологические факторы. Он считал, что «биологические характеристики организма должны иметь также психологические и социальные характеристики» (3, с.81). Тут ученый опирался на теорию таких известных ученых как Л.С.Выготский, А.Н.Леонтьев и С.Л.Рубинштейна о личности, сознании и деятельности.

Профессор А.А.Ализаде делал акцент на изучении классического психологического наследия нашего народа в своих исследованиях, связанных с педагогической психологией, особенно этнопсихологией. Ученый строил свои версии не только на научных выводах, а также и на основании традиционных обычаев народов и примеров классической литературы.

Известно, что роль родителей незаменима в полноценном психическом развитии, поведении и формированию человека как личности. А.А.Ализаде обращается к мудрым педагогическим примерам Деде Коргута, что «Девушка иначе как от матери не получит воспитание, парень не расстелет скатерть, не увидев этого от отца» (5, с.312). Также он подчеркивал роль воспитания в семье, личный пример родителей и доказывал это фактами из реальной жизни. «Дети, конечно, не могут повторить походку родителей, но образно

говоря, надев их обувь, стараются хоть как-то походить на них в движении. Это зависит непосредственно от уровня идентификации» (5, с.31).

А.Ализаде и А.Н.Аббасов особенно отмечали тесную связь между воспитанием и национальными особенностями и то, что в древности детей с младшего возраста готовили к семейной жизни. «Дети с раннего возраста изучали неписанные законы семейной жизни. Девочки изучали жизненный путь своей матери, а мальчики – своих отцов» (6, с.4). Конечно же сегодня отношения внутри семьи и между личностями претерпели значительные изменения. Традиции и обычаи уходят на второй план. Это вытекает из-за того, что родители уделяют все меньше времени подготовке своих детей к семейной жизни. Также молодые сами тоже равнодушно относятся к семейным традициям своих родителей. Ученые считают, «что молодые девушки и парни должны усвоить моральные критерии и свою жизнь должны строить в соответствии с ними. Тогда проблема главы семьи решиться сама собой» (6, с.182). Естественно, тут полностью согласиться нельзя. Конечно же современная семья не может быть похожа на семьи прошлых лет и не может повторить их традиции в полном объеме.

Из вышесказанного вытекает, что воспитание детей составляет основу морального воспитания, основу формирования человека как личности. Профессор А.Ализаде отмечал, «Психический пол формируется как неотделимая часть развития личности ребенка. С этой точки зрения, первичный этап развития личности должен был оценен как первый этап формирования психического пола» (5, с.302). Он разделял развитие психического пола на три этапа. I этап он включал развитие с 3-х до 10-ти лет – здесь формируются простые первичные представления о полах. II этап включает подростковый период, раннюю молодость и молодость. Тут происходит половое созревание и на базе опыта межполового общения в области половой мотивации парней и девушек происходят коренные изменения, усложняется их эмоциональная жизнь, они начинают осваивать роль родителей. III период – это период подготовки к семейной жизни. В это время возникают чувства отцовства и материнства, начинается освоение роли родителей. По классификации ученого каждый период имеет свою логику развития. Развитие формируется на основе этих мер и имеет свои особенности. Из тезисов ученого по воспитанию подрастающего поколения можно обобщить так, воспитание играет важную роль в обретении мужских и женских качеств, в подготовке к будущей семейной жизни.

В итоге надо отметить, что привязанность родителей к национально-духовным ценностям, наличие творческих способностей, чувства поддержки и уважения, все это безусловно укрепляет семейные отношения и является хорошей духовной базой для нравственного обогащения нашего подрастающего поколения.

## ЛИТЕРАТУРА

1. А.А.Ализаде. Половое воспитание детей и подростков. Баку: Maариф, 1986, 236 с.
2. А.А.Ализаде. Психологические проблемы современной Азербайджанской школы. Баку: Озан, 1998, 364 с.
3. А.А.Ализаде, А.Н.Аббасов. Семья: Учебник для 9 классов. Баку: Маариф, 1986, 276 с.

**Abdullayeva Təranə Qalib qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müəllimi*
*teraneabdullayeva85@gmail.com*

## AİLƏNİN DEMOQRAFİK PROBLEMLƏRİ

***Açar sözlər:*** *demoqrafik amil, demoqrafik proses, ailədaxili münaqişələr*

Ailədaxili münaqişələrin yaranmasına demoqrafik amillərin təsirinin öyrənilməsi hər dövr üçün önəmli olan şəxsiyyət problemi kontekstində daha böyük önəm qazanır. Belə ki, prof. H.Ə.Əlizadənin fikrilə desək, "göründüyü kimi şəxsiyyətin formalaşmasında demoqrafik amillər tutumlu rol oynayır. Lakin demoqrafik amillər şəxsiyyətin formalaşmasını bilavasitə deyil, dolayısı ilə – ilk növbədə, ailə münasibətləri, ailənin mənəvi-psixoloji iqlimi vasitəsilə şərtləndirir". Ailədə yetişən insanın şəxsiyyət kimi formalaşmasına ailədaxili münaqişələrin birbaşa təsirini nəzərə alsaq, ailənin tipi, tərkibi və miqdarı, doğum və ölüm əmsalı, nigah və boşanmalar, miqrasiya və s. bu kimi demoqrafik proseslərin öyrənilməsi xüsusi əhəmiyyət kəsb etrməyə başlayır.

Prof. H.Ə.Əlizadə qeyd edir ki, "…beləliklə, aydın olur ki, bəzi demoqrafik amillərin (xüsusilə ölüm fenomeninin) şagird (insan – bizim qeydimiz) şəxsiyyətinin formalaşmasında neqativ demoqrafik təsirləri psixologiya və pedaqogikada nisbətən ətraflı tədqiq edilsə də, onların çoxu (boşanma, təkrar nigah, doğum, miqrasiya və s.) bu baxımdan hələ sistemli şəkildə araşdırılmamışdır" [1, s.77]. Bu məqsədlə biz tədqiqatımızda bu cəhətləri nəzərə almışıq.

Demoqrafiyada ailənin tiplərinə xüsusi diqqət yetirildiyi elmi ədəbiyyatda qeyd edilir. "Ailənin tipini nəzərə almadan demoqrafik amillərin neqativ təsirlərinin neytrallaşdırılması yollarını araşdırmaq, müəyyən etmək əslində mümkün deyildir".

Ailənin müasir formaları aşağıdakı şəkildə təsnif olunur:

1) Nuklear
2) Geniş
3) Böyük
4) Ailə-klan
5) Ailə-həyat

Prof. H.Ə.Əlizadənin fikrincə, ailəni pedaqoji cəhətdən xarakterizə edərkən uşaqların sayına da xüsusi diqqət yetirmək lazımdır. Eyni zamanda bacı-qardaşın rolunun da böyük olduğuna işarə edilir. Prof. H.Ə.Əlizadə ailənin demoqrafik tipi və ailənin peşə-təhsil strukturu ilə şagirdlərin inkişaf səviyyəsi arasında əlaqəni araşdırmışdır. Gəldiyi nəticə, qısa şəkildə desək, belə olmuşdur ki, V tip (natamam ailə) ailədə uşaqların sayından asılı olmayaraq aşağı inkişaf səviyyəli şagirdlərin sayı kəskin şəkildə artır. Çoxuşaqlı ailələrdə şagirdlərin 67%-i, ortauşaqlı ailələrdə 54%-i, az uşaqlı ailələrdə isə 55%-i aşağı inkişaf səviyyəsi ilə seçilir. O, yazır ki, "Beləliklə, aydın olur ki, demoqrafik proseslərin pedaqoji nəticələrini təhlil etmək üçün onları ilk növbədə ailənin demoqrafik tipləri baxımından nəzərdən keçirmək lazımdır".

Bizim ölkədə də baxmayaraq ki, doğum əmsalı heç də normadan aşağı deyil, lakin əksər gənc ailələr bir və ya iki uşaqdan artıq uşaq dünyaya gətirməyə çox da həvəsli deyillər. Prof. H.Ə.Əlizadə qeyd edir ki, "50-60-cı illərdən (XX əsrin - tərəfimizdən qeyd) başlayaraq yeni demoqrafik problemlər – doğumun azalması, boşanma, təkrar nigah, miqrasiya və onların sosial-pedaqoji nəticələri bütün aydınlığı ilə özünü göstərdi. Boşanma zəminində xüsusilə yüzlərlə, minlərlə ailənin mənəvi dayaqları sarsıldı və tərbiyə imkanları azaldı".

Uşaqlara tələbat başqa insana tələbatın təzahürlərindən biridir və şəxsiyyətin əxlaqi inkişafının səviyyəsini xarakterizə edir. A.İ.Antonovun fikrincə, produktiv yönəlişlik sosial cəhətdən qeyd olunmuş yönəlişliklərə aiddir. Onlar psixoloji meyilliliyi, reproduktiv davranışın müəyyən nəticəsinə hazırlığı, başqa sözlə, şəxsiyyətin özünəməxsus münasibətini xarakterizə edir.

## ƏDƏBİYYAT

1.Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993, 232 s.



**Əliyev Məhərrəm Sabir oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, psixol.ü.f.d.*
*m_a_1977@mail.ru*


## ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN ETNOPSİXOLOJİ KÖKLƏRİ


***Açar sözlər:*** *şəxsiyyətlərarası münasibətlər, mifologiya, adət-ənənə, şüursuzluq, etnopsixologiya*


Münasibətlərin insan xoşbəxtliyinin əsas meyarı olması tədqiqatlarla sübut olunmuşdur. Ələlxüsus şəxsiyyət anlayışının əsas dəyərlərdən biri kimi qəbul edilməsi şəxsiyyətə münasibət, şəxsiyyətlərarası münasibətlər kimi kateqoriyaların öyrənilməsini aktual edir. Müvafiq məsələyə etnopsixoloji aspektdə yanaşdıqda, qarşımızda çox maraqlı mənzərə yaranmış olur. Şəxsiyyətlərarası münasibətlərin əsasında etnopsixoloji amillərin durması heç kimdə şübhə oyatmamaqla yanaşı, bu amillərin hansı şəkildə bugünkü münasibətlərin tənzimlənməsində rol oynaması da tədqiqatçıları düşündürməyə bilməz. Vaxtilə Z.Freyd şüursuzluq nəzəriyyəsi ilə insan davranışının əsasında irrasional meyillərin durduğunu söyləmiş [3], K.Jung isə daha da irəli gedərək kollektiv şüursuzluğun (əslində Z.Freydin təlimində şüursuzluqla ekvivalent olan anlayış) mövcudluğunu ehtimal etmişdir [4]. Kollektiv şüursuzluğun təmsili arxetiplərdir. Müxtəlif arxetiplərin olduğunu göstərmək olar, lakin bizi daha çox mövcud şəxsiyyətlərarası münasibətlərin əsasında duran arxetiplərin hansı şəkildə formalaşdırılması məsələsi düşündürür. Bu arxetiplər xalqın təfəkkür yaddaşına tarix boyu müxtəlif yollarla həkk olunmuşdur. V.Vundt “Xalqlar psixologiyası” əsərində bu yolların üç (daha dəqiq desək, xalqlar psixologiyasının üç əsas probleminin) olduğunu qeyd etmişdir: 1. Mifologiya, 2. Adət-ənənə və 3. Dil. Başqa sözlə, bu metodlarla xalqlar psixologiyasını, yəni həmin xalqın şəxsiyyətlərarası münasibətlərini öyrənmək olar. Belə ki, V.Vundtun fikrincə, *“Gerçəklikdə, deməli, dil, miflər və adət-ənənələr özlüyündə xalq ruhu yaradıcılığının hansısa fraqmentlərini deyil, xalq ruhunun məhz özünü ifadə edir...”* [2, s.39].

Tezisimiz ondan ibarətdir ki, müasir şəxsiyyətlərarası münasibətlərin kökündə qədimdən günümüzə qədər gəlib çıxmış etnopsixoloji amillər əsas rol oynayır, hansı ki, xalqımızın mifologiyasında, şifahi xalq ədəbiyyatında, adət-ənənələrində və dilində öz əksini tapmışdır. Məsələn, uşağı olmayan ər-arvada xoş münasibətin olmaması, hədiyyə (rüşvət) qəbul etməyə müsbət meylin olması, əsasən qadınlara qeybət edən, ara vuran adam kimi münasibət göstərilməsi, sonbeşiyə daha böyük sevgi münasibəti göstərilməsi və s. tipli məsələlərin təhlili deməyə əsas verir ki, bütün sadalanan bu münasibətlərin formalaşması təsadüfi olmamışdır. Tarixdən süzülüb gəlmiş və xalqın mədəniyyət nümunələrində öz əksini tapmış ideyalar, obrazlar şüursuzluq elementləri timsalında əbədi yaddaşımıza həkk olunaraq təfəkkür tərzimizi müəyyən etmişdir.

Uşağı olmayan ər-arvada xoş münasibətin olmaması faktına “Dədə Qorqud” dastanında Dirsə xan oğlu Buğac xan boyunda rast gəlirik: *“Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib, Oğuz bəglərin qonaqlardı. ....Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdırmışdı. “Kimin ki, oğlı-qızı yoq, qara otağa qondurun, qara keçə altına döşən, qara qoyun yaxnısından öninə gətürün, yer isə, yesün, yeməzsə, dursun, getsün” - demişdi. “Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurun, oğlı-qızı olmayanı Allah Taala qarğayıbdır, biz dəxi qarğarız; bəllü bilsün!” - demiş idi”* [1, s.24].

Hədiyyə (rüşvət) qəbul etməyə müsbət meylin olması faktı ilə bağlı nümunəyə Novruz bayramı şənliyində Keçəllə Kosanın xurcunlarına pay toplamasında rastlaşırıq.

Məhz əsasən qadınlara qeybət edən, ara vuran adam kimi münasibət göstərilməsi faktını nağıllarımızda mənfi obraz kimi verilən "Küpəgirən qarı" anlayışı ilə əlaqələndiririk.

Sonbeşiyə daha böyük sevgi münasibəti göstərilməsi faktı isə "Məlikməmmədin nağılı"nda böyük və ortancıl qardaşın deyil, məhz sonbeşik olan Məlikməmmədin problemi çözməsi ilə diqqətimizi cəlb edir.

Şəxsiyyətlərarası münasibətləri yeni formata salmaq istəyiriksə, xalqlar psixologiyasının sahələrinə yeni baxışı formalaşdırmaq önəmlidir.

## ƏDƏBİYYAT


1. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər nəşriyyatı", 2004, 376 s.
2. Вундт В. Психология народов. Москва: Эксмо, СПб.: Terra Fantastica, 2002, 864 с.
3. Фрейд З. Психология бессознательного / Пер. на русский язык А.М.Боковикова. Москва: ООО «Фирма СТД», 2006, 448 с.
4. Юнг К.Г. Душа и миф: шесть архетипов / Пер. с англ. Москва: К.: "Совершенства" – "Port-Royal", 1997, 384 с.



**Bəşirova Sülhanə Siyaxbər qızı**
*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*
*Sulhanebesirova17@gmail.com*


## EŞİTMƏ POZULMALARI OLAN UŞAQLARIN ŞƏXSİYYƏT PROBLEMLƏRİ

***Açar sözlər:*** *şəxsiyyət problemləri, xarakter, eşitmə pozulmaları, ünsiyyət çətinliyi, şəxsiyyətin fəallığı, sosial təcrübə*

Ətraf aləmi fəal dərk edən onu dəyişən insan şəxsiyyət adlanır. Şəxsiyyət hesab etdiyimiz insanın baxışlar sistemi, əqidə və idealları, özünə və onu əhatə edən insanlara münasibətində müəyyən pozisiyası olmalıdır. Təbiidir ki, sosial varlıq olmasına baxmayaraq, yeni anadan olmuş uşaq şəxsiyyət adlana bilməz. Uşaq şəxsiyyəti tədricən cəmiyyətin sosial təcrübəsini mənimsəmə gedişində, böyüklərlə ünsiyyət prosesində formalaşır. Psixologiyada "insan", "şəxsiyyət" analayışları ilə yanaşı, "fərdilik" anlayışı da işlənir. Fərdilik şəxsiyyətin təkrarolunmaz psixoloji xüsusiyyətlərinin konkret variantıdır.

Şəxsiyyətin üç vacib psixoloji xüsusiyyəti qeyd edilir:

1.Şəxsiyyət xüsusiyyətlərinin dayanıqlılığı: Şəxsiyyətin psixi təzahürlərinin dəyişkənliyi və plastikliyi fonunda onun psixi xüsusiyyətlərinin nisbi davamlılığını çox dəqiq ortaya çıxarır və ya müəyyən situasiyalarda şəxsiyyətin davranışını öncədən görməyi mümkün edir.

2.Şəxsiyyətin vahidliyi: Şəxsiyyət bütöv bir vahidi təmsil edir. Onun hər bir cəhəti biri-biri ilə fasiləsiz qarşılıqlı bağlılıq təşkil edir. Buna görə də şəxsiyyətin hər bir çizgisi digər cizgilərlə münasibətdə çox zaman tamamilə müxtəlif, başqa bir mahiyyət daşımağa başlayır. Məsələn, inadkarlıq, çətinlikləri dəf edərək məqsədə çatmaq kimi keyfiyyətlər yüksək inkişaf etmiş əxlaqi keyfiyyətlərlə sıx bağlı olduqda bir mahiyyət, eqoizm, paxıllıq hissləri ilə qarşılıqlı münasibətdə olduqda isə başqa bir şəxsiyyət xüsusiyyəti daşıyacaqdır. Buna görə də kar uşağın şəxsiyyətinin inkişafı dedikdə, onun ayrı-ayrı cəhətlərinin formalaşması kimi deyil, bütövlükdə şəxsiyyət kimi inkişaf etməsi nəzərdə tutulmalıdır.

3.Şəxsiyyətin fəallığı: Şəxsiyyətin fəallığı ətraf mühiti dərketməyə, onu dəyişdirməyə, özünütərbiyə etməyə yönəlmiş çoxtərəflik və çoxcəhətlilikdə təzahür edir.

Eşitmə pozulmaları olan uşaqların əksəriyyətində bu keyfiyyətin formalaşmaması, onda digər şəxsiyyət keyfiyyətlərinin: müstəqillik, təşəbbüskarlıq, yaradıcılıq, özünəqiymət, tənqid və s. inkişafına mənfi təsir göstərir. Buna görə də xüsusi pedaqoji nəzəriyyə və praktikanın ən ümdə

vəzifəsi kar şagirdlərdə fəallığı artırmaq, onda müstəqil düşünüb işləmək vərdişləri aşılamaqdır. Göstərmək lazımdır ki, kar uşağın fəallığının formalaşdırılması təkcə məktəb şəraitində deyil, həm də ailədə aparılmalıdır. Sakit, qarşılıqlı hörmət əsasında qurulmuş ailə uşağın qüsuruna, onun təlim-tərbiyəsinə, şəxsiyyət kimi formalaşmasına çox böyük diqqət göstərir. Ailə üzvləri eşitmə pozulmaları olan uşağa göstərdikləri məhəbbət, qayğı bir tərəfdən cəmiyyət üçün artıq adam, ailə üçün ağır yük olmaq fikirlərini dağıdır, digər tərəfdən isə onlarda bilik, bacarıq və vərdişlərə yiyələnmək həvəsi, şəxsiyyət kimi formalaşmaq meylini daha da gücləndirir.

Ailə-məişət şəraiti pis olan eşitmə pozulması uşaqda fəallığın aşağı olması ilə yanaşı, həm də bədbinlik, davranışında kobudluq və tənhalığa meyillilik kimi mənfi hallar özünü göstərir. Beləliklə də, şəxsiyyət öz təbiətinə görə sosial varlıq olsa da, özündə bioloji xüsusiyyətləri əxz etmiş bir canlıdır. Buna görə də kar uşaq şəxsiyyətinin inkişafında bir tərəfdən daxili və xarici faktorların, digər tərəfdən isə sosial-bioloji amillərin rolu, insan şəxsiyyətinin bioloji, anadangəlmə inkişafı və onun sosial, qazanılma amillərin təsiri və qarşılıqlı əlaqəsi nəzərə alınmalıdır.

Kar uşağın fərdi-psixoloji xüsusiyyətlərinin təbiəti: temperament, xarakter, bacarıq və maraqları anadangəlmə, bioloji amillərin təsiri altında onun həyat şəraiti, fəaliyyəti və ya təlim-tərbiyə prosesində formalaşır və inkişaf edir. Təbii, bioloji xüsusiyyətlər, baş beyin, sinir sistemi kar uşağın psixi inkişafında, şəxsiyyət keyfiyyətlərinin formalaşmasında zəmin rolunu oynayır. Belə ki, həm b aş beyin, həm də sinir sistemi anadangəlmə bioloji orqan kimi ətraf mühitin dərk olunmasında, şəxsiyyət təzahürlərinin yaranmasında müstəsna əhəmiyyət daşıyır. Təbii xüsusiyyətlər psixi inkişaf üçün əsas şərtlərdən biri olsa da, özü-özlüyündə insanın xarakterini, bacarıqlarını, maraqlarını, əqidə və ideallarını müəyyənləşdirmir. Eyni zamanda şəxsiyyətin heç bir psixi xüsusiyyəti anadangəlmə ola bilməz. Yalnız cəmiyyət və kar uşağın təlim-tərbiyə aldığı mühit şəxsiyyət keyfiyyətlərinin yaranmasında və inkişafında böyük, müstəsna rol oynayır.

Eşidən həmyaşıdları ilə müqayisədə kar uşaq şəxsiyyətinin formalaşması özünəməxsus xüsusiyyətlərə malikdir:

1. Kar uşaq ətrafdakı eşidənlərlə ünsiyyətdə çətinlik çəkdiyi üçün təbii ki, informasiyanın alınıb mənimsənilməsində geri qalır.

2. Eşitmə analizatorunun fəaliyyət pozulması kar uşağın həyat təctübəsini kasadlaşdırır, emosional inkişaf üçün çox gərəkli olan gerçəkliyin akustik real tərəfini (insan səsi, musiqi, quşların nəğməsi və s.) dərk etməyə imkan vermir.

3. Cəmiyyətin sosial təcrübəsinin çox böyük hissəsini birbaşa mənimsəyən eşidənlərdən fərqli olaraq kar uşaqlar xüsusi müəssisələrdə (məktəbəqədər və məktəbdə) təlimə qədərki dövrdə bu təcrübəni mənimsəməsi onların imkanları xaricində olur. Nəhayət, eşidənlərlə ünsiyyət çətinliyi və özünəməxsus qarşılıqlı əlaqə kar uşaq şəxsiyyətinin formalaşmasına xüsusi iz qoymuş olur. Məktəb şəraitində onlarda gələcəyə inam,optimizm yaranır və onlar özləri ilə danışanlar arasındakı fərqləri azaltmaq üçün daha çox sözlü nitqə yiyələnməyə səy göstərirlər. Müəyyən xarakter və şəxsiyyət xüsusiyyətlərinə malik olan kar uşaq yalnız eşidənlərlə özləri arasında fərqi dərk edə bildiyi sosial situasiya şəraitində yaranıb formalaşa bilər. Başqa sözlə desək, normal eşitməsi olan insanlar arasında yaşayaraq özlərinə münasibətdə eşidən həmyaşlarından fərqli yanaşmanı dərk etməklə onlarda müəyyən qədər az və ya çox davamlı xarakter və şəxsiyyət cizgiləri formalaşır.

Kar uşaq şəxsiyyətinin formalaşmasında müəllimin rolu çox böyükdür. Xüsusi məktəb şəraitində müəllim uşaq kollektivi ilə birgə və ona arxalanaraq, eşitməsində pozulmaları olan uşaqların təlim-tərbiyəsini təşkil etməklə bərabər, həm də onlarda şəxsiyyət keyfiyyətlərinin aşılanması üzərində iş aparır. Kar uşaq şəxsiyyətinin tərbiyəsi kollektivin tərbiyəsi ilə sıx əlaqədə olması müəllimin hər iki sahəyə necə rəhbərlik etmə məharətindən və ustalığından çox asılıdır. Müəllim eşitməsində pozulma olan şagirdə münasibətində həmişə humanizmə əsaslanmalı, ona hörmət və məhəbbətlə yanaşmalıdır. Müəllimin əxlaqi siması, davranışı fiziki cəhətdən pozulmaları olan uşaqlarda daha canlı təsəvvürlər yaradır və onlar gündəlik həyatlarında həmin nümunələri təqlid etməyə çalışırlar.

***Allahverdiyeva Günel Ədalət qızı***
*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*
*allahverdi.gunel@bk.ru*

# GÖRMƏ POZULMASI OLAN UŞAQLARIN ŞƏXSİYYƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

***Açar sözlər**: görmə analizatoru, kor və zəif görən uşaqlar, şəxsiyyətin inkişaf xüsusiyyətləri, fəaliyyətin xüsusiyyətləri*

Görmə analizatoru insanın həyatında xüsusi rol oynayır. Çünki insan görmə analizatoru vasitəsilə ətraf mühiti qavrayır, onun haqqında müəyyən təsəvvürlərə yiyələnir. Yəni ona lazım olan məlumatları görmə analizatoru vasitəsilə əldə edir.

Uşaq dünyaya göz açanda artıq görmə vasitəsi ilə ətraf aləmi dərk etməyə başlayır. Lakin bəzi uşaqlar dünyaya gələndə ya anadangəlmə, ya da müəyyən səbəblərdən görmə qabiliyyətini itirirlər. Təbii ki, uşağın görmə qabiliyyətini itirməsi onun bir şəxsiyyət kimi inkişaf edib formalaşmasına öz mənfi təsirini göstərir. Bu analizatorun pozulması uşağın tam bir şəxsiyyət kimi formalaşmasında, eyni zamanda psixikasının inkişafında müəyyən çətinliklərin yaranmasına səbəb olur.

Normal görən həmyaşıdları ilə müqayisədə görmə pozulması olan uşağın şəxsiyyətinin formalaşması, inkişafı özünəməxsus xüsusiyyətlərə malik olur. Bunlara aşağıdakılar daxildir:

**Birincisi**, görmə pozulması olan uşaq ətrafdakı həmyaşıdları ilə ünsiyyətdə çətinlik çəkdiyi üçün informasiyanın alınıb mənimsənilməsində geri qalırlar. Normal görən uşaqlarla ünsiyyət çətinliyi və özünəməxsus qarşılıqlı əlaqə görmə pozulması olan uşağın şəxsiyyətinin formalaşmasında xüsusi iz qoyur.

**İkincisi**, görmə analizatorunun fəaliyyətinin pozulması görmə pozulması olan uşağın həyat təcrübəsini kasadlaşdırır, emosional inkişafı üçün gərəkli olan gerçəkliyin vizual, real tərəfini (predmetlərin rəngarəngliyini, həcmini, ölçü və keyfiyyətlərini) dərketməyə imkan vermir.

**Üçüncüsü**, cəmiyyətin sosial təcrübəsinin çox böyük hissəsini görmə analizatoru vasitəsilə mənimsəyən normal görən uşaqlardan fərqli olaraq görmə pozulması olan uşaqlarda xüsusi müəssisələrdə təlimə qədərki dövrdə bu təcrübənin mənimsənilməsi onların imkanları xaricində olur.

Bilirik ki, korluq və zəifgörmə kimi inkişaf pozulmaları insanın psixikasının və şəxsiyyətinin formalaşmasına öz mənfi təsirini göstərir. Lakin bu təsir ailədə və xüsusi müəssisələrdə təşkil olunan korreksiya işi ilə tənzimlənir. Əgər uşaqların ciddi fiziki çatışmazlıqları varsa, bu zaman onların şəxsiyyət keyfiyyətləri məktəbəqədər və yeniyetməlik dövründə dəyişkən xarakter daşıyır. Ağır görmə pozulmaları olan məktəbəqədər yaşlı uşaqlar öz qüsurlarını və fərqlərini dərketməyə başlayırlar. Lakin məktəb dövründə öz fiziki natamamlıqlarına görə həyəcan keçirirlər. Bununla bağlı pedaqoji-psixoloji şərtlər ayrılır və həmin şərtlər yeniyetmənin şəxsiyyətinin formalaşmasına korreksion-inkişafetdirici təsir göstərir.

Görmə pozulması olan uşaqların kollektivə adaptasiyası böyük əhəmiyyətə malikdir. Şəxsiyyətina adaptasiyasının üç aspekti fərqləndirilir:

1. Əşyavi aləmə şəxsiyyətin adaptasiyası.
2. Sosial mühitə şəxsiyyətin adaptasiyası.
3. Şəxsi “Mən”ə şəxsiyyətin adaptasiyası.

Birinci aspektdə söhbət zəifgörən uşağın müstəqil olmasından gedir, yəni reabilitasiya nəticəsində zəifgörən uşağın əşyalarla müstəqil fəaliyyət göstərə bilməsidir. Bu istiqamət bilik və bacarıqların bərpası və ya formalaşması ilə bağlıdır.

İkinci aspekt görmə pozulması olan uşaqların sosial mühitlə qarşılıqlı əlaqəsi ilə bağlıdır. Yəni görmə pozulması olan uşaqların cəmiyyətə və ictimai həyata cəlb olunması ilə bağlıdır.

Üçüncü aspekt isə adaptasiyasıdır. Bu aspekt cəmiyyətdə şəxsiyyətin qiymətləndirilməsi, öz qüsuruna münasibəti və “Mən”in həyəcan təəssüratları ilə bağlıdır.

Buradan aydın olur ki:

- Görmə pozulması olan uşaqlar öz normal görən həmyaşıdlarından iddia və özünüqiymətləndirmə səviyyəsi ilə fərqlənirlər;
- Onlarda öz qüsurlarına qarşı münasibət adekvat formalaşmır;
- Ünsiyyət monoloq formasında keçir;

Deməli, bu, görmə pozulması olan uşaqların bir şəxsiyyət kimi normal inkişafı üçün korreksiya işinin vacibliyini bildirir.

Belə uşaqlar məktəbə və ya məktəbəqədər müəssisəyə getdiyi zaman onlarda özünəinam formalaşır. Onlar ətrafda olan insanlarla ünsiyyətə girmək üçün daha çox sözlü nitqə yiyələnməyə səy göstərirlər. Yəni görmə pozulması olan uşaqlar normal görən öz həmyaşıdları ilə bir mühitdə olan zaman özləri arasında fərqi dərk etdiyi halda onlarda müəyyən qədər az və ya çox davamlı xarakter və şəxsiyyət cizgiləri formalaşır.

Bizə məlumdur ki, insan cəmiyyətdən, kollektivdən kənarda inkişaf edib formalaşa bilməz. Əsasən də uşaq kollektivdə müəyyən dəyərlərə yiyələnir. Məhz kollektiv şəxsiyyətin inkişafı və formalaşmasında çox böyük rol oynayır. Belə ki, kollektiv görmə pozulması olan uşağın şəxsiyyət çatışmazlıqlarının korreksiyasında böyük rol oynayır. Kollektiv bu uşaqların iradi keyfiyyətləri, fəaliyyəti, davranışı və bacarıqlarının inkişafı üçün müsbət şərait yaradır.

## ƏDƏBİYYAT


1. Hüseynova N.T. İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası. Bakı, 2017
2. Ağayeva T.H. Görmə funksiyalarının pozulması və onun psixokorreksiyası. Bakı, 2017
3. Hüseynova N.T., Rüstəmova L.H. Xüsusi pedaqogika. Bakı, 2006
4. Açıq Cəmiyyət İnstitutu. Uşaq inkişaf metodikası. Bakı, 2009



**Li Yixuan**

*Doctorial student of the Remedial Education Faculty of the*
*Azerbaijan State Pedagogical University*
*2689460251@qq.com*


## CHARACTERISTICS OF PERSONALITY FORMATION IN CHILDREN WITH CONSEQUENCES OF CEREBRAL PALSY

***Keywords:*** *cerebral palsy, speech, development, treatment, activities*

The research of the formation of adolescents and young men with disabilities due to cerebral palsy, their psychological characteristics also will complement the understanding of the role of motor pathology in the formation of the psyche, will allow us to assess the dynamics of personal changes with age, the role of various social factors in this process, and also outline ways of psychological assistance to people with motor skills disorders at different ages.

There are many factors that affect the personality formation of children with cerebral palsy. Thus, comprehensive rehabilitation has an enormous impact on the formation of personality, the main objectives of which in cerebral palsy are: providing children with medical, psychological, pedagogical, speech therapy and social assistance, ensuring the most complete and early social adaptation, general and vocational training. It is very important to develop a positive attitude towards life, society, family, learning and work.

Equally important is the therapeutic pedagogy, in which special teaching methods are combined with therapeutic and recreational activities. The therapeutic and educational work should be complex. An important condition for a complex impact is the coordination of the actions of specialists in various fields: a neuropathologist, a psychoneurologist, a speech therapist, a

defectologist, a psychologist, an educator. Their common position is necessary during examination, treatment, psychological-pedagogical and speech therapy correction.

An essential role in the formation of personality is played by the basic principles of remedial and pedagogical work with children suffering from cerebral palsy.

1.The complex nature of remedial and educational work. This means constant consideration of the mutual influence of motor, speech and mental disorders in the dynamics of the ongoing development of the child. As a result, joint stimulation (development) of all aspects of the psyche, speech and motor skills is necessary, as well as the prevention and correction of their disorders.

2. Early onset of ontogenetically consistent impact based on preserved functions. In recent years, early diagnosis of cerebral palsy has been widely implemented into practice. Despite the fact that already in the first months of life it is possible to identify the pathology of pre-speech development and disorders of orienting and cognitive activity, correctional and pedagogical, and in particular speech therapy, work with children often begins after 3-4 years.

3. Organization of work within the framework of leading activities. The main type of activity for a given age is stimulated during remedial and educational activities.

4. Observation of the child in the dynamics of ongoing psychoverbal development.

5. Close interaction with parents and the whole child's environment. Parents are the main participants in pedagogical assistance with cerebral palsy, especially if the child does not attend an educational institution for one reason or another. In order to create favorable conditions for upbringing in the family, it is necessary to know the characteristics of the child's development, his capabilities and development prospects, follow the correct daily routine, organize targeted remedial classes, form adequate self-esteem and the correct attitude towards the defect, develop the necessary volitional qualities in life.

The main directions of correctional and pedagogical work at early and preschool age are: the development of emotional, speech, subject-effective and game communication with others; stimulation of sensory functions (visual, auditory, kinesthetic perception and stereognosis).

Speech therapy occupies a significant place in the corrective and pedagogical work with cerebral palsy. Its main objectives are: the development (and facilitation) of speech communication, improvement of speech intelligibility; normalization of muscle tone and motor articulation apparatus; development of speech breathing, voice, prosodic; formation of strength, duration, control of the voice in the speech stream; development of synchronization of breathing, voice and articulation; correction of pronunciation disorders.

The formation of personality is influenced by the stay of school-age children in specialized boarding schools. In boarding schools, a unified, holistic approach to the personality of the child is carried out by the teaching and medical staff. Teachers need great tact, knowledge of the children's individual characteristics, and the ability to anticipate their possible reactions to criticism. All this is necessary in order to gradually develop an objective attitude towards the child's capabilities.

Children living in small towns or rural areas are currently deprived of the opportunity to study in specialised institutions. They study either in ordinary public schools or at home, which significantly reduces the quality of learning and makes it impossible to acquire the necessary labor skills.

Work education also has a significant influence on personality formation, which is carried out both in everyday life and in special occupational therapy classes. Vocational guidance for children with cerebral palsy is carried out throughout the entire period of study in order to prepare for a future profession that suits the psychophysical abilities and interests of a teenager. The boarding schools have various workshops: sewing, carpentry and locksmith's workshops. Children are taught paperwork and typing, photography, gardening and other skills.

After leaving school, adolescents continue their vocational training in vocational schools, technical schools or higher educational institutions, for which they are entitled to certain benefits.

**Əfəndiyeva Günəş Əli qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*
*gunes.efendiyeva1953@gmail.com*

## Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA ETNİK PSİXOLOGİYA MƏSƏLƏLƏRİ

***Açar sözlər**: etnik psixologiya, etnopsixoloji fikirlər, adət-ənənə, milli psixologiya, ailə tərbiyəsi, valideyn-övlad münasibətləri, milli xüsusiyyətlər*

Xalqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi probleminin tarixi çox qədim dövrlərdən başlamış, onunla bağlı müxtəlif mövqelər ortaya qoyulmuşdur. Azərbaycan psixoloq və pedaqoqları da milli psixologiyanın öyrənilməsi sahəsində xeyli işlər görmüşlər. Bu sahədə professor Ə.Ə.Əlizadə fəaliyyəti daha geniş və çoxşaxəlidir.

Ə.Ə.Əlizadə yaradıcılığında da etnopsixoloji məsələlər geniş yer tutur. Onun A.N.Abbasovla birlikdə yazdığı "Ailə" dərsliyi, Z.Şirinova ilə birlikdə yazdığı "Nizami Gəncəvinin psixoloji görümləri", "Xəmsə"də yaş və psixologiya məsələləri", "Azərbaycan etnopsixologiyasına giriş" və s. əsərlərini göstərmək olar.

Professor Ə.Ə.Əlizadə etnopsixologiya məsələlərindən bəhs edərkən daha çox sosial mühit və tərbiyə məsələlərinə diqqət yetirir, ictimai mühit və ailə tərbiyəsi arasında birbaşa asılılığın olduğunu göstərir. Onun fikrincə, uşaqların intellektual inkişafı həm də ailənin maddi vəziyyəti ilə bağlıdır. Ə.Ə.Əlizadə göstərir ki, Azərbaycan ailəsində diqqət yetirilən cəhətlərdən biri də uşaqların tərbiyəsində əqli inkişafa üstünlük verilməsidir: "Ağıllı oğlan, ağıllı qız – nağıllarımızda, dastanlarımızda ağız dolusu vəsf olunub" (1, s.194).

Azərbaycanlıların milli xüsusiyyətlərindən bəhs edən Ə.Ə.Əlizadə ilk növbədə valideynlərin ailəyə bağlılığını, övladları üçün mümkün olan hər şeyi etməyə hazır olduqlarını göstərir: "Azərbaycan ailəsinin bənzərsiz dəyərlərində uşaqların tutumlu yeri var. Evin bərəkəti ağsaqqalında, nuru körpəsindədir, – deyib ata-babalarımız. Ailənin affektiv mərkəzi uşaqlarla bağlıdır. Ana da onlar üçün yaşayır, ata da" (1, s.194).

Ə.Ə.Əlizadə yaradıcılığında etnopsixoloji məsələlərə diqqət yetirdikdə, onun bir sistem, bir tam halında öyrənildiyi məlum olur. "Bu və ya digər xalqa məxsus olan psixi və əxlaqi keyfiyyətləri yalnız ümumi dəyərlər sisteminin, həyat tərzinin vəhdətində və daxilində öyrənmək mümkündür" (2, s.221).

Yəni Ə.Ə.Əlizadə yaradıcılığında milli xüsusiyyətlər, ailə tərbiyəsi ailə mühiti daxilində, cinsi tərbiyə və cinsi fərqlərin psixologiyası kontekstində öyrənilir. Eyni zamanda ictimai münasibətlər, sosial mühit, onun təsiri milli xüsusiyyətləri formalaşdırır.

Milli xüsusiyyətlərimizdən bəhs edərkən Ə.Ə.Əlizadə göstərir ki, adət-ənənələrimizin minilliklərlə ölçülən tarixi vardır. Bu, özünü daha çox ailə münasibətlərində əks etdirir. "Hər bir ailənin bənzərsiz həyatında xalqın ruhu, mənəviyyatı yaşayır, elin-obanın adət-ənənələri ilə nəsildən-nəslə verilir. Oğlan tərbiyəsi kimi qız tərbiyəsinin də önəmli qayda-qanunları olub" (3, s.92).

Ə.Ə.Əlizadəyə görə, Azərbaycan xalq psixologiyası Azərbaycan mədəniyyəti ölçüləri ilə ulu əcdadlarımızın güzəran təcrübəsində qaynaqlanıb öz həyatiliyini sübut etmiş, güzəran səviyyəsində özünəməxsus psixoloji biliklər sistemi kimi bərqərar olmuş, əsrlər, qərinələr boyu elimizi-obamızı dolaşmış, şirin dilimiz, bənzərsiz xalq yaradıcılığı abidələrimiz və incəsənət əsərlərimiz vasitəsilə nəsildən-nəslə verilmiş və yaşamışdır. "Bu psixoloji biliklərin həmişəyaşarlılığının özəmli kökləri var. Onlar mürəkkəb və çoxşaxəli psixi hadisələr barəsində xalqın bənzərsiz psixoloji görüşlərini, deyilənlərini və duyumlarını əks etdirir" (4, s.4).

Etnopsixoloji tədqiqatlar baxımından Ə.Ə.Əlizadənin "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri" (Bakı, 2002) adlı əsəri bir neçə aspektdən diqqəti cəlb edir. Bu əsər ilk növbədə təbii ki, Nizami Gəncəvi yaradıcılığının psixoloji təhlili kimi qəbul olunmalıdır. Digər bir cəhət Nizami dövrünün dərk olunması ilə bağlıdır.

Ə.Ə.Əlizadə bununla bağlı yazır: "XII əsr Azərbaycan renessansı dövrüdür və bu dövrün böyük uğurları böyük Nizami Gəncəvinin adı ilə bağlıdır. "Xəmsə" dünya ədəbiyyatı və mədəniyyətinin əzəmətli abidəsidir" (3, s. 4).

Ə.Ə.Əlizadəyə görə, Azərbaycan xalqının təfəkkürü iki önəmli fenomeni – konkretliklə mücərrədliyin kökündə qaynaqlanır. Digər bir cəhət isə insani münasibətlərlə bağlıdır. Münasibətlərin özünəməxsus xüsusiyyətlərindən bəhs edərkən Ə.Ə.Əlizadə bunu atalar sözlərində axtarır. Göstərir ki, atalar sözləri etnopsixoloji fikrin ənənəvi formasıdır. Atalar sözləri xalqın dünya duyumunu ehtiva edir, dünyanın etnopsixoloji mənzərəsi kimi güzəran təcrübəsində, bir tərəfdən soydaşların, həmkəndli kişi və qadınların, oğlan və qızların qavranılması və qiymətləndirilməsində, digər tərəfdən elin, obanın mənəvi dünyasının əks olunmasında özünü göstərir.

Göründüyü kimi, Ə.Ə.Əlizadə yaradıcılığı bir tərəfdən Azərbacanda elmi psixologiyanın inkişafında, inkişaf etmiş ölkələrin psixoloqlarının ideyalarının Azərbaycan psixologiya elminə gətirilməsində, eləcə də Azərbaycan psixologiya elminin xarici ölkələrdə təmsil olunmasında, təbliğində müstəsna rolu olmuşdur.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan,1998, 364 s
2. Сеидов С.И. Феноменология творчества Баку: Чашыоглы, 2009, 304 с.
3. Əlizadə Ə.Ə. "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri. Bakı: Renessans, 2002, 141 s.
4. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.



**Гусейнов Эльмар Афис оглы**

*проф. кафедры общей психологии Азербайджанского государственного педагогического университета*


## ПСИХОЛОГИЧЕСКАЯ ИНТЕРПРЕТАЦИЯ УРОВНЯ ПРИТЯЗАНИЙ, КАК ГЕНЕРАЛИЗОВАННОЙ ЧЕРТЫ ЛИЧНОСТИ СТУДЕНТОВ


***Ключевые слова:*** *психология, практика, влияние, уровень притязаний, личность, студент, высота, устойчивость, мотивация*


В психологической литературе многие исследователи придерживаются мнения о том, что основным свойством от которого зависит формирование личности студента в процессе влияния успеха и неудачи, это уровень притязаний, что является динамикой, базирующейся на ситуативном соотношении успеха и неудачи. Однако имеются авторы, склонные к противоположной точке зрения. Анализируя многочисленные результаты в области исследования притязаний, они приходят к убеждению о наличии достаточных оснований для интерпретации уровня притязаний как генерализованной черты личности [4, с.66-69].

Исследователь А.А.Ализаде, который являлся ведущим специалистом в республике в области проблематики развития психологии личности обучаемых, в ходе эксперимента обнаружил важную закономерность: если человек достигает ожидаемого результата, то уровень его притязаний растёт; после же неудачи этот уровень снижается. Большую методологическую ценность имеют его суждения о понятиях «ожидание» и «притязания», об их общих признаках и отличительных особенностях. А.А.Ализаде пишет, что согласно современному представлению, уровень ожидания человека определяется достигнутым результатом (целью), в то время как уровень притязаний выражается в отношении к достигнутому результату [2, с.80-84]. Уровень реализации притязания значительно влияет

на психологическое состояние удовлетворенности человека, но и сам, в свою очередь, характеризуется указанным феноменом.

Результаты нашего исследования показали, что завышенный уровень притязаний студентов не всегда может возвращаться к адекватному уровню притязаний при введении испытуемого в ситуации неуспеха (наблюдалось это примерно у 30% обследованных студентов), поскольку студенты склонны считать успехи результатом своих усилий, а неудачи объяснять сложившимися обстоятельствами. Для преодоления заниженного уровня притязаний следует создать условия, в которых они достигают желаемых ими результатов. На этой основе у них появится уверенность полноценности своих способностей, что позволит им воспринимать жизненные неудачи не как свидетельство собственной несостоятельности, а как побуждение к мобилизации волевых и интеллектуальных сил. В ходе исследования мы выявили зависимость уровня притязаний от знаний, успеваемости студентов. Из анализа вытекают следующие выводы: 1) хорошо успевающие предпочитают выбирать задачи средней трудности, объясняя это тем, что сначала надо попробовать себя на средних, а потом уже выбирать более трудные. Уровень притязаний у них средний (таковых оказалось 28,5% от общего числа студентов – юношей); 2) средне успевающая группа выбирает легкие задачи, мотивируя это тем, что надо выбирать легкие, а потом трудные. У одних из них пониженный уровень притязаний, но большинство имеет средний уровень притязаний (среди испытуемых студентов они составили 44,7%); 3) слабые студенты составляют тоже неоднородную группу, но они менее критичны и обнаруживают тенденцию переоценивать свои возможности (их оказалось 26,8%).

Анализ показал, что качества мышления, логика, наблюдательность, которые проявились в тестировании, оцениваемые как показатели обще-интеллектуального развития личности, проявлялись по-разному при каждом подходе у испытуемых. Студентки, искусственно поднимали свой уровень притязаний, и в итоге получали отрицательный результат.

В студенческом возрасте, особенно в 18-20 лет, отмечается повышенная обобщенность мышления. Обобщенность мышления, включающая в себя мыслительные процессы абстрагирования и синтезирования, обычно особенно велика в структуре интеллекта студенчества.

Изучение свободы целеуказаний в формировании уровня притязаний наших испытуемых выявило некоторые конкретные особенности. Так, по нашим данным, среди всех участников исследования 84 студента и 48 студенток показали невысокий, устойчивый и адекватный уровень притязаний, а 41 студент и 77 студенток показали высокий, неустойчивый и неадекватный уровень притязаний.

Анализ показал, что из общего числа участников мужского пола 67% показали адекватный, устойчивый, невысокий уровень притязаний. Остальные 33% участников показали неадекватный уровень притязаний, имея большой процент целевого расхождения.

В то же время из общего числа участниц исследования 62% показали неадекватный, неустойчивый уровень притязаний, имеющий большой процент целевого расхождения. Остальные 38% участниц имели адекватный, невысокий, устойчивый уровень притязаний.

Анализ, далее, показал, что подъем и снижение уровня притязаний личности влияет на формирование у студента знаний о самом себе, о своих способностях, возможностях своего интеллектуального, физического развития. Стремление к предельно возможным достижениям и понижение притязаний из-за опасения неудачи – это конфликт честолюбия и боязни, присущий представителям как мужского, так и женского пола. В этой связи необходимо привести выбор цели в соответствии с адекватными возможностями личности. Преобладание мотива избегания неудачи, провоцируемое выбором слишком легких заданий, должно не сводиться к ускоренному росту уровня притязаний, а к его оптимизации – уравновешиванию.

## ЛИТЕРАТУРА


1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 368 s.
2. Гусейнов Э.А. Психологические особенности формирования личности студента. Махачкала: ДГУ, 2006, 55 с.
3. Гусейнов Э.А. Особенности половых различий в процессе формирования уровня притязаний личности, Автореферат дисс. … канд. псих. наук. Баку, 2000, 24 с.
4. Тихомиров О.К. Исследование целеобразования // Вест. Моск. ун-та. Серия Психология. М.; 1980, №1, с.47-54



**Ağasiyeva Yaqut Tahir qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının müəllimi*
*ququ-85@mail.ru*


## AİLƏ UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ƏSAS MÜHİT KİMİ

***Açar sözlər**: ailə, şəxsiyyət, tərbiyə, psixoloji iqlim, şəxsi nümunə*

Ailə uşağın şəxsiyyət kimi formalaşmasında ilk mühit kimi qəbul olunur. Uşaq inkişafını ailədən kənarda təsəvvür etmək çətindir. Uşaqlar və valideynlər arasındakı qarşılıqlı münasibətlər, valideynlərin öz aralarındakı qarşılıqlı münasibətlərin xarakteri, ailənin həyat tərzi, sağlamlığı, əmin-amanlığı, xoşbəxtliyindən asılıdır. Psixi sağlam uşaq yalnız psixoloji iqlimi sağlam evdə mümkün olur. Uşağın rifahını ailədə xeyirxah iqlim, xeyirxah münasibətlər təmin edir, hansı ki, bunlar uşağa müdafiə hissi bəxş edir və onun inkişafını stimullaşdırır.

Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biridir, valideynlərin isə ən mühüm vəzifələrindəndir. Çətin uşaqlar haqqında danışdıqda, qeyd etməliyik ki, onların da valideyni var. Lakin valideynlərin öz-özlüyündə xeyirxah arzularından asılı olmayaraq, bir evdə yaxşı, digərində isə pis uşaq böyümüşdür. Son illər valideynlərin ailə tərbiyəsi haqqında fikirlərini öyrənmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Alimlər müəyyən etmişlər ki, ata-anaların bir çoxunun ailə tərbiyəsi haqqındakı bilikləri çox ümumi, hətta bəzən səthi xarakter daşıyır. Valideynlər öz vəzifələri kimi uşağın maddi təminatında, yedirtməkdə, xəstələnəndə sağaltmaqda görürlər. Belə valideynlər ailə tərbiyəsinin ən sadə məsələlərini belə yoluna qoymaqda çətinlik çəkirlər. Yeniyetməlik dövründə isə uşaqların tərbiyə məsələsində aciz qalırlar. Xüsusilə gənc ailələrdə uşaqların tərbiyəsi sahəsində biz ciddi nöqsanlara rast gəlirik. Onlar, əlbəttə, təsadüfi xarakter daşıyır və müəyyən səbəblərlə bağlıdır. Bu haqda aydın təsəvvür əldə etmək üçün bəzi məsələləri xüsusilə göstərmək gərəkdir. Uşağın gələcək kişi və qadın kimi formalaşmasının əsasları da ailədə qoyulur. Qızlar qadınlıq etalonlarını hər şeydən əvvəl ana ilə dialoq şəraitində mənimsəyirlər. Oğlan uşaqlarına isə kişiyə məxsus xarakter əlamətləri, xüsusilə iradi keyfiyyətlər aşılanır. Azərbaycan xalqının "ruhunu" ifadə edən folklor nümunəsi – "Kitabi-Dədə Qorqud" dastanında deyildiyi kimi, "Oğul atadan görməyincə, öyüd almaz, Qız anadan görməyincə süfrə açmaz". Bu əsasda onlarda təmkinlilik, dözümlülük, mərdlik və s. keyfiyyətlər tərbiyə olunur. Atanın bir kişi, ananın isə qadın kimi nümunəsi uşaqların oğlan və qız kimi formalaşmasında eyni dərəcədə zəruridir. Bu baxımdan valideynlərin uşaqlarına münasibətinin xarakteri də əhəmiyyətlidir. Oyuncaqları ilə qızlar «evcik-evcik» oynayar, gəlinciyini bələyər, layla çalar, yatırardılar. Beləliklə, qızlar böyüyər, öz kiçik bacı-qardaşlarına qulluq edərdilər. Bu minvalla onlarda analıq hikməti baş qaldırardı. Elə ailələr olur ki, uşaqlar arasında ayrı-seçkilik qoyulur. Uşaqların biri və ya ikisinə o birilərinə nisbətən daha çox qayğı göstərilir. Hansısa uşaq sevilir, o birisi isə daim danlanır. Uşaq valideynin sevgisini hiss etmir. Əksinə, valideynin aqressiyası ona qarşı yönəlir. Bu halda uşaqlar arasında münasibətlərdə qısqanclıq, rəqabət kimi hisslər formalaşır.

Ailə həyatı şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərir. Məlumdur ki, insanın xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Heç bir ailədə uşaq kor-koranə, kortəbii şəkildə tərbiyə edilmir. Bununla belə, valideynlərin bir qisminin məqsədləri çox vaxt aydın xarakter daşımır, dəqiq olmur. Bu, uşaqların ailə tərbiyəsi işinə böyük ziyan vurur. Lakin qeyd etmək lazımdır ki, ata-ananın böyük əksəriyyətinin öz qarşısına qoyduqları məqsədlər dəqiqliyi ilə seçilir. Bu zaman o, öz "tərbiyə üsullarının" nəticələrini əslində görmür, özünün atalıq və analıq borcunu psixoloji baxımdan düzgün qiymətləndirə bilmir. Buna isə təəccüb etmək lazım deyil. Ailə psixologiyasını kim öyrədir? Demək olar ki, ailə tərbiyəsi məsələlərini biz özümüz başqalarına – uşaq vaxtı ata və anamıza, sonralar isə qonum-qonşuya baxa-baxa çox vaxt onların səhvlərini təkrar edə-edə öyrənirik. Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə uşaqların min bir tellə bağlı olduğunu ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz.

Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yolverilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir. Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Uşaqların yanında mübahisə açmamaq, açıq söhbət üçün münasib vaxt tapmaq, həyat yoldaşının etiraz və iradlarına diqqətlə qulaq asmaq, onun bütün "dəlil-sübutlarını" aydınlaşdırmaq, mübahisəli məsələləri ağıllı surətdə həll etmək, həmişə xeyirxah mövqe tutmaq vacibdir. Çünki gələcəkdə quracağı ailənin nümunəsini də uşaq öz ailəsindən götürür.

**Əfəndiyeva Teybə Aslan qızı**
*ADPU-nun Şamaxı filialının müəllimi*

## ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU

***Acar sözlər:*** *şəxsiyyət, özünüqiymətləndirmə, formalaşma, xüsusiyyət, inkişaf, şagird, tədris prosesi*

İnsanın özünüqiymətləndirməsinin başlanğıcı uşaqlıqdan qoyulur. Uşaq müqayisələrin mahiyyətini dərk etməyi öyrənir, özünəhörməti inkişaf etdirir. Valideynlər uşaqlarının irəliləyişinə diqqətli olmalıdırlar, onlara başqalarının daha yaxşı olduğunu söyləmək motivasiya deyil. Yeniyetmə düşünməməlidir ki, qohumları onu yalnız həmyaşıdlarını ötdükdə sevirlər. Onun dəstəyə və inanca ehtiyacı var. Amma tərif adekvat təkəbbür formalaşdırmağa kömək etmir. Böyüklər uşağı təriflə böyüdüblərsə, yetkinlik bitdikdən sonra o, inkişaf etməyəcək və çatışmazlıqları aradan qaldırmayacaq. Həddindən artıq təriflər və yaltaqlıq, yetkinlik dövründə bir insanın ünsiyyətsiz olmasına kömək edir. Bu davranış valideyn hərəkətləri ilə sərt reallığın birləşməsinin nəticəsidir.

Şagirdlərin şəxsiyyətinin formalaşması psixologiyasına, onun spesifik cəhətlərinə dair bir sıra maraqlı əsərlərdə digər elm sahələrindəki problemlərin öyrənilməsi ilə əlaqədar olaraq fərdlərin iddia səviyyəsinə dair suallar qaldırılır və həll olunur. Beləliklə, məsələn, bu suallar hörmət səviyyələri ilə istəklər arasındakı uyğunsuzluq indeksinin nəzərə alınması, kiçik şagirdlər arasında təhsildə çətinliklərlə hədəf seçilməsinin xüsusiyyətləri, münasibətlərin təsiri ilə əlaqəli zehni inkişaf səviyyələri olan şagirdlər arasında, fərdin özünü təsdiqləməsi, sinir sisteminin xüsusiyyətləri və temperamentlə əlaqələndirir.

Özünə hörmətlə bağlı problemlər ətraf mühitin, maddi vəziyyətin, təhsilin təsiri altında yaranır. Məktəbdə özünəinamın azalması baş verir. Əgər yeniyetməlik dövründə bir insan təhsil

müəssisəsində zorakılığa məruz qalmışsa, o, bütün həyatı boyu komplekslər və fobiyalarla mübarizə aparacaq. Özünə şübhə, maliyyə vəziyyətinin uğurluğu insanlarla müqayisəsini gücləndirir. Amma heysiyyət ömür boyu sürməyən, daim dəyişən bir göstəricidir. Öz bacarıq və keyfiyyətlərini qiymətləndirərək insan özünəhörmətin hər iki komponentini birləşdirir, onları bir-birindən ayırmaq mümkün deyil. İnsan başqaları ilə ünsiyyət qurarkən özü haqqında fərdi biliklər alır, sonra bu ünsiyyətin fərd üçün nə qədər məna kəsb etməsindən asılı olaraq emosiyalar yaranır.

Hər bir insanın komponentləri müxtəlif yollarla formalaşır. Psixoloqlar iddia edirlər ki, onlar inkişaf etdirilə bilər:

- Yüksək səviyyə – uşaq real keyfiyyətlər əsasında özü haqqında fikir formalaşdırır.
- Orta səviyyə real özünüqiymətləndirmələrin uyğunsuz təzahürlərinə meyil ilə xarakterizə olunur. Bir insan başqalarının fikirlərini rəhbər tutur, konkret faktları və vəziyyətləri təhlil edir.
- Aşağı səviyyə – bu vəziyyət fərdin qabiliyyətlərinin qeyri-adekvat qiymətləndirilməsi ilə müşayiət olunur.

Özünəhörmətin qeyri-sabit parametrləri özünüidarəetmənin pozulmasına, özünüidarəetmənin pisləşməsinə səbəb olur.

Yanlış özünüqiymətləndirmə özünü idarəetməni pozur və nəzarətin itirilməsinə səbəb olur. Bu, ünsiyyət zamanı özünəhörməti yüksək və ya aşağı olan bir insanın münaqişələrə səbəb olduğu zaman görünür. Əgər insan özünü başqalarından üstün hesab edirsə, deməli, başqalarına etinasız yanaşır və hörmət göstərmir, özünü sərt və əsassız tənqid etməyə yol verir, fikirlərə dözümsüzdür, təkəbbürlüdür, təkəbbür göstərir. Tənqidliyin aşağı səviyyəsi, insanın təkəbbür və mübahisəsiz mühakimələrlə başqalarını necə incitdiyini belə hiss etməməsinə səbəb olur.

Özü haqqında aşağı fikrə malik olan şagirdlər həddindən artıq tənqidi olur. O, tələbkardır, və səhvləri bağışlamır, digər insanların çatışmazlıqlarına diqqət çəkir. Bunu ən yaxşı niyyətlə etsə də, hər kəs sistemli göstərişlərə və tənqidlərə dözə bilmədiyi üçün münaqişələrə səbəb olur. Tədricən başqalarında yalnız mənfi emosiyaların yaranmasına səbəb olur.

## ƏDƏBİYYAT


1. Abbasova Q.Y., Mahmudova R.Ə., Əlizadə H.Ə., Təhsilin sosial-pedaqoji məsələləri, Bakı, 2008, 202 s.
2. Bayramov Ə.S., Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı: Azərnəşr, 10981, 190 s.
3. Cabbarov R.V., Şəxsiyyətin formalaşmasında özünügerçəkləşdirmənin rolu, Psixologiya – jurnalı, Bakı, 2008, №2, s. 55-66.
4. Əliyev B.H., Şəxsiyyət probleminə yeni baxış //Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları, Bakı: Renesans, 1998, s. 1.
5. Əliyev R.İ., Şagird şəxsiyyətinin formalaşmasının etno-psixoloji əsasları, Dok.dis., B., 2004, 269 s.
6. Əlizadə Ə.Ə., Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, Bakı: Ozan, 1998, 368 s.
7. Hüseynov E.A., Tədris fəaliyyəti prosesində tələbə şəxsiyyətinin formalaşması – psixoloji problemin tədqiqi // Bakı Slavyan Universitetinin ELMİ ƏSƏRLƏRİ, Bakı, 2020, №1, s.61-67

**Эстрова Сабина Тофик кызы**
*Бакинский государственный университет*
*sabinaestrova@mail.ru*

# ВЫЯВЛЕНИЕ КАЧЕСТВ, ПРЕПЯТСТВУЮЩИХ ЭФФЕКТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ ИНСТРУКТОРА -ДИСПЕТЧЕРА УПРАВЛЕНИЯ ВОЗДУШНЫМ ДВИЖЕНИЕМ

***Ключевые слова:*** *инструктор-диспетчер УВД, негативные качества, опросник экспертных оценок, профессиональная деятельность*

Безопасность полетов напрямую зависит от авиационных специалистов, осуществляющих свою работу. Диспетчеры УВД (управления воздушным движением), наряду с пилотами и другими специалистами являются не менее важным звеном в цепочке безопасности. В последние годы качественно изменился подход к процессу обучения диспетчеров УВД. Наметилась тенденция заострять внимание не только на знаниях и умениях инструктора, но и его личностных качествах. Усилилось внимание ко взаимодействию стажера-диспетчера и инструктора в процессе обучения.

Становятся очевидными пробелы в системе отбора кандидатов на должность инструктора-диспетчера УВД: в настоящее в системе отбора при назначении на должность руководствуются мнениями других, опытных инструкторов - диспетчеров и руководящего состава предприятия, а также вынужденной необходимостью наличия в каждой смене своего инструктора. Так, основным критерием при отборе выступает уровень знаний будущего инструктора-диспетчера УВД. Также отсутствуют четкие характеристики психологических качеств, необходимых для успешной деятельности инструктора, а также негативных личностных качеств, препятствующих эффективному осуществлению инструкторской деятельности. Наряду с тем, в документе ИКАО (International Civil Aviation Organization) 9868 [2] излагаются рекомендации, касающиеся личности диспетчера-инструктора УВД. При разработке программ квалификационной системы подготовки предлагается уделять внимание наличию у инструкторов навыков наставничества, сотрудничества, а также этики и добросовестности.

Целью этого исследования является определение негативных характеристик диспетчеров-инструкторов УВД, препятствующих его работе, а также разработка методов, осуществляющих эту задачу.

Анализ литературы по данной теме показал существующие пробелы в области исследования личности инструктора-диспетчера УВД. Так, J.A.Updergrove и S.Jafer изучали учебный процесс Академии УВД Федерального управления гражданской авиации [3], Koskela и Palukka исследовали вмешательство инструктора в работу стажёра как учебную стратегию в обучении авиадиспетчеров [1], Немлий Л.С. - формирования педагогической компетентности будущих диспетчеров – инструкторов управления воздушным движением [4].

**Методика исследования**

Исследование проводилось на основании анализа имеющейся литературы, наблюдения за работой действующих инструкторов – диспетчеров УВД на тренажёре и анкетирования методом экспертных оценок. В экспертную группу вошли действующие диспетчеры – инструкторы УВД, руководители полётами и асессоры, как мужского, так и женского пола, возрастом 35-65 лет. На основании опросника экспертных оценок в ходе исследования было выявлено 9 негативных личностных качеств, которые могут препятствовать эффективному осуществлению инструкторской деятельности. Результаты представлены в *таблице 1.*

| № | **Качество, препятствующее эффективной профессиональной деятельности** | **Средний балл по качеству, исходя из оценки группы экспертов** |
|---|---|---|
| 1 | Безответственность | 9,8 |
| 2 | Нерешительность | 9,8 |
| 3 | Неспособность к прогнозированию и анализу ситуации | 9,8 |
| 4 | Агрессивность | 9,6 |
| 5 | Психическая и эмоциональная неуравновешенность | 9,5 |
| 6 | Нетерпеливость | 9,4 |
| 7 | Отсутствие склонности к работе с людьми | 9,3 |
| 8 | Тревожность | 9,3 |
| 9 | Низкий уровень интеллектуального развития | 9,3 |

***Табл. 1 Качества, препятствующее эффективной профессиональной деятельности***

На основании полученных результатов, делается вывод при назначении на должность инструктора – диспетчера УВД, учитывать личностные качества специалистов и, в первую очередь, не допускать к этой работе диспетчеров, проявляющих следующие качества: *безответственность, нерешительность, неспособность к прогнозированию и анализу ситуации, агрессивность, психическая и эмоциональная неуравновешенность, нетерпеливость, отсутствие склонности к работе с людьми, тревожность, низкий уровень интеллектуального развития*. Также следует разработать методики, позволяющие заблаговременно выявить у кандидатов на должность качества, препятствующие эффективной профессиональной деятельности инструктора-диспетчера УВД.

## ЛИТЕРАТУРА


1. Koskela I., Palukka H. (2011). Trainer interventions as instructional strategies in air traffic control training. Journal of Workplace Learning 23(5):293-314 DOI:10.1108/13665621111141902
2. Procedures for Air Navigation Services — Training Doc 9868. (2020) Third Edition. International civil aviation organization, Montréal
3. Updegrove J.A., Jafer S. (2017). Optimization of air traffic control training at the Federal Aviation Administration Academy// Aerospace. Vol. 4, iss. 4. Retrieved from: https://www.mdpi.com/2226-4310/4/4/50.
4. Немлий Л.С. (2014). Подготовка и проведение эксперимента формирования педагогической компетентности будущих диспетчеров – инструкторов управления воздушным движением. Журнал «Актуальные проблемы гуманитарных и естественных наук», Киев, № 1-2, с.114-117

**Mansurova Sevda İbrahim qızı**
*psixologiya üzrə fəlsəfə doktoru*
*Bakı Slavyan Universiteti*
*mansurova_sevda@mail.ru*

## ETNOPSİXOLOJİ AMİLLƏRİN ŞƏXSİYYƏTİN İNKİŞAFINA TƏSİRİ

***Açar sözlər:*** *ailə, etnos, cəmiyyət, elm, problem, faktor*

Fərdin şəxsiyyət kimi inkişafında bir sıra amillərin rolu vardır. Bu amillərə bioloji amillər, sosial amillər və tərbiyəni aid edə bilərik. Psixologiya elminin inkişaf tarixinə nəzər salsaq, endogen və ekzogen nəzəriyyənin tərəfdarları bu amillərin birinin və ya digərinin uşaq şəxsiyyətinin inkişafında daha aparıcı rol oynadığını qeyd etmişlər. Bildiyimiz kimi, psixika təkcə irsi imkanlara sahib deyil. O, insanın fenotipi və genotipi ilə birgə irsi imkanların gerşəkləşməsi nəticəsində yaranır. Eyni zamanda şəxsiyyətin psixi inkişafına təsir göstərən ən önəmli amillərdən biri də ətraf mühitdir. Fərdin doğulub böyüdüyü mühitin şəraiti, iqlimi, coğrafi mövqeyi, adət-ənənələri, milli-mədəni dəyərləri, bir sözlə, mentaliteti onun inkişafını şərtləndirir.

Uşağın bir şəxsiyyət kimi inkişafı ilk olaraq ailədən başlayır və normal psixi vəziyyətinin formalaşmasında valideynlərin müstəsna rolu vardır. Artıq valideyn olan ər-arvad münasibətlərini elə qurmalıdırlar ki, onların davranışı və bütünlükdə həyat tərzi uşaq şəxsiyyətinin formalaşmasına müsbət təsir etsin. Belə bir tərbiyə prosesi olduqca şüurlu hesab edilə bilər, çünki insanın davranışı, digər insanlara münasibəti üzərində daimi nəzarət, ailə həyatının təşkilinə diqqət uşaqların hərtərəfli və ahəngdar inkişafı üçün ən əlverişli şəraitdə böyüməsinə imkan verir.

Azərbaycan psixoloqlarının əsərlərində bu problemin həllinə xüsusilə diqqət yetirilmişdir və bu sahədə çoxsaylı araşdırmalar mövcuddur. Bu araşdırmalardan Ə.Əlizadə, Ə.S.Bayramov, Ə.Abbasov, N.Z.Çələbiyev, L.M.Qurbanova və s. alimlərin əsərlərini göstərə bilərik. Onlar öz araşdırmalarında ailənin psixoloji və pedaqoji aspektlərini, onun etik prinsiplərini, Azərbaycan ailələrində uşaqların inkişafının və formalaşmasının milli xüsusiyyətlərini nəzərdən keçirmişlər.

Bildiyimiz kimi, kiçik bir sosial institut kimi ailə ən məhsuldar tərbiyəvi mühitdir. Ailənin əsas tərbiyə imkanları hər şeydən əvvəl valideynlərin və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. Buna baxmayaraq, ailənin strukturu, onun tərkibində qarşılıqlı münasibətlərinin vəziyyəti, valideyn statusları ilə bağlı bəzi amillər ailənin tərbiyəvi qabiliyyətinin azalmasına yol aça bilər. Belə mənfi nüanslar uşaqların davranışında pozuntulara səbəb ola bilər və eyni zamanda onların bir şəxsiyyət kimi formalaşmasına və inkişafına mənfi təsir göstərə bilər.

Ailə, bildiyimiz kimi, mənəvi-psixoloji baxımdan uşağın təməl inkişafının özülüdür. Uşaqların gələcəkdə insanlara, xalqına, vətəninə münasibətinin məhz hansı istiqamətdə olmasının təməli də məhz burada qurulur. Çünki ailə mənsub olduğu mentalitetin bütün dəyərlərini özündə daşıyır. Məxsus olduğu xalqın etnik milli xüsusiyyətlərinin uşaqlara birbaşa ötürülməsinin, eyni zamanda onlarda milli-mənəvi dəyərlərin formalaşmasının ən önəmli vasitəsi də ailə tərbiyəsidir. Uşaqlarda xeyirxahlıq, saflıq, maddi və mənəvi dəyərlərə hörmətlə yanaşılmaq haqqında təsəv-vürlər məhz ailədə yaranır. Uşaq yaxınlarına qarşı mərhəmət, sevgi, dost, borc, məsuliyyət, ədalət hisslərini öyrənir. Bu kimi hisslərin və xüsusiyyətlərin inkişafına təbii ki, ailə tərbiyəsinin təsiri böyükdür.

Ailədə şəxsiyyətlərarası münasibətlərin aktuallığı və onların şəxsiyyətin formalaşmasına və uşaqların davranışına təsiri baxımından, eyni zamanda uşağın emosional müvazinəti və psixi sağlamlığı üçün ailə mühitinin sabitliyi çox vacib amil hesab olunur. Ailənin "keyfiyyəti", onun tərbiyə qabiliyyəti böyük əhəmiyyət kəsb edir. Tərbiyə edə bilməyən ailə uşağın sosiallaşması prosesində ciddi pozuntulara səbəb olur.

Uşaq üçün böyüklərin münasibətinin ən məqbul növünü valideynin uşağın fərdiliyini qəbul etməsini və ona hörmət etməsini, onun maraq və planlarını bəyənməsini, onunla əməkdaşlıq etməsini, ona kömək etməsini, intellektual və yaradıcılıq qabiliyyətlərini yüksək qiymətlən-dirməsini, təşəbbüs və müstəqilliyi təşviq etməsini, onunla bərabər olmağa çalışmasını

adlandırmaq olar. Ailənin strukturu elə qurulmalıdır ki, ailə münasibətləri elə təşkil olunmalıdır ki, həmin ailədə doğulub, böyüyən uşağın tam bir şəxsyyət kimi formalaşmasına və inkişafına əngəllər yaranmasın. Ailənin natamam olması, valideynlərdən birinin və ya hər ikisinin pis vərdişlərinin olması, psixoloji problemlərinin olması, ailədaxili qarşılıqlı münasibətlərin düzgün qurulmaması, aqressiv, şiddətə meyilli davranışların olması və s. bu kimi neqativ halların mövcudluğu qeyri-sağlam ailədən xəbər verir. Təbii ki, belə şəraitdə böyüyən uşağa ailənin psixoloji cəhətdən sağlamlıq səviyyəsi təsir edəcəkdir. Qeyri-sağlam ailədə böyüyən uşaqlar isə cəmiyyət üçün sağlam şəxsiyyət kimi yetişməyəcəkdir.

Ə.Ə.Əlizadənin sözləri ilə desək, "bir halda ki, biz şəxsiyyət anlayışı ilə insanı ictimai varlıq, cəmiyyətin üzvü kimi səciyyələndiririk, o zaman zəruri surətdə məsələyə "Cəmiyyət və şəxsiyyət" problemi aspektində yanaşmalı, insanın cəmiyyətdə həyatını öyrənməliyik". Bu baxımdan yaşadığımız cəmiyyətin normalarına, tələblərinə, qayda-qanunlarına, adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə sadiq şəxsiyyət yetişdirmək istəyiriksə, öz etnosumuzun mental dəyərləri çərçivəsində ailə dəyərlərimizi qoruyub saxlamalı, bu mühitdə uşaqlarımızı tərbiyə etməli və sağlam şəxsiyyət kimi yetişdirməliyik. Belə ailələrin çoxluğu cəmiyyətə də mütləq şəkildə təsir etməkdədir. Cəmiyyət də öz növbəsində şəxsiyyət üçün təkcə xarici mühit deyil. Şəxsiyyət cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlər sisteminə daxil olur, mövcud etnik, milli dəyərlərə sahiblənir və bu əsasda onun bir şəxsiyyət kimi özünəməxsus xassələri inkişaf edir və formalaşır.

**Qəhrəmanova Kamalə Kamal qızı**
*BDU-nun Pedaqogika kafedrasının dosenti, psixol.ü.f.d.*
*gahramankamala@gmail.com*

## MƏDƏNİYYƏT-ŞƏXSİYYƏT MÜNASİBƏTLƏRİ

***Açar sözlər:*** *şəxsiyyət, xalq, mədəniyyət, təcrübə*

Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayan, fəaliyyət göstərən, ünsiyyətə girməyi bacaran, öz həyatını müstəqil şəkildə idarə edən və bunun üçün tam məsuliyyət daşıyan bir insandır. Şəxsiyyət fərdin öz daxili və xarici mühiti ilə qurduğu, digər fərdlərdən fərqlənən, fərdi xüsusiyyətlərinin cəmi, ardıcıl münasibət forması kimi ifadə oluna bilər. S.L.Rubinşteynin tərifinə görə, şəxsiyyət "real dünya ilə real münasibətlərə daxil olan spesifik, tarixi, canlı fərddir. Bütövlükdə insan üçün əhəmiyyətli, müəyyənedici, aparıcı bioloji deyil, onun inkişafının sosial qanunauyğunluqlarıdır " (Rubinshtein S. L.).

Şəxsiyyətin formalaşması, inkişafı və dəyişməsi öyrənmə, irsiyyət və ətraf mühit kimi bir çox fərqli amillərlə əlaqələndirilir. Şəxsiyyət həm təbii, həm də öyrənilmiş təcrübələrdən ibarətdir. Həyat təcrübəsi də şəxsiyyətin formalaşmasına təsir edən mühüm amildir. Fərdin uşaqlıqdan yaşadığı və qazandığı təcrübələri fərdlərin davranışlarında və dolayısıyla şəxsiyyətlərində də əks olunur. Ağıllı, istedadlı, həvəsli, introvert, nüfuzlu, döyüşkən, iddialı şəxsiyyət xüsusiyyətləridir. Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək fərdin özünəməxsus simasının yaranması prosesidir. Məhz bu iərarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir (Prof. B.Əliyev).

Şəxsiyyətə təsir edən amillər çoxcəhətli və mürəkkəbdir. Müxtəlif nəzəriyyəçilərin fikrincə, şəxsiyyətin formalaşmasına təsir edən bu amillərin sayı və əhəmiyyət dərəcəsi müxtəlif ola bilər. Fərdin bioloji-fizioloji quruluşu, fərdin sosial quruluşu və sosial sinif xüsusiyyətləri, yaşadığı coğrafiya, irsi xüsusiyyətlər, qrup üzvü və ailəsi kimi faktorların təsiri ilə şəkillənir. (Ərdoğan, 1994).

Şəxsiyyətə təsir edə biləcək mühüm faktorlardan biri də mədəniyyətdir. Biz mədəniyyəti ideyalar sistemi kimi və fərdi bu ideyalar sisteminin daşıyıcısı hesab etdikdə, mədəniyyət şəxsiyyətin formalaşmasına təsir edir. Mədəniyyət insanın həyatının hər sahəsinə: yeməsinə,

geyinməsinə, adət-ənənələrinə, vərdişlərinə də təsir edə bilər. Mədəniyyətin şəxsiyyətə təsirini təsdiq edən ümumi fərziyyələrdən biri eyni mədəniyyətdə doğulub böyüyən insanların ümumi şəxsiyyət xüsusiyyətlərini paylaşmasıdır. Beləliklə, fərd mədəniyyətin təsiri altında qalır.

Psixoloji antropologiya əsasən mədəniyyətin şəxsiyyətin formalaşmasına təsirini və şəxsiyyət xüsusiyyətlərinin mədəniyyətdə əksini öyrənir. İnsan doğulduğu mədəniyyətə uyğun olaraq özünü ifadə edir. İnsan doğulduğu mədəniyyəti ondan istədiklərini dərk etmədən daxil etməklə öz mənliyini müəyyən edir (Dr. B.Nilüfer Uluç).

Mədəniyyət öyrənmək, yaşamaq və davranış tərzimizə təsir göstərir.

Mədəniyyət-şəxsiyyət münasibətindən bəhs edən bu araşdırmaların birində nəticə belə ifadə edilir:

1. Fərd mədəni mühitdə doğulub böyüdükcə mədəniyyətə xas davranış nümunələri və düşüncə sistemini, beləliklə də, öz şəxsiyyətini formalaşdırır.
2. Mədəniyyətə xas düşüncə sistemi qazanan fərd öz bioloji istəklərini idarə edir və ya bu istəklər mədəniyyət tərəfindən sıxışdırılır.
3. Mədəniyyətə uyğun şəxsiyyət qazanan fərd mədəniyyətə təsir etməyə başlayır.

Mənəvi mədəniyyət sahəsində pedaqoji mədəniyyət, pedaqoji mədəniyyətdə isə ənənəvi, xalq tərbiyəsi mədəniyyəti əsasdır (Q.N.Valkov). Şəxsiyyət və mədəniyyət mənəviyyatın mövcudluğunun iki əsas forması kimi çıxış edir. Mədəniyyətdə mənəvi dəyərlər toplanır, seçilir, cilalanır. Mədəni dəyərlərin bir növ bankı yaradılır, onu yalnız onları yaradan subyekt iddia edə və reallaşdıra bilər (А.Н.Андреев)

Cəmiyyətin öz gücü və imkanları ilə yaratdığı əsərlərdən ibarət olan xalq tərbiyəsi, mədəniyyətinin şəxsiyyətin formalaşmasında rolu danılmazdır. Xalq tərbiyəsi və mədəniyyəti cəmiyyətin istək və tələbatını, həm də yaradıcı gücünü, baxış və ehtiyaclarını əks etdirir. Bura insan münasibətlərini və ictimai həyatı tənzimləyən qaydalar, harmoniya və sülhü təmin etmək üçün ümumi düşüncələr, dəyərlər və inanclar da daxildir.

Bu baxımdan cəmiyyətə hakim olan dəyər və normalar uşaqlıqdan yetkinliyə qədər fərdlərin həyat tərzində, sosial münasibətlərində və vərdişlərində öz əksini tapır. Bu zaman fərdlərin davranışını formalaşdırır. Ona görə də fərdlərin şəxsiyyətinə onların böyüdüyü mühitin və cəmiyyətin mədəniyyəti dolayısı ilə təsir edə bilər.

Xalq tərbiyəsinin, mədəniyyətinin uzunömürlü olması cəmiyyətin gücündən irəli gəlir. Cəmiyyətlərin güclü olması onların öz mədəniyyətindən asılıdır.

Müasir dövrdə Avropaya inteqrasiya, digər mədəniyyətlərlə tanışlıq, fərdin həyatı boyu iştirak etdiyi qrupların quruluşu, fərdin qrupdakı məqsədi, müddəti və rolu kimi amillər də fərdin müxtəlif şeyləri öyrənməsinə və təcrübə etməsinə şərait yarada bilər. Bütün bu hallarda fərdin davranışı zamanla dəyişə bilər və şəxsiyyət xüsusiyyətlərinə təsir edə bilər.

Milli mədəniyyətin tərkib hissəsi kimi götürüləcək mədəni elementlər milli mədəniyyətdə həll edilməli, münaqişəli vəziyyətin yaranmasına yol verilməməlidir.

Xalq pedaqogikası uzun əsrlər boyu və bu günə qədər uşaqların tərbiyəsində böyük rol oynamışdır.

***Məmmədova Günel İlqar qızı***
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının müəllimi*
*gunel1505@gmail.com*

## MƏKTƏBDƏ SOSİALLAŞMA ŞAGİRDİN HƏYATININ MÜHÜM PROSESLƏRİNDƏN BİRİ KİMİ

***Açar sözlər:*** *şəxsiyyətin sosiallaşması, özünütərbiyə, məqsədyönlü təsir, sistemli öyrənmə, yaradıcı qabiliyyət*

Cəmiyyətdə fərdin sosial mahiyyəti onun münasibətlərində, başqa insanlarla əlaqələrində təzahür edir. Özünü dünyanın zərrəsi kimi bilən, onun maddi və mənəvi ehtiyaclarını ödəyən

insanlarla müxtəlif münasibətlərə daxil olan uşaq onun üzvü olur. Şəxsiyyətin cəmiyyətdə formalaşması prosesini alimlər sosiallaşma adlandırırlar. Sosiallaşma prosesi tərbiyə, təhsil və özünütərbiyə prosesində baş verir. Bir şəxs müstəqil olaraq öz qarşısına aydın məqsəd qoyub onlara nail olduqda, özünə hörməti dərk edərək cəmiyyətdəki mövqeyinə inamlı olduqda sosiallaşma təzahür edir. Şəxsiyyətin sosiallaşması onun gündəlik həyatda dili və davranışı, yaradıcılıq qabiliyyətini, xalqının mədəniyyətini dərk etməsidir. Şəxsiyyətin formalaşması ətraf mühitdə yaxşı və pisi görüb onları fərqləndirə bilməkdə baş verir. Şəxsiyyətin hərtərəfli inkişaf prosesi məktəbin və müəllimin aparıcı rolundan ayrılmazdır.

Cəmiyyətin tələblərindən və insanın artan mənəvi ehtiyaclarından asılı olaraq məktəb təhsilinin məzmununu necə müəyyənləşdirmək, necə öyrətmək lazımdır ki, təlim prosesi meyillərin açılmasını və qabiliyyətlərin inkişafını maksimum dərəcədə artırsın – bunlar yaradıcı axtarışın istiqamətləridir. Şəxsiyyətin sosiallaşması həyatın ilk illərindən başlayır. Sosiallaşmanın ilkin təməli ailədə qoyulur. Daha sonra fərdin sosiallaşması estafeti məktəbin üzərinə düşür. Məktəbdə şagird şəxsiyyətinin tərbiyəsi və sosiallaşmasının məqsədi savadlı şəxsiyyət, mədəniyyətli, layiqli, bacarıqlı, Vətənin taleyi üçün öz məsuliyyətini dərk edən, indiki və gələcək həyatını, şəxsi maraq və qabiliyyətlərə uyğun olaraq cəmiyyətdə gələcək fəaliyyətini planlaşdırmağı bacaran bir vətəndaş yetişdirmək və inkişaf etdirməkdir.

*Sosiallaşma dedikdə nəyi nəzərdə tuturuq?* Sosiallaşma (lat. socialis – ictimai) bir insanın cəmiyyətin tam hüquqlu üzvü kimi fəaliyyət göstərməsinə imkan verən müəyyən biliklər, normalar və dəyərlər sistemini mənimsəməsi prosesidir. Buraya həm şəxsiyyətə məqsədyönlü təsir, həm də onun formalaşmasına təsir edən kortəbii proseslər daxildir. Sosiallaşma prosesində fərd şəxsiyyət olur və insanlar arasında həyat üçün zəruri olanları əldə edir. Sosiallaşmanın aşağıdakı mərhələləri vardır:

1. İlkin mədəniyyətə daxil olmaq üçün sosial normaların, dəyərlərin, davranış nümunələrinin mənimsənilməsi. Bu mərhələnin nəticəsi sonrakı həyatın bütün gedişatını müəyyən edir.

2. İkincili mədəniyyət böyüklərin həyatını fərqləndirən sosial rolların sonrakı assimilyasiyasıdır. İlkin sosiallaşmadan fərqli olaraq yetkin bir insanın davranış norma və nümunələrinin zəruri tənzimlənməsidir.

Sosiallaşma uşağın müxtəlif və çoxsaylı amillər, qruplar, təşkilatlarla qarşılıqlı əlaqəsi prosesində baş verir ki, onların arasında məktəb xüsusi yer tutur. Alimlər məktəbi sosiallaşmanın mikrofaktorlarından biri, ən mühüm təhsil müəssisələrindən biri hesab edirlər. Məktəb uşağın sosiallaşmasının üç yaş mərhələsini əhatə edir: kiçik məktəb yaşı (6-10 yaş), yeniyetməlik (11-14 yaş), erkən yeniyetməlik (15-17 yaş). Bu zaman insanın şəxsiyyətinin formalaşması və inkişafı baş verir ki, bu da məktəbin üzərinə böyük məsuliyyət qoyur.

Məktəb cəmiyyətin ilkin diferensiasiyasını həyata keçirən, insanın sosial statusunu formalaşdıran, müxtəlif sosial şəraitə uyğunlaşmasına kömək edən mexanizm kimi çıxış edir. Təhsil sistemi cəmiyyətin sabitliyinin ən mühüm amillərindən biri kimi cəmiyyətlə məktəb arasında münasibətlərin sosial tənzimləyicisidir, çünki təhsilin məzmunu cəmiyyətin təsiri ilə formalaşdığı kimi, cəmiyyət də təhsilin təsiri altında dəyişir. Məktəb şagird üçün dünyanın ilk və əsas modelidir. Məhz məktəb təcrübəsi böyüklər dünyasının yaşadığı qanunları, həmin qanunların hüdudları daxilində mövcud olma yollarını (müxtəlif sosial rollar, şəxsiyyətlərarası münasibətlər və s.) mənimsəməyə kömək edir.

Sosiallaşma *birincisi,* normativ davranışın şagirdlər tərəfindən mənimsənilməsi, *ikincisi,* sosial mövqeyin qurulması, mənimsənilmiş norma və dəyərlərə münasibətdir. İlk baxışdan bu iki vəzifə bir-birini istisna edən kimi görünür. Əslində onlar şagirdin cəmiyyətə daxil olmasının yalnız iki tərəfini əks etdirir. Şagird mövcud ictimai əlaqələrə daxil olmağı, müəyyən edilmiş norma və qaydalara tabe olmağı bacarmalıdır, lakin eyni zamanda mövcud normativ sistemləri müqayisə etmək və öz həyat mövqeyini qurmaq mövqeyi çox vacibdir. Məktəbdə aparıcı mexanizm kimi sistemli öyrənmədən istifadə olunur. Öyrənmənin mahiyyətini müəyyən edən tədqiqat onun aparıcı xüsusiyyətləri kimi aşağıdakıları fərqləndirir:

• müəyyən bilik, bacarıq və vərdişlərin şəxsə ötürülməsi;

• müəllimlə şagirdlər arasında məqsədyönlü qarşılıqlı əlaqə, tərbiyə və təlim proseslərinin vəhdəti;

• şagirdlərin elmi bilik və bacarıqlarının mənimsənilməsində, yaradıcılıq qabiliyyətlərinin, dünyagörüşünün, əxlaqi-estetik baxış və inancların inkişafında fəal tədris-idrak fəaliyyətinin təşkili və stimullaşdırılmasının məqsədyönlü pedaqoji prosesi.

Təlim-tərbiyənin problemlərini həll edir, həm də:

• müəllimin rəhbərliyi ilə şagirdlərin özfəaliyyəti vəhdətdə baş verir;

• hər bir şagirdin fərdi inkişafı ilə kollektivin inkişafının imkanları vəhdətində həyata keçirilir;

Sosiallaşma ictimai şüurun bütün təzahürlərində inkişafın nəticəsidir. Bu gün məktəb cəmiyyətin inkişafının digər mərhələlərində ailənin, uşaq təşkilatlarının, dərnəklərin və s. yerinə yetirdiyi vəzifələri yerinə yetirir. O, cəmiyyətin ilkin diferensiasiyasını həyata keçirən, şagirdlərin sosial statusunu formalaşdıran, onların müxtəlif sosial şəraitə uyğunlaşmasına kömək edən amil kimi çıxış edir.

**Cəbrayılova Rəna Nüsrəddin qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
*r.jabrayilova@rambler.ru*

## TƏLƏBƏ-GƏNCLƏRİN ÖZÜNÜREALLAŞDIRMASI SOSİAL-PSİXOLOJİ FENOMEN KİMİ

***Açar sözlər:*** *özünüreallaşdırma, özünüdərk, yaradıcı şəxsiyyət, özünüqiymətləndirmə, şəxsiyyətlərarası qarşılıqlı münasibətlər*

Özünüreallaşdırma probleminin öyrənilməsi hazırda bütövlükdə bəşəriyyətin və hər bir insanın fərdi olaraq üzləşdiyi dünya problemlərinin mövcudluğu ilə müəyyən edilir. Özünüreallaşdırma çox vaxt subyektin əşyavi-praktik fəaliyyəti ilə özünü göstərən proses kimi nəzərdən keçirilir. Tədqiqatçılar özünüreallaşdırmanı insanın adekvat özünü tanımasına və özünüqiymətləndirməsinə əsaslanaraq praktik fəaliyyətdə onun əsas səlahiyyətlərinin aşkarlanması və müəyyən edilməsinin fərdi prosesi kimi müəyyən edir. S.İ.Kudinov özünüreallaşdırmanı maddi və prosessual komponentləri özündə birləşdirən faktiki qabiliyyətlərə keçidi kimi xarakterizə edir. Məzmun fərdin müəyyən qabiliyyətlərini və prosessual hərəkətlərini xarakterizə edir. L.A.Korostıleva özünüreallaşdırmanı yaxın və uzaq ətraf mühit, bütövlükdə dünya ilə əməkdaşlıq yolu ilə "mən"in inkişafı imkanlarının reallaşdırılması kimi səciyyələndirir. E.V.Qalajinskiyə görə, özünüreallaşdırma həyat strategiyalarının seçimi ilə əlaqəli inteqrasiyaedici amildir. Yaradıcı özünüreallaşdırma istəyi insanın daxili təbiətinin ifadəsidir.

Psixoloji nöqteyi-nəzərdən özünüreallaşdırma ən ümumi formada özünüdərk prosesi kimi təqdim olunur, insanın özünü həyatda və gündəlik fəaliyyətdə dərk etməsi, bu dünyada öz yolunu, öz dəyərlərini axtarmaq və təsdiqləmək mənasını ifadə edir. K.A.Abulxanova-Slavskaya “özünüreallaşdırma” və “özünüifadəetmə” kateqoriyaları arasındakı fərqləri göstərir. Sonuncu nümayiş etdirəcək heç bir şey olmadığı halda çox vaxt özü zahiri, dəbdəbəli ifadə mərhələsində olur. Yetkin insanlarda bu, "böyük yaş infantilizminin" əlamətidir. Özünüreallaşdırma yetkin şəxsiyyətin inkişafının ən yüksək mərhələsinin bir növüdür, şəxsi inkişafın və böyümənin nəticəsidir. Eyni zamanda özünüinkişaf dedikdə, bilik səviyyəsinin daim artması və həyatda özünü aktiv şəkildə həyata keçirməsi ilə tanışlıq prosesi başa düşülür. Məhz bu cəhəti ilə o, özünüifadədən fərqlənir. Özünüreallaşdırmanın əsas xüsusiyyətlərini aşağıdakı şəkildə fərqləndirə bilərik:

● həyatda və gündəlik fəaliyyətdə özünü dərk etmək, bu dünyada başqa insanlarla ünsiyyətdə öz yolunu axtarmaq və təsdiq etmək;

● insanın həqiqi qabiliyyətlərinin tam reallaşması, onun imkanlarının aşkarlanması və inkişafı, onun öz təbiətini bilməsi və nə ola biləcəyinə çevrilmək istəyi;

● insanın öz səylərinin və ya inkişafının həyata keçirilməsi, öz fəaliyyəti ilə əlaqəsi;

● müxtəlif sosial fəaliyyətlərdə fərdin əsas qüvvələrinin aşkarlanması və müəyyənləşdirilməsinin şüurlu, məqsədyönlü prosesi;

● yaradıcılıq, azadlıq, fərdilik, müstəqillik, rəqabətə qabillik, şəxsiyyətin mənəvi səviyyəsi, onun məişət həyatının funksiyalarını özündə birləşdirən mürəkkəb xüsusiyyət.

Deməli, özünüreallaşdırma başqa insanlarla ünsiyyətdə həyata keçirilən bir insanın əsas qüvvələrinin aşkarlanması və müəyyən edilməsi, imkanların inkişafı və qabiliyyətlərinin həyata keçirilməsi üçün şüurlu, məqsədyönlü bir prosesdir. Ümumiyyətlə, özünüreallaşdırma insanın şəxsiyyətə çevrilməsi, ömür boyu fəaliyyət göstərməsi və həyat yolunu müəyyən edən mexanizm kimi qəbul edilir. Bu mexanizmin intensiv fəaliyyəti gənclik dövründə, tələbəlik illərində baş verir. Universitetdə təhsil sistemi gənclərin özünüreallaşdırmasının effektiv prosesini təmin etməli, tələbələrin əsas qüvvələrinin artmasına töhfə verməlidir. Universitetdə təhsil mədəniyyət və peşəni dərk etmək üçün fərdin özünü inkişaf etdirməsinin mürəkkəb prosesini nəzərdə tutur və bu prosesə tələbələrin fərdi və şəxsi xüsusiyyətləri ilə vasitəçilik edir. Müasir universitet səmərəli intellektual və şəxsi inkişaf mühiti yaratmalıdır ki, gənclər nəinki peşəkar, həm də əqli və şəxsi cəhətdən tam inkişaf imkanına malik olsunlar.

Gənclik yaşı özünüreallaşdırmanın inkişafında mühüm bir dövrdür. Bu dövrdə sosial, emosional, şəxsi, sosial yönümlü çoxölçülü şəxsiyyət dəyişiklikləri baş verir. Bu mərhələdə universitetin vəzifəsi tələbənin özünü tanıması və öz təcrübəsi üçün mədəni məkan yaratmaqdır ki, bu da ona peşə, şəxsi və əqli cəhətdən tam inkişaf əldə etməyə imkan verir. Özünüreallaşdırmaya qadir olan insan öz həyatına müstəqil şəkildə nəzarət etməklə onun həm ayrı-ayrı hadisələrə olan münasibətini, həm də bütövlükdə həyatın gedişini müəyyən edir. Özünüreallaşdırma prosesi sosial fəaliyyətlə müəyyən edilir. Bu fəaliyyətdə insan başqaları tərəfindən dəyərləndirilir, öz məqsəd və planlarını həyata keçirir. Özünüreallaşdırmada insan cari və uzunmüddətli nəticələrini nəzərə alaraq, nailiyyətlərini qiymətləndirmək qabiliyyəti təzahür etdirir. Qarşılıqlı təsirdə xarici və daxili amillər insana öz qabiliyyət və imkanlarını tam şəkildə üzə çıxarmağa kömək edir. Tələbə-gənclərin aparıcı sosial fəaliyyəti ali təhsil müəssisəsinin divarları daxilində təhsildir. Tələbənin özünüreallaşdırması istənilən profilli ali təhsil müəssisələrində tədris prosesinin əsas məqsədlərindən biridir ki, bu da tələbənin mövcud qabiliyyətlərinin həyata keçirilməsinə hər cür köməklik göstərməkdən və təzahür etməmiş meyillərinin aşkar edilməsindən ibarətdir. Bu halda deyə bilərik ki, özünüreallaşdırma insanın təhsil prosesinin nəticəsidir. İ.V.Kostakova belə hesab edir ki, tələbələrin özünüreallaşdırması bir tərəfdən onların təcəssüm olunmuş şəxsi ambisiyaları, yaxın keçmişdə təcəssüm olunmuş arzularıdır, digər tərəfdən mövcud taleyin ictimai etirafıdır.

Müəllif tələbənin özünüreallaşdırmasının əsas şərtlərini müəyyən edir: **1)** tələbənin arzuları və ya ambisiyaları olmalıdır. Onlar tələbat və arzular əsasında formalaşır; **2)** sağlam ambisiyalar və inkişaf etmiş liderlik hissi tələbənin özündən, onun həyat mövqeyindən, fəaliyyətindən asılıdır; **3)** tələbələrin əsaslı və zəruri ehtiyaclarını ödəməkdə universitetin marağı və imkanları – rahat təhsil mühitinin yaradılması; **4)** ictimai birliklərin və təşkilatların, potensial işə götürənlərin gənclərin ehtiyaclarının reallaşdırılması üçün şərait yaradılmasında maraqlı olması.

Tələbələrin özünüreallaşdırması təhsil mühiti ilə qarşılıqlı əlaqədə daha məhsuldar olacaq, burada öz mədəniyyətinin nailiyyəti kimi aldıqları biliklərin məzmununu hər kəsin təcrübəsinin əlçatanlığını və başqasının təcrübəsinin açıqlığını nəzərdə tutan birgə fəaliyyətlərin və şəxsiyyətlərarası münasibətlərin daimi mənəvi axtarış mühitində, kiçik kəşflərində emosional şəkildə yaşayırlar.

**Məmmədova Səriyyə Əkbər qızı**
*Bakı Dövlət Universitetinin sabiq doktorantı*

## ÜNSİYYƏT PROSESİNDƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN YENİYETMƏLƏRİN EMOSİONAL-İRADİ SFERASININ İNKİŞAFI

***Açar sözlər:*** *ünsiyyət, emosional-iradi sfera, tələbkarlıq, davranış normaları, emosional reaksiyalar*

Ünsiyyət hər bir şəxsiyyətin formalaşması və fəaliyyət göstərməsi üçün zəruri şərtdir. Fərdin emosional sferasının inkişafı üçün ünsiyyət əsas rol oynayır, çünki emosionallıq şəxsiyyətlərarası münasibətlərin ən mühüm xüsusiyyətidir. Tədqiqatımızda şəxsiyyətin emosional sferasının inkişafı ünsiyyətin müxtəlif tərəflərinin təsiri aspektində öyrənilmişdir. Bir sözlə, ünsiyyət valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasının inkişaf amilidir. Ünsiyyət şəxsiyyətin emosional sferasının inkişafına xidmət edir. Ünsiyyət insanlar arasında əlaqələrin qurulması və inkişafı prosesi olub, özünə informasiya mübadiləsini daxil edir.

Psixoloq B.Q.Ananyevin fikrincə, uşağın həyatının ilk günündən ünsiyyət onun həyat fəaliyyətinin əsas forması olur. Ünsiyyətin vasitəsi və yaşlının rəhbərliyi ilə tərbiyə və təlim aktları özünü göstərir. Uşaq tədricən onu əhatə edən həqiqətləri dərk etməyi və mənimsəməyi öyrənir. Daha sonra o ətrafdakı əşyalarla düzgün əməliyyat aparmağa yiyələnir, həmçinin sosial aləmdə cəmiyyətin müvafiq normalarını və davranış etalonlarını mənimsəyir.

Şəxsiyyətin emosional sferasının inkişafı ünsiyyət prosesində baş verir və ünsiyyətcillik səviyyəsi ilə müəyyən edilir, stenik duyğular isə ünsiyyət rahatlığının təsiri altında formalaşır. Xarici aləmdə baş verən hadisələrə emosional reaksiyalar əvvəlcə insanın daxili aləmində özünü təzahür etdirir. Daxili ünsiyyət xarici ünsiyyətin surəti deyil, o yaxınlıq, təcrid ilə seçilir, bəzən daxili dialoq hissi hisslərin elementləri ilə əvəz olunur.

Valideyn himayəsindən məhrum olan yeniyetmələr arasında ünsiyyət çatışmazlığı daha çox müşahidə edilir. Belə yeniyetmələrdə onlarla intensiv ünsiyyətdə daha çox ərköyünlülük, yüksək tələbkarlıq, şıltaqlıq, böyüklərə hörmətsizlik kimi hallar tez-tez müşahidə olunur. Ünsiyyət çatışmazlığı belə yeniyetmələrə kifayət qədər diqqətin ayrılmaması, habelə valideynlərin olmamaları nəticəsində baş verir.

Qeyd etməliyik ki, ünsiyyət çatışmazlığı iki aspektdə təzahür edir: məhdudlaşdırlmış ünsiyyət və pozulmayan ünsiyyət. Ünsiyyət insanda təfəkkürün fərdi xüsusiyyətlərini və şəxsiyyətin emosional sferasını formalaşdırır. Etibarlı ünsiyyətə cəhd insanın ilk instinktiv cəhdlərindən biridir. Etibarlı emosional ünsiyyətə tələbat hələ körpəlik yaş dövründən başlayır. Böyüklərlə ünsiyyətdə uşağın daha yaxşı hesab etdiyi, eləcə də etibar etdiyi insan seçimləri özünü göstərir.

Deməli, şəxsiyyətin emosional sferasının inkişafı mürəkkəb və dinamiki proses olub şəxsiyyətin koqnitiv və davranış sahəsinə aid edilir. Bu proses konkret sosial şəraitlə, cinsi xüsusiyyətlərlə və şəxsiyyətin tərbiyəsi ilə determinləşir. Sadə emosiyalar insana hələ erkən uşaqlıq dövründən xasdır. Əgər uşağın həyatının birinci ilində onda yalnız sadə emosional reaksiyalar özünü göstərirsə, sonrakı yaş mərhələlərində onlara sosial davranış normaları ilə bağlı olanları əlavə edirlər. Şəxsiyyətin emosional aləmi müntəzəm olaraq zənginləşir, yəni uşağın emosiya gücü artır, xarakteri mürəkkəbləşir. Bütün bunların nəticəsində ünsiyyət prosesində mürəkkəb emosiya və hisslər formalaşır.

Valideyn himayəsindən məhrum olan yeniyetmələrlə ünsiyyət prosesində emosional sferanın inkişafı tərəfimizdən əlaqənin müxtəlif aspektlərinin təsirləri nöqteyi-nəzərindən öyrənilməkdədir. Ünsiyyət fərdin emosional-sensor sferasının inkişaf amili hesab olunur. Bu proses konkret sosial şərait, gender xüsusiyyətləri və şəxsiyyət tərbiyəsi ilə müəyyən edilir. Elementar duyğular insana erkən uşaqlıqdan xasdır. Əgər uşağın həyatının ilk ilində yalnız sadə emosional reaksiyalar xasdırsa, gələcəkdə onlar sosial davranış normaları ilə müəyyən əlaqə əldə edirlər. İnsanın emosional aləmi daim zənginləşir, duyğuların sabitliyi və gücü artır, təbiəti mürəkkəbləşir.

Bütün bunlar ünsiyyət prosesində baş verir, yalnız ünsiyyət vasitəsilə bir sıra mürəkkəb duyğular və hisslər formalaşır.

Emosional reaksiyalar zehni inkişaf səviyyəsindən asılıdır: bu səviyyə nə qədər yüksək olsa, fərd üçün qarşılaşdığı ünsiyyət nəticələri ilə gözlədiyi nəticələr arasındakı uyğunsuzluğun səbəbini başa düşmək bir o qədər asan olar. Bu emosional reaksiyanı azaltmağa və sonrakı davranışı düzəltməyə imkan verir. Bu baxımdan əsas çətinlik duyğuların təbiətinin mürəkkəbliyi və uyğunsuzluğudur.

Şəxsiyyətin emosional sferası dedikdə, insanın müəyyən bir zamanda yaşadığı duyğuların və hisslərin məcmusu nəzərdə tutulur. Emosional reaksiyaların diapazonu ünsiyyətin qavrayış tərəfinin təsiri altında formalaşır. Bu daha çox başqa bir insan haqqında fikirlərin emosionallıq səviyyəsi ilə sıx əlaqəli olması ilə əlaqədardır. Bu münasibət ikitərəflidir: bir tərəfdən şəxsi təcrübələrin zənginliyi başqa bir insan haqqında təsəvvürlərin zənginliyini müəyyən edir, digər tərəfdən digər şəxs özünü emosional olaraq nə qədər dolğun üzə çıxarırsa, onun öz emosional dünyası bir o qədər dolğunlaşır. Bir insanın kommunikativ oriyentasiyası ilk növbədə şəxsiyyətlərarası ünsiyyətə emosional və dəyərli münasibət, təmaslar vasitəsilə məlumat almaq meylidir. Kommunikativ proses birbaşa insanın emosional-sensor vəziyyətindən asılıdır: stenik emosiyalar kommunikativ prosesin səviyyəsini artırır, astenik emosiyalar onu aşağı salır.

B.F.Lomov qeyd edir ki, ünsiyyətin seçiciliyində əsas meyar motivlərdir ki, onların vasitəsi ilə ünsiyyət həyata keçir, həmçinin ünsiyyətliliyin həcmi müəyyən edilir. Bir situasiyada insan ünsiyyətli, digərində isə qapalı olur. Onlar bütövlükdə insanın fəaliyyətinin motivləri ilə müəyyən edilir. Bir sözlə, şəxsiyyətin emosional sferası ünsiyyətlilik səviyyəsi ilə müəyyən edilir. Bununla yanaşı, stenik emosiyalar ünsiyyətin komfortluğunun təsiri altında formalaşır. Emosional reaksiyalar intellektual inkişaf səviyyəsindən asılıdır. Belə ki, bu səviyyə nə qədər yüksək olarsa, fərd üçün ünsiyyət nəticələri arasındakı qeyri-münasibliyin səbəblərini başa düşmək bir o qədər asan olar. Bu ona emosional reaksiyalarını azaltmağa və gələcəkdə sosial davranışını korreksiya etməyə imkan vermiş olar.

**Həziyeva Mədinə Zülfüqar qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının müəllimi*
*hez9595@mail.ru*

## STİMULLAŞDIRICI METODLARIN ŞAGİRD ŞƏXSİYYƏTİNƏ PSİXOLOJİ TƏSİRİ

***Açar sözlər:*** *şagird şəxsiyyəti, stimullaşdırıcı metodlar, özünütəsdiq, cəzalandırma, stimullar, rəğbətləndirmə*

***Stimullaşdırmaq*** təfəkkürə, hissə və hərəkətə sövq etmək, fikirlərə təkan vermək deməkdir. Müəyyən bir stimullaşdırıcı təsir artıq hər bir metoda xasdır. Ancaq elə üsullar vardır ki, onların əsas məqsədi əlavə stimullaşdırıcı təsir göstərmək və sanki stimullaşdırıcı olanlara münasibətdə əsas adlanan digər metodların təsirini artırmaqdır.

***Yarışda*** üstünlük, prioritet, özünü təsdiq etmək istəyi bütün insanlara, xüsusən də gənclərə xasdır. Təhsil müəssisələrində yarış idman rəqabətinin ən yaxşı nümunələrinə bənzəyir. Əsas vəzifə rəqabətin şiddətli rəqabətə çevrilməsinin və nəyin bahasına olursa olsun, üstünlüyə can atmasının qarşısını almaqdır.

***Rəğbətləndirmə*** baş vermiş özünütəsdiq siqnalıdır, çünki o seçilmiş və həyata keçirilməkdə olan bu yanaşmanın reallaşmasını, həmin fəaliyyət tərzinin və ona münasibətin ictimai məzmununu ehtiva edir. Rəğbətləndirmə zamanı insanın yaşadığı məmnunluq hissi onda gücün və enerjinin, özünəinamın artmasına səbəb olur və nəticədə yüksək çalışqanlıq və səmərəlilik ilə müşayiət olunur. Lakin rəğbətləndirmənin ən mühüm təsiri psixi komfort hissini müntəzəm yaşamaq, davranmaq və hərəkət etmək üçün ciddi istəyin ortaya çıxmasıdır. Eyni

zamanda ən kiçik uğur üçün mükafat gözləməsinə səbəb olmamaq üçün rəğbətləndirmə çox tez-tez olmamalıdır.

***Cəza*** ən qədim tərbiyə üsullarından biridir. Bizə gəlib çatan ən qədim papiruslarda o illərin pedaqoji təcrübəsinin mövzularına aid rəsmlər vardır. Məsələn, xarakterik pozada olan oğlan və üzərində çubuqlar olan müəllim. A.S.Makarenko tərbiyə metodu kimi cəzanın qanuniliyini əsaslandıraraq yazırdı ki, ağıllı cəzalar sistem olaraq tamamlanmır, həm də zəruridir. O, insanda güclü insan xarakterinin formalaşmasına kömək edir, məsuliyyət hissini aşılayır, iradə, insan ləyaqətini, şirnikləndiricilərə qarşı durmaq və onlara qalib gəlmək bacarığını tərbiyə edir. Cəza özünütəsdiqdir ki, o dəyişikliyə olan ehtiyacı doğurur. İnsan davranışını və gələcək fəaliyyətini planlaşdırarkən yenidən qorxu hissini yaşamalı olur. Cəzalandırılanlarda əsas hiss başqalarından, kollektivdən uzaqlaşma, təcrid olunmadır. A.S.Makarenko bu dövrləri “ümumi sıralardan sıxışdırmaq” adlandırırdı. Ona görə də qeyri-sağlam əsaslarla birliyə şərait yaradan kollektiv cəzalar tövsiyə edilmir. Cəza tədbirlərinin tətbiqi üçün pedaqoji tələblər aşağıdakılardır: 1/ qəsdən törətdiyi əməllərə görə cəzalandırıla bilməz; 2/ tələsik, kifayət qədər əsas olmadan, şübhə ilə cəzalandırmaq mümkün deyil: bir günahsızı cəzalandırmaqdansa, on günahkarı bağışlamaq daha yaxşıdır; 3/ cəza inandırma və digər tərbiyə üsulları ilə birləşdirilməlidir; 4/ pedaqoji taktikaya ciddi riayət edilməli; 5/ ictimai rəyin başa düşülməsinə və dəstəyinə arxalanmalı; 6/ şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin hesabatı.

Tərbiyə işində ümumi metodların iki qrupu ilə – kollektivin tərbiyəvi təşkilinin metodları və inandırma üsulları ilə tanışlıq belə qənaətə gəlməyə əsas verir ki, bu üsullardan hər hansı biri şagirdlərin müxtəlif növ sosial faydalı işlərə cəlb edilməsinə kömək etdiyi üçün təhsil nəticələrinə gətirib çıxarır. Həmçinin həmin metodlar kollektiv və fərdi şəkildə şagirdləri daxili fəaliyyətə həvəsləndirir, onları stimullaşdırır. Ona görə də hər bir müəllim fəaliyyəti stimullaşdıran üsul və metodları bilməlidir. A.S.Makarenko dəfələrlə vurğulamışdır ki, tərbiyə işinin mahiyyəti ilə bağlı iki ziddiyyətli fikir mövcuddur. Müəllim səs telləri ilə hərəkət edir, uşaq isə eşitmə cihazı ilə müvafiq dalğaları qəbul edir. Qulaq pərdəsindən keçən dalğalar uşağın ruhuna nüfuz edir və xüsusi pedaqoji şəkildə ona uyğunlaşır. Bəzən subyekt və obyekt arasında birbaşa qarşıdurmanın bu mövqeyi bir qədər dəyişir, lakin üç metrlik məsafə eyni qalır. Uşaq sanki çəngəldədir, pedaqoqun ətrafında dövrə vurur və daim ya səs tellərinin hərəkətinə, ya da digər birbaşa təsirlərə məruz qalır”. Belə bir texnika nöqteyi-nəzərindən uşağın nə istədiyi, nəyə can atdığı, daxili stimulların, davranış motivlərinin nədən ibarət olmasının əhəmiyyəti yoxdur. Müəllim üçün o yalnız pedaqoji təsir obyektidir, gələcək insanı "heykəltəraş etmək" mümkün olan, bir növ, tikinti materialıdır.

Tərbiyə geniş mənada sosial prosesdir. Ətrafdakı reallığın bütün ən mürəkkəb dünyası ilə şagird sonsuz sayda münasibətlərə daxil olur, hər biri dəyişməz olaraq inkişaf edir, digər münasibətlərlə, fiziki güclə daha da mürəkkəbləşir. Bu da uşağın özünün mənəvi inkişafına öz təsirini göstərir. Bəzən “xaos” şagirdin şəxsiyyətində müəyyən dəyişikliklər yaradır. Bu inkişafı istiqamətləndirmək isə müəllimin ən ümdə vəzifəsidir. Bu yanaşma ilə uşaq öz tərbiyə və inkişafının fəal subyektidir. Müəllim şagirdin şəxsiyyətinin formalaşmasının daxili ehtiyatları, onun xarici aləmdə mənimsədiyi keyfiyyətlərin inkişafına təsir edən sonsuz sayda münasibətlərlə maraqlanmaya bilməz. Bu mürəkkəb obyektiv prosesi idarə etmək üçün müəllim şagirdlərin bütün həyat və fəaliyyətini pedaqoji cəhətdən məqsədəuyğun şəkildə təşkil etməlidir ki, onların mənəvi keyfiyyətlərinin formalaşmasına, zəruri biliklərə, bacarıq və vərdişlərə yiyələnməsinə töhfə versin. Stimullaşdırma hər bir şagirdin fərdiliyini inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur, lakin eyni zamanda cəmiyyətdə maraq, meyil və qabiliyyətlərə sahib olan uşaqlarda həddindən artıq fərdilik, eqoizm, iddialı istəklər, laqeydlik kimi keyfiyyətlərin formalaşmasının qarşısı alınmalıdır.

Stimullaşdırma üsullarından səmərəli istifadənin ikinci ümumi cəhəti ondan ibarətdir ki, onların hər birinin istifadəsi əsaslı olmalıdır. Müəllim sinifdə şagirdlərin stimullaşdırılmış fəaliyyəti üçün lazımi maddi resursları təmin etmədikdə pedaqoji stimullaşdırma səmərəsiz qala bilər. Belə ki, bütün şagirdlər işləmək üçün lazım olan alətlərlə təchiz olunmur və müəllim növbəti tapşırığı yerinə yetirməkdə israr edir, şagirdlərə vəd edilmiş həvəsləndirməni xatırladır. Şagirdlərin real imkanlarını, onların yaş və fərdi xüsusiyyətlərini, müəllim tərəfindən

stimullaşdırılan hərəkətləri yerinə yetirmək bacarığını nəzərə almaq, stimullaşdırma metodlarından istifadəyə diferensial və fərdi yanaşmanın zəruriliyini aşkar edir. Stimullaşdırmanın müəyyən üsullarından istifadə olunduğu pedaqoji vəziyyəti də düzgün qiymətləndirmək lazımdır. İstənilən vəziyyətdə müəllimin bu və ya digər tapşırıqla müraciət etdiyi şagirdlərin psixi vəziyyətini nəzərə alması vacibdir.

**İsmayılova Mehriban Cəlal qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının dosenti, psixol.ü. f.d.*
*mehriban_ismayilova_1962@mail.ru*

## SOSİALLAŞMA PROSESİNDƏ TƏLƏBƏLƏRİN ÜNSİYYƏT MƏDƏNİYYƏTİNİN İNKİŞAFI

***Açar sözlər:*** *ünsiyyət mədəniyyəti, etik dəyərlər, davranış komponenti, tolerantlıq, humanizm, sosial münasibətlər*

Dövlət təhsil standartına uyğun ali təhsil müəssisələrinin məzunları ünsiyyət mədəniyyəti sahəsində bir çox bilik və bacarıqlara malik olmalıdırlar. Ona görə də bu gün tələbələrə ünsiyyət qurmağı öyrətməyi nəzərdə tutan məzmun daxil etmədən pedaqoji prosesin elmi dərk edilməsi və qurulması problemlərini həll etmək mümkün deyildir.

Tələbəlik illərində həyati dəyərlərin seçilməsi problemi xüsusilə qabarıq şəkildə özünü göstərir. Tələbə gənclər üçün formalaşmamış əxlaqi təlimatlar sistemi onu müxtəlif təsirlərə məruz qoyur. Bunların içərisində istehlakçı dəyərlər birinci yerdədir. Xeyirxahlıq, mərhəmət, ədəb, nəzakət və ünsiyyətin digər əxlaqi dəyərləri isə bir kənarda qalır.

Mədəniyyət anlayışı mürəkkəb fenomen kimi birmənalı şərhə malik deyil və o maddi və mənəvi dəyərlərin, insan aləminin, insan fəaliyyətinin nəticəsi və ya cəmiyyətin sistemli keyfiyyətinin məcmusu kimi anlaşılır. Mədəniyyət anlayışının digər bölgülərində onun ikili xarakteri göstərilir. Bir tərəfdən mədəniyyət insanın cəmiyyətdə sosial təcrübəsidir, topladığı davamlı maddi və mənəvi dəyərləridir, digər tərəfdən insan fəaliyyətinin keyfiyyət xarakteristikasıdır. Ünsiyyət anlayışı həm də mürəkkəb və çoxtərəfli olması ilə seçilir. Bu gün kifayət qədər geniş yayılmış ünsiyyət yanaşmalarından biri G.M.Andreyevanın əsərlərində öz əksini tapmışdır. Bu yanaşmaya uyğun olaraq ünsiyyəti mürəkkəb bir proses kimi informasiyanın ötürülməsi və mübadiləsi, qarşılıqlı əlaqə, mövcud sosial münasibətlər sistemində insanların qarşılıqlı anlaşması kimi çıxış edir. Mədəniyyət və ünsiyyət öz inkişafında dialektik vəhdətdədir. Ünsiyyət mədəni dəyərlər istehsalının zəruri şərti kimi qəbul edilir. M.S.Kaqan qeyd edir ki, subyektivlərarası qarşılıqlı əlaqə mədəniyyətin əsl məhsulu və mexanizmidir”. Daim qarşılıqlı əlaqədə olan və bir-biri ilə inteqrasiya edən ünsiyyət və mədəniyyət anlayışları məzmun və struktur baxımından yeni ünsiyyət mədəniyyəti anlayışını formalaşdırır. Ünsiyyət mədəniyyətini subyektlərinə sosial-fəlsəfi yanaşma əsasında aşağıdakı səviyyələrə ayırmaq olar: bütövlükdə bəşəriyyət,  ayrı cəmiyyət, sosial qrup, konkret şəxs.

Beləliklə, cəmiyyətdə ünsiyyət mədəniyyəti insan münasibətləri sahəsində cəmiyyətin mənəvi sərvətinin inkişaf dərəcəsidir ki, buraya humanizm prinsipləri və dəyərləri, etik və etiket normaları, ünsiyyət sahəsində biliklər sistemi, onların mənimsənilməsi və istifadəsi aid edilir. Ünsiyyət sahəsində cəmiyyətin mənəvi sərvətinin mənimsənilməsi prosesində insan davranışının tənzimlənməsinin xarici formaları daxili formalara çevrilir – cəmiyyətin tələbləri vəhdətdə olan biliklərə, inanclara, ehtiyaclara, vərdişlərə çevrilir. O, insan davranışının motivləri kimi özünüqiymətləndirmə, özünüidarə formasında sosial tələblərin və insan davranışının vəhdətini təmin edir. Ünsiyyət mədəniyyətini ünsiyyət sferasında cəmiyyətin mənəvi sərvətinin mənimsənilməsi, qəbul edilməsi, tətbiqi və zənginləşdirilməsi kimi xarakterizə edən mürəkkəb şəxsi təhsil kimi nəzərdən keçirmək olar. Ünsiyyət mədəniyyətinin funksiyalarını öyrənərək belə

nəticəyə gəlmək olar ki, o, cəmiyyət mədəniyyətinin və fərdin mədəniyyətinin tərkib hissəsidir. Ünsiyyət mədəniyyəti bir sıra mühüm funksiyaları yerinə yetirir, xüsusən də fərdin bəşəriyyətin mədəni təcrübəsi ilə tanış olmasına, fərdin mənəvi dünyasının aparıcı xüsusiyyətlərinin inkişafına və psixoloji cəhətdən optimal formada formalaşmasına kömək edir. Psixoloji nöqteyi-nəzərdən fərdin ünsiyyət mədəniyyətində üç əsas komponent vardır ki, onların ahəngdar vəhdəti ünsiyyət mədəniyyətinin strukturunda onun səmərəli fəaliyyətini təmin edir. Bir sözlə, idrak komponenti ünsiyyət mədəniyyəti, etika, etiket, ünsiyyət psixologiyası haqqında ümumi müddəalar sahəsində biliklərdir.

Şəxsi əhəmiyyətli komponent fərdin arzularında, maraqlarında, ideallarında, dəyər oriyentasiyalarında, inanclarında ifadəsini tapan ünsiyyət mədəniyyətinin şəxsiyyət üçün əhəmiyyətini əks etdirir. Ünsiyyət mədəniyyətinin bir dəyər kimi faydalılığının dərk edilməməsi ona gətirib çıxarır ki, fərd əgər ünsiyyətin mədəni normalarına əməl edirsə, bunu öz istək və maraqlarına zidd edir. S.L.Rubinşteynin fikrincə, bu zaman şəxsiyyət norma qarşısında əyilir, lakin ona yüksəlmir. Yalnız sosial şəxsi əhəmiyyət kəsb etdikdə mədəni hərəkətlərin həyata keçirilməsi həm vəzifə, həm də tələbat kimi təzahür edir. Davranış komponenti dəyərlərin, normaların, biliklərin praktikada, gündəlik ünsiyyətdə həyata keçirilməsini xarakterizə edir, mədəni qarşılıqlı əlaqə bacarıqlarını, ünsiyyətə yaradıcı münasibəti əhatə edir. Bu komponent olmadıqda, xaricdən alınan məlumat fərdin daxili biliklərində saxlandıqda və ondan həyatda istifadə edilmədikdə ünsiyyət mədəniyyəti bütün mənasını itirir. Nəticə etibarilə cəmiyyətdə ünsiyyət mədəniyyətinin mənimsənilməsi prosesində fərdin mövqeyi kənar müşahidəçi rolundan marağa, maraqdan hazırlığa və inamlılığa, sonra isə daxili ünsiyyət təcrübəsi sisteminə uyğun fəaliyyətə keçir.

Tələbəlik illərində ünsiyyətin rolu üç əsas vəzifə ilə əlaqələndirilir: şəxsi müstəqilliyin, peşə özünüdərkinin və gələcək peşənin əsaslarının mənimsənilməsi, habelə əks cinslə münasibətlərdə effektiv oriyentasiya və gələcək ailə həyatı üçün tərəfdaş seçmək. Tələbələrin daxil olduğu münasibətlər sisteminin mürəkkəbliyi kontekstində şəxsi seçim problemi onun qarşısında tez-tez və daha kəskin formada özünü təzahür etdirir. Tədris prosesində sinif yoldaşları ilə ünsiyyət tələbə üçün xüsusi əhəmiyyət kəsb edir. Tələbə üçün iş qrupu onun sosial əlaqələrini cəmləyən bir mərkəzdir. Ünsiyyət mədəniyyətinin səviyyəsi aşağıdakı obyektiv amillərin nəticəsidir: a) iqtisadi, b) ictimai-siyasi, c) demoqrafik, d) dini-mədəni, e) təhsil mühitinin vəziyyəti və s. Ünsiyyət mədəniyyətlərinin səviyyəsinin subyektiv əsasını şəxsiyyətin spesifik parametrlərinə bələdləşmə, təhsil, tərbiyə, sosiallaşma, ümumi mədəniyyət, psixi proseslərin və şəxsiyyət xüsusiyyətlərinin inkişafı təşkil edir.

**Məmmədova Nigar Məmmədəli qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*antigaaliwka@mail.ru*

## TƏLƏBƏLƏRƏ FRUSTRASİYANIN ARADAN QALDIRILMASINA PSİXOLOJİ DƏSTƏK

***Açar sözlər:*** *frustrasiya, məqsədyönlü davranış, emosional vəziyyət, tolerantlıq, psixoloji dəstək*

İnsanın mənfi amillərin hərəkətini aradan qaldırmaq qabiliyyəti, şübhəsiz ki, onun şəxsi potensialının aktuallaşması və reallaşması üçün ən vacib şərtlərdən biridir. Bu baxımdan frustrasiya problemi və onun aradan qaldırılması şərtləri xüsusi aktuallıq kəsb edir. Latın dilindən tərcümədə "məyusluq" (lat. frustration sözü – hiylə, uğursuzluq, boş cəhd) deməkdir. Psixoloji tədqiqat kontekstində frustrasiya belə başa düşülür: 1) əhəmiyyətli bir vəziyyətə (məyusluq vəziyyəti) nail olmağa yönəlmiş davranışın qarşısını almaq aktı; 2) uğursuzluqdan yaranan

emosional vəziyyət, hər hansı bir əhəmiyyətli ehtiyacdan narazılıq. Frustrasiya mənfi psixi vəziyyət kimi xarakterizə olunur.

N.D.Levitovun qeyd etdiyi kimi, frustrasiya obyektiv qarşısıalınmaz və ya subyektiv şəkildə təqdim olunan çətinliklərlə məqsədyönlü davranışın uzun müddət bloklanması nəticəsində yaranan, habelə şüurun, fəaliyyətin və ünsiyyətin qeyri-mütəşəkkilliyi ilə ifadə olunan mürəkkəb, emosional və motivasiyalı bir vəziyyətdir. Frustrasiya stres, münaqişə və böhranla birlikdə ekstremal həyat vəziyyətlərinə aid edilir. Frustrasiya müsbət reaksiyalar, maneələri dəf etmək, ixtiraçılıq nümayiş etdirmək və maneələrdən qaçmaq, hərəkətləri kompensasiya etmək, lazım gələrsə, nəzərdə tutulan məqsəddən imtina etməkdir. Bəzi hallarda frustrator məyusluq yaratmır. Bu fenomen səbir, dözümlülük, çətin təcrübələrin və kəskin reaksiyaların olmaması kimi başa düşülən frustrasiya tolerantlığı adlanır. Tolerantlıq insanın frustrasiya vəziyyətini adekvat qiymətləndirmək və ondan çıxış yolunu qabaqcadan görmək qabiliyyətinə əsaslanır. Maneələrə qarşı dözümlülük zəruridir. Söhbət bu maneələrə “səbirli olmaqdan” deyil, onların bütün zərurətini və faydalılığını dərk etməkdən gedir. Bu vəziyyətdə frustrasiya tolerantlığı əhəmiyyətli bir şəxsiyyət xüsusiyyəti kimi çıxış edir. Buna baxmayaraq, ədəbiyyatda məyusluğun dağıdıcı təzahürlərinə, onların aradan qaldırılmasına və həllinə xüsusi diqqət yetirilir. Psixoanalitik yanaşmaya (Z.Freyd) uyğun olaraq frustrasiya cinsi impulsların yaratdığı simptomun əsas səbəblərini nevrotik və əlaqəli psixoloji şüura gətirməklə aradan qaldırılır. Davranış yanaşması (R.Baron, D.Richardson) çərçivəsində frustrasiya şəraitində aqressiv davranışa meyilli insanlarla psixokorreksiya və psixoinkişafedici işdə müxtəlif sosial bacarıqların öyrədilməsi tətbiq edilir.

Sosial bacarıqların öyrədilməsi üçün xüsusi prosedurlar aşağıdakılardır: adekvat davranış nümunələrinin modelləşdirilməsi / nümayiş etdirilməsi – rol oyunları (bacarıqların inkişafı), arzuolunan və adekvat sosial davranışa görə həvəsləndirmə / mükafat vasitəsilə əks-əlaqə yaratmaq; bacarıqların öyrənmə vəziyyətindən real həyat vəziyyətinə köçürülməsi. S.S.Qonçarova adaptiv mübarizə strategiyalarını (dəstək axtarışı, özünə hörmətin artması, problemin təhlili) və uyğunlaşmayan strategiyaları (özünü günahlandırma, günahkarı axtarmaq) fərqləndirir. Məhsuldar mübarizə adətən müsbət nəticələr verir: problemin, çətin vəziyyətin həlli, gərginlik səviyyəsinin, narahatlığın, sevincin və aradan qaldırılma sevincinin azalması. Qeyri-məhsuldar mübarizə vəziyyətə emosional reaksiyaların üstünlük təşkil etməsi, onlara bir növ "ilişmə" ilə əlaqələndirilir və təcrübələrə dalmaq, özünü ittiham etmək, bir-birini günahlandırmaq şəklində özünü göstərir. Frustrasiyanın mahiyyətini, frustratorların xüsusiyyətlərini, davranış reaksiyalarını, emosional reaksiyaları və mübarizə strategiyalarını anlamaq üzrə təhlilimiz frustrasiya vəziyyətində bir insanın konstruktiv və dağıdıcı davranışı üçün meyarlar hazırlamağa imkan verdi.

Bu baxımdan frustrasiya vəziyyətində konstruktiv davranış aşağıdakılarla xarakterizə olunur:

1) frustratora müsbət davranış reaksiyaları (maneəni dəf etmək; maneədən yan keçmək; kompensasiya hərəkətləri; zəruri və əsaslı olduqda nəzərdə tutulan məqsəddən imtina);

2) sağlam mənfi emosiyalar (narahatlıq, kədər, təəssüf, qəzəb, qıcıqlanma), enerjili şəkildə aradan qaldırılması davranışını təmin edir;

3) adaptiv (dəstək axtarmaq, özünə hörməti artırmaq, problem təhlili), aktiv (iddialı hərəkətlər), prososial (sosial əlaqəyə girmək, sosial dəstək axtarmaq), dolayı (manipulyasiya hərəkətləri) mübarizə strategiyaları.

Müvafiq olaraq frustrasiya vəziyyətində dağıdıcı davranış aşağıdakılarla xarakterizə olunur: 1) frustratora mənfi aqressiv reaksiyalar (ekstrapunitiv və ya intrapunitiv) və ya mənfi qeyri-aqressiv reaksiyalar (fiksasiya; reqressiya; bastırma); 2) qeyri-sağlam neqativ emosiyalar (narahatlıq; depressiya; günah; utanc/utanma; qəzəb); 3) uyğunlaşmayan (özünü ittiham etmək, günahkarı axtarmaq), passiv (ehtiyatlı hərəkətlər, qaçmaq), asosial (asosial hərəkətlər, aqressiv hərəkətlər) mübarizə strategiyaları. Bu meyarlar frustrasiya vəziyyətində öz davranışının əksini təmin etmək, habelə psixoloji yardım göstərilməsi zamanı digər insanların davranışlarını təhlil etmək və ya gələcək müəllim və psixoloqların hazırlanması zamanı təhsil məqsədləri üçün istifadə

edilə bilər. Təhlilin nəticələrinə əsasən müəyyən edilə bilər ki, bir insanın psixoinkişafedici və korreksiyaedici işə ehtiyacı var və ya yoxdur. Frustrasiyanın dağıdıcı xarakteri subyektlər üçün psixoloji dəstək problemi yaradır. Psixoloji dəstək fenomeni ilə bağlı təhlilimiz göstərdi ki, onun ən ümumi formasında mahiyyəti yardım, dəstək olmaq istəyi, nəyinsə qırılmasına imkan verməmək kimi başa düşülür. Tələbələrin frustrasiyanın aradan qaldırılmasında psixoloji dəstəyinə gəldikdə, N.D.Levitov təlim-tərbiyə işi prosesində həll edilməli olan aşağıdakı vəzifələri müəyyən etmişdir: frustrasiya hallarının qarşısını almaq, əgər onlar yaranarsa, onları nizama salmaq; astenik və arzuolunmaz stenik reaksiyalara səbəb olan frustratorların tərbiyəvi təsirindən uzaqlaşmaq; tələbələrdə çətinliklərin düzgün başa düşülməsini inkişaf etdirmək; dözümlülük və özünüidarənin inkişafına diqqət yetirmək və s. Orta akademik bal, mübarizə strategiyaları və digər şəxsiyyət xüsusiyyətləri ilə frustrasiya səviyyəsi arasında əvvəllər müəyyən edilmiş əlaqəyə, habelə müxtəlif tədqiqatçıların mübarizə strategiyaları və psixoloji dəstək üzrə nəzəri mövqelərinə əsaslanaraq psixoloji dəstəyin növləri və məzmunu müəyyən edilmişdir.

**İsayeva Zabitə Mustafa qızı**
*SDU-nun Pedaqogika və psixologiya kafedrasının baş müəllimi*
*zabite66@box.az*

## YARADICILIQ TƏLİM METODLARININ ƏSASI KİMİ

***Açar sözlər:*** *yaradıcılıq, təlim metodları, idrak fəaliyyəti, maraq, tədqiqatçılıq metodu*

Müasir şəraitdə zamanın inkişaf ahənginə uyğun olaraq yaradıcı şəkildə işləmək üçün təlim-tərbiyə prosesini yenidən qurmaq olduqca vacib məsələdir. Təlim prosesini bütövlükdə intensivləşdirmək məqsədi ilə uzun illərdən bəri yaranmış metodların potensial imkanlarını fəal şəkildə axtarıb tapmaq, aşkara çıxarmaq və onlardan faydalanmaq tələb olunur. Cəmiyyətin yeniləşdirilməsi üçün hər şeyə yaradıcı yanaşmağı bacaran, geniş dünyagörüşünə və intellektual səviyyəyə malik olan adamların formalaşması məktəbdə, təlim-tərbiyə prosesində başlayır və inkişaf etdirilir. Odur ki, yaradıcılıq bütün təlim metodlarına daxil olmalıdır.

*Yaradıcılıq* öz-özlüyündə geniş və çoxşaxəli bir prosesdir, o, insandan yüksək emosionallıq, dərin həssaslıq tələb edir. *Təlim metodları* tədris prosesinin mühüm komponentlərindən biridir. *Təlim metodu* dedikdə, biz müəllimin müntəzəm olaraq tətbiq etdiyi iş üsullarını, tələbələrin (şagirdlərin) öz əqli qabiliyyətləri və maraqlarını inkişaf etdirmələrinə, bilik və bacarıqlara yiyələnmələrinə, qazanılmış bilik və bacarıqlardan praktik olaraq istifadə etmələrinə imkan verən əməkdaşlıq şəraitində qarşılıqlı müəllim-tələbə (şagird) fəaliyyətini başa düşürük. Təlim metodları tədris prosesində müəllimlə tələbələr (şagirdlər) arasında yaranan ünsiyyətdir. Belə ki, hər hansı bir ünsiyyət yaradıcılıqla sıx bağlıdır. Deməli, təlimin özü yaradıcı prosesdir. Bütün təlim-tərbiyə prosesi və təlim metodları yaradıcılıq ruhunda olmalıdır.

*İ.Y.Lerner "Təlim metodlarının didaktik sistemi" adlı tədqiqat əsərində* göstərir ki, reproduktiv təlim metodunun mahiyyətini müəllimin hər bir tapşırığı müəyyənləşdirmə üsulu, habelə tapşırığın icrası prosesində tələbələrin (şagirdlərin) öz bilik, vərdiş və bacarıqlarını tətbiqetmə yolları təşkil edir. Hələ vaxtilə *C.Lokk* "yumşaq" adlanan metodlar işləyib hazırlamışdır. *"Yumşaq metodlar"* tələbələrin (şagirdlərin) təbii maraqlarına və müsbət emosiyalarına əsaslanır. Həmin metodlar tədris prosesini əyləncəli etməyə istiqamətləndirməklə şərtlənir. O, təlimdə oyun formalarından, şəkilli kitablardan istifadə etməyi, qazanılmış bilik və bacarıqları praktik şəkildə tətbiq etməyi təklif etmişdir.Yaradıcılıq prosesi qeyri-adi, yeni, məlum olmayan, maraq və həyəcan doğuran hadisələrlə toqquşur. Müəllim tələbələrini (şagirdləri) onlara cavab axtarmağa sövq edir. Bu qabiliyyəti fizioloqlar "yeniliyə qarşı oyanan refleks", psixoloqlar "problemlə qarşılaşmaq", "problem situasiyanın yaranması" adlandırırlar. Əksər hallarda yaradıcılıq prosesi bütünlüklə və ardıcıl şəkildə bilik və bacarıqların yeni situasiyalarda müstəqil

tətbiqetməni nəzərdə tutur. Müşahidələr göstərir ki, tələbələrin (şagirdlərin) çoxu tədqiqatçıların yanında suallar verməyə can atmırlar. Bu şəraitdə yaradıcılıq fəaliyyətinin mühüm proses səciyyəsi olan problemi görmək bacarığı zəifləyir.

Hər bir tələbənin (şagirdin) idrak fəaliyyəti müxtəlif şəkildə (müstəqil, fəal, passiv) özünü göstərə bilir. Bəzi hallarda idrak fəaliyyəti təqlidçi, reproduktiv xarakter, digər hallarda isə axtarıcı, başqa bir halda isə yaradıcı xarakter daşıya bilər. Hər bir tələbədə (şagirddə) yaradıcı təfəkkürü inkişaf etdirmək, onları həyatda tez-tez qarşılanan müxtəlif nəzəri (elmi) və praktiki məsələləri müstəqil həll etməyə hazırlamaq mühüm vəzifələrdən biridir. Bunun üçün psixologiyanın tədrisi prosesində təlim metodlarının düzgün seçilməsi, yaradıcı təlim metodlarından səmərəli istifadə olunması lazımdır. Odur ki, hər bir təlim metodunu düzgün qiymətləndirmək, onun həqiqi rolunu aydın dərk etmək tələb olunur. Bütün bunları nəzərə alaraq, *akad.B.N.Stoletov* yazırdı ki, təlim metodları şagirdin (tələbənin – kursiv bizimdir) nə qədər tez və düzgün dərk edilməsinə, onun ətrafında baş verən, yaxud artıq baş vermiş hadisəni nə qədər tam başa düşməsinə, səbəb və nəticənin necə qavramasına, baş verən hadisədə nəyin yaxşı, nəyin isə pis, nəyin haqlı, nəyin isə haqsiz olduğunu necə müəyyən edilməsinə əsasən qiymətləndirilir. Zehnin bütün hərəkətlərində təfəkkür prosesi, düşünmə məşqi başlanır. Şagirdlərə (tələbələrə – kursiv bizimdir) elmin əsaslarını əqidələrə çevirməkdə kömək göstərmək təlim metodlarının təyinedici vəzifəsidir.

Göründüyü kimi, *problemli vəziyyət* əsasən sualdan başlayır. Lakin bütün suallar problemli vəziyyət yarada bilmir. Problemli vəziyyət o zaman yaranır ki, tələbələr həmin suala mövcud biliklər əsasında cavab verə biməsinlər. ***Problemli situasiyanın*** mühüm bir əhəmiyyəti də ondan ibarətdir ki, tələbələr təlim materialı üzərində həvəslə çalışırlar. Təcrübə göstərir ki, tələbələrin təlim materialı üzərində həvəslə işləməsi zamanı əmək məhsuldarlığı onun həmin işi həvəssiz və təhriketmə nəticəsində işləməsindən çox yüksək olur. ***Problemli şərh metodu*** zamanı yaradılan problemli situasiyada tələbələr onlara məlum olmayan yeniliyi müstəqil "kəşf" etmək imkanına malik olmadıqları halda, evristik müsahibə metodu zamanı yeni biliyi qismən, müəllimin köməyi ilə "kəşf" edir, həmçinin tədqiqat metodu zamanı isə onlar yeni məsələni müstəqil şəkildə "kəşf" edirlər. Problemli təlim metodlarının bu sistemində (ardıcıllığında) tələbələrin (şagirdlərin) müstəqilliyi dinamik şəkildə inkişaf edir. Problemli şərh metodunda müəllimdən "asılı" vəziyyətdə olan tələbələr (şagirdlər) evristik metodda yarım müstəqillik, tədqiqat metodunda isə tam müstəqillik əldə edirlər. İstər tədqiqatçılıq, istərsə də evristik müsahibə metodu tələbələrin (şagirdlərin) müstəqil işlərinə əsaslanır. Ona görə də həmin psixoloji metodlar tələbələrin (şagirdlərin) zehni fəallığının inkişafını təmin etmək, habelə onları düşünmək, axtarışlar aparmaq, müəyyən problemin həllinə yaradıcılıqla yanaşmağa sövq etmək baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

***Evristik metod*** idrak qabiliyyətini mərhələlərlə inkişaf etdirir. Həmin mərhələlər, adətən, müəllimlə tələbələr (şagirdlər) arasında gedən silsiləli sual-cavabdan ibarət olur. Məhz buna görə də evristik metodu bəzən *müsahibə, sual-cavab metodu* da adlandırırlar. Evristik metodda suallar tələbələrin keçmiş biliklərə istinadən yeni biliklərə yiyələnməsi prosesini təşkil edir. Lakin evristik metodla /suallar vasitəsilə/ bilikləri dəqiqləşdirmək, ümumiləşdirmək və tətbiqi yollarını müəyyənləşdirmək mümkündür ki, müəllimlər evristik metodun bu xüsusiyyətlərindən təlim prosesində tez-tez istifadə edə bilsinlər.

Deməli, metodlar tədris prosesində bir-biri ilə sıx əlaqə şəraitində istifadə olunma prosesindən keçir, onlar bir-birini tamamlayır. Tələbələr bilik, vərdiş və bacarıqlara yiyələnməyə ona görə səy göstərirlər ki, yaradıcılıq prosesində onlardan səmərəli şəkildə istifadə edə bilsinlər.

**Salamova Aygül Elxan qızı**
*ADPU-nun Şəki filialı*
*salamovaaygul29@gmail.com*

## YENİYETMƏLİK DÖVRÜNDƏ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏR

***Açar sözlər:*** *yeniyetməlik, tanışlıq, dostluq, həmyaşıd münasibətləri, romantik münasibətlər*

Yeniyetməlik dövründə yeniyetmələr güclü fiziki və hormonal dəyişikliklər yaşayır və bu sürətli dəyişikliklərə ayaq uydurmağa çalışarkən emosional olaraq yeni və fərqli hisslər meydana çıxmağa başlayır. Yeniyetməlik dövründə koqnitiv və məntiqi dəyişikliklərlə yanaşı, sosial və emosional dəyişikliklər də baş verir, ona görə də yeniyetmənin ailəsi və dostları ilə ünsiyyəti də müxtəlifləşir. Yeniyetməlik dövründə fərd uşaqlıq illərindən fərqli bir şəkildə yeni əlaqələr qurmaq istəyir. Sosial münasibətlər uşaqlıq və yeniyetməlik arasında dəyişir. Təbii ki, bu dövrdə ailə münasibətləri öz əhəmiyyətini qoruyur, lakin yeniyetməlik dövründə əhəmiyyət qazanan digər bir məsələ həmyaşıd münasibətləri və romantik münasibətlərdir. Yeniyetməlik dövrünün ən vacib məsələlərindən biri həmyaşıdları ilə münasibətlərdir. Həmyaşıdlarla münasibətlərdə "intimlik" anlayışı vacibdir. Bu konsepsiya yeniyetmələrin həmyaşıdları ilə baxışlarının və münasibətlərinin əsasını təşkil edir. Yaxınlıq anlayışı cinsi və ya fiziki əlaqəni əhatə etməməlidir. Yaxınlıq iki insan arasındakı emosional əlaqəni ifadə edir. Bir çox nəzəriyyəçi yeniyetmə qızlar üçün yaxınlığın daha vacib olduğunu vurğulayır.

Bir çox tədqiqatçı körpəlik və yeniyetməlik dövründə qurulan sağlam bağlılıq münasibətləri arasında birbaşa əlaqə olduğunu düşünür. Əgər körpəlik dövründə bir insan təhlükəsiz münasibət qurarsa, yeniyetməlik dövründə də müsbət sosial əlaqələrə sahib olar. Lakin əgər onlar güvənsiz bağlanırlarsa, onların yeniyetməlik illərində etibarsız münasibətləri olacaq. Bu nöqteyi-nəzər təkcə dostların münasibəti üçün deyil, həm də dostlar və valideynlər arasındakı münasibət üçün keçərlidir.

Dostluq münasibətləri yaşla dəyişir və bu münasibətdə inkişaf prosesinin olduğu müşahidə edilir. Xüsusilə qazanılan dostların sayı inkişaf baxımından vacibdir. Yeniyetmə əvvəlcə öz cinsindən olan uşaqlarla dostluq münasibətləri qurur, sonra isə bu dostluq qarışıq cinsli dost qruplarının formalaşmasına zəmin yaradır. Bu mərhələdən sonra yaxın dost qrupları formalaşmağa başlayır.

Bundan əlavə dostluq münasibətlərində cinsiyyət fərqləri də vacibdir. Yeniyetmə oğlanların qızlardan daha çox dostu olduğu qeyd olunur. Yeniyetmələrin yaxın dostlarının çoxunun 2-4 nəfər arasında olduğu, oğlanların yaxın dostlarının sayının isə qızlardan çox olduğu müşahidə edilmişdir. Qızların eyni cinsdən olan dostlarını oğlanlara nisbətən daha yaxın hiss etdikləri də bildirilir.

Dostluq münasibətlərinin müəyyənedici amillərindən biri də yeniyetmələrin dostluq münasibətlərindən gözləntiləridir. Yeniyetmələrdən dostluq anlayışının inkişafı ilə bağlı dostlarından gözləntilərini yazmaqla bağlı araşdırma aparılmışdır. Araşdırma nəticəsində dostlardan gözləntilərin ortaq fəaliyyət və məkanda yaxınlıq kimi səthi gözləntilərdən tutmuş, cəmiyyətin müəyyən etdiyi sadiqlik və bağlılıq kimi qaydalara, eləcə də psixoloji vəziyyətlərə qədər geniş diapazonda dəyişdiyi müəyyən edilmişdir. Digər bir araşdırmada dostluğun ölçülərinin öhdəlik, etibar, identifikasiya, özünü açıqlama və sədaqət olduğu müəyyənləşdirilmişdir.

Ölkəmizdə ailələr yeniyetmələrin həmyaşıdları və romantik münasibətlərinə mühüm təsir göstərir. Ailələrin ümumiyyətlə yeniyetmələrin dostluq münasibətlərinə reaksiya verdiyi müəyyən edilmişdir. Yeniyetmələrin ailələrinin yarıdan çoxunun dostluq münasibətlərinə mane olduğu, qızların dostluq münasibətlərinə oğlanlara nisbətən daha çox müdaxilə etdiyi və bu müdaxilənin daha çox ana tərəfindən edildiyi aşkarlanıb.

Yeniyetməlik dövründə dostluq mühüm məsələ olduğundan dostların yeniyetmələrə təsiri böyük əhəmiyyət kəsb edir. Dostluq münasibətlərinin yeniyetmələrə müxtəlif müsbət və mənfi

təsirləri var. Dost qruplarının yeniyetmələr üzərindəki müsbət təsirləri ondan ibarətdir ki, dost qrupu sosial gücləndiricidir; dost qrupu hər hansı böhran və çaşqınlıq zamanı yeniyetməyə emosional mənbə kimi dəstək verir; dostlar qrupu yeniyetmələrə öz davranışlarını qiymətləndirmək üçün şərait yaradır; dostlar qrupu birlik yaradır və yeniyetmənin davranışını formalaşdırır; dost qrupu valideyn davranışlarını şərh edərkən yeniyetməyə dəstək verir.

Dostların yeniyetmələrə mənfi təsirləri də var. Dostluq münasibətləri "qeyri-adekvat" olan yeniyetmələrin narahatlıq səviyyəsinin daha yüksək olduğu müəyyən edilib. Yalnızlıq səviyyəsi yüksək olan yeniyetmənin özünə hörmətinin aşağı olduğu müəyyən edilib. Bundan əlavə, əks cinsdən olan dostların olmasına görə sosial mənlik səviyyəsinin dəyişdiyi müəyyən edilib.

Dostluq münasibətlərində mühüm məsələlərdən biri də yeniyetmənin yaşıdları arasında dost statusunun olmasıdır. Bu statusların populyar olmaq, uyğunsuzluq, diqqətin olmaması və rədd edilmək olduğu müəyyən edilmişdir. Yeniyetmənin dostlar qrupu arasında olması onların davranışlarına təsir göstərir. Yaşıdları arasında populyar olan yeniyetmə yaşıdlarının gözündə onların ehtiyaclarını ödəyə bilən insandır. Qeyri-populyarlıq yeniyetmənin koqnitiv və sosial inkişafına mənfi təsir göstərir. Həmyaşıdları tərəfindən kənarlaşdırılmanın yeniyetmələrdə depressiyaya, davranış problemlərinə və akademik çətinliklərə səbəb olduğu düşünülür.

Yeniyetməlik dövrünün ilk illərində eynicinsli dostlar hələ də xüsusi dost olsalar da, yeniyetmələrin əks cinsdən olan dost axtarışları artır və romantik münasibətlər başlayır. Yeniyetməlik dövründə qurulan romantik münasibətlər yeniyetmələr üzərində də təsirlidir. Çünki romantik münasibət qurmaq yeniyetməlik dövrünün ən mühüm xüsusiyyətlərindən biridir. Yeniyetmələr daha çox əks cinsin dostları ilə olmağa başlayırlar. Ancaq romantik münasibətlərdən narahatdırlar. Romantik əlaqələrin əsasını tanış olmaq təşkil edir. Tanışlıq yeniyetməlik dövründə əks cinslə yaxın münasibətlər prosesidir. Əks cinsdən olan insanlarla münasibət qurmaq istəyi xüsusilə orta məktəbdə oxuyan qızlarda tez-tez olur. Yeniyetməlikdə yaş artdıqca tanışlığın daha ciddi qəbul edildiyi görünür. Yeniyetmənin görüşməməsi və tanışlıqdan imtina etməsi onun depressiya prosesinə girməsinə və deviant davranışlara meyillənməsinə səbəb olur.

Yeniyetməlik dövrünün sonlarına doğru romantik əlaqələrə baxarkən məlum olur ki, bu dövrdə yeniyetmələrin münasibətlərində bərabərlik hissi onlarda münasibətlər haqqında müsbət düşünməyə vadar edir və yeniyetmələrin romantik münasibətləri ilə bağlı narahatlığını azaldır. Romantik münasibət zamanı rahat ünsiyyət qura biləcəklərini düşünən yeniyetmələrin özünə inamının daha yüksək olduğu müəyyən edilib.

**Orucova Aytən Vahid qızı**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin*
*praktik psixoloq və psixologiya müəllimi*
*1aorucova@gmail.com*

## FORMALAŞAN ŞƏXSİYYƏT VƏ ONUN KÖKLƏRİ

***Açar sözlər:*** *şəxsiyyət, nəzəriyyə, inkişaf, amil, kontekst, psixologiya*

Müasir dövrdə insan amili və şəxsiyyət məfhumu xüsusilə diqqətçəkən, geniş müzakirələrə səbəb olan mövzulardandır. Şəxsiyyət problemi, onun inkişafının sosial-psixoloji məsələləri, formalaşması daim aktuallığını qoruyur. Bu prosesin daha da aktuallaşmasını müasir dövrün tələbatı olaraq diqqətə ala bilərik. Ətrafda bir çox şey dəyişərkən, fərqli situasiyalar yaşanarkən təbii olaraq şəxsiyyət də dəyişir. Onun formalaşma və inkişaf yolu özünü yeniləyir. Hamı tərəfindən qəbul edilən vahid şəxsiyyət tərifi yoxdur. Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək fərdin özünəməxsus simasının yaranması prosesidir. Şəxsiyyət keçmişin şüursuz meyilləri və gələcəyə şüurlu yönəlmənin qarşılaşdırılmasının imkan və təzahür vasitəsidir (Prof. S.Seyidov). Şəxsiyyət – yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün

məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. Şəxsiyyət – müstəqil, sosial, fəal olan adamdır. Şəxsiyyətə hamı tərəfindən qəbul edilən vahid tərif verilmədiyi üçün bu onun necə mürəkkəb bir fenomen olduğunu göstərir.

Elmlərin bir çoxu şəxsiyyətin araşdırılmasına, onun fərqli yanaşmalarla spesifik cəhətlərinin üzə çıxarılmasına köklənmişdir. Şəxsiyyətin psixologiyası dərin köklərə malikdir. Psixologiyada "insan" anlayışı ilə bərabər, fərd, fərdilik, şəxsiyyət anlayışlarından geniş istifadə edilir. Hər birimiz fərd olaraq doğulur yaşadığımız zaman içində şəxsiyyətə çevrilirik. Psixoloji nöqteyi-nəzərdən yanaşıldıqda isə şəxsiyyət ictimai münasibətlərin obyekti olmaqla bərabər həm də subyekti kimi çıxış edir. Psixologiyada insanı şəxsiyyət kimi öyrənərkən onun sosial tərəfi daha çox diqqət mərkəzinə çəkilir. Şəxsiyyətə sosioloji aspektdən yanaşdığımız zaman onun sosial münasibətlərin obyekti olduğunu görürük. Şəxsiyyət anlayışının sosial hadisə kimi şərh edilməsini K.Marksın yazılarında daha aydın görürük. Maks belə izah edirdi ki, "Şəxsiyyətin məzmununu onun fiziki keyfiyyətləri deyil, sosial keyfiyyətləri təşkil edir".

Şəxsiyyəti başqa insanlardan ayıran davranışı, fərdi xüsusiyyətləri, həyat təcrübəsi keçdiyi inkişaf yolunun müxtəlif mərhələlərində formalaşır. Bu çevrilmə mərhələsi uzun bir yoldur. Çıxardığımız nəticələr, qət etdiyimiz yollar, etdiyimiz səhvlər, təcrübələr hər biri bizim formalaşmağımıza təsir edən əsas amillərdəndir. Onun inkişaf prosesi hər hansı bir plan üzrə reallaşdırılmır. Eyni evdə, eyni valideynlərin tərbiyəsini alan, hətta bəzən eyni bağçaya, ibtidai sinfə birlikdə gedən uşaqların belə fərqli xarakterlərə malik olmasını, şəxsiyyətinin başqa cür formalaşdığının şahidi oluruq. Ona görə şəxsiyyətin formalaşmasında əsas amillər olaraq ailəni, ətraf mühiti götürdüyümüz kimi, şəxsiyyətin fərdi xüsusiyyətlərini, özünəməxsus təbiətini də nəzərə almalıyıq. Şəxsiyyət olmaq üçün fərd müəyyən inkişaf yolu keçir. Burada iki proses bir-biriylə uzlaşır. Bir tərəfdən şəxsiyyət ictimai münasibətlər sisteminə daxil olur, digər tərəfdən, o, daha çox müstəqillik avtonomluq kəsb edə bilir. Belə demək olar ki, onun cəmiyyətdə inkişafının mühüm cəhətini fərdiləşmə prosesi təşkil edir. Fərd şəxsiyyətə çevrildikdə, həm də fərdiyyət xüsusiyyətlərini qazanmış olur. Elmdə fərdiyyət anlayışı insanın təkrarolunmaz xüsusiyyətlərinin məcmusu kimi şərh edilir. Artıq şəxsiyyət anlayışı daha çox məzmununa görə deyil, fərdi varlığın spesifik aspekti kimi təhlil edilir. Şəxsiyyətin sosial-psixoloji mahiyyətini təhlil edərkən onun tələbat sisteminə diqqət göstərmək xüsusi əhəmiyyət kəsb edir. Daha çox sosial varlıq kimi xarakterizə olunan insan üçün ən mühüm tələbat ünsiyyətə olan tələbatdır. Ünsiyyət tələbatı insan psixikasının şəxsiyyətyönümlü keyfiyyəti, davamlı və bütöv sistem kimi özünü dərk etməsi və fəaliyyətin əsası kimi xarakterizə edilir. Fərdin bütün fəaliyyət növlərində ünsiyyət zəruri şərt kimi özünü göstərir və aparıcı mövqedə durur. Şəxsiyyətin sosial-psixoloji strukturunun təhlili aparılarkən onun müxtəlif qruplara daxil olması, hansı normaları mənimsəməsi, bu qrupların ona təsiri nəticəsində hansı rolu və mövqeni tutması kimi məsələlərin araşdırılması olduqca əhəmiyyətlidir. Çünki insan hər bir fəaliyyət prosesində qrup və kollektiv üzvü olur. Oyun fəaliyyətində oyununun digər iştirakçıları ilə, təlimdə birlikdə təhsil aldığı yoldaşları ilə və əmək fəaliyyətində başqaları ilə müəyyən ünsiyyət təmasında olur və öz davranışlarını sərgiləyə bilir. Hər bir fəaliyyətdə qrup üzvləri müəyyən işlər görür və sosial normalara əməl etməyə çalışırlar. Həmin normalar insanların münasibətlərini tənzim edir, qrupdaxili münasibətlərin sağlam davam etməsinə şərait yaradırlar. Nəticədə fərqli fəaliyyətlər icra edən fərdin şəxsiyyətinin formalaşması prosesi inkişafa doğru irəliləyir. Hər hansı qrup üzvü olan şəxsiyyət müəyyən edilmiş normalara riayət edərək nüfuz qazanır və müəyyən rolları icra edir. Hər birimiz istər oyun, istər təlim, əmək fəaliyyətində üzv olduğumuz qrupa uyğunlaşır və davam etmək, adaptasiya olmaq üçün müəyyən yollar axtarırıq.

Bu sahədə müxtəlif baxış və nəzəriyyələr mövcuddur. Belə ki, şəxsiyyətin eksperimental tədqiqinin əsası A.F.Lazurski, Q.Olport, R.Kettel tərəfindən qoyulmuşdur. Aparılan tədqiqatlar nəticəsində bir neçə nəzəriyyə meydana çıxmış və şəxsiyyətin əsas faktorlarını özündə cəmləşdirmişdir.

1. İlkin və ya psixoanalitik kontekst (Klassik nəzəriyyə)
2. Nevrotik və antihumanistik kontekst (Klinik nəzəriyyə)

3. Tətbiqi kontekst (Eksperimental nəzəriyyə)
4. “Təhrif edilməmiş” həqiqət konteksti (Koqnitiv nəzəriyyə)
5. Davranış konteksti (Bihevioral nəzəriyyə)
6. Humanizm konteksti (Humanistik nəzəriyyə)

***İlkin və ya digər adıyla psixoanalitik kontekst (Klassik nəzəriyyə).*** Bu kontekstdə Z.Freydin psixoanalitik nəzəriyyəsi (Freydizm), K.Yunqun analitik nəzəriyyəsi və A.Adlerin fərdi psixologiya nəzəriyyəsi klassik nəzəriyyələr adı altında cəmləşir. Freydizmin mənbəyində libido və instinktiv təhriklər dayanır. Bununla da psixi hadisələrə yeni bir yanaşma – şüursuzluq anlayışı gətirilmişdir. Psixoanalitik kontekstdə şəxsiyyətin strukturunda 3 komponent mövcuddur: İd (O), Eqo (Mən), Super – eqo (Fövqəl – mən). Klassik nəzəriyyələrə K.Yunqun analitik nəzəriyyəsi də aid edilir. Bu aspektdən yanaşıldıqda, şəxsiyyət özndə 4 elementi cəmləşdirir: şüur, şəxsi şüursuzluq, şüursuzluq və kollektiv şüursuzluq. K.Yunq qeyd edir ki, insan təkcə gizli tendensiyaları ilə yox, eyni zamanda istək, arzu və qiymətlərilə müəyyən edilir. K.Yunq ekstroversiya və introversiya anlayışlarını şəxsiyyətin əsası kimi psixologiyaya daxil etmiş, ekstrovert və introvertşəxsiyyət tiplərini səciyyələndirmişdir. Şəxsiyyət bütün maraqlarına xaricə yönəldirsə, ekstrovert tipə aid olur. İntrovert tip isə həyat enerjisini öz daxili aləminə yönəltmiş olandır. Klassik nəzəriyyələrdən biri də A.Adlerin fərdi psixologiya nəzəriyyəsidir. A.Adlerin fikrincə, insanda ən əsas faktor təbii instinktləri yox, birlik hissidir. Adler mühüm münasibətləri təsnif etməklə şəxsiyyətin formalaşmasına təsir göstərən 3 əsas komponenti qeyd etmişdir: ətrafdakı insanlara münasibət, əməyə münasibət, qarşı cinsə olan münasibət.

***Nevrotik və antihumanistik kontekst (Klinik nəzəriyyə).*** Bu kontekstdə K.Horninin "Nevrozlar nəzəriyyəsi", E.Fromun "Şəxsiyyət konsepsiyası", H.Sallivanın "İnterpersonal nəzəriyyəsi”, E.Eriksonun "Şəxsiyyətin psixososial inkişaf konsepsiyası" öz sözünü demişdir. K.Horni anadangəlmə narahatlıq hissini insanın davranış və fəaliyyətinin şərtləndirilməsinin əsası kimi götürürdü. Bu nəzəriyyəyə görə, insan doğulduğu gündən üzvi səviyyədə narahatlıq keçirməyə başlayır, həmin hisslər onun psixi fəaliyyətinin daxili xassəsi kimi özünü göstərir. K.Horniyə görə, narahatlıq hissi insanı fəaliyyətə təhrik edən əsas motivdir. O, narahatlıq hissini "köklü həyəcan" adlandırmışdır. E.Fromun şəxsiyyət konsepsiyasına diqqət etdikdə isə 4 şəxsiyyət tipini ayırd etdiyini görürük: Sadist, Mazoxist, Konformist, Tərki dünya (destruktivizim)

Sadist – ətraf aləmi məhv etməyə fokuslanıb, özündə günah görmür.

Mazoxist – ətraf aləmdə baş verənlərin günahkarının özü olduğunu zənn edib, özünüməhvə fokuslanıb.

Konformist – hər bir şəraitə uyğunlaşır, kütlədən (cəmiyyətdən) fərqlənmir.

Tərki dünya – ətraf aləmi "silməyə" cəhd edir, destruktiv fəaliyyətin nəticəsi olaraq tənha qalmağı seçir.

***Tətbiqi kontekst (Eksperimental nəzəriyyə).*** Burada birinci növbədə diqqəti cəlb edən Q.Olport və Q.Meyerin "Personoloji nəzəriyyə"sidir. Olporta görə, sosial psixologiyanın predmeti ayrı-ayrı fərdlər arasında qarşılıqlı münasibətlərin öyrənilməsindən ibarət olmalıdır. Olpotr göstərir ki, gündəlik həyatda hər bir kəs onu əhatə edən insanlarla qarşılıqlı fəaliyyət və ünsiyyətdə olur. Qarşı tərəfin şəxsi keyfiyyət və əlamətlərinə uyğun olaraq onun şəxsiyyəti haqqında təsəvvür formalaşır.

***Təhrif edilməmiş” həqiqət konteksti (Koqnitiv nəzəriyyə).*** Bu kontekstdə L.Festingerin "Koqnitiv dissonans" nəzəriyyəsini xüsusilə vurğulamaq lazımdır. Bu nəzəriyyəyə görə, əgər fərdin şüurunda eyni bir obyektə və hadisəyə dair məntiqi cəhətdən bir-birinə zidd olan bilik qarşılaşırsa, o zaman fərd bir növ diskomfortluq hissi keçirir və o, həmin hissdən xilas olmağa çalışır. Bəzən obyektiv şəraitdən asılı olaraq bu və ya digər şəkildə hərəkət etməli olur. Bu zaman insanın bilikləri ilə real davranışı arasında ziddiyyət meydana gəlir. L.Festingerə görə, öz hərəkətinə, davranışına bəraət qazandırmağı gücləndirməyə çalışan insan ya öz davranışını dəyişir, ya hərəkətinin bağlı olduğu obyektə münasibətini dəyişir, ya da həmin davranışın özünə və başqalarına əhəmiyyətini azaldır.

***Davranış konteksti (Bihevioral nəzəriyyə).*** Biheviorristlərə görə, psixologiya bir elm kimi şüuru, ruhi aləmi deyil, davranışı öyrənməlidir. Biheviorizmin yaradıcısı C.Uotson hesab edir ki, insan davranışı üzərində çoxsaylı müşahidələr aparmaqla hər hansı situasiyada onun verəcəyi cavab reaksiyasını əvvəlcədən müəyyənləşdirmək mümkündür.

***Humanizm konteksti (Humanistik nəzəriyyə).*** E.Erikson, A.Maslou, K.Rocers və başqaları humanistik psixologiyanın yaranmasında və inkişafında əvəzsiz xidmətləri olan alimlərdəndir. Onlar göstərirlər ki, insan təbiəti etibarilə xeyirxahdır. Elə bu səbəbdən də o, humanist nöqteyi-nəzərdən öyrənilməli, onun bu cəhdləri inkişaf etdirilməlidir. Rocersin konsepsiyasının əsasını insana inam, onun şəxsiyyətinə hörmət təşkil edir. Rocers göstərir ki, insana ən qiymətli hədiyyə onun emosional vəziyyətini dinləmək, hörmətlə yanaşmaq və öz yerini tapmaqda ona kömək etməkdir. Humanist psixologiyanın nümayəndələrindən biri də amerikan psixoloqu Abraham Maslou olmuşdur. O, şəxsiyyət tələbatlarının ierarxik quruluşunu vermiş və elmdə o, Maslonun piramidası adını almışdır. Burada ən aşağı səviyyədə olan fizioloji tələbatlardan başlayaraq ən ali tələbat olan özünüaktuallaşdırmaya qədər ierarxik yüksəliş baş verir.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Qapp-Poliqraf, 2003
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Bakı: Azərnəşr, 1986
3. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr
4. Əliyev R.İ. Psixologiya tarixi
5. Rogers C.R A theory of therapy, personality and interpersonal relationship, as developed in the client-centered framework. N.Y.Mc. Graw-Hill
6. Fromm E. İnsandaki yıkıcılığın kökenleri. Say yayınları, 2016, s.712
7. https://www.linkedin.com/pulse/psixologiyada-%C5%9F%C9%99xsiyy%C9%99t-problemin%C9%99-n%C9%99z%C9%99ri-t%C9%99dqiqi-hiss%C9%99-david-poladov?originalSubdomain=tr



**Mikayılova Könül Vaqif qızı**

*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*böyük elmi işçisi, PhD*
*konulmikayilova@rambler.ru*


## ETNOPSİXOLOGİYA, ETNOSENTRİZM VƏ QİYMƏTLƏNDİRMƏ

***Açar sözlər:*** *relativizm, absolyutizm, universalizm, etnosentrizm, qiymətləndirmə*

XX əsrdə dünya elmində etnopsixologiya əhəmiyyətli bir yer tutaraq inkişaf etdi. Etnopsixologiya – insanların etnik mənsubiyyəti ilə onların psixologiyası arasındakı əlaqəni öyrənən bir elm sahəsidir və etnik-psixoloji təsəvvürlərin təşəkkülü xalqın qədim adət-ənənə, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlıdır.

Etnopsixologiya etnik mənsubiyyəti üç istiqamətdə araşdırır: relativizm, absolyutizm, universalizm. Relyativizm mədəniyyətlər arasındakı fərqləri vurğulayır. Absolyutizm mədəniyyətlərarası oxşarlıqları mütləqləşdirir. Universalizmi birliyi müdafiə edir və planetin hər yerində insanların düşüncə və davranışlarında təzahür edən sosial-psixoloji proseslərin mahiyyətcə eyni olduğunu əsaslandırır.



**Etnopsixologiya əlaqəlidir:**
- Etnomədəni təhsil
- Etnopedaqogika
- Linqvistik antropologiya
- Etnopsixologiya və s.




**Etnopsixologiya araşdırır:**
- Dünyanın etno-mədəni tərkibini
- Sosial mühitin mədəniyyətlərarası əlaqəsini
- Mədəniyyətlərarası inkişaf tendensiyası və s.




**Etnopsixologiya xidmət edir:**
- Mədəniyyətlərarası mühitə psixoloji dəstək
- Din və dinlərarası əlaqələrə psixoloji dəstək
- Miqrantlara psixoloji dəstək və s.

**Etnosentrizm** – etnopsixologiyanın təhlil vahidi olub, şəxsiyyətin ətrafında baş verən hadisələri öz mədəniyyəti süzgəcindən keçirməklə təhliletmə prosesidir. Etnosentrizm çevik, qeyri-çevik və delegitimizasiya formasında təhlil aparır:

**Çevik etnosentrizm**

- onları belə öyrədiblər;
- onlar belə adət edib;
- biz yaxşı, ya pis olduğunu deyə bilmərik

**Qeyri-çevik etnosentrizm**

- bunlar dəhşətdir;
- bu səbədən sevilmirlər;

**Delegitimizasiya**

hər hansı bir etnosa qarşı öz etnosunda nifrət hissinin aşılanması

Etnosentrizm bizə həmçinin qiymətləndirmə prosesini həyata keçirməyə və etnopsixoloji xüsusiyyətləri qiymətləndirməyə imkan yaradır. Bu cür qiymətləndirməni Venn diaqramının köməkliyi ilə həyata keçirmək olar.

| | | |
|---|---|---|
| **Meyarlar:**<br>- adət-ənələr baxımdan;<br>- humanistlik və tolerantlıq baxımından;<br>- pula verilən dəyər baxımından;<br>-uzunömürlülük baxımından və s. | |  |



Beləliklə, Venn diaqramı bizə etnopsixoloji oxşarlıq və fərqlilik baxımından çoxluq, yaxud azlıq vahidini göstərir.

## ƏDƏBİYYAT

1.Babayeva Ş., Alıyev C., Əliyev Ə., Məmmədov M., Əmirova S., Zeynalova H., Babayeva K., Sadıxova L., Fərhatlı S., Əhmədova N., Dəmirova C., Qubadova Ə. Etnopsixologiya. – Bakı: ADPU mətbəəsi, -2020, 346 s.

2.Şəmsizadə N. Etnik şüur və etnopsixologiya. URL: https://525.az/news/196138-etnik-suur-ve-etnopsixologiya--nizameddin-semsizade-yazir

3.Xavier Belsiyal C. Ethno psychology and its Application – Review. URL: https://rjhssonline.com/HTMLPaper.aspx?Journal=Research%20Journal%20of%20Humanities%20and%20Social%20Sciences;PID=2016-7-4-16

4.Сунцова Я.С., Вьюжанина С.А. Этнопсихология: Учебно-методическое пособие. URL: http://elibrary.udsu.ru/xmlui/bitstream/handle/123456789/13295/2015223.pdf

**Nuriyeva Sveta Nuru qızı**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
*sveta.nuriyeva@mail.ru*

## Ə.ƏLİZADƏNİN TƏDQİQATLARINDA «XƏMSƏ»DƏ YAŞ VƏ PEDAQOJİ PSİXOLOGİYA MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *“Xəmsə”, yaş və pedaqoji psixologiya, nizamişünaslıq, şəxsiyyət,nəsihət*

Görkəmli pedaqoq, əməkdar elm xadimi, psixoloq-alim Əbdül Əlizadə respublikamızda psixologiya elminin bir sıra sahələrinin inkişafına, formalaşmasına dəyərli töhfələr vermişdir. Etnopsixologiya ilə bağlı tədqiqatlarında etnopsixoloji problemlərin araşdırılmasını ön plana çəkmiş, xalqımızın klassik psixoloji irsinin öyrənilməsinə xüsusi diqqət göstərmişdir.

«Nizaminin psixoloji görüşləri» və «Xəmsə»də yaş və pedaqoji psixologiya məsələləri bu araşdırmaların məhsulu kimi meydana çıxmışdır. Böyük Nizaminin psixoloji görüşlərinə həsr olunmuş «Xəmsə»də yaş və pedaqoji psixologiya məsələləri Ə.Əlizadənin nizamişünaslıq sahəsində apardığı tədqiqatlarının uğurlu nəticəsi kimi qiymətləndirilir. Nizaminin psixoloji görüşləri sistemli öyrənilib şəxsiyyət və liderlik problemi sahəsində mühüm tədqiqatlar aparılsa da, yaş və pedaqoji psixologiya yönümündə hələ sistemli araşdırılmayıb. Bu məsələlər Ə.Əlizadənin tədqiqatlarında psixoloji Nizamişünaslıgın uğurları əsasında açıqlanır. Yaş və pedaqoji psixologiya axarında yas xüsusiyyətləri və ata-oğul problemləri araşdırılır, Nizami Gəncəvinin oğlu Məhəmmədə nəsihətləri «Xəmsə»nin psixoloji təhlili kontekstində aydınlaşdırılır. Yaş dəyərlərinin geniş təhlilinə ilk dəfə Nizaminin əsərlərində rast gəlirik. Xll yüzillikdə Azərbaycan psixoloji fikir tarixində yaş xüsusiyyətləri mahiyyətcə yeni məsələ idi. Nizaminin bu məsələləri ayırd etməsi dünya psixologiyası tarixində də əlamətdar hadisə kimi dəyərləndirilməlidir. «Xəmsə»də anadan olandan yüz yaşına qədər insanın yaş xüsusiyyətlərinin ümumi xarakteristikası verilmiş, ayrı-ayrı yaş dövrləri – uşaqlıq, gənclik, yetkinlik, qocalıq və ahıllıq yaş dövrləri geniş səciyyələndirilmişdir.

Nizaminin oğluna nəsihətləri kontekstində üç mərhələ – uşaqlıq, yeniyetməlik və cavanlıq dövrləri diqqəti daha çox cəlb edir. «Xəmsə»nin üç poeması Məhəmmədin seçimli yaş dövrlərinə təsadüf edir. Məhəmməd 7 yaşında olanda «Xosrov və Şirin», 14 yaşında olanda «Leyli və Məcnun», 21 yaşında olanda «Yeddi gözəl» yazılmışdı. Mütəfəkkir şair oğluna məhz 7, 14 və 21 yaşlarında nəsihətlə müraciət edərkən Aristotel təsnifatına deyil, yaş dövrləri haqqında islam psixologiyası və pedaqoikasında bərqərar olmuş təsnifata əsaslanmışdır. İnsanın özünü tanıması ideyası onların ana xəttini təşkil edir.

Xll əsr psixoloji fikr tarixi Nizaminin bənzərsiz konsepsiyası ilə seçilir. Bu konsepsiyanın ana xəttini şəxsiyyət və onun formalaşması məsələləri təşkil edirdi. Müəllifin sözləri ilə desək,

Nizami insanı bir şəxsiyyət kimi kəşf etmişdir. Bu Xll əsrin psixologiya tarixində böyük kəşf idi. Xll əsrdə dünya şəxsiyyət psixologiyası salnaməsinin parlaq səhifələri məhz «Xəmsə»də yazılmışdır. Nizami şəxsiyyətin formalaşması prosesini ilk növbədə şəxsiyyətlərarası münasibətlər kontekstində araşdırır. Oğlanların tərbiyəsində ata-oğul münasibətlərini müxtəlif yönümlərdə təhlil edən Nizaminin fikrincə, həmin münasibətlərin xarakteri təkcə atanın şəxsiyyəti ilə deyil, həm də oğulun şəxsiyyəti ilə şərtlənir: oğul necə tərbiyə olunmalıdır? Hansı keyfiyyətlərə yiyələnməlidir? Şairin oğlu Məhəmmədə nəsihətlərində bu özəmli pedaqoji-psixoloji suallara əsaslı cavab verilmişdir. Nizaminin oğlu Məhəmmədə nəsihətlərində təkcə öz övladı barəsində deyil, bütövlükdə xalqın gələcəyi – uşaq və gənclərin taleyi barəsində idealları öz əksini tapmışdır. Eyni zamanda ailə psixologiyası, cinsi fərqlər, xarakter məsələləri, tipoloji təhlillər və s. bu kimi məsələlər Nizaminin yaradıcılığında geniş yer almışdır.

«Xəmsə»də qadın etalon və stereotipləri fonunda qadın şəxsiyyətinin əzəməti parlaq qadın obrazları timsalında vəsf olunur və bu konteksdə qadın psixologiyası məsələləri açıqlanır. Nizami göstərir ki, qadının hisslər aləmi nə qədər zəngin olsa da, şəxsiyyət səviyyəsində onlar qadının mənlik şüuruna və əxlaqi şüuruna söykənir. Nüşabə effekti və Şirin effekti Azərbaycan psixoloji fikrində bu konteksdə bənzərsizdir.

Nizaminin insan konsepsiyasında təlim-tərbiyə məsələləri xüsusi yer tutur. Müəyyən edilmişdir ki, «Nizaminin təlimində insan sosial mənşəyinə və irqinə görə deyil, xarakterinə, mənəvi, intellektual qabiliyyətinə, fərdi keyfiyyətinə görə seçilir. Nizaminin tərbiyənin psixologiyası məsələləri haqqındakı görüşlərinin tədqiqi onun təkcə pedaqoji sistemini deyil, bütövlükdə insan fəlsəfəsini, şəxsiyyət konsepsiyasını öyrənmək üçün xüsusi əhəmiyyətə malikdir. «Nizami şəxsiyyətin təşəkkülü və inkişafında təbii-irsi amillərin, təlim və tərbiyənin rolunu qeyd etsə də, fərdin şəxsiyyətə çevrilməsi prosesində onun sosiallaşmasına, ictimai münasibətlər sisteminə qoşulmasına və özünütərbiyəyə başlıca əhəmiyyət vermişdir. Nizami şəxsiyyətin inkişafında irsiyyət, təlim, tərbiyə, sosial mühit və şəxsiyyətin özünüfəallığı kimi amillərin təsirinin mexaniki xarakter daşımayıb, dialektik təbiətə malik olduğunu göstərmişdir».

Ə.Əlizadə nizamişünasliq sahəsində apardığı tədqiqat işində «Yeddi gözəl»in novellaları ilk dəfə olaraq M.Lüşerin rəng testlərinin kateqorial ölçüləri ilə araşdırılmış, yeddi rəngin psixosemantikası təhlil olunmuşdur. Nizami Gəncəvi «Yeddi gözəl»in rəng duyumunu şəxsiyyət psixologiyası baxımından bütün incəliyi ilə təhlil etmiş, hər bir hekayənin süjetini və kompozisiyasını rənglərin psixosemantik ölçüləri ilə açıqlamışdı.

Azərbaycan yaş və pedaqoji psixologiyanın inkişafı bütün dövrlərdə Azərbaycan maarifçiliyinin inkişafı ilə bilavasitə əlaqədar olmuşdur. Xll əsrdə Azərbaycan maarifçiliyinin önəmli xüsusiyyətləri renessans ölçüləri ilə Nizami Gəncəvinin psixoloji görüşlərində əks olunmuşdur. Ə.Əlizadənin xalqımızın klassik psixoloji irsini əks etdirən «Xəmsə»də yaş və pedaqoji psixologiya məsələləri adlı kitabını onun həyatında ən böyük və təqdirəlayiq hadisə kimi dəyərləndirmək olar.

**Xuda-Zadə Könül Akif qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*konul.akbar.31@gmail.com*

## ŞƏXSİYYƏTİN FORMALAŞMASININ ETNOPSİXOLOJİ SƏCİYYƏSİ

***Açar sözlər:*** *şəxsiyyət, mentalitet, etnos, özünüdərk*

Mental görüşlər və etnik adət-ənənələr şəxsiyyətin formalaşması üçün ilkin təsir qüvvəsinə malikdir. Dünyaya göz açan hər bir fərd mütləq ilkin davranış və münasibət şablonlarını ailəsi və yaxınlarından alaraq şəxsiyyət olmaq istiqamətində formalaşır. Şəxsiyyət mürəkkəb psixoloji fenomen olub şəxsiyyət psixologiyasının həm subyekti, həm də obyekti rolunda çıxış edir. Şəxsiyyət problemi etnopsixologiyanın aktual və ənənəvi məsələlərindən birini təşkil edir. Belə

ki, cəmiyyətin əsas aparıcı qüvvəsi olan şəxsiyyət özündə mütləq etnik xarakterin kodlarını daşıyır. Bütövlükdə xalqa məxsus etnopsixoloji xüsusiyyətlər əslində bir xalqın ayrı-ayrı fərdlərinin davranış və rəftarında, şəxsiyyətlərarası münasibət və ünsiyyətində özünü göstərir.

Müasir dövrdə mentallıq, mentalitet anlayışları xüsusi aktuallıqla demək olar ki, bütün elmlərin mübahisə obyekti kimi çıxış edir. Mentalitet hər bir etnosa məxsus olan şəxsin olduğu cəmiyyətdə yerini, rolunu, davranışını və s. təyin edən biliklər sistemi kimi xarakterizə olunur. Hər hansı bir xalqın yaşayış və düşüncə tərzi, ona xas xüsusiyyətləri, mədəniyyəti, dəyərləri, baxışları öz əksini milli mentalitetdə tapır. Fərdin şəxsiyyətə çevrilmə prosesində milli mentalitet böyük rola malikdir. Şəxsiyyətin özünüdərketməsi vasitəsilə həm də etnik özünüdərk baş verir. Şəxsiyyətin etnopsixoloji xüsusiyyətləri özünə milli xarakter və temperament, mentallıq, etnik identiklik, milli düşüncə tərzini daxil edir. Etnik milli mənsubiyyət, müəyyən bir etnosa aid olmaq hissi uşaqda 6-7 yaşlarından yaranmağa, 10-11 yaşlarında isə milli özünüdərk prosesi bütöv mənada aydın xarakter daşımağa başlayır. Vətənpərvərlik hissinin bu yaşlarda formalaşdırılması və tərbiyə edilməsi üçün əlverişli, münbit şərait yaranır. Keçmiş etnopsixoloji irs şəxsiyyət tərəfindən müəyyən bir milli mühitdə tərbiyə prosesində mənimsənilir ki, bu da əvvəlki nəsilləri əhatə edən mühitdən az-çox fərqlidir. Əcdadların milli xarakter cizgiləri yalnız onun sosial mühitinin süzgəcindən keçdikdən sonra fərdin psixikasına sirayət etmiş olur. Şəxsiyyət öz əcdadlarının etnik-psixoloji və ənənəvi-tərbiyə təcrübəsini dərk edərək, mənimsəyərək ona dövrün ruhuna, həyatın tələblərinə daha yaxşı cavab verən yeni çalarlar bəxş edir.

Şəxsiyyətin formalaşması onun etnik-milli şüur elementlərini özündə daşıyan etnopsixologiyası, şifahi xalq yaradıcılığı və folklorunda ifadə olunan milli ideyalarla bilavasitə bağlıdır.

## ƏDƏBİYYAT


1. Əlizadə. Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı,2003. 352 səh.
2. Платонов Ю. П. Этнопсихология: Учеб. для студ. вузов / Ю. П. Платонов. - М.: Академия, 2014. - 240 с.



***Abdullayeva Aynur Eibar qızı***

*Azərbaycan Dövlət Bədən Tərbiyəsu və İdman Akademiyasının müəllimi*

*veliyeva_86aynur@mail.ru*


## SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN KİÇIK YAŞLI MƏKTƏBLİLƏRİN İNKLÜZİV TƏHSİL SİSTEMİNDƏ ŞƏXSİYYƏT KİMİ FORMALŞAMASININ ELMİ-PEDAQOJİ ƏSASLARI


***Açar sözlər:*** *cəmiyyət, uşaqlar, inklüziv təhsil, qayğı*


İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsil müəssisələrində sağlam uşaqlarla birgə təhsil almasıdır. Bu proqram fiziki və əqli cəhətdən məhdudiyyəti olan uşaqların öz potensiallarına nail olma imkanını dəstəkləyir. Bu təhsil sistemi xüsusi qayğıya ehtiyacı olan uşaqlarda özünə inamı artırır və digər normal uşaqlarla bərabərhüquqlu olmasını təmin edir. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların yalnız təhsil hüquqlarını dəstəkləməklə bitmir. Bu tip təhsil fiziki cəhətdən məhdudiyyətli uşaqların cəmiyyətə inteqrasiyasını, müstəqil şəkildə qərar vermə imkanlarını, hüquqlarını öyrətmək, gələcəkdə bir şəxsiyyət kimi formalaşması məqsədi daşıyır. Belə olan halda sağlamlığı məhdud olan uşaqların yaşamaq istəyi və həvəsi daha da artır, onlarda gələcəyə ümid yaranır.

Cəmiyyətdə baş verən demokratik dəyişikliklər sağlamlıq, inkişaf və digər problemlərdən asılı olmayaraq, hər bir şəxsin ehtiyaclarının ödənilməsinə yönəldilən prosesləri ön plana çəkdi.

Qabaqcıl dünya ölkələrinin təhsil sistemlərində olduğu kimi, respublikamızın xüsusi təhsil sistemində də interaktiv proseslər həyata keçirilməyə başlandı, inklüziv təlimin təşkilinə şərait yaradıldı. Məlumdur ki, inklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil məktəbinin təlim prosesinə fəal daxil olmasından daha çox kütləvi təhsil prosesinin bir sistem kimi yenidən qurulmasını və bütün uşaqların təhsil ehtiyaclarının təmin edilməsini nəzərdə tutur. Pedaqoji anlamda inteqrasiya altında bir kommunikativ məkanda bütün uşaqların birgə təhsil almaları, oyun fəaliyyətləri, çalışmaları nəzərdə tutulur. Xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusi təhsilinin əsas məqsədi onların cəmiyyətə tam inteqrasiya olunması, bütün vətəndaşlara şamil edilən sosial imtiyaz və rifahlardan istifadə etməsidir. Belə şəxslərin inteqrasiyasında inklüziv təhsil mümkün yanaşmalardan biridir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların imkan və ehtiyaclarını nəzərə almaqla yanaşı, bu proseslərdə fəal iştirakını təmin edərək onların inkişafı və təhsili üçün şərait yaradılır.

Müstəqilliyimizin çətin yolları ilə irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi, təhsil sistemində də böyük vəzifələr yerinə yetirmək zərurəti ilə üz-üzə dayanmışdır. Məlumdur ki, təhsil sistemi hər bir sosial sistem kimi, insanın və ümumilikdə cəmiyyətin inkişafı üçün şərait yaradır. Təhsil sistemində aparılan islahatlar xüsusi təhsildən də yan keçməmişdir. Yeni pedaqoji təfəkkür sağlamlıq imkanları məhdud olan uşaqların təlim və tərbiyəsinə də yeni yanaşma tələb edir. Respublikada sağlamlıq imkanları məhdud uşaqların yeni – inklüziv təhsil sisteminə keçidi bu yeni yanaşmanın təzahürüdür.

İnklüziya xüsusi hazırlığı olmayan ümümtəhsil məktəblərinin müəllimləri, psixoloqları, məktəbəqədər müəssisələrin tərbiyəçiləri tərəfindən aparılmamalıdır. İnklüziv təhsil sistemində işləməyi bacaran kütləvi və xüsusi məktəb müəllimləri hazırlamaq üçün pedaqoji universitetlərin və pedaqoji kolleclərin texnologiyası, tədris-metodik təchizatı, şəraiti olmalıdır. Xüsusi qayğıya ehtiyacı olan hər bir uşaq üçün fərdi və uyğun (adekvat) inteqrasiya modeli seçilməlidir. Bunu isə yerlərdə yalnız yüksəkixtisaslı mütəxəssislər komandası (müəllim-defektoloq, ümümtəhsil məktəbinin hazırlıq keçmiş müəllim və psixoloqları, həkim-psixonevroloqları və s.) etməlidir. Bəli, inklüziv təhsil müəllimdən daha yüksək hazırlıq səviyyəsi, profesionallıq, təcrübə və yaradıcılıq tələb edir.

Bəzən məktəbin müəllimləri kütləvi olaraq sağlamlıq imkanları məhdud uşaqlara daha neqativ yanaşırlar, nəinki həkimlər, psixoloqlar, sosial işçilər və s. Bu münasibətlərin dəyişdirilməsi üçün ilk növbədə əhalinin tibbi-psixoloji və psixoloji-pedaqoji maarifləndirilməsi istiqamətində iş aparılmalı; məktəblərdə problemli uşaqlara qarşı mənfi stereotiplərin aradan qaldırılması məqsədi ilə təlim-tərbiyə prosesində iştirak edənlər (valideynlər, sağlam şagirdlər, pedaqoji personal və s.) xüsusi təlimləndirilməlidir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlara sosial dəstəklə yanaşı, keyfiyyətli təhsil lazımdır. Keyfiyyətli təhsil isə, öz növbəsində, sosial inteqrasiyanın və həyatda özünütəsdiqləmənin ilkin və vacib şərtlərindən biridir.

İnklüziv təhsili sistemində SİMOU-nun tam şəxsiyyət kimi formalşaması prosesinin həyata keçirilməsinin aşağıdakı təşkilatı formaları mümkündür:

- ümumtəhsil məktəblərinin adi siniflərinə tam inteqrasiya;
- ümumtəhsil məktəblərinin xüsusi siniflərinə, sinifdənkənar fəaliyyətə qismən inteqrasiya;
- müəyyən vaxt xüsusi məktəbdə təhsil almış və kompensator imkanları lazımınca inkişaf etmiş uşaqların ümumtəhsil məktəblərinə keçirilməsi;
- peşə təlimi prosesində xüsusi qayğıya ehtiyacı olan uşaqların tam və ya qismən inteqrasiyası.

Xüsusi təhsilin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərə həyat üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamaq, cəmiyyətə qovuşmalarını təmin etmək, özünəxidmət bacarıqlarını formalaşdırmaq, yaradıcı əmək fəaliyyətinə və ailə həyatına hazırlaşmaqdan ibarətdir. XQE olan uşaqların inteqrasiyalı təliminin təşkili, mövcud problemlərin aradan qaldırılması ilə əlaqədar "İnkişaf Proqramı", 2005-2009-cu illəri əhatə edən Tədbirlər planı hazırlandı. Bu Tədbirlər planında sağlamlıq imkanları məhdud uşaqların valideynlərinə, tərbiyəçi

və müəllimlərinə göstəriləcək köməklik öz əksini tapmışdır. Bu vəzifələrdən biri, ən vacibi insanın yüksək dünyagörüşünə malik, öz milli mədəniyyəti, ədəbiyyatı, incəsənəti haqqında biliklər sisteminə yiyələnməsi, yaşadığı ölkənin dövlət quruculuğunda baş verən dəyişiklikləri dərk etməsi və həmin prosesdə iştirakının təmin edilməsidir.

Son dövrdə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli sərəncamı ilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Ümid edirik ki, bu proqramın məqsədi və gözlənilən nəticələri reallaşmaqla inklüziv cəmiyyətə yararlı, faydalı şəxsiyyətlərin yetişdirilməsi prosesi daha da sürətlənər.

***İsrəfilova Afət Afər qızı***
*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*
*afet-israfilova@mail.ru*

## EŞİTMƏ POZULMASI OLAN UŞAQLARIN ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA AİLƏNİN ROLU

***Açar sözlər***: *eşitmə analizatoru, kar və zəif eşidən uşaqlar, şəxsiyyətin inkişaf xüsusiyyətləri, ailənin rolu*

Doğulduğu andan etibarən körpənin ilk qarşılıqlı əlaqəsi valideynləri ilə olur. Ailə onlar üçün dünyaya açılan ilk pəncərədir (Henderson & Hendershott, 1991). Sağlam fərd sağlam ailədən gəlir (Schirmer, 2001). Ailədəki bütün dinamikalar uşağın sosial, mədəni və psixoloji həyatına dərindən təsir edəcək bir sistem yaradır. Bu səbəbdən ailənin bütün xüsusiyyətləri uşağa çox əhəmiyyətli təsir göstərir. Bat-Çava (1993) kar uşaq və yeniyetmələrin özünüinkişafına təsir edəcək amilləri – valideynlərin karlıq haqqında müsbət perspektivləri, evdə aydın və başa düşülən ünsiyyət, özlərini kar mədəniyyətinin bir hissəsi kimi təyin edən kar fərdlər kimi amilləri sadalayır. Bu nöqtədə ailənin daha əvvəl karlıq təcrübəsi olub-olmaması, karlığa baxışı, övladlarına baxışı, bu vəziyyətin öhdəsindən gələ bilməsi, uşaqlarına lazımi diqqət və qayğı göstərə bilməsi kimi məsələlərdə fərqləndirilir. Bütün bu fərqlər uşaqlara fərqli təcrübələr yaşamağa və onların həyatlarına mənfi və ya müsbət mənada dərindən təsir etməyə imkan verir.

Eşitmə qüsuru olan uşaqların 90-95%-i eşitmə qabiliyyətinə malik valideynlərdən və əvvəllər eşitmə qüsuru ilə bağlı bir təcrübəsi olmayan valideynlərdən doğulurlar. Karlıqla ilk dəfə qarşılaşan valideynlər bir çox problem və maneələrlə qarşılaşa və emosional olaraq sarsıla bilərlər. Ailələr eşitmə patalogiyasına alışma prosesində şok, inkar, kədər, qəzəb, günahkarlıq və qəbul etmə mərhələlərindən keçə bilərlər. Ailələrin kar körpəsi olduğunu öyrənmək valideynlərin təhsil vəziyyəti, sosial-iqtisadi səviyyələri və keçmiş təcrübələri ilə üst-üstə düşdükdə daha çox təsirlənirlər. Ailələr bu vəziyyətlə qarşılaşdıqda tibbi tərif və ya mədəni tərif kimi fərqlərdən xəbərsiz olurlar. Bu səbəbdən bəzi valideynlər tibbi baxımdan yanaşaraq karlığa "xəstəlik" və ya "qüsur" kimi baxırlar. Bunu aradan qaldırmaq üçün onlar həkimlərə və tibbi müdaxilələrə daha çox yönəlirlər. Onlar həmçinin bu vəziyyəti qəbul edə bilməməsi səbəbindən depressiyaya məruz qala bilərlər. Ailələr bütün bu tibbi ehtiyacları və psixoloji çətinlikləri olması səbəbindən uşaqların emosional ehtiyaclarını göz ardı edir və onların ehtiyaclarını qarşılamaqda problemlər yaşıya bilirlər. Ailənin tibbi rəyi daha da qabartması uşağın öz karlığını qəbul etməsini təxirə sala və ya ləngidə bilər. Bu məqamda uşaqda həm karlıq, həm də özünə qarşı laqeydlik və natamamlıq hissi inkişaf edə bilər.

Kar bir ailədə doğulmuş bir uşağın eşitmə itkisini qəbul etməsi daha asan bir prosesdir. Amma kar bir ailənin kar bir uşağının doğum ehtimalı çox azdır. Valideynlərin uşaqlarında olan eşitmə itkisini qəbul etməsi onlara daha sağlam uşaqlıq yaşamağa kömək edəcəkdir. Başqa sözlə, özləri kar olan insanlar öz uşaqlarında eşitmə itkisi ilə qarşılaşdıqda daha az travmatik təcrübə

yaşayır və vəziyyətə daha asan adaptasiya olunurlar. Belə ki, əsas amil onların məsələyə baxış bucaqlarıdır.

Bağlanma, valideyn-uşaq ünsiyyətinin təsirli olduğu və uşağın bütün həyatı üçün ciddi bir qaynaq olacağı başqa bir məsələdir. Fərdlərin gələcək münasibətlərinin təməlləri onların ailələri ilə bağlılıq təcrübələrindən təsirlənir. Başqa sözlə, valideynlərlə inkişaf etdirilən etibarlı bağlılıq gələcəkdə etibarlı əlaqələr yaradır Eşidən valideynlərin eşitmə qabiliyyəti olmayan uşaqları ilə təhlükəsiz bağlanmasına mane olacaq ən böyük amil, şübhəsiz ki, ünsiyyətdir. Eşitmə qabiliyyətinə malik uşaqlar doğulduğu andan ailələri ilə ümumi ünsiyyət kanalına malikdirlər. Bununla belə, eşitmə itkisinin olması bu ümumi rabitə kanalını aradan qaldırır və onlar arasındakı qarşılıqlı əlaqəni azaldır. Xüsusilə, ana ilə uşaq arasındakı ünsiyyətin zəifliyi bağlanma məsələsində zəifliyə səbəb olur.

Bu nöqtədə uşağın eşitmə dərəcəsi və eşitmə itkisi yaşı ana ilə körpə arasındakı ünsiyyətə təsir edəcəyi üçün bu da bağlılıqda əhəmiyyətli bir fərq yaradır. Lederberq və Prezbindovski (2000) eşitmə qabiliyyətinə malik valideynləri olan kar uşaqların güvənsiz bağlanma riski altında olduğunu bildirdilər. Buna uyğun olaraq, kar uşaq sahibi olmanın həddindən artıq stresi və depressiyası ananın uşağına laqeyd yanaşmasına səbəb ola bilər. Ailənin yaşadığı kədər prosesi qəbul edilmədikdə, valideynlə uşaq arasında bağ kifayət qədər formalaşa bilməz. Bu vəziyyətlərdə bağlanma problemləri uşağın inkişaf prosesinə kifayət qədər mənfi təsir göstərir və emosional davranış problemlərinin yaranmasına zəmin yaradır. Bundan əlavə, ananın övladına təbii təsəlli yolu olan ananın səsi körpə tərəfindən eşidilmədiyi üçün körpə anadan o emosional hissi ala bilməz. Anasının səsini qəbul edə bilməyən və zəif ünsiyyət bağları olan ana və körpənin güvən duyğusunun varlığına da təhlükə yaranır. Bununla belə, tədqiqatlar göstərir ki, kar olma bağlılıqda heç bir fərq yaratmır. Bu araşdırmaya görə, fərqi yaradan və etibarsız bağlanmaya səbəb olan əsas amil valideynlərin karlıq və işarə dili ilə bağlı baxışları və təbii olaraq ünsiyyət maneəsidir.

Bənzər davranış nümunələri kar uşağın valideynlərində də müşahidə edilə bilər. Bəzi ailələr övladlarının eşitmə qabiliyyətinin itirilməsinə qarşı həddindən artıq mühafizəkar davranırlar və əslində, əla valideyn uğuru əldə etməkdən məmnunluq hissi keçirirlər. Buna görə də digər ailə üzvləri ilə vaxt keçirmək əvəzinə, yalnız eşitmə qabiliyyəti olmayan uşaqlarının qayğısına qalırlar. Eşitmə itkisinə məhəl qoymayan ailələrdə kar uşaqlar eşidən fərdlər kimi böyüdülür (Scheetz, 2004). Bütün bunlar nəzərə alındıqda ailənin eşitmə qüsuru ilə bağlı baxışının əhəmiyyəti daha aydın görünür. Eşitmə itkisi olan və ya daha əvvəl bu vəziyyətlə üzləşmiş şəxslər daha hazırlıqlı və uyğunlaşmaya meyilli görünürlər. Eşitmə qabiliyyəti olmayan uşaqların valideynləri özlərini uşaqlarından fərqli gördükləri üçün özlərini çox az ümumi cəhətləri olan yad insanlar kimi hiss edə bilərlər. Buna görə də valideynləri kar olanların valideynləri eşidənlərə nisbətən bir çox cəhətdən daha üstün olduğu görülür. Bat-Çava (1993) bildirir ki, valideynləri kar olan və işarə dilindən istifadə edən kar uşaqlar başqalarına nisbətən daha yüksək özünəhörmətə malikdirlər. Eşitmə qabiliyyəti olmayan valideynlərin kar uşaqlarının koqnitiv və emosional inkişafı daha yaxşı olur.

Əlil fərdin iştirakının ailəyə necə təsir etdiyinə dair araşdırmalarda sistem nəzəriyyəsinin ön plana çıxdığı görülür. Sistem nəzəriyyəsinə görə, ailə ortaq vərdişlər və qaydalar çərçivəsində daimi qarşılıqlı əlaqədə olan fərdlərdən ibarət sistemdir (Feher-Prout, 1996). Sistem nəzəriyyəsinin eşitmə qüsurlu insanların ailələrinə də tətbiq oluna biləcəyinə inanan və bu şəxslərin ailələri üzrə mütəxəssis olan Lütermana (1987) görə, üzvlərin öz xüsusiyyətləri və davranışları var. Bu xüsusiyyətlərin və davranışların cəmi ailəni təşkil edir, lakin bütün ailə haqqında kifayət qədər məlumat vermir. Çünki ailə bütövlükdə onun üzvlərinin cəmindən böyükdür və özünəməxsus quruluşu, qaydaları, funksiyası və inkişafı var. Əlil şəxsin ailəyə qoşulması o ana qədər mövcud olan sistemi tam məhv etməsə də, kökündən dəyişir. Burada vacib sual eşitmə qüsurlu şəxsin ailə sisteminə necə təsir etməsi və stres yaratmasıdır. Ailənin mühüm xüsusiyyətlərindən biri də dəyişiklik və sabitlik arasında daimi tarazlığın olmasıdır. Eşitmə qüsurlu şəxsin ailədə iştirakı çox kəskin dəyişiklik yaradacağından ailənin "sabitliyi qorumaq" funksiyası ilə ziddiyyət təşkil edəcək.

**Tapdıqlı Cavid Vüqar oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*cavidtapdiqli96@mail.ru*

# FİZİKANIN TƏDRİSİNDƏ VİRTUAL LABORATORİYALARDAN İSTİFADƏNİN ŞAGİRDLƏRİN TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİRİ

***Açar sözlər:*** *fizika, virtual laboratoriya, təfəkkür, simulyasiya, əyaniləşdirmək*

Müasir təhsil sistemində fənnə qarşı marağın yaradılması, şagirdlərin diqqətini cəlb etmək, problemli situasiyanın yaradılması əsas problemlərdən biridir. Aparılan pedaqoji tədqiqatlar sübut edir ki, şagirdlər maraq göstərdikləri fənni daha həvəslə oxuyurlar. Fəal dərsin ilk mərhələsində motivasiyanın yaradılması da bu prosesə xidmət edir. Şagirdlərin fizika fənninə qarşı marağının yaradılması xüsusi əhəmiyyət daşıyır. XXI əsr texnologiyalar əsri olduğundan təlim-tədris prosesində İKT-nin imkanlarından geniş formada istifadə olunur. Fizika fənni təbiət fənni olduğundan burada təkcə nəzəri məlumatlar deyil, fiziki təcrübələr və eksperimentlər də xüsusi yer tutur. Fiziki təcrübələri yerinə yetirən zaman şagirdlər öyrəndikləri bilikləri praktikada tətbiq edirlər.

Fizika fənninin tədrisində fiziki hadisə və prosesləri əyaniləşdirmək üçün kompüter texnologiyasının imkanlarından geniş şəkildə istifadə olunur. Kompüter əsaslı öyrənmə eksperimental təcrübələri virtual mühit vasitəsilə canlandıraraq fənni daha da rəngarəng edir. Belə elektron tədris vasitələrindən biri də virtual laboratoriyalardır. Virtual laboratoriya real avadanlıq olmadan nümayiş təcrübələrini, fiziki hadisə və prosesləri əyani şəkildə nümayiş etdirməyə xidmət edən sinxron simulyasiya kompleksidir. Virtual laboratoriya işləri təcrübələrin real fiziki hadisə və proseslərin müşahidəsi olmadan nümayişinə imkan verən proqram təminatıdır.

Laboratoriya işinin virtual formada təqdimatı dərsi canlandırmağa, demonstrasiyalarla əyaniləşdirməyə və bununla da təsəvvür edilməsi çətin olan hadisə və prosesləri müşahidə etməyə imkan yaradır. Dərsin virtual təşkili eyni zaman müddətində müxtəlif formalarda informasiya almağa imkan verir, müəllimin şagirdə emosional təsirini artırır. Belə dərsin əsas üstünlüklərindən biri də, qeyd etdiyimiz kimi, qavrama qabiliyyətinin görmə ilə artmasına əsaslanmasıdır. Böyük rus pedaqoqu K.D.Uşinski belə deyirdi: “Uşaqların təbiəti aydınlıq tələb edir. Uşağa ona məlum olmayan təxminən beş söz öyrət, o, uzun müddət bu sözləri yadda saxlamaqda çətinlik çəkəcək. Ancaq iyirmi sözü şəkillər vasitəsilə uşağa öyrətsən, dərhal öyrənəcək. Uşağa çox sadə bir fikir izah edərsən, səni başa düşməz, ancaq uşağa mürəkkəb bir şəkli izah etməyə çalışsan, o səni daha tez başa düşəcək” [2].

Psixologiyadan bildiyimiz kimi, təfəkkür varlığın inikasının ali səviyyəsidir. Təfəkkür fikri fəaliyyətin daxili qanunauyğunluqları vasitəsilə həyata keçirilir. Daxili fikri fəaliyyət hissi idrakın verdiyi məlumatları dəyişdirir. Bu informasiya təfəkkürdə daha tam və hərtərəfli bərpa edilir, yəni təsir edən obyekt, gerçəklik fikrən bərpa edilir. Beləliklə, təfəkkür cisim və hadisələrin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir. Elmdə təfəkkür idrak fəaliyyəti kimi müxtəlif növlərə ayrılır. İnsan beyni təfəkkür prosesində qavrayışa, təsəvvürlərə, məfhumlara müxəlif dərəcədə istinad edə bilir. Müxtəlif insanlarda təfəkkürün fəallıq dərəcəsi də müxtəlif olur. Bu xüsusiyyətlərinə görə təfəkkürü aşağıdakı növlərə ayırırlar.

Əyani-əməli təfəkkür şagirdlərin praktik fəaliyyəti nəticəsində cisim və hadisələri toxunaraq öyrənməsi ilə bağlıdır. Fizikadan müxtəlif fiziki təcrübələri apararkən şagirdlər ləvazimatlara, cihazlara, onların müxtəlif hissələrinə toxunaraq cisimləri dərk edir. Bu tipli təfəkkürün yaradılması şagirdləri öyrəndikləri bilikləri praktikada tətbiq etməklə möhkəmləndirməyə təhrik edir. Nümayişin maraqlı təşkili şagirdlərin diqqətini daha çox cəlb edir və onlarda böyük maraq yaradır [1].

Əyani-obrazlı təfəkkür prosesində fikri fəaliyyət qavrayış və təsəvvür materialları əsasında təhlil və müqayisə edilir. Elə fiziki hadisə və proseslər vardır ki, şagirdlər onları adi gözlə görə

bilmirlər. Molekulyar fizika və termodinamikaya aid bəzi təcrübələrin nümayişi zamanı cisimlərin daxili quruluşunu və orada gedən prosesləri şagirdlərə əyani izah etmək zərurəti yaranır (şəkil 1). Təcrübənin gedişində müşahidə olunan bütün proseslərin molekulyar mexanizmi şagirdlər üçün qaranlıq qalır. Bu zaman virtual laboratoriyaların tətbiqi fiziki və kimyəvi hadisələrin, proseslərin simulyatorlardan istifadə etməklə nümayişinə imkan yaradır [3]. Diffuziya, Broun hərəkəti, istilik hərəkəti, istilikkeçirmə, konveksiya, şüalanma və s. kimi hadisələrin əyani vizualizasiyası üçün virtual laboratoriyalardan istifadə məqsədəuyğundur.

Mücərrəd təfəkkür zamanı fikri fəaliyyət əsasən ümumi və mücərrəd məfhumlara istinad edir. Məhz mücərrəd təfəkkür sayəsində təbiətin, cəmiyyətin, insanların ümumi qanunauyğunluqlarını müəyyənləşdirmək, fikri məsələləri ümumiləşmiş şəkildə həll etmək mümkündür. Məsələn, şarı yun köynəyə sürtən zaman elektriklənmə prosesini izah edərkən elektrik yüklərinin hərəkətini şagird müşahidə edə bilmir. Lakin elektrik sahəsi və elektrik yükləri haqqında nəzəri məlumat verdikdən sonra simulyasiya vasitəsilə elektriklənmə prosesini nümayiş etdirmək şagirdlərdə elektrik yüklərinin hərəkəti haqqında tam təsəvvür formalaşdıra bilir (şəkil 2).




Şəkil 1. Maddənin aqreqat hallarının nümayişinə aid simulyasiya




Şəkil 2. Cisimlərin elektriklənməsinə aid simulyasiya

## ƏDƏBİYYAT

1. İsmayılov İ.N. Fizikanın tədrisi metodikasının müasir problemləri. Bakı, 2016, s.245-249
2. İsmayılov İ.N, Tapdıqlı C.V. Fizikanın tədrisində virtual laboratoriya işlərindən istifadənin bəzi məsələləri // Fizika, riyaziyyat və informatika tədrisi jurnalı, 2021, №4, s.7-17
3. https://phet.colorado.edu

**Məhərrəmova Səbinə Balakişi qızı**
*ADPU-nun Xüsusi təhsil kafedrasının müəllimi*
*sabinamaharramova1@gmail.com*

## ŞƏXSİYYƏTİN İNKİŞAFINDA ÖZÜNÜTƏRBİYƏNİN ROLU

***Açar sözlər:*** *psixologiya, şəxsiyyət, rol, inkişaf, özünütərbiyə*

Şəxsiyyətin təbii, mədəni, maddi və mənəvi tələbatlarından törəyən və məqsədyönlü səciyyə kəsb edən fəallığı müxtəlif əməliyyatların köməyilə reallaşır. Həmin əməliyyatlar vasitəsilə insan xarici aləmi dəyişdirir. Başqa cür desək, insan ətraf mühiti dəyişməyə, ictimai münasibətlərə birbaşa təsir etməyə qadirdirsə, şəxsiyyət hesab olunur. Şəxsiyyət və cəmiyyət daim qarşılıqlı, arasıkəsilməz əlaqədədir.

Şəxsiyyətin formalaşması və inkişafı mürəkkəb və uzunmüddətli prosesdir. Burada xarici təsirlər və daxili güc bir-birinə qarşılıqlı təsirdə olmaqla, inkişaf mərhələsindən asılı olaraq öz rollarını dəyişirlər. Məsələn, uşaq yaşlarında ən çox şəxsiyyətin formalaşmasının xarici təsirlərdən asılılığı özünü göstərir. Tədricən şəxsiyyət müstəqillik təşkil etdikcə, inkişafda xarici təsirlərin, I növbədə tərbiyənin təsirinin tədricən özünütərbiyənin təsiri ilə əvəz olunması baş verir.

Şəxsiyyətin inkişafında bütün zamanlarda ictimai mühit, iqtisadi durum, milli xüsusiyyətlər, ailə tərbiyəsi, təhsil başlıca rol oynamışdır. Bu amillər bir-biriləri ilə və onlardan doğan digər amillərlə sıx əlaqədədir. Bu əlaqə ya onların inkişafını sürətləndirir, ya da əksinə olaraq, daha da ləngidir.

Şəxsiyyətin özünütəkmilləşdirməsi onun cəmiyyətdəki həyati tələbatları və fəaliyyəti ilə, inkişafı ilə şərtlənir. İnsanın yaşadığı ictimai şərait, aldığı təlim və tərbiyə onun özünütərbiyəsində həlledici rol oynayır.

İctimai həyatı, eləcə də onu əhatə edən mühitin tələblərini, öz qüvvə və imkanlarını aydın dərk etmək əsasında insanın öz həyatını daha münasib əsaslar üzrə qurmaq üçün arzu etdiyi keyfiyyətləri özündə inkişaf etdirməsi və ya malik olduğu şəxsi keyfiyyətləri dəyişdirməkdən ötrü özünə şüurlu, planlı, məqsədəuyğun və müntəzəm surətdə təsir etməsi, rəftar və davranışını təkmilləşdirmək qayğısına qalması özünütərbiyə adlanır.

Hazırda cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və hərəkətli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır. Şəxsiyyətin inkişafı ilə əlaqədar olaraq yalnız bugünkü təcrübənin deyil, həm də pedaqoji fıkrin zəngin ideyalarını nəzərə almaq lazımdır.

İnsanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdir. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər.

Özünütərbiyə şəxsiyyətin müəyyən inkişaf mərhələsində meydana gəlir və onun inkişafına təsir göstərir. Fərd həyat prosesində özünü və başqalarını dərk edir, ətrafdakıların tələbi ilə öz şəxsi imkanlarını uyğunlaşdırmağı öyrənir. Tərbiyə prosesində şəxsiyyətin əxlaqi əsası qoyulur, əxlaqi təsəvvürləri, anlayışları, inamları, adətləri və son nəticədə hal-hazırdakı davranışını tənzim edən və gələcək həyat planlarını müəyyənləşdirməyə imkan verən əxlaqi idealları formalaşır. Beləliklə də, şəxsiyyət inkişaf etdikcə özünütərbiyə daha böyük rol oynamağa, daha aydın və səmərəli şəkildə özünü göstərməyə başlayır. Deməli, özünütərbiyə şəxsiyyətin həyat şəraiti və tərbiyə ilə şərtlənən əxlaqi-psixoloji yetkinliyinin müəyyən səviyyəsində özünə yer edir.

Özünütərbiyə tələbatı özünü yeniyetməlik dövründə aydın şəkildə göstərməyə başlayır. Özünütərbiyənin ünsürləri kiçik məktəb yaşı dövründə, ola bilər ki, böyük bağça yaşlı uşaqlarda da özünü göstərə bilər. Lakin şüurlu, planlı iş kimi o, ilk dəfə olaraq yeniyetməlik dövründə təzahür edir. Yeniyetmələr bağça yaşlı uşaqlar kimi böyüklərin rolunu oynamaq, özünü onlara oxşatmaq istəmir. Onlar böyük olmaq və başqaları tərəfindən də böyük kimi qəbul edilmək istəyirlər. Buradan isə onların öz şəxsiyyətinin sürətli inkişafı tələbatları meydana gəlir ki, bu da özünütərbiyənin bir vasitə kimi həyata keçirilməsinə gətirib çıxarır.

Özünütərbiyə insanın kamilləşməsi ilə, özünü istər mənəvi, istərsə də fiziki cəhətdən cəmiyyətdəki mövqeyi ilə və yaxud cəmiyyətdə tutmaq istədiyi mövqeyə uyğunlaşdırmaq meyli ilə əlaqədardır. Özünütərbiyə özünüidarə prosesində həyata keçir. Burada insanın özünütəyini mühüm rol oynayır. Özünütəyin insanın özünün həyat yolunu, məqsədlərini, əxlaq normalarını, peşə və həyat şəraitini şüurlu olaraq seçməsi deməkdir.

Yeniyetmə öz üzərində işləməklə ilk növbədə öz şəxsi davranışındakı qüsurları aradan qaldırmağa, özündəki zəif cəhətləri ləğv etməyə, ikincisi, özünü güclü bacarıqlı və müstəqil aparmağa imkan verən şəxsiyyətin müsbət keyfiyyətlərini formalaşdırmağa çalışır. Yeniyetmələr ilk olaraq özlərində olan iradi nöqsanları aradan qaldırmağa və özlərində möhkəm iradəli adam

üçün xas olan cəsarət, mərdlik, dözümlülük, təkidlilik kimi iradi keyfiyyətləri tərbiyə etməyə can atırlar.

Yaşın artması ilə əlaqədar olaraq özünütərbiyənin məqsədi də dəyişir. Ümumiyyətlə, özünütərbiyə bir növ özünüinkişaf amili kimi ən dərin qocalıq dövrünə kimi özünü göstərir.

**Qasımova Rəna Nürəddin qızı**
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*
*rnqasimova@gmail.com*

## ŞƏXSİYYƏT PROBLEMİ VƏ Ə.ƏLİZADƏ YARADICILIĞINDA ONUN YERİ

***Açar sözlər:*** *şəxsiyyət, "mən", psixologiya, qavrama, özünüdərketmə, cəmiyyət*

İnsan Yaradanın yer üzünə bəxş etdiyi çox canlılardan fərqli olaraq məqsədyönlü həyat tərzi, öz həyatını necə qurması və onu necə istiqamətləndirmək bacarığı ilə daim diqqət mərkəzindədir. Digər canlılardan fərqli olaraq o, kor-koranə, məqsədsiz, plansız yaşamır. Daim səmərəli və məqsədyönlü yollar axtarışında olmağı insanın sosiogen tələbatıdır. Bu tələbatı ödəmək uğrunda mübarizədə insan son məqsədləri, həyati prinsipləri seçir, davranış xəttini müəyyən edir. Kamil şəxsiyyət həyat məqsədlərində seçim aparır, ən vacibləri ön plana çəkərək müəyyən tələbatları təxirə salır. Öz məqsədlərinə çatmaq üçün müxtəlif vasitələr seçir. Bu seçimdə onu ucaldan bir sıra əxlaqi keyfiyyətlər durur. İnsan məqsədinə çatmaq üçün bütün maneələri dəf edərək yorulmadan, usanmadan mübarizə aparır. Məhz bu cür insanlar mənsub olduğu ölkədə, regionda öz həyatlarını daha mənalı qurmaq imkanına malikdirlər.

Cəmiyyət fərdi şəxsiyyətə çevirir. Bu, çoxcəhətli prosesdir. Şəxsiyyət ictimai münasibətlər sisteminə daha geniş daxil olur və onun insanlarla, ictimai həyatın müxtəlif sahələri ilə əlaqələri genişlənir və dərinləşir, eyni zamanda məhz bunun sayəsində o, ictimai təcrübəyə yiyələnir, onu mənimsəyir, onu öz sərvətinə çevirir. Şəxsiyyətin inkişafının bu cəhəti onun sosiallaşması kimi xarakterizə olunur. Şəxsiyyət ictimai həyatın müxtəlif sahələrinə qovuşduqca eyni zamanda daha çox müstəqillik, nisbi avtonomluq kəsb edir, yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətini fərdiləşmə prosesi təşkil edir. Cəmiyyət nə qədər sağlam olarsa, şəxsiyyət də bir o qədər sağlam və düzgün formalaşar. Cəmiyyətin inkişafı, qanunauyğunluqları, hadisələrin baş vermə səbəbləri, hərəkətverici mexanizmi haqqında dialektik və metafizik inkişaf konsepsiyası mövcuddur. Təbii ki, insan-fərd bir varlıq kimi inkişaf edərək formalaşır və şəxsiyyətə çevrilir.

Şəxsiyyət və onun formalaşması psixologiyası A.S.Makarenkonun psixoloji konsepsiyasının özəyini təşkil edir. O, şəxsiyyət və kollektivin qarşılıqlı əlaqəsi, şəxsiyyətin inkişafının perseptiv xətləri, şəxsiyyətin motivasiya sahəsinin formalaşması, xarakterin formalaşması və s. məsələlərə xüsusi diqqət yetirmiş və tərbiyə prosesində həmin cəhətlərin nəzərə alınmasını zəruri hesab etmişdir.

XX əsrdə Azərbaycanda şəxsiyyətin öyrənilməsi barədə danışarkən prof. Ə.Əlizadənin "İlk addımlar" adlı əsəri xüsusilə qeyd edilməlidir. Əsərdə uşaqların əqli keyfiyyətlərinin inkişafına dair bir çox materiallar vardır. Verilmiş şəkillər uşaqların zehni inkişafı üçün əsas vasitələrdən biri kimi götürülə bilər.

Şəxsiyyətin "Mən"i onun nüvəsi hesab olunur. Şəxsiyyətin inkişafının müxtəlif mərhələlərinə nəzər salsaq, "Mən"in inkişaf istiqamətlərini aydın görərik. Burada bir sıra suallar ortaya çıxır: "Mən" dedikdə nə başa düşülür? "Mən"in hansısa sərhədləri varmı? "Mən" konkret olaraq şəxsiyyətin inkişafının hansı dövründə formalaşır?

Şəxsiyyətin "Mən" qavramasının öyrənilməsində Respublikamızda müxtəlif tədqiqatlar aparılmışdır. Bu tədqiqatlarda əsasən, "Mən"in formalaşması özünütanıma, özünüdərklə əlaqələndirilir. Professor Ə.Ə.Əlizadənin araşdırmalarına nəzər saldıqda aydın olur ki, uşaqlar özlərini güzgüdə ilk dəfə 18 aylıq olandan tanıyırlar. Özünü güzgüdə tanımaq 20 aylıq uşaqlar

üçün artıq adi işdir. İdrak prosesləri inkişaf etdikcə onların özləri haqqında təsəvvürləri mürəkkəbləşir, nitqin rolu bu baxımından çox böyük əhəmiyyət kəsb edir. Belə ki, uşağın öz "Mən"ini ifadə etməsi nitqin inkişafı ilə birbaşa əlaqəlidir. Müəllifin tədqiqatlarında əks olunur ki, “Mən”in şəxs əvəzliyi ilə substantivləşməsi uşaqlarda mənlik şüurunun formalaşması, xüsusilə də onların şüurunda əmələ gələn keyfiyyət dəyişikliklərinin özünü başqalarından fərqləndirməsi, başqaları ilə müqayisə etməsi və s. tədricən öz əksini nitqdə tapması baxımından son dərəcə maraqlıdır. Bu əsasda da uşağın yaşlılarla qarşılıqlı münasibətləri tədricən mürəkkəbləşir, onun davranışında şəxsiyyət amili mühüm əhəmiyyət kəsb etməyə başlayır. Bu yaş dövründə “Mən” özüm uşağın ən mühüm və başlıca tələbinə çevrilir. Lakin "Mən"in formalaşması geniş spektrli psixoloji qanunauyğunluqlara tabe olduğundan uşağın özünü güzgüdə tanıması və özü haqqında təsəvvürlərin yaranması ilə məhdudlaşmamalıdır. Yəni təkcə davranış və düşüncə komponentləri deyil, həm də emosional və koqnitiv elementlərin rolu da əvəzolunmazdır. İnsan şəxsiyyətinin əsas elementlərindən biri də fərdin özünəməxsus olan daxili varlığını hiss etməsidir. Psixologiyada bu varlıq "eqo", yaxud da "mən" adlandırılır. Həmin məfhum bir çox şəxsiyyət haqqında nəzəriyyələrin əsasını, özəyini təşkil edir. Aparılmış tədqiqatların demək olar ki, əksəriyyətində "Mən" – insanın özü haqqında təsəvvürləri kimi təqdim olunur. "Mən" sisteminin təkamülü ailə daxilində fərdlərarası münasibətlərdən başlayır və daha da böyük qruplara qədər inkişaf edir.

Ə.Əlizadəyə görə, istedad şəxsiyyətin inteqrativ keyfiyyətidir. Şəxsiyyətin bütün kefiyyətləri məhz bu sahədə görünməz tellərlə bir-biri ilə bağlıdır. İstedad nə vaxtsa üzə çıxır, lakin onun vaxtında müəyyənləşdirilməsi daha səmərəli üsul hesab olunur.

Ə.Ə.Əlizadə tədqiqatlarında yeniyetmə qızların şəxsi həyatında, xüsusilə onların cinsi maarifləndirilməsində ananın rolunun daha böyük olduğundan ailədə ananın təsirini önə çəkir, həmçinin valideynlərin öz övladlarının tərbiyəsinə cinsi fərqlər baxımından yanaşdıqlarını qeyd etmişdir.

Şəxsiyyətin “Mən”inin tədqiqinin müasir vəziyyətinə nəzər saldıqda görürük ki, “Mən"in tədqiqi müxtəlif elmlər konteksində mübahisəli məqamlarla müşayiət olunur. Belə ki, filosoflar şəxsiyyətin “Mən”i haqqında danışarkən onu daha çox rasionallaşdırır və onu bütünlüklə öyrənməyin mümkün olmaması qənatinə gəlirlər. Lakin psixologiyada “Mən”in öyrənilməsi ilə bağlı eksperimental tədqiqatlar aparılmış, “Mən"in struktur elementləri və genezisinin aydınlaşdırılmasına cəhdlər edilmişdir. Bu tədqiqatlarda bir neçə cəhəti və ya istiqaməti fərqləndirmək olar. Ə.Əlizadə “Mən”in formalaşmasının öyrənilməsinə yönəlmiş tədqiqatlar” və “Mən”in etnik cəhətlərinin öyrənilməsi istiqamətində tədqiqatlar aparmışdır.

**Наргиз Султан Фирдовси кызы**
*Азербайджанский университет языков*
*докторант кафедры Психологии*
*nargizsultan19@gmail.com*

## ПРОБЛЕМЫ ВОСПИТАНИЯ РЕБЕНКА С АУТИЗМОМ В СЕМЬЕ

***Ключевые слова:*** *аутизм, парентификация, поведенческая терапия, социальный навык, языковой дефицит*

Обнаружение у вашего ребенка аутизма может сильно изменить вашу жизнь. Именно по причине вашей глубокой любви к своему ребенку вы можете перенести в связи с этой новостью тяжелый стресс, испытать чувства страха, горя и даже гнева. Родители могут беспокоиться о том, что их видение будущего ребенка исчезло, что семья столкнется с растущим финансовым давлением.

Что делать, если у вашего ребенка диагностирован аутизм? Ранние годы ребенка представляют собой важное окно в развитии, поэтому необходимо как можно скорее

ознакомиться с информацией по страховому покрытию и изучить виды поведенческой терапии вместе с врачом вашего ребенка. Присоединение к местной группе поддержки может принести определенное утешение, поскольку позволяет вам общаться с родителями, имеющими те же переживания, что и вы. Группа может делиться эмоциями, страхами, открытиями и ресурсами.

Полезно делать заметки об этапах развития, улучшениях и состоянии здоровья вашего ребенка. Общайтесь с ребенком любым возможным способом, например, разговаривая, читая или показывая обучающие видео, даже если кажется, что ваш ребенок не обращает внимания. Позаботьтесь о себе и выделите время для перезарядки.

Многие черты аутизма – истерики, агрессия, языковой дефицит и неспособность обрести независимость, а также ограниченные семейные возможности способствуют глубокому и отчетливому стрессу, который испытывают многие люди, осуществляющие уход.

Родители могут бороться с горем, грустью, гневом и безнадежностью. Они могут опасаться за свою безопасность и безопасность своих детей. Постоянная навигация в рамках системы здравоохранения требует огромного количества времени, энергии и денег, что приводит к моральному истощению и увеличению финансового давления. Чтобы справиться со всем этим навалившимся на них грузом проблем, родители должны изучить и обеспечить себе выход на все доступные им услуги. Они могут в значительной степени опираться на помощь и поддержку семьи и друзей.

Как можно помочь своему ребенку обрести социальные навыки? Каждый родитель хочет, чтобы его дети строили отношения, которые делают их счастливыми. Дети с аутизмом подходят к социальным ситуациям с тревогой и разочарованием, но родители могут помочь им обрести уверенность, особенно тем, кто пребывает на высокофункциональном конце спектра. Родители могут моделировать и объяснять своему ребенку социальное поведение. После некоторого взаимодействия они могут предоставить подробное пошаговое разъяснение своего поведения, включая в том числе выражение лица, голосовую тональность и язык тела. Родители могут обсуждать с ребенком социальные ситуации, которые он видит в интернете, по телевизору, или те, с которыми он может столкнуться вне дома, например, в той же школе. Родителю нужно придумывать ролевые игры, во время которых ему с ребенком следует по очереди разыгрывать некие социальные ситуации из жизни, в которых ребенок будет практиковаться, отыгрывая роли разных действующих лиц в сценарии.

Как родителям поговорить со своим ребенком об аутизме? Родители должны стремиться быть открытыми, позитивными и основываться на фактах. Дети улавливают чувства и отношения других, что может повлиять на их восприятие самих себя. Если родители ходят вокруг аутизма на цыпочках, скрывают его или чувствуют себя неловко, говоря об этом, дети могут решить, что им следует скрывать свой аутизм как нечто постыдное или даже страшное. Между тем, родители наряду со слабыми сторонами своих детей могут распознать также их сильные стороны. Каждый человек в каких-то областях продолжает борьбу, а в каких-то уже преуспел. Ребенку с аутизмом может быть трудно общаться с другими, но при этом он может преуспевать в математике. Это может быть ценным фактом для обсуждения опыта таких детей.

Как могут родители привить дисциплинированность своему аутичному ребенку? Истерики и другие трудные формы поведения возникают зачастую из-за потребности такого ребенка в общении. В таком случае важный компонент дисциплины здесь – это определение того, что вызвало его крик и что он хочет этим выразить. Может быть, на праздничном обеде ребенок оказался в столпотворении, где его могли случайно толкнуть, или ему запретили играть с игрушкой. Первый шаг приучения ребенка – это наблюдение и установление потенциальных спусковых механизмов или триггеров. После этого родители

могут попробовать ввести в действие систему поощрений и наказаний за хорошее и, соответственно, плохое поведение.

Присутствие в семье аутичного ребенка сказывается на его братьях и сестрах. Ребенок с аутизмом может изменить динамику семьи. Братья и сестры детей с ограниченными возможностями часто борются со стрессом и тревогой, помимо эмоций, варьирующихся от страха и вины до смущения и негодования. Они могут попытаться скрыть эти эмоции от родителей, чтобы не быть дополнительной обузой.

Братья и сестры также могут пройти парентификацию, поскольку от них можно ожидать большей ответственности и независимости. Они могут чувствовать пренебрежение со стороны родителей, которым приходится уделять особое внимание аутичному ребенку, затрачивая на его терапию, врачебные приемы огромное количество времени, средств и эмоциональной энергии. Кроме того, братьям и сестрам может не хватать знаний и информации, которыми обладают родители, что может вызвать у них страх за своего аутичного брата или сестру.

Тем не менее, братья и сестры детей с аутизмом также могут воплощать бесчисленные положительные черты, такие как терпимость, сочувствие, альтруизм, сотрудничество и ответственность.

**Əzizova Vəsilə Oktay qızı**
*ADPU-nun Cəlilabad filialı*
*muradovavesile@mail.ru*

## ETNOPSİXOLOGİYADA STRES PROBLEMİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar söz:*** *stres, stresor, stresogen hadisələr, sınmış qəlb sindromu*

Müasir dünyamızı psixi gərginlik olmadan təsəvvür etmək çətindir. Elmi-texniki tərəqqinin sürətlənməsi bir tərəfdən qarşıya çıxan mürəkkəb proseslərin asanlıqla həll edilməsinə yaxından köməklik etsə də, insanlara daxili və fiziki rahatlıq gətirsə də, onlarda ciddi stres halları yaradır. Nəzərə almaq lazımdır ki, stres halları mütəmadi və ardıcıl təsir göstərdikdə birbaşa psixosomatik xəstəliklər yaradır, orqanizmin normal fəaliyyətini pozur, iş prosesində səmərəliliyi aşağı salır. Uzun illərdir ki, stres və onun orqanizmə təsiri təkcə psixogiyanın deyil, həm də tibb elminin öyrəndiyi aktual məsələlərdəndir. Ələlxüsus, 1970-ci il tədqiqatları həkimlər tərəfindən aparılaraq stres və ürək xəstəlikləri arasındakı əlaqə tədqiq olunmuşdur. F.Qudvin, H.Selye, S.Barkas, R.Lazaros, L.Saym, F.Merson, T.Koks, V.Frank, Q.Eberneyn və N.Şamlu, Riçard Lazaros Robas, J.Karasid, L.A.Kitoyev-Smaqin, N.A.Samouni, E.M.Çerensenovanın tədqiqatlarını nümunə göstərmək olar.

Emosional hal olan stres dünya psixoloqları ilə yanaşı, Azərbaycan elm adamları və psixoloqları tərəfindən də tədqiq olunmuşdur. Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev, Q.Əzimov, M.Həmzəyev, E.Şəfiyeva, R.Qaragözü və R.Qədirova, S.Quliyev, H.Əlizadə, İ.Novruzlu, N.Muxtarova, B.Haqverdiyev, R.Cabbarov, M.Mustafayev, İ.Allahverdiyeva, S.Məcidova, C.Təhmasib, G.Tağıyevanın tədqiqatlarında stres və onun təsiri haqqında müxtəlif aspektlərdə araşdırmalar aparmışlar.

Stres müasir dövrün ayrılmaz tərkib hissəsi olub, insanların işə, ailəyə, sosial problemlərə, iqtisadi vəziyyətə və digər tələbatlara qarşı olan münasbəti, cəmiyyətin aktual problemləri, gündəlik həyəcan və qorxular, şəxsiyyətlərarası və dövlətlərarası qarşıdurmalar və s. məsələlər insanların psixoloji vəziyyətinə mənfi təsir göstərir və stresin yaranmasına gətirib çıxara bilir. Bu baxımdan stresorların aydınlaşdırılması bu məsələdə vacib məqamdır. Professor Ə.S.Bayramov və professor Ə.Ə.Əlizadə müasir dövrdə stresyaradıcı amillərin artmasına diqqəti cəlb edərək stresorlar sırasını aşağıdakı kimi müəyyən etmişlər:

1) İş, onun təşkili və iqtisadi çətinliklər;

2) Ailə üzvlərinin tapılması, çətinlik yaradan geniş tələbat malları ilə təchiz etmək;
3) İşləyən qadınlarda tələbatların ödənilməsi ilə əlaqədar əmələ gələn psixi gərginlik;
4) Həll olunmamış mənzil problemi;
5) Ailə münaqişələri, işdə və ya digər yerlərdə olan narazılıqlar;
6) Gərginliyi, frustrasiyanı aradan qaldırmaq məqsədilə toksik maddələrdən istifadə.

Tədqiqatlar göstərir ki, insanların stresogen hadisələrə münasibəti təkcə ionların tərbiyəlilik səviyyəsindən, şəxsiyyətin tipindən deyil, eyni zamanda hər bir insanın milli etnik xüsusiyyətlərindən və bu xüsusiyyətlərə nə dərəcədə yiyələnməsindən asılıdır. L.S.Vıqotskinin sözləri ilə desək, "Mədəniyyət və ətraf mühit insana müvafiq bilikləri verərək təkcə onu təyin etmir, eyni zamanda onlar psixi hadisələri transformasiya edərək psixi hadisələrin cərəyan və şəxsi bacarıqlarından istifadə xüsusiyyətlərini təyin edir".

"Психическое здоровье россиян" məqaləsində T.B.Dmitriyeva və V.S.Polojiy Rusiya əhalisi arasında psixi pozuntuların inkişafında xroniki və kəskin stresin rolunu 85 % olaraq qiymətləndirirlər.

Azərbaycan ədəbiyyatında da emosional halların psixoloji xüsusiyyətlərinə toxunulur. "Leyli və Məcnun" poeması hər iki məşhur ədib – Nizami və Fizuli yaradıcılığında aydın ifadə olunmuşdur. Sevgi, məhəbbət, vurğunluq və sevdiyi insana pərəstiş insanda emosional stres yaradaraq şok halına keçir. Bu zaman ən çox üzdə məftunedici hal olaraq sevən şəxsin gözündə əks olunur:

Gördü ki, bu şölə bir nəfəsdir,
Nə şöleyi-cırmı-xarü-xəsdir.

M.Füzuli. "Leyli və Məcnun"

N.Gəncəvi isə emosional stresi belə təsvir edir: "İki işıq (göz bəbəklərini nəzərdə tutur) ilk dəfə görüşəndə ildırım çaxmışdır. İldırım çöpün üzərinə düşmüşdür". Bütün enerjinin bəbəklərdə olması təsvir edilir. Etnik cəhətdən bu məsləyə yanaşma da çox maraqlıdır. Baxışların sehrinə düşərək öz mənliyinin üstün tutulması tərbiyə edilir. Məsələn, "Sevmə səni sevməyəni, Misirdə sultan isə də, sev səni sevəni xak ilə yeksan isə də" – atalar sözümüz buna bariz nümunədir.

Stres və onun mahiyyəti tibb və psixologiya elmləri tərəfindən geniş araşdırılmaqdadır. Xroniki və ya kəskin stresin insan orqanizminə, xüsusən də ürəyə mənfi təsirini həm tibbi, həm də psixoloji tədqiqatlar isbat etmişdir.

Son zamanlar geniş yayılmış xəstəliklər arasında "Sınmış qəlb sindromu" ("Broken heart snrome") xüsusi marağa səbəb olmuşdur. Qırıq qəlb sindromu bədənin güclü stresə qarşı verdiyi reaksiya kimi özünü göstərir. Bu xəstələrin 28 %- i fiziki stresdən, 8% -i isə həm emosional, həm fiziki stresdən əziyyət çəkən şəxslərdir. Xəstəliyin təsviri ondan ibarətdir ki, güclü neqativ emosional hiss keçirilən zaman simptomatik sinir sistemi normadan artıq fəaliyyət göstərir və bunun nəticəsində nəbz sürətlənir, təzyiq qalxır, ürəyi qidalandıran damarlar büzülür. Bu sindrom 44 günlük müharibə dövründə də özünü göstərdi. Belə ki, doğma insanı, övladını şəhid kimi qarşılayan şəxslərin həmin anda və ya bir neçə gün sonra infarkt və ya insult nəticəsində həyatlarını itirmə faktı buna misal ola bilər. "Leyli və Məcnun" poemasında Məcnunun ölüm səhnəsi də bu baxımdan diqqəti cəlb edir:

Al dərdli canımı, ya pərvərdigar!
Məni sevgilimin yanına apar!..
Keçdi bu körpüdən axır ki, o da,
Bu yoldan keçməyən varmı dünyada?

# M Ü N D Ə R İ C A T

## ƏBDÜL ƏLİZADƏ YARADICILIĞINDA PSİXOPEDAQOJİ MƏSƏLƏLƏR BÖLMƏSİ

***Abbasov Akif Nurağa oğlu.*** "PROFESSOR ƏBDÜL ƏLİZADƏ ŞAGİRDLƏRİN AİLƏ HƏYATINA HAZIRLANMASI BARƏDƏ" *Azərbaycan Respublikasının Təhsil İnstitutu* (Azərbaycan Respublikasının Təhsil İnstitutu) ........ 5
***Məmmədova Elnarə Nəcəf qızı.*** "ƏBDÜL ƏLİZADƏ YARADICILIĞINDA PSİXOPEDAQOJİ MƏSƏLƏLƏR "AZƏRBAYCAN MƏKTƏBİ" JURNALI MÜSTƏVİSİNDƏ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 7
***Əlixanova Gülnarə Həmzəbəyovna.*** "TƏHSİL KONSEPSİYASINDA TƏXƏYYÜL İNKIŞAFI MƏRHƏLƏSİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 8
***Alıyev Ceyhun Qurbanalı oğlu.*** "PRAKTİK PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ" (Azərbaycan Dillər Universiteti) ........ 10
***Əskərova Yeganə Baxış qızı.*** "Ə.Ə.ƏLİZADƏNİN PSİXOPEDAQOJİ İDEYALARININ AZƏRBAYCAN TƏHSİL KONSEPSİYASINDA ROLU" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 11
***Əliyeva Sevinc Qərib qızı.*** "PROFESSOR ƏBDÜL ƏLİZADƏNİN TƏXƏYYÜL KONSEPSİYASINDA MOTİVASİYA VƏ STİMULLAŞDIRMA" (General-leytenant K.A.Kərimov adına 8 nömrəli tam orta məktəb) ........ 13
***İlyasov Müseyib İbrahim oğlu.*** PSİXOPEDAQOGİKA ELMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti ........ 15
***Mehtiyeva Kübra Nazim qızı.*** "Ə.ƏLİZADƏNİN PEDAQOJİ KOLLEKTİVDƏ RƏHBƏRLİK HAQQINDA FİKİRLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 17
***Ağayeva Tamilla Hüseyn qızı.*** "Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 18
***Səlimova Zemfira İlyas qızı.*** "GÖRKƏMLİ ALİM Ə.Ə.ƏLİZADƏ YARADICILIĞI HAQQINDA" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 19
***Əlizadə Hikmət Əbdül oğlu.*** "ƏBDÜL ƏLİZADƏNİN YENİ PEDAQOJİ TƏFƏKKÜR KONSEPSİYASININ POSTULATLARI" (Bakı Dövlət Universiteti) ........ 21
***Cəfərova Laləzar Elşad qızı.*** "ƏBDÜL ƏLİZADƏNİN YARADICILIĞINDA TƏHSİLİN PSİXOLOJİ PROBLƏMLƏRİNƏ BAXIŞ" (ADPU-nun Şəki filialı) ........ 22
***Məmmədova Gülər Akif qızı.*** "PEŞƏ FƏALİYYƏTİNİN PSİXİKAYA VƏ DAVRANIŞA TƏSİRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 24
***Allahverdiyeva Safura Bayram qızı.*** "ƏBDÜL ƏLİZADƏNİN "MÜASİR AZƏRBAYCAN MƏKTƏBİNİN PSİXOLOJİ PROBLEMLƏRİ" ƏSƏRİNDƏ ŞƏXSİYYƏTIN FORMALAŞMASININ PSİXOLOJİ EFFEKTLƏRİ" (Bakı Dövlət Universiteti) ........ 25
***İmamverdiyeva Nəzakət Bəylər qızı, Bayramova Afət Aben qızı.*** "TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİ ƏBDÜL ƏLİZADƏNİN YENİ PEDAQOJİ TƏFƏKKÜR KONSEPSİYASININ ƏSAS PRİNSİPİ KİMİ" (Bakı Dövlət Universiteti) ........ 27
***Nəsibova Afaq Bəxtiyar qızı.*** "ƏBDÜL ƏLİZADƏ TƏHSİLİN PSİXOPEDAQOJİ MƏSƏLƏLƏRİ HAQQINDA" (Bakı Slavyan Universiteti) ........ 29
***Quliyev Akif Əlihüseyn oğlu.*** "ŞAGİRDLƏRDƏ YARADICI FƏALIİYYƏTİN FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ" (Azərbaycan Dillər Universiteti).. 30
***Həsənova Pərişan Məhərrəm qızı.*** "MÜASİR AZƏRBAYCAN MƏKTƏBİ ƏBDÜL ƏLİZADƏNİN PSİXOPEDAQOJİ YARADICILIĞINDA" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 31
***Həsənquliyeva Könül Ənvər qızı.*** "ƏBDÜL ƏİZADƏNİN ƏSƏRLƏRİNDƏ PSİXOPEDAQOJİ YANAŞMALAR" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 32

***Kərimova Gülarə Hüseynağa qızı.*** "PROFESSOR ƏBDÜL ƏLİZADƏ ALİ MƏKTƏB MÜƏLLİMİ KİMİ" (Bakı Dövlət Universiteti) ........ 33
***İsmixanov Məcid Abdulla oğlu.*** . "ƏBDÜL ƏLİZADƏNİN TƏLİM TAKSONOMİYASI KONSEPSİYASI" (Bakı Dövlət Universiteti) ........ 35
***Əliyev Həsən Cahangir oğlu.*** "PSİXİ SAĞLAMLIQ PROBLEMLİ UŞAQLARIN MƏKTƏBƏ ADAPTASİYA OLUNMASINDA PEDAQOJİ DEONTOLOGİYANIN ƏHƏMİYYƏTİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 36

## PSİXOLOGİYADA GENDER PROBLEMLƏRİ BÖLMƏSİ

***Qasımova Lazifə Nağı qızı, Mahmudova Rəhimə Mahmud qızı.*** "ƏBDÜL ƏLİZADƏNİN QADIN PSİXOLOGİYASI ƏSƏRİNDƏN" (Bakı Dövlət Universiteti) ........ 37
***Cəlilova Sevinc Xazay qızı, Musayeva Gülşən Əli qızı.*** "ÜMUMİ ORTA TƏHSİL MƏKTƏBLƏRİNDƏ FİZİKA FƏNNİ ÜZRƏ MÖVZULARIN TƏDRİSİNDƏ İNKLÜZIV TƏHSİLIN PEDAQOJİ–PSİXOLOJİ ASPEKTLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 38
***Abasova Səlbi Ağamehdi qızı.*** "HİPERAKTİV VƏ DİQQƏTİN POZULMASI OLAN UŞAQLARIN PSİXO-PEDAQOJİ MÜŞAYİƏTİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) 40
***Aslanova Səbinə Ramiz qızı.*** "SOLƏLLİLİYİN PEDAQOJİ-PSİXOLOJİ PROBLEMLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 42
***Çıraqova Vəfa Məsim qızı.*** "TƏHSİLİN PEDAQOJİ-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ" (Bakı Dövlət Universiteti) ........ 43
***Əli-zadə Səbinə Hikmət qızı.*** "MÜHİTƏ ADAPTASİYA SOSİAL İNTELLEKTİN FORMALAŞMA AMİLİ KİMİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 45
***Yaralıyeva Aydan Baxtiyar qızı.*** "GÖRMƏ POZULMASI OLAN UŞAQLARDA SENSOR-MOTOR ÇATIŞMAZLIQLARIN ARADAN QALDIRILMASINDA OYUNLARIN ROLU" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 46
***Mürsəlova Adilə Ağaməmməd qızı.*** "EŞİTMƏ POZULMASI OLAN ŞAGİRDLƏRİN PSİXİ İNKİŞAFINDA MUSİQİLİ-RİTMİK MƏŞĞƏLƏLƏRİN ROLU" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 47
***Məmmədova Münəvvər İsmayıl qızı.*** "ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ İNKİŞAF ŞƏRAİTİNİN REALLAŞDIRILMASININ TƏDQİQİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 49
***Məmmədova Zeynəb Camal qızı.*** "TƏLİMİN TƏŞKİLİNİN KOQNİTİV BACARIQLARIN FORMALAŞMASINDA ROLU" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 51
***Dadaş-zadə Leyla Səfərbəyovna.*** "YENİYETMƏLƏRDƏ DEPRESSİYA PROBLEMİ VƏ ONUN ARADAN QALDIRILMASI" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 52
***Kazımova Şəfa Eyvaz qızı.*** "YENİ PEDAQOJİ TƏFƏKKÜR VƏ İNKLÜZİVLƏŞƏN TƏHSİL" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 54
***İsazadə Elnarə Əkbər qızı.*** "EMOSİONAL SFERADA UŞAQ QORXULARI VƏ ONLARIN KORREKSİYASI" (ADPU-nun Quba filialı) ........ 55
***Ramazanova Kəmalə Şaban qızı.*** "MƏNLİK ŞÜURUNUN FORMALAŞMASININ SOSİAL KONTEKSTDƏ TƏHLİLİ" (ADPU-nun Şəki filialı) ........ 57
***Qurbanova Lamiyə Mehdi qızı.*** "FEMİNİZM, QADIN VƏ QADINLIQ ARASINDA MÜQAYİSƏLİ PSİXOLOJİ TƏHLİL" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 59
***Əliyeva Sona İbrahim qızı.*** "Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA CİINSİ TƏRBİYƏ PROBLEMİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 60
***Qəhrəmanova Qızxanım Nizaməddin qızı.*** "AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ GENDER FƏRQLƏRİNİN TƏZAHÜRÜ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ........ 62

***Məmmədova Günay Kamil qızı.*** “AZƏRBAYCANDA GENDER PROBLEMİNİN TƏDQİQİ İSTİQAMƏTİNDƏ QADIN PSİXOLOQLARIN ROLU” (Azərbaycan Dillər Universiteti) .... 63
***Baxışova Şərafət Aram qızı.*** “TƏHSİL SİSTEMİNDƏ GENDER PROBLEMİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 65
***Rzayeva Nurəngiz Tofiq qızı.*** “ƏBDÜL ƏLİZADƏ: AİLƏ VƏ QADIN PSİXOLOGIYASI MƏSƏLƏLƏRİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 67
***Çələbiyev Nuralı Zərbalı oğlu.*** “Ə.ƏLİZADƏNİN DİFERENSİAL PSİXOLOGİYA SAHƏSİNDƏ TƏDQİQATLARI ELMİ PSİXOLOGİYANI ZƏNGİNLƏŞDİRƏN MƏNBƏLƏR KİMİ” (ADPU-nun Şəki filialı) .......... 69
***Mollayeva Elza Əlipaşa qızı.*** “Ə.ƏLİZADƏNİN “QADIN PSİXOLOGİYASI” ƏSƏRİNDƏ GENDER PROBLEMİNƏ PEDAQOJİ KONTEKSTDƏ BAXIŞ” (Bakı Dövlət Universiteti) 71
***Rəhimli Türkan İlqar qızı.*** “UŞAQLARDA GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASI” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 73
***Heydərova Simnarə Nadir qızı.*** “CƏMİYYƏTDƏ GENDER PROBLEMİ VƏ CİNSİ FƏRQLƏR MƏSƏLƏSİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 74
***Əfəndiyeva Ülviyyə Akif qızı.*** “Ə.Ə.ƏLİZADƏNİN YARADICILIĞINDA CİNSİ FƏRQLƏR, AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ QADIN PSİXOLOGİYASI MƏSƏLƏLƏRİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 76
***Cəfərova Elnarə Novruz qızı.*** “Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA CİNSİ FƏRQLƏR PROBLEMİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 77
***Rəhimova Kamilə Adil qızı.*** “GENDER PSİXOLOGİYASININ ƏSASLARI VƏ İNKİŞAF TARİXİ” (Bakı Slavyan Universiteti) .......... 79
***Muradova Nigar Hadi qızı.*** “ÜNSİYYƏTDƏ GENDER FƏRQLƏRİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 81
***Məmmədova Könül Allahverdi qızı.*** “GƏNCLİK YAŞINDA ŞƏXSİYYƏTİN İNKİŞAFI” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 82
***Səlimov Mahir Məhəmmədəli oğlu.*** “CİNSLƏRİN BƏRABƏRLİYİ PROBLEMİNƏ KOMPLEKS YANAŞMA KONSEPSİYASI” (ADPU-nun Ağcabədi filialı) .......... 83
***Rəhimova Anaxanım Qədir qızı.*** “İNSAN PSİXOLOGİYASI FONUNDA GENDER MÖVZUSU” (Bakı Slavyan Universiteti) .......... 85

## ŞƏXSİYYƏT VƏ ETNOPSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ BÖLMƏSİ

***Əzizov Qulam Qəribəli oğlu.*** “XIX ƏSR MAARİFÇİLƏRİNİN (A.A.BAKIXANOV, M.F.AXUNDOV) ÖZÜNÜDƏRK VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ HAQQINDA İDEYALARI” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 88
***Rəhimova Qəribə Vahid qızı.*** “ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 89
***Rüstəmova Zülfiyyə Rufət qızı.*** “BULLİNQ - MÜASİR PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 91
***Mirzəyev Ramil Nazim oğlu.*** “ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ETNOPSİXOLOJİ AMİLLƏRİN ROLU” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 92
***Həsənli Solmaz Qüdrət qızı.*** “GÜNÜMÜZDƏ SOSİAL MEDİYANIN ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINA TƏSİRİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 94
***Гарифат Шариф кызы.*** “ЛИЧНОСТЬ И ЭТНОПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ И В ТВОРЧЕСТВЕ А.А.АЛИЗАДЕ” (Азербайджанский государственный педагогический университет) .......... 96
***Abdullayeva Təranə Qalib qızı.*** “AİLƏNİN DEMOQRAFİK PROBLEMLƏRİ” (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .......... 98

***Əliyev Məhərrəm Sabir oğlu***. "ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN ETNOPSİXOLOJİ KÖKLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ............................ 99
***Bəşirova Sülhanə Siyaxbər qızı***. "EŞİTMƏ POZULMALARI OLAN UŞAQLARIN ŞƏXSİYYƏT PROBLEMLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ......................... 100
***Allahverdiyeva Günel Ədalət qızı***. "GÖRMƏ POZULMASI OLAN UŞAQLARIN ŞƏXSİYYƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ......................................................................................... 102
***Li Yixuan***. "CHARACTERISTICS OF PERSONALITY FORMATION IN CHILDREN WITH CONSEQUENCES OF CEREBRAL PALSY" (Azerbaijan State Pedagogical University) ...... 103
***Əfəndiyeva Günəş Əli qızı***. "Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA ETNİK PSİXOLOGİYA MƏSƏLƏLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ................................................ 105
***Гусейнов Эльмар Афис оглы***. "ПСИХОЛОГИЧЕСКАЯ ИНТЕРПРЕТАЦИЯ УРОВНЯ ПРИТЯЗАНИЙ, КАК ГЕНЕРАЛИЗОВАННОЙ ЧЕРТЫ ЛИЧНОСТИ СТУДЕНТОВ" (Азербайджанский государственный педагогический университет) ................................. 106
***Ağasiyeva Yaqut Tahir qızı***. "AİLƏ UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ƏSAS MÜHİT KİMİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ................................................... 108
***Əfəndiyeva Teybə Aslan qızı***. "ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU" (ADPU-nun Şamaxı filialı) ............................... 109
***Эстрова Сабина Тофик кызы***. "ВЫЯВЛЕНИЕ КАЧЕСТВ, ПРЕПЯТСТВУЮЩИХ ЭФФЕКТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ ИНСТРУКТОРА-ДИСПЕТЧЕРА УПРАВЛЕНИЯ ВОЗДУШНЫМ ДВИЖЕНИЕМ" (Бакинский государственный университет) ................. 111
***Mansurova Sevda İbrahim qızı***. "ETNOPSİXOLOJİ AMİLLƏRİN ŞƏXSİYYƏTİN İNKİŞAFINA TƏSİRİ" (Bakı Slavyan Universiteti)........................................................... 113
***Qəhrəmanova Kamalə Kamal qızı***. "MƏDƏNİYYƏT-ŞƏXSİYYƏT MÜNASİBƏTLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ..................................................................... 114
***Məmmədova Günel İlqar qızı***. "MƏKTƏBDƏ SOSİALLAŞMA ŞAGİRDİN HƏYATININ MÜHÜM PROSESLƏRİNDƏN BİRİ KİMİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ....... 115
***Cəbrayılova Rəna Nüsrəddin qızı***. "TƏLƏBƏ-GƏNCLƏRİN ÖZÜNÜREALLAŞDIRMASI SOSİAL-PSİXOLOJİ FENOMEN KİMİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ............ 117
***Məmmədova Səriyyə Əkbər qızı***. "ÜNSİYYƏT PROSESİNDƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN YENİYETMƏLƏRİN EMOSİONAL-İRADİ SFERASININ İNKİŞAFI" (Bakı Dövlət Universiteti) ............................................................................................. 119
***Həziyeva Mədinə Zülfüqar qızı***. "STİMULLAŞDIRICI METODLARIN ŞAGİRD ŞƏXSİYYƏTİNƏ PSİXOLOJİ TƏSİRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ............. 120
***İsmayılova Mehriban Cəlal qızı***. "SOSİALLAŞMA PROSESİNDƏ TƏLƏBƏLƏRİN ÜNSİYYƏT MƏDƏNİYYƏTİNİN İNKİŞAFI" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ... 122
***Məmmədova Nigar Məmmədəli qızı***. "TƏLƏBƏLƏRƏ FRUSTRASİYANIN ARADAN QALDIRILMASINA PSİXOLOJİ DƏSTƏK" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ..... 123
***İsayeva Zabitə Mustafa qızı***. "YARADICILIQ TƏLİM METODLARININ ƏSASI KİMİ" (Sumqayıt Dövlət Universiteti) .................................................................................... 125
***Salamova Aygül Elxan qızı***. "YENİYETMƏLİK DÖVRÜNDƏ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏR" (ADPU-nun Şəki filialı) ........................................................................ 127
***Orucova Aytən Vahid qızı***. "FORMALAŞAN ŞƏXSİYYƏT VƏ ONUN KÖKLƏRİ" (ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) ............................................................. 128
***Mikayılova Könül Vaqif qızı***. "ETNOPSİXOLOGİYA, ETNOSENTRİZM VƏ QİYMƏTLƏNDİRMƏ" (Azərbaycan Respublikasının Təhsil İnstitutu) .................................. 131

**Nuriyeva Sveta Nuru qızı**. "Ə.ƏLİZADƏNİN TƏDQİQATLARINDA «XƏMSƏ»DƏ YAŞ VƏ PEDAQOJİ PSİXOLOGİYA MƏSƏLƏLƏRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .... 133
***Xuda-Zadə Könül Akif qızı***. "ŞƏXSİYYƏTİN FORMALAŞMASININ ETNOPSİXOLOJİ SƏCİYYƏSİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ..................................................... 134
***Abdullayeva Aynur Eibar qızı***. "SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN KİÇIK YAŞLI MƏKTƏBLİLƏRİN İNKLÜZİV TƏHSİL SİSTEMİNDƏ ŞƏXSİYYƏT KİMİ FORMALŞAMASININ ELMİ-PEDAQOJİ ƏSASLARI" (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) ....................................................................................... 135
***İsrəfilova Afət Afər qızı***. "EŞİTMƏ POZULMASI OLAN UŞAQLARIN ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA AİLƏNIN ROLU" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ....................... 137
***Tapdıqlı Cavid Vüqar oğlu***. "FİZİKANIN TƏDRİSİNDƏ VİRTUAL LABORATORİYALARDAN İSTİFADƏNİN ŞAGİRDLƏRİN TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİRİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ....................................... 139
***Məhərrəmova Səbinə Balakişi qızı***. "ŞƏXSİYYƏTİN İNKİŞAFINDA ÖZÜNÜTƏRBİYƏNİN ROLU (Azərbaycan Dövlət Pedaqoji Universiteti) ................................................................ 140
***Qasımova Rəna Nürəddin qızı***. "ŞƏXSİYYƏT PROBLEMİ VƏ Ə.ƏLİZADƏ YARADICILIĞINDA ONUN YERİ" (Azərbaycan Dövlət Pedaqoji Universiteti) .................. 142
***Наргиз Султан Фирдовси кызы***. "ПРОБЛЕМЫ ВОСПИТАНИЯ РЕБЕНКА С АУТИЗМОМ В СЕМЬЕ" (Азербайджанский университет языков) ........................................................ 143
***Əzizova Vəsilə Oktay qızı***. "ETNOPSİXOLOGİYADA STRES PROBLEMİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ" (ADPU-nun Cəlilabad filialı) ............................................................. 145

***Çapa imzalanmış 21.12.2022-ci  il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 20***
***Sifariş 417,  sayı 100***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***